AZƏRBAYCAN AŞIQ ŞERİNDƏN SEÇMƏLƏR

İKİ CİLDDƏ

II CİLD

“ŞƏRQ-QƏRB”
BAKI-2005

*Bu kitab "**Azərbaycan aşıqları və el şairləri.** İki cilddə. I cild"*
(Bakı, Elm, 1983) nəşri əsasında təkmilləşdirilərək
təkrar nəşrə hazırlanmışdır

Tərtib edənlər: **Əhliman Axundov**
İsrafil Abbaslı
Hüseyn İsmayılov

894.3611 – dc 21
AZE
Azərbaycan aşıq şerindən seçmələr. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 424 səh.

Azərbaycan aşığı hər zaman olduğu kimi bu gün də, əlində saz kəndləri gəzir, toylarda, bayram şənliklərində, xalqın qurduğu məclislərdə saz çalır, nəğmə və dastan qoşur, öz ifası ilə xalqın ruhunu oxşayaraq ona gözəl duyğular aşılayır. Bütün varlığıyla elinə-obasına bağlı həmin sənətkarların sözü-söhbəti canlı xalq danışıq dilinin gözəlliklərini və incəliklərini özündə birləşdirir.

Geniş oxucu kütləsinə təqdim olunan bu cildə Aşıq Ələsgər, Aşıq Rəcəb, Aşıq Qurban, Aşıq Mehdi, Padarlı Abdulla, Molla Cuma, Zodlu Usta Abdulla, Çoban Əfqan, Bozalqanlı Aşıq Hüseyn, Aşıq Səməd, Xəyyat Mirzə, Göyçəli Aşıq Musa, Aşıq Şəmşir, Xındı Məmməd, Aşıq Hüseyn Cavan, Aşıq Hüseyn Saraclı, Aşıq Kamandar və başqa neçə-neçə el aşığının, el şairinin gəraylıları, qoşmaları, təcnisləri, divaniləri, müxəmməsləri, bayatıları daxil edilmişdir.

ISBN 9952-418-42-3

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

AŞIQ ƏLƏSGƏR
(1821-1926)

GƏRAYLILAR

XOŞ GƏLDİN

Qədəm qoyub asta-asta,
Sən bu diyara xoş gəldin!
Süzdürüb ala gözləri,
Qaşları qara, xoş gəldin!

Oğrun durub, qıya baxdın,
Müjganın sinəmə çaxdın,
Cismimi yandırıb yaxdın,
Alışdım nara, xoş gəldin!

Qaynayıb, peymanım dolub,
Saralıb gül rəngim solub,
Həsrətin çəkməkdən olub,
Sinəm sədpara, xoş gəldin!

Dostun vəfasını gördüm,
Seçib, sevib, könül verdim,
Təzələndi köhnə dərdim,
Dərdimə çara, xoş gəldin.

Sinəmdi eşqin dəftəri,
Sənsən dilimin əzbəri,
Yazıq Aşıq Ələsgəri,
Çəkməyə dara, xoş gəldin!

YERİDİ

Bir gözəl keçdi qarşıdan,
Sallandı, yana yeridi.
Kirpik çaxdı, oğrun baxdı,
Od saldı cana, yeridi.

Ovçu tək bərədə durdu,
Qaşlarından kaman qurdu,
Müjganın sinəmə vurdu,
Qəmzəsi qana yeridi.

Hanı belə huri, qılman?!
Eyləmir dərdimə dərman.
Çeşmim yaşı olub ümman,
Yaşılbaş sona yeridi.

Camalın bənzətdim aya,
Əhsən qüdrət verən paya.
Endirib salmadı saya,
Dost mehribana, yeridi.

Dedim: qız, getmə, amandı,
Ələsgər oduna yandı.
Dedi: qocadı, pirandı,
Mərdü-mərdanə yeridi.

GÖZƏL

Nə baxırsan pəncərədən,
Xumar gözün süzən gözəl?!
Seyraqubla aşna olub,
Bağrım başın əzən gözəl?!

Büllür buxaq, bəyaz gərdən,
Ağlım aparır səndən,
Yaxasına hərdən-hərdən,
İnci, sədəf düzən gözəl!

Qəlbimi yandırdın oda,
Sirr sözümü vermə yada,
Uyubsan zalım xoryada,
Məndən kənar gəzən gözəl!

Gümüş kəmər, incə belli,
Ağ biləkli, nazik əlli,
Ay qabaqlı, siyah telli,
Ürəyimi üzən gözəl!

Xəyalım çaşır güləndə,
Pünhan dərdimi biləndə.
Ələsgər sizə gələndə,
Sığallanıb bəzən, gözəl!

MARAL

Səhər-səhər çeşmə üstə
Durur boyu bala Maral,
Ala gözlər girib qəsdə,
İstər canım ala Maral!

Sevdim zalım, bağrı daşı,
Almaz kirpik, qələm qaşı,
Tərlan görüb yaşılbaşı,
Sağın, qaynaq çala, Maral!

Ağ üzdə xalın bənövşə,
Az qalır bağrımı deşə,
Məcnunluqdu mənə peşə,
Düşmüşəm mahala, Maral!

Öpmədim ala gözündən,
Doymadım şirin sözündən,
Məni ayırıb özündən,
Salma daldan-dala, Maral!

Camalındı şəmsü-qəmər,
Vəsfin olub dildə əzbər,
Ucundan yazıq Ələsgər,
Dönübdü abdala, Maral!

CEYRAN

Durum dolanım başına,
Qaşı, gözü qara, Ceyran!
Həsrətindən xəstə düşdüm,
Eylə dərdə çara, Ceyran!

Söz eşidib, ərzim qansan,
Mən yanıram, sən də yansan,
Özün bir tülək tərlansan,
Niyə uydun sara, Ceyran?!

Ələsgərəm, abdal ollam,
Eşqin girdabında qallam,
Küsdürmüşəm, könlün allam,
Yalvara-yalvara, Ceyran!

QOŞMALAR

EYLƏMİŞƏM

Ala gözlüm, səndən ayrı düşəli,
Hicranın qəmiylə kef eyləmişəm,
Ah-vayınan günüm keçib dünyada,
Dərd alıb, qəm satıb, nəf eyləmişəm.

Səndən ayrı şad olmuram, gülmürəm,
Canımdan bezmişəm, ölə bilmirəm,
Nə müddətdi qulluğuna gəlmirəm,
Bağışla təqsirim, səf eyləmişəm.

Həsrət qoyma gözü gözə, amandı!
Yandı bağrım, döndü közə, amandı!
Keçən sözü çəkmə üzə, amandı!
Hədyan danışmışam, laf eyləmişəm.

İnsafdımı, gülə həmdəm xar ola?!
Tülək tərlan ovlağında sar ola?!
Ələsgər istəyir bir bazar ola,
Seçmişəm gövhəri, saf eyləmişəm.

QOYMADI

Heç kəs mənim kimi keçib sərindən,
Sinəsin oxlara nişan qoymadı.
Könül pərvazlandı yarı görməyə,
Qar kəsdi yolları, boran qoymadı.

Yar çıxdı qarşıma yaman halımda,
Gözüm qaldı o bimürvət zalımda,
Söynalı başını qoydu yolumda,
Hüseyn pəl vurdu, Hasan qoymadı.

Ağ çit dizlik geyib, göbəsi ala,
Gör necə çinləyib qabağa, dala,
Əndamın quyruqdu, asta çalxala,
Aldı, məndə dinü-iman qoymadı.

YARAŞIR

Sallana-sallana gələn Salatın,
O sərxoş yerişin yola yaraşır.
Salıbsan gərdənə heykəl həmayil,
Qızıl bazubəndlər qola yaraşır.

Sinəm dərd əlindən oldu yaralı,
Səni görənlərin çaşır xəyalı,
Bürüyüb zülfünü başının şalı,
Heratı kəlağay şala yaraşır.

Könlüm mayil olub siyah telinə,
Nazik barmağına, şümşad əlinə.
Əcəb qurşanıbdı incə belinə,
Gümüş kəmər qəddi-dala yaraşır.

Olmaz sənin kimi bir qönçə dəhan,
Behiştdən gəlibsən, ay huri-qılman!
Tutubsan dəstində bənövşə, reyhan,
Gülgəz yanağına lala yaraşır.

Yazıq Ələsgərə çoxdu zavalın,
Aparır ağlımı günəş camalın.
Nə göyçək görünür üzündə xalın,
Gülgəz zənəxdanın xala yaraşır.

YAXŞIDI

Arif olan, gəlin sizə söyləyim,
İyid sözü mərd-mərdanə yaxşıdı.
Kişi gərək dediyindən dönməsin,
Biilqardan bir zənana yaxşıdı.

Qəlbi düz olanın evi hac olu,
Qonşuya kəc baxan özü ac olu,
İkiarvadlılıq mardan[1] acı olu,
Bez geydirsən bir canana yaxşıdı.

Ələsgər kövsərdən badə içəndə,
Gəşt eləyib, mərd-namərdi seçəndə,
Güzəran xoş olub, gün xoş keçəndə,
Ağ otaqdan tövləxana yaxşıdı.

ƏVƏZDİ

Gözəllər sultanı, ay Səlbi xanım,
Sallanışın bir mahala əvəzdi.
Gözlərinə qiymət qoya bilmirəm,
Qaşın bir tümənlik mala əvəzdi.

[1] Mar – ilan

Sürahi gərdənli, qəddi mötədil,
Səni gül yaradıb Cabbari-Cəlil.
Ləblərin şirəsi abi-Səlsəbil,
Ləzzəti dünyada bala əvəzdi.

Ələsgərin ağlın aldın sərindən,
Saf gövhərsən, sərraf seçib dərindən.
Sən bir gülsən şəbnəmlərin tərindən,
Demək olmaz sənə lala əvəzdi.

ZÜLFLƏRİN

Ay nazənin, xatirinə dəyməsin,
Gərdəndən ayrılıb qara zülflərin.
Ala gözlərinə mayil olmuşam,
Günahkaram, çəkir dara zülflərin.

Gözəl, sən də muradına çatmadın,
Bənna olub, sınıq könül yapmadın,
Tərlan idin, öz tayını tapmadın,
Getdi, qismət oldu sara zülflərin.

Ələsgər də eşqə düşüb oxuyur,
Müjganların sinəm üstə toxuyur,
Əndamından qızıl güllər qoxuyur,
Qoyma dağılmağa, dara zülflərin.

YAVAŞ GET

Geyinib, qurşanıb seyrə çıxan yar,
Alagözlü Səhnəbanım, yavaş get!
Bir qıya baxanda evlər yıxan yar,
Cəllad olub tökmə qanım, yavaş get!

Mən sənə aşiqəm, sən mənə xata,
Dəhanın bənzəyir qəndə, nabata,
Ləbin tənə vurur abi-həyata,
Qoynu cənnəti-rizvanım, yavaş get!

Ələsgərəm, oldum dəli, divana,
At müjganın, sinəm qoydum nişana,
Sallanışın bənzər huri-qılmana,
Kəbəm, qibləm, din-imanım, yavaş get!

VARIYMIŞ

Nələr gördüm, gəşt elədim dünyanı;
Hər bir işin qilü-qalı varıymış.
Yaxşı günün olurmuşsa yamanı,
Yaman günün yaxşı halı varıymış.

Haqq sözə gərəkdi düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun,
İnsanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-cəlalı varıymış.

Qayım ağa, niyə fikrə dalırsan?
Yoxsa ki, özündən hesab alırsan,
Sayılmaz mehmana keçə salırsan,
Saydığın qonağa xalı varıymış.

Çox gəzmişəm, az görmüşəm danəndə,
Deməliyəm sözün yeri gələndə,
İnsan üzün görməyəsən dönəndə,
Açılanda xoş camalı varıymış.

Ataş alıb çox da yanma, Ələsgər,
Sənətindən heç usanma, Ələsgər,
Öz-özünə qubarlanma, Ələsgər,
Dünyanın Urustam-Zalı varıymış.

DƏYMƏMİŞ

Dad sənin əlindən, a qanlı fələk!
Könül həsrət qaldı yara dəyməmiş!
Köhnə yaram qövr eylədi təzədən,
Təbib neştər vurdu yara dəyməmiş!

Gözüm qaldı əlif, beydə, yasində,
Yaradanım, kömək eylə ya sində.
Qaldım səməndər tək qəm dəryasında,
Yandı balü-pərim nara dəyməmiş!

Ələsgər, üsyanın çıxıbdı sandan,
Öldürsən zənburu, əl çəkməz şandan,
Hərcayıdan, müxənnəsdən, nadandan,
Nə söz qaldı sənətkara dəyməmiş?!

YAMAN AT

Bu dünyada üç şey başa bəladı:
Yaman oğul, yaman arvad, yaman at.
İstəyirsən qurtarasan əlindən,
Birni boşla, birni boşa, birni sat.

Ov keçdi bərədən, ata bilməzsən,
Uçdu getdi əldən, tuta bilməzsən,
Yerisən, yüyürsən, çata bilməzsən,
Görürsən ki, baxtın yatdı, sən də yat.

Qılma Ələsgəri məhrumi-didar,
Tərəhhüm et mənə bir busə, ey yar!
İsmin üç hərfilə eylərəm aşkar:
Biri "kaf"dı, biri "lam"dı, biri "sat".

YETMƏDİ

Ömrüm ah-vaynan keçdi dünyada,
Həsrət qaldım, əlim yara yetmədi.
Neçə namə yazdım canan əlinə,
Heç birisi o diyara yetmədi.

Nə doyunca nazlı yarı görmədim,
Nə dilimlə əhvalını sormadım,
Bağ bəslədim, qönçə gülün dərmədim,
Xəzan oldu, bağçam bara yetmədi.

Dağların köysündə qar nişanası,
Gül üstə görünür xar nişanası,
Ölürəm, qəlbimdə yar nişanası,
Gözü yolda, intizara yetmədi.

Gözü yaşlı, ey füqəra Ələsgər,
İşi əysik, baxtı qara Ələsgər,
Olmadı dərdinə çara, Ələsgər,
Həsrət əlin o dildara yetmədi.

DAĞLAR

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, mələlı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı, dağlar,

Yayın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən cəlalı, dağlar.

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Ağ xalat bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz,
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli-nalalı, dağlar.

DÜŞƏRSƏN

Məğrurluq eyləyib, ustadam demə,
Vaxt olar, bir yerdə dara düşərsən
Baş tülək deyilsən, çolpa balasan,
Sərgərdan qalarsan, tora düşərsən.

Alçaqda dayan ki, çıxasan başa,
Tülküsən, aslanla girmə savaşa,
Gəl yapışma gücün çatmayan daşa,
Götürə bilməzsən, zora düşərsən.

Bizə satmagınan işvə-nazını,
Zimistana döndərərəm yazını,
Soyaram libasın, allam sazını,
Yal-quyruğu yoluq, yola düşərsən.

Saxla dilin, özün üçün yağıdı,
Aşıq Ələsgərin odlu çağıdı,
Çalar qaynağına, səni dağıdı,
Göydən yerə para-para düşərsən.

DÜŞMÜŞƏM

Hərcayının, dilbilməzin ucundan
Dönə-dönə nə ziyana düşmüşəm!
Doymaq olmaz gözəllərin boyundan,
Pərvanə tək yana-yana düşmüşəm.

Dövlətim çox oldu, qıymadım pula,
Kor oldu gözlərim, yapışdım dula,
Nə ölür, nə itir, canım qurtula,
Məcnun kimi biyabana düşmüşəm.

Ələsgər keçibdi namus-arından,
Aləm yatmaz mənim ahı-zarımdan,
Boşasam qorxuram oğlanlarımdan,
Boşaya bilmirəm, qana düşmüşəm.

GƏRƏKDİ

Aşıq olub diyar-diyar gəzənin,
Əzəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləlü gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

GÖRMƏDİM

Bivəfanın, müxənnəsin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim,
Söyüddən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim.

Nəfs aldatdı hər yetənə xan dedim,
Bihuda kollara gülüstan dedim,
Əbəs yerə bivəfaya can dedim,
Zəhmətin çox çəkdim, karın görmədim.

Huşum çaşdı, düşdüm olmaz oyuna,
Yetmədim gözəlin əsli-soyuna,
Aşiq oldum simasına, boyuna,
Hayıf ki, kamalda dərin görmədim.

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın qələt,
Şahiddə iman yox, bəydə ədalət,
Alimlərin düz bazarın görmədim.

HAYIFSAN

Danışdıq, barışdıq mərhəmət ilə,
İnciklik araya qatma, hayıfsan!
Sən tacir olmazsan bir manat ilə,
Namusu, qeyrəti atma, hayıfsan!

Mövlam məni nəzərindən salmayıb,
Huşum cəmdi, ağlım heç azalmayıb,
Fani dünya Süleymana qalmayıb,
Oyan bu qəflətdən, yatma, hayıfsan!

Siz tələş eylərsiz iynə-biz ilə,
Bizimki də gəlib-gedər söz ilə.
Əyri ol əyriylə, düz ol düz ilə,
Hər yetəni sən aldatma, hayıfsan!

Düşəndə məclisə, ağır yığnağa,
Mənə hörmət qoyur iranbər, ağa.
Söz uzansa, həciv çıxar qurşağa,
Sözün dalın çox uzatma, hayıfsan!

Qəsəm olsun xudkeşlərin sərinə,
Yalan söz iyidi salar dərinə.
Köhnə dağarcığı tumaş yerinə
Aşıq Ələsgərə satma, hayıfsan!

SARIKÖYNƏK

Cilvələnib nə qarşımda durubsan,
Anam sənə qurban, ay sarıköynək!
Mələksən, çıxıbsan cənnət bağından,
Heç kim olmaz sənə tay, sarıköynək!

Doymaq olmur işvəsindən, nazından,
Fərə kəklik kimi xoş avazından,
Yel vurdu, ürbəndi atdı üzündən,
Elə bildim doğdu Ay, sarıköynək!

Gözəlsən, tərifin düşüb mahala,
Zər kəmər yaraşır qaməti-dala,
Ləb qönçə, diş inci, yanağın lala,
Çəkilib qaşların yay, sarıköynək!

Gərdənə yaraşır qızıl hamayıl,
Görənin ağlını eyləyir zayıl,
Həsrətin çəkənlər olubdu sayıl,
Yığır qapılardan pay, sarıköynək!

Tuti dilli, sərv boylu Salatın!
Yoxdu mərhəməti bu səltənətin.
Göndər gəlsin Ələsgərin xələtin,
Eyləmə əməyin zay, sarıköynək!

İTİBDİ

Müxənnət zamana, ay kəc iraftar,
Sitəmindən necə canlar itibdi!?
Zülmünü nümayan eylədin aşkar,
Qurğular pozulub, sanlar itibdi,

Şər işdən nə tapdın, söyləsən qanam,
Necoldu büsatım, dəmim, dəmxanam?!
Tülkü havalanıb deyir aslanam,
Tüf dağından ac aslanlar itibdi.

Müxənnət meydanda "mənəm" deyibdi,
Bu dərd Ələsgərin qəddin əyibdi,
Kor yapalaq kəklik alıb yeyibdi,
Laçın ölüb, o tərlanlar itibdi.

MƏNİM

Bilmirəm ki, nə bəlalı qul oldum,
Əzəl qara gəldi iqbalım mənim.
Nə zaman ki nəzərimə sataşır,
İtir ağlım, huşum, kamalım mənim.

Atəş tutub öz-özümə yanaram,
Məcnunuyam, Leyli günün sanaram,
Ölənədək sevdiyimi anaram,
Dönməz cananımdan xəyalım mənim.

Əsli-Kərəm kimi mən oda yandım,
Eşqə düşdüm, öz canımdan usandım.

Bimürvətin atəşinə qalandım,
Bir soruşan yoxdu əhvalım mənim.

Siyah zülfün dal gərdəndə hörəsən,
Əl uzadıb qönçə gülün dərəsən,
İstəsən ki, Ələsgəri görəsən,
Göyçə mahalıdı mahalım mənim.

OLACAQDI

Dedim: könül, içmə eşqin camını,
İçsən, dünya sənə dar olacaqdı.
Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran-qar olacaqdı.

Aldanma dövlətə, uyma dünyaya,
Halaldan kəsb eylə özünə maya,
Zinakar, haramxor yetişməz baya,
Dosta xain baxan kor olacaqdı.

Sərgərdan qalmışam mən bu hesaba,
Fələk qurğusuna əhsən, mərhəba!
Növrəstə gözəllər tapmasın hava,
Qönçənin həmdəmi xar olacaqdı.

Hesabdarlar gələr çəkər hesabı,
Günahkarlar necə gətirər tabı,
Mizan, sirat, sual, qəbir əzabı,
Bu işlər qabaqda var, olacaqdı.

Ələsgər, bilirsən qüdrətin sirrin,
Zülmətə işıq var, acıya-şirin.
Zikr eylə dilində mərdlərin pirin
Qorxma, dar günündə yar olacaqdı.

AY SİNƏ, SİNƏ

İbtida “əlif”dən dərsimi aldım,
Oxudum yetişdim ay “sin”ə, “sin”ə[1].
Nəkreyin sualın yadıma saldım,
Nə deyim gedəndə ay sinə, sinə?[2]

Ovsunçular əllərinə mar[3] alı,
Zənbur fəmə şaqayıqdan mar alı[4],
Kamil ovçu yəqin görüb maralı,
Gedir bərəsinə ay sinə-sinə.

Ələsgərəm, sənə ərzim budu, ağa,
Yuyar qəssal, qəddim bükər budu, ağa.
Məcnun könlüm məskən salıb bu dağa,
Müştaqdı Leylinin ay sinəsinə.

A YARA MƏNDƏN

Müxənnət, seyraqub, xaini-xəbis,
Nə yaman qandırıb, a yara məndən.
Lənətullah, ləin, şeytani-iblis,
Nə dedi, dost kəsdi ay ara məndən.

Məcnun “Leyli” deyib, bu dağı bilər,
İçən zəhrin dadın budağı bilər,
Gəzən ürəyimdə bu dağı bilər,
Arayıb axtarsan, ay ara məndən.

Ələsgər, təqsirin oldu nə, ayə[5]
Kim inansın, qəsəm edim nə ayə?
Bu ahın qalmasın ilə, nə ayə,
Sağalmaz bu düyün, a yara məndən.

---

[1] “S” hərfinin adı.
[2] Qəbir
[3] İlan
[4] Misranın mənası: bal arısı xoruzgülündən ağzına şirə alar.
[5] Əyə

A YƏMƏNDƏDİ

Ahəngər deyiləm, naşı bəzirgan,
Gözüm dürdanədə, a yəməndədi.
Sinəmdədi eşqin şirin çeşməsi,
Ləzzəti meyl edib ay əməndədi.

Yox sazımın nə pərdəsi, nə simi,
Onu çalıb, kim tərpədər nə simi?[1]
Firdövsi, Füzuli, Hafiz, Nəsimi –
Onlar da yazdığı, ayə, məndədi.

Kişi gərək zəhmət çəksin dər salsın[2],
Süfrə açsın, ad qazansın, dər salsın.
Dərsi azlar Ələsgərdən dərs alsın,
Altı min altı yüz ayə məndədi.

SAYILAM MƏNİ

Başına döndüyüm, ay telli sənəm!
Qovma dərgahından sayılam məni.
Ölləm bu dərd ilə, mən dirilmərəm,
Çalıb zülfün kimi say ilan məni.

Tiflin fəğan eylər şirin yolunda,
Rubah dura bilməz şirin yolunda.
Ölsəm Fərhad kimi Şirin yolunda,
Adam sayar adam sayılan məni.

Ələsgər, səp, dil mürğünə sağər, dən,
Mövlam məhəbbətin kəsməz sağ ərdən.
İnşallah, qurtarar nari-səqərdən
Məhəmmədi-ayin-sayi-lam məni.

[1] Hansı simi.
[2] Tər salsın, tər töksün

SİNİ-SİN

Hicran tüccarıyam, qəm şikəstəsi.
Axtarıram bu dünyanı sini-sin.
Mürği-ruhum getməz səndən irağa,
Qonşun ollam, qəbul etsə sini, sin[1].

Dost bağında bülbül qonmuş a dala[2]
Nazlı dilbər zülfün töküb a dala,
Mərd istər ki, çörək verə, ad ala,
Namərd gözlər mərd iyidin sinisin.

Ələsgərəm, mən də içdim badə hey,
Əbcəd hesabıynan seçdim badə hey,
Xəstə cismim tab eyləmir bada[3] hey,
Heç demirsən, gir qoynumda sin, isin.

HA BULAR, BULAR

Səba dost zülfünə şanə çəkəndə,
Yayılar gərdənə ha bular, bular[4].
Hər kəs ki sidq ilə dilək diləsə,
Əlbəttə, mətləbin ha bular, bular[5].

Sərrafın dəstində nə danə[6] – dedim,
Könül, can quşuna nə danə[7] – dedim,
Dərdimi dərdbilməz nadanə dedim,
Anlamaz, başını ha bular, bular.

Ələsgərəm, məskənimdi o diyar,
Al xəncəri, bağrım başın odu, yar!
Evdən çıxdı yalın qılınc, odu yar,
Bilirəm, qanıma ha bular, bular.

---

[1] Qəbir
[2] Budaq
[3] Külək
[4] Bular
[5] Tapar
[6] Dənə, qiymətli daş dənəsi
[7] Dən

HA LALA ÇIXAR

Addadı zimistan, gəldi nobahar,
İnşallah, dağlarda ha lala çıxar.
Neçə şey halaldan dönər harama,
Neçə şey haramdan halala çıxar.

Yar xəttiynən yazılıbdı a tarıx,
Mehtər bivec, əstər[1] kökdü, at arıx,
Gözəllər fövcünə qürə atarıx,
Baxtım kora, şilə, ha lala çıxar.

Der Ələsgər, bağlayıbdı xala çar,
Dər bağlıdı, indi gələr xalaçar.
Əsil bədöy mənzil kəsər, xal açar,
Beygirin dümbündən hal ala çıxar.

A YÜZƏ TƏK-TƏK

O sərxoş yerişin, bu sallanışın
Yetirdi dərdimi a yüzə tək-tək.
Camalın şoxundan ağlım dağıldı,
Əfşan eylə zülfün ay üzə tək-tək.

Məskən saldım astananda, dərində[2],
Dost bağını becərin də, dərin də.
Gövhər olar dəryalarda, dərində,
Onu qəvvas çəkər ay üzə tək-tək.

Ələsgərin az ömrünü üz, Gilə!
Sona sənsən, dəryalarda üzgilə[3],
Bir salxımda peyvəst olub üz[4] gilə,
Kamil bağban gərək ay üzə tək-tək.

[1] Qatır
[2] Qapı
[3] Üzgünən
[4] Yüz

BİRİ “SİN”

İsmin üç hərfdi, ay çeşmi-xumar,
Biri “mim”di, biri “nun”du, biri “sin”.
Həsrətindən yüz min gizlin dərdim var,
Kimsəm yoxdu, açam deyəm birisin.

Saldın məni atəşə hey, nara[1] hey,
Gözüm ağlar, dilim çəkər nara[2] hey,
Müştəriyəm dost qoynunda nara hey,
Bimürvət, satmırsan, alam birisin.

Siyah zülfün nə tökübsən yana sən?!
Ya hürüsən, ya pərisən, ya nəsən?
Demədim ki, eşq oduna yanasan,
Mən dedim ki, dur qıraqdan bir isin.

Ələsgərin yaz sözlərin varağa,
Yuyar qəssal, bükər qəddin var ağa.
Bu səfərdə üç ehtiyat var, ağa,
Biri mizan, biri sirat, biri sin.

BU DALA BAX, BAX!

Sağ dəstində qızıl şanə, sevdiyim,
Darar zülfün tökər bu dala bax, bax!
Bülbül müştaq olub gül qönçəsinə,
Ovçu məskən salıb bu dala bax, bax!

Əylən, məclisində, gəlməsini[3] gör,
Sağrı başmaq geyib, gəl məsini gör.
Bimürvət gözəlin gəlməsini gör,
Qəsd elər canımı bu da ala bax, bax!

[1] Oda
[2] Nərə
[3] Gəlmə adamını

Ələsgər səməndin yayində[1] minə,
Saqın seyraqubdan, yayın də, Minə!
Mərd verər sinəsin yayın dəminə,
Müxənnəs gizlənər bu dala bax, bax!

DE BİR ÜZ, BİR ÜZ

Səndən ötrü ömrüm barın becərdim,
Mübarək dəstinlə de bir üz, bir üz.
Ölüb, bu dünyadan həsrət gedirəm,
Qoysan üzüm üstə, de bir üz, bir üz.

İpək nazbalışa Mina dayandı,
Həcər nalə çəkdi, Minada yandı.
Həsrətindən dərdim minə dayandı,
Sən gəlsən, əysilər de bir üz, bir üz.

Bayqu həsrət çəkdi, yara yetmədi,
Təbib neştər vurdu, yara yetmədi.
Yazıq Ələsgər də yara yetmədi,
Çalxan qəm bəhrində, de bir üz, bir üz.

NƏS AĞI BELƏ

Zər-ziba xələti pünhan eylədin,
Biçdirdin qəddimə nəs ağı belə.
Al dillə gətirdin, mehman eylədin,
Qatdın şərbətimə nəs ağı belə.

Qəvvas dəryalarda bağlar sal indi,
Keçən günü, dost, yadına sal indi.
Şahmar zülfün gərdənindən sal indi,
At boynuma, elə nasağı belə.

[1] Gəncliyində

O Xoyun səhrası, o da Salmasın,
Rəqib dost kuyində oda salmasın.
Fələk Ələsgər tək oda salmasın,
Nə naxoşu belə, nə sağı belə.

AYAĞA QARQAR

Var olsun Qarabağ, əcəb səfadı,
Başa xaçın axar, ayağa Qarqar.
Göyçə qar əlindən zara gəlibdi,
Muğan həsrət çəkər, a yağa qar, qar...

Ahən gəzər, səngə verər mər dana,
Mərd oğulun qəhrin çəkər mərd ana.
Mərd iyid meydanda durar mərdana,
Müxənnət yapışar, ayağa, qarqar.

Ələsgəri çəkməyinən ala[1] sən,
Geyinibsən, yar, qəddinə ala sən.
Lazımdı ki, qərib könlün alasan,
İncidərsən, sənə, ay ağa, qarqar.

AY ANA, ANA!

Qarlı dağlar gəldi düşdü araya,
Qalmışam qürbətdə, ay ana, ana!
Təbib yoxdu dərman edə yaraya,
Sızıldaşır yaram, a yana-yana.

Mən qurban eylərəm yara canımı,
Götürüb doğraya, yara canımı.
Alıb təpə-dırnaq yara canımı,
Bilmirəm dərmanı, ay ana, ana[2].

[1] Hiyləyə salma
[2] Ona mənasında

Geyibdi qəddinə yar alacanı[1],
At müjgan oxunu, yarala canı.
İstər Ələsgərdən yar ala canı,
Tökəndə zülflərin, a yana, yana!

AY ÜZƏ, ÜZƏ

Ay nazənin, dərdin mənim canımı
Az qalıb incəldə, ay üzə, üzə,
Alıbsan alimdən din-imanımı,
Müştaq eyləyibsən ay üzə, üzə.

Yar, məskənim astanamı, dərdimi?[2]
Kamil bağban gülü bağdan dərdimi?
A bimürvət, dərdin mənim dərdimi
Artırıb, yetirib a yüzə, yüzə.

Yazıq Ələsgəri oda salıbdı,
Fələk gözdən salıb, o da salıbdı.
Çeşmə kənarında oda salıbdı,
Cumub sona kimi ay üzə-üzə.

YARA YETİRƏR

Elə qəfil atdın gözün müjganın,
Demədinmi mənə yara yetirər.
Gözəl sevən qoyar yolunda canın,
Ya ölər, ya əlin yara yetirər.

Bəsdi mənə namus, qeyrət, az arım,
Baxtım qalxıb, çox şan çəkib az arım.
Üzün görsəm, qalmaz dərdim, azarım,
Təbib qarşı gələr, yara yetirər.

[1] Parça növüdür.
[2] Qapıdırmı?

Haqq nəzərin Ələsgərdən kəsmədi,
Yar qəddinə yaraşanlar kəsmədi[1].
Mərdin qaydasıdı, basdı, kəsmədi,
Namərd təpə-durnaq yara yetirər.

NARIN ÜZ

Könül, sən ki düşdün eşqin bəhrinə,
Narın çalxan, narın silkin, narın üz!
Dost səni bağına mehman eyləsə,
Almasın dər, gülün iylə, narın üz!

Tikdiribsən qəsr, eyvan, oda sən,
Bu nökərin, o sevdiyin, o da sən.
Qıya baxdın, məni saldın oda sən,
İnsaf eylə, gəl könlümün narın üz!

Aşıq olan sözün deməz tərsinə,
Tər gəzən dünyada gedər tər sinə.
Tər sinəyə qismət olsun tər sinə,
Narın üzə qoy söyləsin narın üz!

Ürüsxət ver, sözüm deyim, Qayım ağa!
Yuyar qəssal qəddim, bükər qayım ağa.
Ləzzət verər bal qatanda qaymağa,
Onlardan da şirin olar narın üz.

Tərlansan, ovlatma sarı, dur gedək,
Bu sınıq könlümü sarı, dur gedək!
Ələsgərəm, bizə sarı dur gedək!
Bir dərdimi eyləyibsən, Narın, üz![2]

[1] Qızıl pərək
[2] Yüz

HƏMAYİL EYLƏ

Şahmar zülfün bədnəzərdən daldala,
Çinlə, gərdənində, hamayil eylə!
Aç niqab altından mah camalını,
Aləmi hüsnünə ha mayil eylə!

Fərhad Şirin sevdi, Aşıq Yaxşı yar,
Təbib sənsən, gəl yaramı yaxşı yar!
Yaxşı yara qismət olmur yaxşı yar,
Həm sözdən mətləb qan, həm ayıl eylə!

Ələsgər, dər bağdan yaxşıca nana,
Mərd iyid kəc baxmaz yaxşıca nana.
Yaxşı can yetişsə yaxşı canana,
Həmi günü xoş keçər, həm ay-il eylə.

DİVANİLƏR

YÜKÜM

Ələstidən bəli dedim, nə xoş kamaldı yüküm,
Bir gözəlin aşiqiyəm, vəsfi-camaldı yüküm.
Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,
Həmi dürdü, həmi gövhər, həm şəhdi-baldı yüküm.

Nütfəsindən əyri olan tez göstərər isbatın,
Hər ağac kökündə bitər, hər meyvə gözlər zatın.
Hərcayı hədyana sayar, naşı bilməz qıymatın,
Əhli-urfan məclisində gövhər misaldı yüküm.

Gəl ey biçarə Ələsgər, sığın şahi-Heydara,
Onun damənindən tutan yəqin ki, yanmaz nara.
Pirim özü nüsrət verdi, bu gün çıxdım bazara,
Sərrafısan, aç baxgınan, gör nə cəlaldı yüküm.

GÖZLƏ SƏN

Səyyad isən, tor qurubsan, dağı gözlə, gözlə sən!
Bəzirgansan, yolun kəsər yağı, gözlə, gözlə sən!
Hərcayilə aşna olma, namərdə bel bağlama,
Müxənnət qatar aşına ağı, gözlə, gözlə sən!

Gığ satan, çaşır satan deyir qaxdağan bizə,
Çay içib, pilov yeyən heç göstərmir nan bizə,
Olsa fürsət, versə nüsrət qadiri-sübhan bizə,
Çoxlarını eylərəm mən, saqi, gözlə, gözlə sən!..

Hanı Heydər, hanı Həsən, hanı Sərdar, Mustafa?
Sayeyi-mərhəmətilə bir zaman sürdük səfa.
Axırın zay eylədin sən, ay bimürvət, bivəfa!
Aç sinəmdə düyünə bax, dağı gözlə, gözlə sən!

Edir tüğyan, vermir aman, talan edir elləri,
Başlar kəsir, dardan asır, qırır ata belləri,
Dağlar alır, nərə salır, nahaq kəsir dilləri,
Dəfi dönən, çərxi çönən çağı gözlə, gözlə sən!

Ələsgərlə bəd başladın cavan vaxtından, fələk!
Düşkün vaxtda əlin üzdün xab-rəxtindən, fələk!
Neçə-neçə Süleymanlar saldın taxtından, fələk!
Olar oldu dərdü qəm dustağı, gözlə, gözlə sən!

VERİR

Qıfılbənd

Gələndə ustad kalamı köhnə yaram qan verir,
Mocə gəlir bəhri-çeşmim, qətreyi-baran verir,
Danəni torpaq içində göyərdir kani-kərəm,
Bir cüt mələk müqərrərdi, bizlərə ərzan verir.

Şirdandan dən gəlməyəndə düşər bir qeyri hala,
Dəhanından atəş qalxar, ah çəkər eylər nala,
Qəzəbindən ləngər verər, gah qabağa, gah dala,
Hay verdikcə alov səpir, dud qalxır, duman verir.

Hayde kola, xınzır oğlu, indi durma qarşıda,
Paşol k çort, idi durak, səni verrəm padsuda.
Oxuram inna-fətəhna, mətləb allam yuxuda,
Şahi-mərdan nökəriyəm, dərsimi pünhan verir.

Annamaz nadan eşitsə, deyər hədyandı bu söz,
Əhli-ürfan məclisində ləlü mərcandı bu söz,
Müxtəsəri, türki-zəban, bil, dəyirmandı bu söz,
Ab şəcarə, ahən səngə, gör necə cövlan verir.

Soruşur Aşıq Ələsgər: dərsi kimdən almısan?
Nahaq yerdən söz götürüb xalqa qovğa salmısan.
Üç kəlmə sözdən ötəri sən ki, mətəl qalmısan,
Nahaqdı, İran tatları Mikayıla dövran verir.

YETƏR

Qıfılbənd

Bu gün bir əcayib gördüm – təşbehi heyvana yetər,
Nütfəsi qüdrətdəndi, əməli insana yetər,
Ariflər, uzax düşməyin, nisbəti ilana yetər,
Hərdən bir nalə çəkəndə sədası hər yana yetər.

Onun xörəyin mən deyim, təşbehi quş yumurtası,
Qarnında zikr eləyir insana yetəndə səsi:
Dilini ona vuranda çıxar bir üryan balası,
Qanadı yox, quyruğu yox, uçar, biyabana yetər.

Yeddicə bağırsağı var, qarnında aşkar dolanır,
Onu yalnız mən demirəm, bütün görən hamı qanır,
Əjdahlar, pələnglər görəndə candan usanır,
Hər biri bir yana qaçar, çölü biyabana yetər.

Onun dünbün çəkibdilər, cəsədindən min ziyada,
Adlanıb, isbata keçib, hər tərəfə salıb sada,
Bəyləri minər gəzər, heç yana getməz piyada,
Nə ayağı yerə dəyər, nə başı asmana yetər.

Məqədindən təam yeyir, qəyy eləyər dahanından,
O vaxtında qarşı duran gərək ki, keçsin canından,
Üz görməz qardaşına, xof eləməz duşmanından,
Hər kəsə xışmınan baxsa, ölməsə də cana yetər.

Hər kəsə dəysə nəfəsi ölməsə də gedər huşdan,
Üç yerindən kəməri var, qurşayıb zərdən, gümüşdən,
Aşıq Ələsgər, deyərəm, hər kəs baş tapsa bu işdən,
Ona bir tərif yazaram, gedər Al Osmana yetər.

DÜNYADA

Sirat, sual qabaqdadı, nə damaxdı dünyada,
Kəlmeyi-şəhadət lazımdı ölən vaxtı dünyada,
Tut orucun, qıl namazın, şükür eylə Allaha,
Gül olma dünya malına, qalacaxdı dünyada.

Yalan deyib qeybət etmə, rəhmin gəlsin canına,
Öz-özünə fəxrlənib baxma şövkət-şanına,
Əzrail əlində çəngəl gələcəkdi yanına,
Qəzəbindən gül irəngin solacaqdı dünyada.

Şəyirdlikdə can çürütdüm, hərgiz ustad olmadım,
Nəfs öldürdüm, düz dolandım, dostumdan yad olmadım,
Ələsgərəm, qan ağladım, ölüncə şad olmadım,
Dostlarımla fələk mənə qara baxdı dünyada.

MÜXƏMMƏSLƏR

BAXIN

Ariflər, fəhm eləyin, süzüb gedən yara baxın!
Eyləyib müjganları sinəmi səd para, baxın!
Aşığa rəhm eləmir, zalım sitəmkara baxın!
Çəkirəm həsrətini, mən yazıq bimara baxın!
Axır məni çölə salıb, eləyib avara, baxın!

Yaraşır əndamına yaşılı, alı gözəlin;
Ayaqda sağrı başmaq, başında şalı gözəlin;
Tərifi, səs-soraği tutub mahalı gözəlin;
Hər yana şölə salır günəş camalı gözəlin;
Açılıb yaxa bəndi, ağ sinəsi qara, baxın!

Alıbdı qana-qana yaradandı pay bu sənəm;
Behiştin pərisinə deyə dilməm tay bu sənəm;
Xubluqda, gözəllikdə bədirlənmiş ay bu sənəm;
Gah məndən üz döndərib, eylər ömrüm zay bu sənəm;
Tərlandan nə ayrılıb, uyur yasar sara, baxın!

Geyinib çıxır yenə, qəsd edir cana, sallanır;
Baş əymir o, sərdara, sultana, xana sallanır;
Bürümür gül camalın, mərdi-mərdana sallanır,
Yüsifi damə salan züleyxayana sallanır;
Görəni eşqə salan gözləri xumara baxın!

Bu gözəl ağ gərdənə həmayılın taxdı, keçdi;
Binəva, yazıq canımı eşq oduna yaxdı keçdi;
Daldadan mənə sarı oğrun-oğrun baxdı keçdi;
Naqafıl müjganların bu bağrıma çaxdı, keçdi;
Dostuna endirməyən zalım vəfadara baxın!

Danışır, gəlir xoşa bu dilbərin şəkər sözü;
Yaraşıqdı, boy-buxunda budu gözəllərin gözü
Gün kimi şölə verir, camalı, göyçək üzü,
Basıbdı sinəm üstə bimürüvvət yanar gözü,
Yandırır bu sinəmi, ol atəşə, nara baxın!

Tökülür halqa-halqa Gözəlin dəstə telləri;
Eyləyib Ələsgəri, billah ki, xəstə telləri;
Qıymır, bimürvət gözəl, vəfalı dosta telləri;
Qıvrılar qıvrım-qıvrım, gərdənin üstə telləri;
Az qalır adam çala, o zülfü şahmara baxın!

GÖZƏLƏ

Canımı qurban elərəm, bir belə tərlan gözələ;
Hal bilən, şirin gülən, dosta mehriban gözələ;
Boy uca, gərdən mina, zülfü pərişan gözələ;
Dolanır mürği-ruhum, olubdu mehman gözələ;
Xəstəyəm, yalvarıram həkimi-Loğman gözələ.

Gözəl xanım cilvələnib gözəllərin xası kimi;
Silkinir, gərdən çəkir, göllərin sonası kimi;
Görəni Məcnun eylər Leylinin sevdası kimi;
Ala göz şölə verir göylər sürəyyası kimi;
Çəpkəni hər rəng çalır tovuzun çığası kimi,
Behiştdən barat gəlib, geydirib qılman gözələ.

Gözəl kəhlik al bəzənib, gözəllər xasından gözəl;
Silkinib gərdən çəkir göylər sonasından gözəl;
Qabliyyət, mərifət tapıb, ata-anasından gözəl;
Libası əndamından, əndam libasından gözəl;
Gözəlliyi cəm veribdi xaliqi-sübhan gözələ.

Gör necə xələt verib, məlul könlüm açdı gözəl:
Arifsən, əhli-ruhsan, can sana peşkəşdi, gözəl!
Gözündə yoxdu eyib, qaşın göyçək qaşdı, gözəl!
Nə ki gözəl görmüşəm mən, hamısından başdı gözəl.
Cavanşir gözəllərinin hamısı qurban gözələ!

Fələkdən gileyliyəm, mana günü qara verib;
Mömini zəlil edib, suri günahkara verib,
Tərlanı sara yazıb, tər qönçəni xara verib,
Ələsgəri Məcnun edib, meylini dağlara verib;
Tərk edib ibadəti, bağlayır dastan gözələ.

GƏLİN

Geyinibsən tər əndama tər-təzə libası, gəlin!
Bil, məni valeh edib qaşların qarası, gəlin!
Görcəyin üzün, artdı sərimin sevdası, gəlin!

Yaxşıların yaxşısısan, gözəllərin xası gəlin!
Aşığı şövqə salır hüsnün təmənnası, gəlin!

Bələnib ay nazənin, zənaxdanın xala sənin;
Münasibdi qəddi-dalın, boyun sərvi-bala sənin;
Qənd əzilib dəhana, ləblərin piyala sənin;
Göyçəkdi gül camalın, yanaqların lala sənin;
Gözlərin eləyibdi billah, məni ası, gəlin!

Heç yerində eybin yoxdu, hər boyun, busatın gözəl;
Əl işin, gül naxışın, xoyun, xasiyyətin gözəl;
Xubluğun, yaraşığın, aldığın baratın gözəl;
Camalın, ağlın, huşun, o şanu şövkətin gözəl;
Üzündən həya elər, göyün Sürəyyası, gəlin!

Çətindi kamalına həkimi-Loğman yetişə;
Təbibsən, əlac elə, xəstəyə dərman yetişə;
Mərifətdə, dərrakədə hanı sana can yetişə?!
Kənar gəz səryağıbdan, qoyma ki, böhtan yetişə:
Amandı, uyma sara, tərlanın sonası, gəlin!

Gəlməsin məclisimə, məclisimdə dövran olmaz;
Elə ki fərman verdin, şah da belə fərman olmaz;
Ədalətdə bərabərin o Şahi-Süleyman olmaz;
Behiştdə tayın yoxdu, huri, mələk, qılman olmaz;
Bir sənsən yer üzünün xub mələkzadası, gəlin!

Fərhad Şirin ucundan yandı-yaxıldı, ay gözəl!
Verirsən mana cəfa, bu nə ağıldı, ay gözəl?!
Kərəm Əslidən ötrü oda yaxıldı, ay gözəl!
Neçə aşıq yara canın, bil, fəda qıldı, ay gözəl!
Sən məni Sənan etdin, tərsalar tərsası gəlin!

Çalxanırsan bizim göldə yaşılbaşlı sona kimi;
Süzdürüb ala gözünü, baxırsan biganə kimi;
Yandırırsan hey oduna, şamına pərvana kimi;
Dolandım səhraları mən dəli-divana kimi;
Ələsgəri Məcnun etdi eşqinin sevdası, gəlin!

AŞIQ MUSA
(1830-1912)

GƏRAYLILAR

BİR GÜN

Könül, səndən gileyliyəm,
Yaxşı-yaxşı yazar bir gün.
İki mirqəzzəb əyləşib,
Çək əlindən hazar bu gün.

Ey yükü tunc olan kimsə,
Nağdısı vec olan kimsə,
Nütfədən kəc olan kimsə,
Doğru yoldan azar bir gün.

Yazıq Musa eylər dilək,
Bu qəm qoymaz bizi gülək,
Demədimmi çərxi-fələk,
Bu dövranın pozar bir gün.

KƏKLİK

Baharın gülşən çağında,
Nə oxursan, sona kəklik.
Oxudun gəldin xoşuma,
Yaşayasan sən, a kəklik.

Kəklik məskən salıb daşa,
Sürmə çəkib gözə, qaşa,
Bu dövranın getməz başa,
Ovçu gəldi, sin, a kəklik.

Musa söz deyər dəsilə,
Kəklik ötür həvəsilə,
Elə oxudun səs ilə,
Cuşa gəldi sinə, kəklik.

TELLİ SAZIN

Məclisləri abad eylər,
Nə günahı telli sazın?
Məlul könüllər şad eylər,
Nə günahı telli sazın?

Yeki şəcər, yeki dəmir,
Ara vurmur, yalan demir,
And içməyir, rüşvət yemir,
Nə günahı telli sazın?

Fikrini vermir qələmə,
Zülüm eyləmir aləmə,
Pulunu vermir sələmə,
Nə günahı telli sazın?

Yoldan çıxıb, yolun azmır,
İblis kimi ara pozmur,
Molla kimi cadu yazmır,
Nə günahı telli sazın?

Musa vəsfin söylər saza,
Ruh verir gəlinə, qıza,
Oxşamır o şeyidbaza,
Nə günahı telli sazın?

QOŞMALAR

GÜLƏ-GÜLƏ

Xudam səni nə xoş gündə yaradıb,
Salıbdı cahana, ay gülə-gülə.
Gözəllikdə Yusif sənə tay olmaz,
Alıbsan qüdrətdən pay, gülə-gülə.

İnanmıram müşkül işlər düzələ,
Təbib sənsən, gəl yaramı təzələ,
Mən nə deyim sənin kimi gözələ,
Elədin ömrümü zay, gülə-gülə.

Uca boylu, tuti dilli bəxtəvər,
Sənə qurban evim, malım, hər nə var,
Aşıq Musa deyər: gül yanaxlı yar,
Sən gətir, mən içim çay, gülə-gülə.

KÖYNƏKCƏK

Səhər vaxtı zəhmət vermə özünə,
Ay qabaqlı, qələm qaşlı köynəkcək.
Qoyma sabah yeli dəyə üzünə,
Uzun boylu, qara saçlı köynəkcək.

Qaşlarının tağı bənzər meraca,
Ağ çit tuman gövdəsində alaca,
Sinən bəyaz, məmələrin balaca,
Sərxoş durur xoş baxışlı köynəkcək.

Musa deyər: ürəyimi əzərsən,
Eşqə düşüb, ömür bağın üzərsən,
Vaxt yetişər, gül dibində gəzərsən,
Bahar deyil, hələ qışdı, köynəkcək.

İNDİ

Ay bimürvət, mən ki səndən ötəri,
Düşmüşəm çöllərə, sayılam indi.
Can çıxdı cəsəddən, sən aşkara gəz,
O mah camalına mayılam indi.

Leyli, Məcnun kimi bəlayə tuşam,
Mən sənin dərdindən vallah bihuşam.
Mən ki içməmişəm, nədən sərxoşam,
Əməm dodağından ayılam indi.

Gördüm camalını, bu nə həvəsdi,
Ruh gedib bədəndən, quru qəfəsdi,
Bu dərdü möhnətin Musaya bəsdi,
Öldürürsən öldür, qayılam indi.

DİLBƏR

Qız, belə gəzməyin aşiq öldürür,
Saçından tel ayır, sat mənə, Dilbər!
Sinəm nişanədi, ağrımaz bədən,
Doyunca yay-oxun at mənə, Dilbər!

Bar-ilahi[1], belə gözəl sağ olsun,
Cilvələnib tərlan quşdan çağ olsun,
Həsrət ölsəm, qoy sinəmdə dağ olsun,
Belə tənbehləri tut mənə, Dilbər!

Musa deyər: bu sözlər odu, ona,
Mən müştaqam o canana, o dona,
Dağılsın oymağın, düşsün od ona,
Əyər ki, sən desən get mənə, Dilbər!

BİRİ YAZ

Dəli könlüm, səndə nələr dolanır,
Biri payız, biri bahar, biri yaz,
Üç əlamət gözəllərin nişanı,
Biri şivə, biri qəmzə, biri naz.

Coşqun çaylar kimi qaynadım doldum,
Heyva tək saraldım, gül təki soldum.
Gedər ikən üç gözələ tuş oldum,
Biri qarı, biri gəlin, biri qız.

[1] Allah, xaliq

Qürbət eldə kimdi halım soruşan,
Ağ üzündə qoşa xalı ver nişan.
Üç şeydi ki, bir otağa yaraşan,
Biri Musa, biri söhbət, biri saz.

VAR

Ey mələk simalım, qəddi-minalım,
Bu sərxoş baxışda əlamətin var.
İskəndər cəlallım, Hamət səxalım,
Eşqindən başımda dəyanətin var.

Dilinin kəlməsi gözəl bir lisan,
Telinə sadağa varımdı bir can.
Yaraşır şəninə güllü bir cahan,
Yusifi-Kənanə şəbahətin[1] var.

Səni xəlq eyləyib ilahi, inan,
Cəmdi gözəlliyin nişanbanişan.
Pərtovi[2]-camalın, şövkəti-rizvan,
Musa tək quluna hidayətin var.

DİLİM

Dilim, bu öyüdü sənə deyirəm,
Çox dünya malına sarışma, dilim!
Çalış, sən həmişə öz əməyin ye,
Haram mal yeməyə alışma, dilim!

Bir məclisə vardın, nitqin olsun lal,
Əyləşənlər səndən dərk etsin kamal,
Dindirsələr dillən, dinməsən lal qal,
Hərcayı danışıb, gülüşmə, dilim!

[1] Oxşarlığın, bənzərliyin
[2] İşıqlı, nurlu, şüalı, parlaq

Mənim sözlərimi saxla amanat,
Sidqinən dost olan tez tapar murad,
İstəsən ki, başın ola salamat,
Ağzına gələni danışma, dilim!

Musa oda alışmayıb, nə lazım?
Bivəfayla barışmayıb, nə lazım?
Haqqın özü sirr açmayıb, nə lazım?
Gəl gördüyün sirri sən açma, dilim!

OLMAZ

Bir gözəl görmüşəm Göyçə elində,
Yüz min gözəl ona bərabər olmaz.
Yüz min əbru kaman gəlsə behiştdən,
Bunca əbru kaman mötəbər olmaz.

Görməmişəm belə bir qəddi çinar,
Söyləsəm vəsfini el məni qınar,
Hərcayı aşıqlar dalınca yanar,
O gedəndən bizə bir madar olmaz.

Göz baxdıqca doymaz belə ceyrandan,
Görsə ixtiyarlar çıxar imandan,
Yanaqları şölə verir hər yandan,
Ərş üzündə belə bir qəmər olmaz.

Musa gəldi kəndinizdə qalmadı,
Şirin canın eşq oduna salmadı,
Heç yaşınıb bizdən yaşmaq almadı,
Bir belə evyıxan bəxtəvər olmaz.

AĞ OLA

Gözəli sevəsən cavan çağında,
Alma yanaq, gül buxağı, ağ ola.
Doyunca əməsən dilin, dodağın,
Zülfü dal gərdəndə bir qucaq ola.

Oturub-duranda bilə mərfəti,
Əlində saxlaya məzə şərbəti,
Yatasan, çəkəsən dünya ləzzəti,
Uzana gecələr, gec sabah ola.

Dərdini anlaya, qədrini bilə,
Əlində məhrəba stəkan silə,
Alçaqdan danışa, ucadan gülə,
Geyinə, sallana, damaq çağ ola.

Şeyda bülbüllərin ötüşən çağı,
Qolundan tutasan, gəzəsən bağı,
Ağzına salasan qaymaq dodağı,
Öpəsən, qucasan, gen qabaq ola.

Musa deyər: ləbləri qənd yaxşıdı,
Boyu uca, zülfü kəmənd yaxşıdı,
Bu sözlərin yeri xəlvət yaxşıdı,
Alt-üst ləmpəli bir otaq ola.

TƏCNİSLƏR

AĞLAR

Kəmənd əldə, səyyad ov bərəsində,
Ovçusu da ağlar, maral da ağlar.
Oxun sədasından, güllə səsindən,
Ürküdüb əyləməz maralı dağlar.

Mənim dərdim budu öz balasına,
Gözəl məni saldı öz balasına,
Yaradan qıyarmı öz balasına,
Ox dəysə tiflinə mar alı dağlar.

Musa, nə dərdin var yara mən dedi,
Ləzzəti gözəlin yar əməndədi,
Təzə, köhnə nə var, yara məndədi,
Zənbür[1] tək sinəmdə mar alı dağlar.

[1] Arı

MƏNNƏN

Vaxt dolandı, gəldi keçdi zamana,
Niyə əl çəkmədin, a yara mənnən?!
Nə əcəl gəlmədi, yetmişəm cana,
Nə xəbər getmədi, a yara mənnən.

Can deyən Fərhaddı Şirin də hana,
Ləblərim də söylər şirin dəhana,
Gəlibdi ləblərin şirin dəhana,
Görmüşəm ləzzətin, a yar, əmənnən.

Musa qələm çalır, nə xoş səf adı,
Nə nizam yoxumdu, nə xoş səf adı.
Pərişan xəyalım nə xoş səfadı,
Xain bəd qandırar a yara mənnən.

AY ÜZƏ-ÜZƏ

Dəniz gördüm gözüm yaşı sel oldu,
Çalxanır sonalar ay üzə-üzə.
Mərd deyər sözünü mərdə mərdana,
Namərd də saxlayar ay üzə-üzə.

Nazlı dilbər əldə tutub nə sazı,
Dərd çəkənin nə xəstəsi, nə sazı,
Ala gözlər məni eylər nasazı,
Kəc baxar ömrümü ay üzə-üzə.

Aşıq Musa deyər: yetibdi dərdim,
Məni bu qürbətə atıbdı dərdim,
Səksənnən, doxsannan ötübdü dərdim,
İndi də yetişib a yüzə-yüzə.

ƏYƏR-ƏYƏR

Dodaqdəyməz çığalı təcnis

Çən gəlsə dağlara yellər əsdirər,
Qış da çətin gəlsə dal əyər-əyər.
Aşıq deyər Əyərdən,
Nə gətirdin Əyərdən,
Laçın getdi şikara,
Gətirərsə əyər dən.
Elin səsin qayalardan kəsdilər,
Eşitsə qəddini dal əyər-əyər.

Yəqin kəsər zəhri zəhrin salsalı,
Qəza cana zəhrin zəhri sal salı.
Aşıq gəzər sal salı,
Yar qəddinə sal salı,
Canan canı nəzərdən,
Əyər yaxşı salsalı.
İçində qardaşı zəhrin salsalı,
Səslərdi dilində dal əyər-əyər.

Yazıq cana canan gətdin əyanə,
Danışsan dərdini salsan əyanə,
Aşıq gəzər əyanə,
Dilin eşqə əyanə,
Xain nədən qaralı,
Gəzir eldən əyanə.
Musa istər cahan gəzə əyanə,
Yaralı sinəsin dal əyər-əyər.

MÜXƏMMƏSLƏR

AY FƏLƏK

Ay fələk, sənin cövründən köçdü insan qalmadı,
Neçələri nakam öldü getdi, cavan qalmadı,

Yar yarından ayrı düşdü, əhdü peyman qalmadı,
Kəlmənə bəli söyləyib, mətləb qanan qalmadı,
Nə xəstələr şəfa buldu, nə də loğman qalmadı.

Beş gün səndə mən deyənin axrın bimar eylədin,
Neçə-neçə Süleymanın taxtın tarmar eylədin,
Baislikdə ülfət qıldın, belə bazar eylədin,
Hər kəsə ki, şərbət verdin, tez zəhrimar eylədin,
Pozuldu bağçalar, bağlar, soldu gülşən qalmadı.

Mən zəhmindən xof elədim, didəm verdi qanlı yaş,
Sümüyümə lərzə düşdü, cismimdə yandı ataş,
Kim ilə dostluq elədin, söylə görüm başabaş,
Zəhmətini mən çəkməkdən qara bağrım oldu daş,
Qəhrinə başın əyməkdən Musada can qalmadı.

SAMAVAR

Mən səni çox sevirəm, bilirsən halım, samavar!
Bir əyləş məclisimdə cahü-calalam, samavar!
Həm taxtım, həm baxtım, həmi iqbalım samavar!

Şikətimdə abü atəş, hamı durub tamaşana,
Çoxlarına mehribansan, odu gəlirsən xoşuma,
Bir stəkan çay verməsən, ağlım gəlməz başıma,
Min tümən dövranım olsa, çaşır xəyalım, samavar!

Başında vardı çaynikin, ətrafında yar stəkan,
Özü xasdı, bölməsi xas, var nişanı zər stəkan,
Saz çalıb məclisində dolansın dilbər, stəkan,
Bəlkə bir az şəfa tapa, bu xəstə canım, samavar!

Samavarım, sən coşanda ətrafında yar dolanır,
Özü zər, libası zər, qəddi qələmkar dolanır,
Çox çəkir o zəhmətini, buxağında tər dolanır,
Bundan artıq söz deməyə yoxdu kamalın, samavar!

Bil ki, sənsiz gün keçirməz hər kəsin ki, əlacı var,
Padşahdan bəyə kimi hamının ehtiyacı var,
Samavar, dövranın açıb görüm necə xəracı var,
Mən sənə peşkan elərəm dövlətü malım, samavar!

Musa bir tərif deyibdi, eşidən gəlsin bəhsinə,
Qumru kimi zikr elərsən, mən valeh oldum səsinə,
Çirkinlər xəcalət çəksin, gəlməsinlər məclisinə,
Qoy sənə qulluq eləsin bir gözəl xanım, samavar!

MARAL!

Mən səni görəndən bəri halım pərişandı, Maral!
Ləblərindi şəhdü şəkər, xəstəyə dərmandı, Maral!
Açılıb qoynunun içi, bağı-Gülüstandı, Maral!
Dərdbilməz naqis dedi: dərd bilən inandı, Maral!

Camalın görəndən bəri olmuşam heyran sənə mən,
Gəl əyləş məclisimdə, eyləyim dövran sənə mən,
Bir gecəlik otağında olmuşam mehman sənə mən,
Qıymayıram mal deməyə, can deyim qurban sənə mən,
Bu gözəllik sənə qalmaz bu çərxi-dövrandı, Maral!

Lənətlər gəlsin keşişə, aləmdə bir səs elədi,
Qızı getdi, o vermədi, övlad ilə bəhs elədi,
İki könlü bir-birindən ayırdı, əbəs elədi,
Çəkdi o din təəssübü, Kərəmə qisas elədi,
Haqq özü də qisas alar, ədalət divandı, Maral!

Sən bir tərsa qızısan, əydin qəddim, dal eylədin,
Yıxdın könlümün evini, gör necə xəyal eylədin,
Mənimlə yaman başladın belə qeylü qal eylədin,
Göyçəli Aşıq Musanı dərdindən abdal eylədin,
Bu əl mənim, ətək sənin, ölürəm amandı, Maral!

PƏRİ!

Qaşlarının tağını bənzətdim kamana, Pəri!
Bənzərliynə təəccübəm, düşmüşəm gümana, Pəri!
Molla, seyid görsə üzün üz verər imana, Pəri!
Bir görüşən, ayrı düşən, çəkər əlaman, a Pəri!

Bir gözəl peyda olub bu Azərbaycanda taza,
Afərin zənburuna bal bəsləyib şanda taza,
Zimistanda qızıl gülü saxlayıbdı camda taza,
Gəzinmişəm, görməmişəm mislin Dağıstanda taza,
Qazax, Qırğız, Çeçen, Çərkəz telinə heyran, a Pəri!

Mən heç sənin bərabərin İran, Turanda görmədim,
Yıxdın könlümün evini, tayın qılmanda görmədim,
Xoyda, Salmasda, Marağa, Təbriz, Tehranda görmədim,
Nə Ərəbdə, nə Əcəmdə, nə al-Osmanda görmədim,
Qarşıya gözəl sürə bəlkə Gürcüstan, a Pəri!

Sallaşıb sığal verir ay qabağa, mah camala,
Al yaraşır, şal yaraşır gərdəninə, qəddi-dala,
Sən ki qardaşım qızısan, el düşməsin kəc xəyala,
Musanı qocaldıbdı bu çərxi-zaman, a Pəri!

BAĞBAN MƏHƏMMƏD
(1835-1914)

QOŞMALAR

OYNASIN

Başına döndüyüm yığılan canlar,
Minnət edin qəddi çinar oynasın.
Düşüm ayağına, dönüm başına,
Beli nazik, gümüş kəmər oynasın.

O dəstə dilbərim sözdən küsməsin,
Rəhmin, şəfahətin bizdən kəsməsin,
Özgələr köşkünə qədəm basmasın,
Qələm qaşlı, gözü xumar oynasın.

Aşiq minnət çəkər yarın eşqinə,
Pərvanələr yanar narın eşqinə,
Bağban deyər: bir nigarın eşqinə,
Nə olar ki, o bəxtəvər oynasın.

NƏDİ

Bir cavanın sevgi olsa sərində,
Onun üçün söhbət nədi, dəm nədi?
Öldürər özünü yarın yolunda,
Xana nədi, dövlət nədi, cəm nədi?

Sən qəmdə dünyaya gələn olmasın,
Xəncərlə bağrını dələn olmasın,
Süzürsən çeşmini, bilən olmasın,
Ağlamısan, kirpiyində nəm nədi?

Danışasan, mazaqlaşıb güləsən,
Bir-birinin ürək dərdin biləsən,
Bircə gecə səfa sürüb öləsən,
Heç kim deməz, belə ömrü kəm nədi?

Bağban, insafmıdı yarın naz sata,
Yalqız qalıb, tənha gəzib, tək yata,
Bir yarı ki, könül görə, göz tuta,
Lampa nədi, fanus nədi, şam nədi?

GÖZƏL

Ay qız, insaf elə barı yaxın gəl,
Gül açıb xar ilə sarışan, gözəl.
Aşiqin əlindən düşübdü xəstə,
Ruhunu eylədin pərişan, gözəl.

Vəsmə nə lazımdı elə bir qaşa,
Kəmər gərək incə belə yaraşa,
Pərvanə tək özün atdı ataşa,
Lampa kimi gözü alışan gözəl.

Heç qatarda yoxdu bir belə maya,
Gözü günə timsal, qaşları aya,
İnanmaram, yaranıbmı xudaya,
Mənim yarım kimi zərəfşan gözəl?

Qeyz eyləmə, saralarsan, solarsan,
Uşaq kimi indi həddə dolarsan,
Deyirlər cəlladsan, çox can alarsan,
Eyləyirsən gündə neçə qan gözəl.

Sərxoşlanıb süzgün-süzgün baxmısan,
Ciyərlər doğrayıb şişə taxmısan,
Hakimsən, ölkədə ağa çıxmısan,
Ədalət eylərsən xub divan, gözəl.

Qəmlisən, ürəyin dönübdü qışa,
Surətin büllurdü, əndamın şişə,
Saçı buxağında təzə bənövşə,
Hanı sən ətirdə bir reyhan, gözəl.

Görəsən dağlarda əlvan çiçəyi,
Örtəsən başına ipək ləçəyi,
İki ildə ağardarsan birçəyi,
O qəm ki səndədi, natəvan gözəl.

Dost qapısın əyri açıb girmədim,
Sir sözümü heç yadlara vermədim,
Bağban deyər: bu çağımda görmədim,
Belə sənin kimi mehriban gözəl.

SƏDƏF

Hansı bədnəzərin gözünə gəldin,
Düşmüsən elindən aralı, Sədəf!
Ovçu marığında, çaxmaq əlində,
Sənmisən Quzuqan maralı, Sədəf!

Sallanıb şəklini salginən suya,
Şana çək dəstinlə zülfi-xoşbuya,
Güllə dəysin səni vuran ovçuya,
Olmusan köksündün yaralı, Sədəf!

Sənsən bu dərənin ancaq göyçəyi,
Üzünə qoymusan halqa birçəyi,
Qızılgüldü səkkiz cənnət çiçəyi,
Onun da üstünü xar alı, Sədəf!

Zimistanda dağlar lala boyanmaz,
Ruhum aparmısan cismim oyanmaz,
Səni görən gözlər sənsiz dayanmaz,
Gen dünya başına daralı, Sədəf!

Guya müntəzirsən çoxdun əyala,
Arasbar gülüsən, dağlarda lala,
Qüssəylə özünü vermə xəyala,
Gülgəz yanaqların saralı, Sədəf!

Özünə münasib olsaydı yarı,
Atlı qabağında qoşun sərkarı,
Üç gecəlik aya bənzər qaşları,
Sürməli gözləri qaralı, Sədəf!

Bağban deyər: məni qoyma nişana,
Öldürər gözlərin, düşərsən qana,
Baxan camalına olur divana,
Bacaran döşünə tər alı, Sədəf!

NECOLDU

Ellər getdi yaylağını bəllədi,
Bildir o bağları gəzən necoldu?
Ayrılıq gölündə, qəm dəryasında,
Təzə qəvvas olub üzən necoldu?

Yəqin qaldı Şərikanın elində,
Yoxdu qüvvət dəhanında, dilində,
Qolları dar bağlı, diddi əlin də,
Elə qənimlərə dözən necoldu?

Könül, tələb etmə dünyanın varın,
Gəl iç Mil suyundan, çıxsın azarın,
Hamaylaf qaynasın, Çolan daşların,
Sanayıb təsbeh tək düzən necoldu?

Həcər samvarının içən çayından,
Binəsi o qarlı dağlar payından,
Çınqıllı çeşmədən, Matqab suyundan,
Bilmərrə əlini üzən necoldu?

Şıx Məhəmməd, eylə könlünü abad,
Yetim qalırsa da Məhərrəm, Cavad[1],
Kağızsız, qələmsiz, özü bisavad,
Dünyanın işlərin yazan necoldu?

[1] Məhərrəm, Cavad Bağbanın oğlanlarıdır.

DOLLU MUSTAFA
(XIX əsr)

GƏRAYLILAR

SƏNƏM SƏNİ

Gördüm səhər bulaq üstə,
Sənəm səni, Sənəm səni.
Xalq eyləyib əcəb nəstə,
Sənəm səni, Sənəm səni.

Doymaq olmaz qələm qaşdan,
Sənin kimi bağrı daşdan,
Seçəmmədim yaşılbaşdan,
Sənəm səni, Sənəm səni.

Ağ üzdə xalı bənövşə,
Könül həsrət yumru döşə,
Axtarır gözüm həmişə,
Sənəm səni, Sənəm səni.

Gül camalın bədirli ay,
Qaşlarındı qurulu yay,
Eyləmərəm dünyaya tay,
Sənəm səni, Sənəm səni.

Əskik olmaz, gözəl, xatan,
Dol Mustafa sənin butan,
Verməz mənə zalım atan,
Sənəm səni, Sənəm səni.

AĞRIN ALIM

Nə durubsan, astanada,
Qaşı qaytan, ağrın alım.
Səhər-səhər bağ içində,
Gülə batan, ağrın alım.

Büllur buxaq, bəyaz gərdən,
Ağlımı aparır sərdən,
Aşiqinə hərdən-hərdən,
Şivə satan, ağrın alım.

Qoynundakı əcəb nəstə,
Aləm görsə olar xəstə,
Əllərində dəstə-dəstə,
Nərgiz tutan, ağrım alım.

Cilvələn, süz, nazlı canan,
Gəl eyləmə bağrımı qan,
Qaşlarından qurub kaman,
Müjgan atan, ağrın alım.

Nə baxırsan yanı-yanı,
Olum gözlərin qurbanı,
Dərdə salma Mustafanı,
Ağcaqutan[1], ağrın alım.

GƏLİN

Səhərdən çıxdın qarşıma,
Gül bağçada gəzən gəlin.
Dərib, dərib buxaq altda,
Tər bənövşə düzən gəlin.

Bülbülü güldən eylərsən,
Gedəni yoldan eylərsən,
Ulusdan, eldən eylərsən,
Gözlərini süzən gəlin.

Qaşların qurar divanı,
Kirpiklərin tökər qanı,
Öldürürsən neçə canı,
Çoxlar bağrın əzən gəlin.

[1] Quş adıdır

Gümüş kəməri belində,
Şirmayı şana telində,
Cumub çalxanıb gölündə,
Sona kimi süzən gəlin.

Bilmirəm əsil-soyunu,
Xublar arzular boyunu,
Mustaya tutsun toyunu,
Al yaşıla bəzən gəlin.

QADAN ALIM

Seyrağıbın sözü ilə,
Dostun atan, qadan alım!
Ölüncə dönmərəm səndən,
Məni satan, qadan alım!

Bir doymadım şirin sözdən,
Öpmədim yanaqdan, üzdən,
İşarəynən, qaşnan, göznən,
Dostluq qatan, qadan alım!

Mürvət elə gəl insafa,
Sürək sənlə zövqü səfa,
Aşiqinə vermə cəfa,
Qaşı qaytan, qadan alım!

Sinən Savalanın qarı,
Məmən Gürcüstanın narı,
İtkin salıb köhnə yarı,
Əğyar tutan, qadan alım!

Tərlan könlüm qanad çalar,
Sona görsə tora salar,
Axır ki, Mustafa olar,
Sənin butan, qadan alım!

QALDIRIN

Həsən atı yıxıb çaya,
Qaldırın, qızlar, qaldırın.
Hərə götürüb bir paya,
Qaldırın, qızlar, qaldırın.

Həsən gəlirdi yoxuşdan,
Kişi çıxıb bərkdən, boşdan,
Atı hürküb yolda quşdan,
Qaldırın, qızlar, qaldırın.

At sərpib ipə dolaşıb,
Ayağı başından aşıb,
Palçığa, zığa bulaşıb,
Qaldırın, qızlar, qaldırın.

Həsən itirib başını,
At unudub yoldaşını,
Qırıb yəhərin qaşını,
Qaldırın, qızlar, qaldırın.

Qapıda qoyub qulunu,
Yolda itirib çulunu,
Verməyib yarı pulunu,
Qaldırın, qızlar, qaldırın.

At çırpınır, yerə dəyir,
Başı gövdəsini əyir,
Kişnəyib gözünü döyür,
Qaldırın, qızlar, qaldırın.

Həsən yorğun atı neylər,
Bu dərdini kimə söylər,
Mustafa iltimas eylər,
Qaldırın, qızlar, qaldırın.

QAYIT İNDİ

Sallana-sallana gedən Salatın,
Gedirsən bağçaya, qız, qayıt indi.
Süsəndən, sünbüldən, lalə, nərgizdən,
Qönçədən dəstəni düz, qayıt indi.

Gözəllərdə üz bürümək yamandı,
Məndən yana durma, öldüm amandı,
Bu gün ayrılıqdı, axır zamandı,
Ömür başa dəydi, tez qayıt indi.

Qanlı cəllad kimi qanımı içmə,
Ömrüm zəmisini budayıb biçmə,
Xəflənib ovçudan aralı keçmə,
Ceyransan, çölləri gəz, qayıt indi.

Tutuldum eşqinə, düşdüm sorağa,
Getmə göz önündən pərim, irağa,
Daha dözə bilməm dərdə, fərağa,
Qoy sinəm üstünə köz, qayıt indi.

Mustafa istər ki, dilbər yüz yaşa,
Üzündə xalların əcəb tamaşa,
Bənzərsən ördəyə, o yaşılbaşa,
Çalxalan göllərdə, üz, qayıt indi.

YAZILI

Gözəl kəklik havalanıb dövr elər,
Ərş üzündə nə tamaşa yazılı,
Təbibim yox, yaralarım qövr elər,
Dərd əlindən dilim haşa yazılı.

Bir varmadım, ulusuna, elinə,
Bülbül olub heç qonmadım gülünə,
Qənd əzilib dəhanına, dilinə,
İncidi, sədəfdi, dişə yazılı.

Yar belə baxarmı şirin yarına,
Almasına, heyvasına, narına,
Sinən bənzər Savalanın qarına,
Sədrində məmələr qoşa yazılı.

Axtararam, tayın tapa bilmərəm,
Ağladırsan məni, gülə bilmərəm,
Sənin bərabərin ola bilmərəm,
Qüdrət qələmidir qoşa yazılı.

Mən də çox işləri qıllam irada,
Çox qulluq elərəm kamil ustada,
Bir gün olur köç elərəm dünyada,
Mustafayam, adım daşa yazılı.

QIZ OLAR

Üç yaşından dörd yaşına varanda,
Gözəllənər, bu qız yaxşı qız olar.
On yaşında həddi-buluğ alanda,
Qönçə tək açılıb bir nərgiz olar.

On birində kətan örtər başına,
On ikidə vəsmə yaxar qaşına,
Elə ki yetişdi on üç yaşına,
Qoyma qonşulara, o bir söz olar.

On dördündə gözəllərə qatılar,
On beşində elçilərə satılar,
On altıda şirni toyu tutular,
Tapar həmdəmini sərəfraz olar.

On yeddidə al gərdəyi qurular,
On səkkizdə yalan sözlər durular,
On doqquzda şux məmələr qırılar,
Ürəyi ürəyə əcəb saz olar.

İyirmidə gələr bənzər gəlinə,
İyirmi birdə sığal verər telinə,
Elə ki baş vurdu eşqin gölünə,
Təzədən silkinib quba qaz olar.

Otuzunda oğul-uşaq yetirər,
Qırx yaşında hər bir zülmü götürər,
Əlli yaşda gələr köksün ötürər,
Hər yetəndən qaçmaz, üzbəüz olar.

Altmışında Mustafanın sözünə,
Yetmişində ağ tor gələr gözünə,
Elə ki yetişdi, çatdı yüzünə,
Ocaqlar başında tək, yalqız olar.

QIFILBƏND, SUAL-CAVAB

HEY!

Sual

Hansı dağdı, heç əritməz qarını?
Hansı bağdı, yemək olmaz barını?
O kimdi, tapmadı öz xirdarını?
O hansı insandı, etməz bazar, hey?

Cavab

Qaf dağıdı, heç əritməz qarını,
Yemək olmaz qoynun içi narını,
Cəbrayıldı, tapmaz öz xirdarını,
Əzrayıldı, heç eyləməz bazar, hey!

Sual

O nədi ki, göydən yerə sallanar?
O nədi ki, hər nə desən allanar?
O nədi ki, göbəyindən nallanar?
O nədi ki, qatarlanmış gəzər, hey!

Cavab

O yağışdı, göydən yerə sallanar,
O uşaqdı, hər nə desən allanar,
O nehrədi, göbəyindən nallanar,
Qarışqadı, qatarlanmış gəzər, hey!

Sual

O kimdi ki, geyinibdir ağları?
O kim idi, dolanırdı dağları?
O kim idi, bəzəyirdi tağları?
O kim idi, onun gülün üzər, hey?

Cavab

O Leylidi, geyinibdi ağları,
O Məcnundu, dolanır hey dağları,
O Yusifdi, bəzəyibdi tağları,
Züleyxaydı, hər büsatın düzər, hey!

Sual

O nəydi ki, zərrəsindən ay oldu?
O nəydi ki, qətrəsindən çay oldu?
O nəydi ki, bu dünyada hey oldu?
O kim idi, ona qəbir qazar, hey?

Cavab

O gün idi, zərrəsindən ay oldu,
O ümmandı, qətrəsindən çay oldu,
Xızır idi, bu dünyada hey oldu,
Cəbrayıldı, ona qəbir qazar, hey!

Sual

O hansı quşdu ki, eylər həzəri?
Hey gedər hər yana salar nəzəri?
O hansı şəhərdi, üç yüz bazarı?
Mustafa matahın orda düzər, hey!

Cavab

Can quşudu, göydə eylər həzəri,
Hara getsə, ora salar nəzəri,
Qəbristandı, üç yüz altmış bazarı,
Mustafadı, o bazarı bəzər, hey!

MÜXƏMMƏS

QAZI

Məclisə tək yiyələnib, açıb dövranı bu qazı!
Danəndə hərif axtarır, sular meydanı bu qazı,
And içir, inandırır avam insanı bu qazı,
Tərifləyir camaata bax bu dünyanı bu qazı,
Axır ki, boğazımıza yığıbdı canı bu qazı!

Çiynində sarı kürkü, başında ağ əmmaməsi,
Əyləşibdi yanında axund, seyidin cümləsi,
Xoş gəlmir qulağına çalınanda sazın səsi,
Hərdən ortalığa salır sünni ilə şiə bəhsi,
İrana qarşı qoyur ol al-Osmanı bu qazı!

Mahalı çalıb-çapır, arxalanır pristava,
Bütün yerdə qonaq olur hər gecə yağlı plova,
Yedirmir aca, yoxsula, gətiribdir yaman hava,
Tovlayır onu-bunu saldırır bir yeni dava,
Axıtdırır nahaq yerə hər dəfə qanı, bu qazı.

Hər il fağır-füqəraya yarlığa taxıl əkdirir,
Kəl alıb kotan qoşdurur, nə zülümlə yer sökdürür,
İşlədir gecə-gündüz, nə ağır cəfa çəkdirir,
Günün qızmarlı vaxtı çalışdırıb, tər tökdürür,
Tamam istemaldan salır eli, obanı bu qazı.

Qazı məndən çəkinməsin, mən böhtan deyən deyiləm,
Hər bir tərəfdə əli var, işlədir, şüthaşüt kəlam,
Pul verir beş yüz, beş yüz, toplayır nə qədər sələm,
Bu insafsızın əlindən, vallah, zara gəlib aləm,
Çəkdirir üst-üstündən ahü-amanı bu qazı.

Ağaya yollayacağam deyib, xalqdan mal alır bu,
Qısır qoyun, əmlik quzu, öküz, inək, kal alır bu,
Ara aşkar, ara xəlvət tümən-tümən pul alır bu,
Güllü gəbə, dərmə xurcun, tirmə, fərmaş, çul alır bu,
İstər ziyarət eləsin bir də Məkkəni bu qazı.

Diş tökülüb, baş ağarıb, çıxıb üzündə xətti-cal,
Yenə də işi, peşəsi salmaqdı dava, qalmaqal,
Xəsisdi, yeməyib yığıb, eldən, obadan dövlət, mal,
Tanımaz qapısını əlsiz, ayaqsız, kor, şil, lal,
Ömründə doydurmayıb bir ac qalanı, bu qazı.

Qanmazlıqda heç mahalda bunun kimi ayı yoxdu,
Yediyi, geydiyi haram, halal şeydən payı yoxdu,
Bədcinslikdə, bədəməldə, şorgözlükdə tayı yoxdu.
Dörd kəbinli arvadı var, siğəsinin sayı yoxdu,
Əlində alət edib dini, imanı bu qazı!

Mollalar daldan gəlir, qazı qabaqda yeriyir,
Elə bil əyləşibdi Süleyman taxta, yeriyir,
Əlini belinə qoyub, kefdə-damaqda yeriyir,
Hərdən çax-çux eləyir, başmaq ayaqda yeriyir,
Tanımaq istəməyir Dol Mustafanı, bu qazı!

AŞIQ RƏCƏB
(1825-1935)

GƏRAYLILAR

BÜLBÜL

Qarlı dağlar aşa-aşa
Gül üstünə gələn bülbül.
Tər qönçəyə qondu qarğa.
Gülə həsrət qalan bülbül.

Baxmamışam yarasına,
Əzəl dərdin çarasına,
Qızıl gülün arasına,
Qanadını salan bülbül.

Biri güldür, biri çiçək,
Biri-birisindən göyçək,
Aşıq Rəcəb deyir, gerçək
Könlü qəmlə dolan bülbül.

YAXŞI

Başına döndüyüm saqi,
Doldur piyalədən yaxşı.
Yanaqların şölə verir,
Qırmızı lalədən yaxşı.

Özü bir türkmənin qızı,
Tamam gözəllərin gözü,
Tən köynəyi xas qırmızı,
Gülgəzli xarədən yaxşı.

Rəcəbəm, yandım atəşə,
Didələrim döndü yaşə,
Düşmüşdüm bir olmaz işə,
Qurtuldum bəladən yaxşı.

MÜŞTAQ OLMUŞAM

Bir zülfü şahmara, muyi-ənbərə,
Bir telli dilbərə müştaq olmuşam.
Bir şirin göftara, ləbi-kövsərə,
Dəhanı şəkkərə müştaq olmuşam.

Bir qəddi-ərərə, altın kəmərə,
Bir fəsli-bahara, sübhi-səhərə,
Bir bal dodaqlıya, sözü şəkərə,
Bir mahi-ənbərə müştaq olmuşam.

Bir nazlı canana, incə dilbərə,
Bir zaval yetirən şahi-sərvərə,
Bir nazik bədənə, pəri-peykərə,
Bir şux sitəmkara müştaq olmuşam.

BELƏ

Ay ağalar, yarın bağında bitmiş,
Bir narınc, bir turunc, bir də nar belə,
Yer salıbdı bəyaz gərdən üstünə,
Bir ilan, bir əqrəb, bir də mar belə.

El içində sirrim pünhan eylərəm,
Yandırıb canımı büryan eylərəm,
Dedim, dilbər, sənə qurban eylərəm,
Bir malı, bir canı, bir də sər belə.

Əlif qamətimi dal kimi bükən,
Mənəm ağlayıban qanlı yaş tökən,
Üç şey vardı cananımla mərc çəkən,
Bir bəyaz, bir kağız, bir də qar belə.

Çağıraram ərənləri, pirləri,
Arzularam bizim əziz yerləri,
Aramızdan keçən gizli sirləri,
Bir rəbbim, bir Rəcəb, bir də yar bilə.

AYRILSIN

O qaş ki səndədi, o göz ki səndə,
Mənim qəlbim necə səndən ayrılsın?
Xınalı başına bir şanə dəysin,
Siyah zülfün iki yandan ayrılsın.

Qəm əydi belimi, bilmədim çara,
Yalvarmaqdan öldüm gülüzlü yara,
Mənsur kimi məni çəkdilər dara,
Səkrəqiblər din-imandan ayrılsın.

Şişə könlüm sındı, səndən ayrıldım,
Elə bildim xanımandan ayrıldım,
Bir bülbüləm, gülüstandan ayrıldım.
Ayıranlar xanimandan ayrılsın.

Şikəstə Rəcəbəm, vərdişim budu,
Bu gündən beləyə, hər işim budu,
Gecə-gündüz mənim qarğışım budu,
Görüm Huri Pəhləvandan ayrılsın.

OLUR

Bir adam ki, qürbət elə düşəndə,
Adamlar içində əvvəl yad olur.
Yalvarmaq yaxşıdır, yenə mövlaya,
Bəndədən-bəndəyə nə imdad olur.

Xeyrü-şərdə kasıbı yan seçərlər,
Salam verməz, kölgəlikdən keçərlər,
Var günündə gəlib yeyib-içərlər,
Yox günündə qohum-qardaş yad olur.

Rəcəb deyər, dərdi-qəmi bilməyə,
Ağlayanda göz yaşını silməyə,
Darıxanda danışmağa, gülməyə
Kasıbın dövləti bir arvad olur.

SEVGİLİM

Nə amansız səfər oldu bilmədim,
Yollar yenə duman oldu, sevgilim.
Külək əsdi, qarlar vurdu sovurdu,
O gədiklər yaman oldu, sevgilim.

Sevgilim yadıma düşdü o vaxtı,
Sapasap bağrıma xəncəri taxdı,
Çaylar guruldadı, ildırım çaxdı,
Dünya axır zaman oldu, sevgilim.

Sinəmə çəkilən düyündü, dağdı,
Gözlərimdən axan qanlı fəğandı,
Gah qaranlıq çökdü, gah dolu yağdı,
Çaylar daşdı ümman oldu, sevgilim.

Dilim ahü-fəqan edərdi mənim,
Gözüm yaşı sel tək gedərdi mənim.
Rəcəb deyər, yamandı dərdim mənim,
Qəddim əydi, kaman oldu, sevgilim.

MƏN

Zülm eləyib məni saldın zindana,
Məyər nazlı yarın dustağıyam mən?
Əyyub kimi düşdüm bəla bəhrinə,
Vallah-billah hicran tapdağıyam mən.

Bahar fəsli bülbül gəşt edər bağda,
Gözəllər dolanır yaşılda, ağda,
Qoy otursun döşənəkli otaqda,
Telli bir gəlinin qonağıyam mən.

Qadir olan, budur sənə diləyim,
Hədərə getməsin ömrüm, əməyim,
Şikəstə Rəcəbəm, yoxdur köməyim,
Bir yalqız ağacın budağıyam mən.

AŞIQ QURBAN AĞDABANLI
(1846-1933)

GƏRAYLILAR

DOLANA-DOLANA

Bülbül idim, gülə həsrət,
Qaldım dolana-dolana.
Bu canımı eşq oduna
Saldım, dolana-dolana.

Nəzər sal didəm yaşına,
Yandım hicran ataşına,
Sədəqə yarın başına
Oldum, dolana-dolana.

Çəkdim firqət cəfasını,
Haçan sürdüm səfasını?
Can deyib, can qadasını
Aldım, dolana-dolana.

Artıb dərdim günü-gündən,
Əlli isə ötüb mindən.
Qurban deyər həsrətindən
Öldüm, dolana-dolana.

ARASINDA

Sevdiyim şamama bəslər,
Dolanar tağ arasında.
Xəstə düşsəm, könlüm istər,
Bir cüt nar, bağ arasında.

Canım eşq oduna yandı,
Sinən nazbalış, yorğandı,
Tüstüm asmana dayandı,
Bir qarlı dağ arasında.

Qulac zülfünü hörsünlər,
Tovuztək bəzək versinlər,
Qoy Qurbanı öldürsünlər
Sinənin ağ arasında.

KÖNLÜM

Nə qalıbsan qəm əlində,
Üstü duman olan könlüm,
Su üzündə gəmi kimi,
Gəşt eyləyib dolan, könlüm!

El köçüb, dalda qalıbsan,
Özünü oda salıbsan,
Xaraba tək boşalıbsan,
Nədən oldun talan, könlüm?

Sinəndəki kaman-oxdu,
Dövran zalım, cəfan çoxdu,
Qurban deyir yerin yoxdu,
Ay sərgərdan qalan könlüm!

QOŞMALAR

İNDƏN BELƏ

Ha dedim əllini, oldu səd həzar,
Neylər səksən, doxsan, yüz indən belə.
Tələtüm eylədi çeşmim dəryası,
Könül, qəvvas olub üz indən belə.

Qəm ləşkəri gəldi nihan yetişdi,
Eylədi könlümü viran yetişdi.
Ömrümün bürgünə xəzan yetişdi,
Açılmasın qəmli yaz indən belə.

Kimdi məskən edib qala dünyada,
Düşmüşəm qovğaya, qala dünyada,
Yazıram yadigar qala dünyada,
Dərdimi dəftərə yaz indən belə.

Uçurdum tərlanı, bazı görmədin,
Saraldı gülşənim, yazı görmədin.
Qurban, daha Sərvinazı görmədin,
Ağla, Sərvi deyə, gəz indən belə.

ALIBDI

Könül mahalını dolandı xəyal,
Ləşkər çəkib, qəm meydanı alıbdı.
Ölüb bağban, bitib qaratikanlar,
Bürüyübdü gülüstanı, alıbdı.

Dünyandan ovsanıb doymuşam cana,
Axır qərq olmuşam bəhri-ümmana,
Alışıb odlara oldum pərvana,
Tüstüm çıxıb asimanı alıbdı.

Bu dərd məni kim inanı, öldürür,
Möhnət aşkar, qəm pünhanı öldürür,
Dərdin, ay qız, bu Qurbanı öldürür,
Üzüb ürəyimi canı alıbdı.

YOXDU, YOX

Ağa, şikayətim var qulluğunda,
Zərrəcə sözümdə yalan yoxdu, yox.
Göstərdim cərraha, təbib-loğmana,
Dedilər: bu dərdə dərman yoxdu, yox.

Yardan ayrı dözə bilməm, neyləyim,
Alışır dəhanda, odlanır dilim,
Bu dərdin dərmanı ölümdür, ölüm,
Sağlığıma daha güman yoxdu, yox.

Kərəm qalıb mətləbləri bitirən,
Həsrətləri bir-birinə yetirən,
Ay Qurbanı qulluğuna gətirən,
Görərsən ki, bir də Qurban yoxdu, yox.

ÇƏTİNDİ

Təbib yox, cərrah yox, bulunmaz əlac,
Sağalmaz, qurtarmaz, yara çətindi.
Zülümdü mərd ola namərdə möhtac,
Yamandı ayrılıq, ara, çətindi.

Hələ var dağlarda Məcnun naləsi,
Gəlir qulağıma, kəsilmir səsi.
Qırılsa sağalmaz könül şüşəsi,
Bilməz, olsa para-para, çətindi.

Ağlaram, gözümdən tökərəm yaşı,
Sinəmi yandırır möhnət atəşi,
Sərrafə yükləmək gövhərsiz daşı,
Həmdəm olmaq biilqara çətindi.

Bəxtəvərdi öz bəxtindən yarıyan,
Xoş gün görüb, yarla birgə qarıyan,
Axır qanım, yoxdu yaram sarıyan,
Müşkül dərdə ola çarə, çətindi.

Tərsinə işləyir bu çərxi-dövran,
Tale sən deyəni demir hər zaman.
Qurban səyyad əldən uçurub tərlan,
Bir də gəlib düşə tora, çətindi.

GÖRMƏSİN

Könül istəklisi, illər ayrısı,
Həsrət gözüm necə canan görməsin?
Nə müddətdir, ay beymürvət balası,
Yaxşı dostu dost-mehriban görməsin?

Bir qulaq ver, ərzi-halımı deyim,
Sinə dəftərimin şərhin eyləyim,
Əsər, titrər möhnətindən ürəyim,
Dözmək olmur, yoxdur güman görməsin!

Qurban deyər: hər dəqiqəm il mənim,
Ağlayanda göz yaşımı sil mənim,
Düşəndə yadıma Qaratel mənim,
Allah göstərməsin, insan görməsin!

BİR-BİR

Qəmərüz, qadanı bu canım alsın,
Sallanıb gələndə ocağa bir-bir.
Hüsnünün nuruna səcdəyə ensin,
Olsun pərvanələr sadağa bir-bir.

Gözə qoruq yoxdu, dilə qadağa,
Canım gözəllərə qurban, sadağa.
Şəhdi-zülal, bal süzülüb dodağa,
Öpəsən, xal düşə buxağa bir-bir.

Yaşmaq altdan o tər buxaq görünür,
Əzizlənib kəlağaya bürünür.
Onu görən xəstə olur, sürünür,
Məcnun kimi düşür bu dağa bir-bir.

Kəsibdi səbrimi mahi-təbanı,
Qırmızı yanaqdan güllər utanı.
Öldür, qurtar, həsrət qoyma Qurbanı
Qohum-qardaş gəlsin sorağa bir-bir.

İTİRDİM

Gözüm ala gözlərinə baxanda
Çaşdı əqlim, din-imanı itirdim.
Mah camalın rübənd altdan çıxanda,
Tərkitdim cəsəddə, canı itirdim.

Müjgən xədəngində bulmadım nicat,
Günəş camalına hamı qaldı mat,
Gün üzünə oxumadım salavat,
Unutdum hesabı, sanı itirdim.

Qurban kaş öləydi olunca naşı,
Yolunda qoymadım can ilə başı.
Ağlar gözlərimdən tökərəm yaşı,
Sənin kimi şux tərlanı itirdim.

QAYITDI

Ah çəkib ağladım, verdilər xəbər,
Dərdimin nə ki var sayı, qayıtdı.
Zimistan könlümdə açıldı bahar,
Çərx vurdu gərdişin yayı qayıtdı.

Ömrümün bağında güllər açdılar,
Görən dedi: biməfadı, qaçdılar.
Bilmədim quş olub göynən uçdular,
Nə bir səsi, nə harayı qayıtdı.

Qurbanın peşəsi niyə firqətdi,
Fələk, mən çəkirəm bu nə zillətdi?
Üç gözəl var: – Sərvi, Pəri, Sədətdi,
Alagöz Sərvinin tayı qayıtdı.

BAL QAYMAĞINAN

Gözəl odur yanağında xal olsun,
Necə ki, yaxşıdır bal qaymağınan.
Əmlik əti, kabab ola duzunan,
Yiyəsən soğanla, ya sumağınan...

Yorğan qumaş ola, qu balınc-döşək,
Başlayıb zarafat edib, gülüşək...
Nə də bir kimsədən qorxuya düşək,
Dolanaq cahanda bu damağınan.

Gəlməsə bu işə güman danışma,
Aləmi aldatma, yalan danışma,
Qurban, bir noilə dolan, danışma,
İstərsən tərəqqi təmtərağınan.

ÜRƏYİM

Dostu-mehribanım, cisimdə canım,
Dolub laxta-laxta, qandı ürəyim.
Sənsiz sağlığıma yoxdu gümanım,
Nə tablaşdı, nə dayandı ürəyim.

Mən danışım, diqqət ilə qulaq as,
Dərdindən ağlaram, saxlayaram yas,
Neçə ki can sağdı, müxtəsər, xilas,
Zənbur pətəyitək şandı ürəyim.

Gözüm baxmağınan gözündən doymaz,
Ürəyim allanıb yalana uymaz.
Qurban, meylin dönməz, könlün soyumaz,
Alışdı cəsədim, yandı ürəyim!

GÖZƏL

Tutu kimi dillən, şirindil, danış,
Cahan gözəl, canan gözəl, can gözəl.
Sevgilimsən, kərəm eylə, gəl barış,
Mən eyləyim sənə qurban can, gözəl.

Səni görsə, cansızlara can gəlir,
Tamaşana huri, həm qılman gəlir.
Bir gündə Minaya[1] min qurban gəlir,
Qoy versin aşıq da bir qurban, gözəl.

[1] Dağ adıdır

Beymürvət, sitəmkar, nainsaf, zalım,
Nə olar dindirib soruşsan halım?!
İtib əqlim, çaşıb fikrim, xəyalım,
Olub zülfün kimi pərişan, gözəl.

Çəkər zənbur əsəl üstə şan şirin,
Ağız şirin, dodaq, həm dəhan şirin,
Olmaz dost dostuna mehriban, şirin,
Baxmasa mehriban-mehriban, gözəl.

Könlüm qəmgin, dərdin ilə gülmərəm,
Ağlayıram, göz yaşımı silmərəm.
Huri, pəri görməmişəm, bilmərəm,
Yoxdu sənin kimi bir insan, gözəl.

Yazıram kağızı yazı yandırır,
Eşqin odu əldə sazı yandırır.
Qurbanı qəmzəsi, nazı yandırır,
Gəl, məni öldürmə, əlaman, gözəl!

BİLMƏM

Səhər vaxtı bir ay çıxdı əcaib,
Aydı, sirrilahi, bu nədi bilməm?
Şöləsi aləmə oldu müəyyən,
Təşbehi göydəki günədi, bilməm.

Bir cüt günəş doğdu, amma yaxmadı,
Qamaşdı gözlərim, dürüst baxmadı,
Canım oda düşdü, yandı çıxmadı,
Nuri-təcəlladı, sinədi, bilməm?

Nəzər saldım, yəqin bildim, insandı,
Yoxsa bədirlənmiş mahi-təbandı?
Qurban deyər: şahbaz, tavar-tərlandı,
Göllərdə yaşılbaş sonadı, bilməm?!

NƏDƏNDİR

Tuti dilli, gül əndamlı mehriban,
Götürmürsən o yaşmağı, nədəndi?
Eşqin atəşinə yanır pərvanə,
Gəzdirirsən bu çırağı, nədəndi?

Yoxsulam, yanında varı görəndə,
Xəstəyəm, bağında narı görəndə.
Tərlan iqbalında sarı görəndə,
Könlüm olur qəm otağı, nədəndi?

Qurban, bu dünyada gözəl çoxdu, çox,
Hər birindən dəyib sinənə min ox.
Sızıldar yaralar, eylərəm ox-ox!
Demirsən sinənin dağı nədəndi?

BƏS AĞLAMAZMI?

Eşidəndə mən Məcnunun sədasın,
Tutub nalə dağı-daş ağlamazmı?
Açıb görsə bu sinəmin yarasın,
Kafər olsa, bağrıdaş ağlamazmı?

Yanar bağrım, kabab şişdə köz ağlar,
Həsrət qalan gözlərinə göz ağlar,
Saatda min, dəqiqədə yüz ağlar,
Töküb rüxsarına yaş, ağlamazmı?

Qurban gah ah çəkər, gah da nalanı,
O nazlı, qəmzəli gözəllər hanı?
Uçurub əlindən səyyad tərlanı,
Görəndə ovlağı boş, ağlamazmı?

YAXŞIDI

İnsana mərhəmət ola kəramət,
Baxtıla fərasət, kamal yaxşıdı.
Kişi atasının öz oğlu gərək,
Loxmadan, nütfədən halal yaxşıdı.

Tut nəzərdə sən bu çərxi-gərdişi,
Gecəli-gündüzlü yazınan qışı,
Arif olan özü bilər bu işi,
Eləmək dərindən xəyal yaxşıdı.

İnsan oğlu, mütləq inan, yəqin bil,
Mötəbər həqiqət əfsanə deyil.
Firqeyi-şeytana nəsihət deyil,
Təsir etməz zurna, qaval, yaxşıdı.

Dağıtma fikrini, itirmə huşu,
Məhək seçər qəlpi, qızıl, gümüşü.
Tamahkar sənətkar, bədnəzər qonşu,
Heç deməz: camaat, mahal yaxşıdı.

Qurban, yaz nəsihət, yadigar, ustad,
Yaxşını, yamanı eyləyir isbat.
Vicdansız kişiyə həyasız arvad,
Deyir: zəhmət pisdi, sığal yaxşıdı.

VAXTI

Bir canda ki ola sümük azarı,
Oynar, durmaz zurna, dəf olan vaxtı.
Yaxşı-yaman bilməz, danışar hədyan,
Əqli sərsər olar, kef olan vaxtı.

Bağban bar bəsləsə, barı çox istər,
Xəstə meyli-qarı, narı çox istər.
Acgöz doymaz, dövlət-varı çox istər,
Şadlanar dövlətə, nəf olan vaxtı.

Qurban, insan varmı dərdsiz, vərəmsiz,
Mətləb yazmaq olmaz kağız, qələmsiz.
Qul xətasız olmaz, ağa kərəmsiz,
Bağışlar əlbəttə, səhv olan vaxtı.

OLMAZ

Səyə salam vermək insafdan deyil,
Əqrəbə, ilana sarışmaq olmaz.
Silaha aldanmaq, əbəs öyünmək,
Xaini-xəbisnən duruşmaq olmaz.

Təəccübəm bu qurğuya, bu fəndə,
Nahaq yerə qəza salır kəməndə,
Yazıq canım əhli-arif görəndə,
Söyləyib dərdini danışmaq olmaz.

Qurbanam yamana qol qoyam çətin,
Demərəm dünyada bir kəsin bədin,
Dilim qadağandı, nə danış, nə din,
Nə sirr açmaq, nə söz danışmaq olmaz.

MƏN

Füqarə – mən, biçarə – mən, yazıq – mən,
Bimürvət – sən, sitəmkar – sən, zalım – sən.
Nə müddətdi didarına həsrətəm,
Səbəb nədi soruşmursan halım sən?!

İzzəti-şövkətim, həm abidarım,
Yaquti-əhmərim, dürrüm, mirvarım,
Könlüm istəklisi, nuri-didarım,
İqbalım, dövlətim, hər cəlalım – sən.

Yandırıb odlara alışdır məni,
Gərdənə dolandır, sarışdır məni,
Nolar bir dindirib, danışdır məni,
Qurban quldu, qoy yanında qalım mən.

GÖZLƏR

O süzgün baxışın əqlim apardı,
Qəsd elər canımı can ala gözlər.
Tel çilənib ay qabaqda görünür,
Qələm qaş altından o ala gözlər.

Yanağıntək əhmər gül də görmədim,
Ləbin kimi şirin bal da görmədim,
İnan, billah, heç gözəldə görmədim
Ola sənin kimi piyala gözlər.

Sədrin bağı-İrəm, bənzər cənnətə,
Dəhan abi-kövsər, dönüb şərbətə.
And verirəm İncil, Quran, Tövrətə,
Qurbanı gətirmə zavala, gözlər.

QOŞA-QOŞA

Nazlı yar bağçanı seyr edib gəlir,
Tutubdu dəstində gül qoşa-qoşa.
Bad əsəndə zülfü bənzər sünbülə,
Lalə yanağında xal qoşa-qoşa.

İki mələk gördüm, biri Sərvinaz,
Yeriyəndə yerə eylər ərkinaz.
Mələkmənzər, şirindilli, xoşavaz,
Düzülüb üzünə tel qoşa-qoşa.

Nələr gəldi bu Qurbanın başına,
Rəhmin gəlsin gözlərimin yaşına.
Bir dağ çəkdin ürəyimin başına,
Bu dağı sinəmdən al qoşa-qoşa.

VAR

Dinləyin sözümü, arif olanlar,
Söyləyim, bir neçə şikayətim var.
Sərraf olub sözdən mətləb bilənlər,
Dastanım, dəftərim, hekayətim var.

Bir insanda zülüm, bu zəhmət ola,
Çətin ki dincələ, ya rahat ola;
Mürvətdimi belə ədalət ola,
Hər gündə bir məhşər qiyamətim var.

Möhnət odu yazıq canı yandırar,
Dərdi-hicran hər insanı yandırar,
Şəm şöləsi pərvananı yandırar,
Gecə-gündüz yanmaq bir adətim var...

Qurbanam, can sənə qurban eylərəm,
Qurğudan, yazıdan çox gileyliyəm,
Səhralarda bir Məcnuni-Leyliyəm,
Sinəmi yandıran qəm-möhnətim var.

TƏCNİS

MƏNİ

Tərlandı baxışın, gözün can alan,
De çək qaynağına, di darə məni.
Hərdən şölələnir o gül camalın,
Tel deyir şanəyə: di darə məni.

Zülflərintək olmaz əqrəb, nə də mar,
Çalmaq üçün yoxlayırsan nə damar?
Qaşqabaqdan zəhər deyil, nə damar,
Öldür, qoyma həsrət didarə məni.

Yar, gərdənin ər-ər kimi minalə,
Bülbülə gül neylər olsa min alə.
Bir canım var qəmzən istər min alə,
Qurbanam, çəkdirmə di darə məni.

DİVANİ

GEDƏR

Bu cahanda istədiyim mehriban əldən gedər,
Taci-taxtı, cahı-cəlal, şövkət-şan əldən gedər.
Bel bağlama bu fənaya, hərgiz etmə etibar,
Bir nəfəsdir, bir qəfəsdir, cismi-can əldən gedər.

Yerə, göyə qərar qoyan, qadiri-sübhanı bil,
Hər kəsə yoldaş olmayan, yaxşı dostu tanı, bil.
Əyrilərə qurulacaq ədalət divanı, bil,
Namərdlərə olmaz onda bir güman, əldən gedər.

Qurban deyər bəndəsindən bir xaliq üz göndərə,
Qurğusunu yana əyə, çərxini tez döndərə,
Arifə bircə işarə, nə lazım söz döndərə,
Bir nadan mətləb qanınca, yüz qanan əldən gedər.

AŞIQ MEHDİ
(1838-1905)

GƏRAYLI

SƏNSİZ

Dilbəra, sən gövhərkansan,
Mərcanı neylərəm sənsiz?
Cahanda mətləbim sənsən,
Cahanı neylərəm sənsiz?

Əyər olsa yüz üzü gül,
Danışsa da yüz şirin dil,
Könül olmaz yenə mayil,
Mən anı neylərəm sənsiz.

Mehdinin dilbəri sənsən,
Dilinin əzbəri sənsən,
Sərdarı, sərvəri sənsən,
Soltanı neylərəm sənsiz.

QOŞMALAR

OLA

Gözəl, hərcayiyə gözəl deməzlər,
Gözəldə xoş nişan, ay qabaq ola.
Danışanda şirin-şirin danışa,
Ağzı, dili nazik, bal dodaq ola.

Əylənib yanında sirrin danışa,
Süzgün-süzgün baxıb narın danışa,
Danışanda elə dərin danışa,
Ariflər yanında xəfdamaq ola.

Sərv tək qaməti xub ola bəstə,
Gərdənində zülfü dəstəbədəstə,
Ucları tökülə ayağı üstə,
Sərasər əndamı ağ, yuşmaq ola.

Mehdi deyər, ola dodağı püstə,
Sədrində baş vermiş yeni rubəstə,
On dördündə ola gözəl nörəstə,
İşin, gücün onnan oynamaq ola.

AĞLARAM

O sərv qamətin, əmbər tellərin,
Tamaşası yada düşdü, ağlaram.
Hicran ələmində xədəng oxları,
Dəmbədəm bağrımı deşdi, ağlaram.

Ah çəkibən ciyərimi sökməkdən,
Yaş yerinə gözlərim qan tökməkdən,
Bir gözəlin həsrətini çəkməkdən,
Ömür getdi, günlər keçdi, ağlaram.

Günbəgün artıbdır möhnətim, dərdim,
Eşq ilə boyandı çöhrəyi-zərdim,
Mehdiyəm, gözümdə qan oldu mərdim,
Qanlı yaş başımdan aşdı, ağlaram.

GEDİRSƏN

Sallana-sallana gedən nazənin,
Nə dönübsən bədir aya gedirsən?
Eşq əhlinin yenə cavan canını,
Nə salıbsan yüz qovğaya, gedirsən?

Yanaqların oxşar gülü xəndana,
Dodaqların oxşar ləlü-mərcana,
Camalın tən edər Yusif Kənana,
Nə dönübsən məhliqaya, gedirsən?

Sən gedirsən, canım gedir dalınca,
Ay qız, səndən heç doymaram ölüncə?
Gedirsən gözlərəm, ha sən gəlincə,
Bir vədə ver, nə il, aya gedirsən?

Naz ilə yanından ötmə Mehdinin,
Şad könlünü qəmnak etmə Mehdinin,
Gözü görə-görə getmə Mehdinin,
Tut qolundan at dəryaya, gedirsən?

Dİ DANIŞ

Uca boylu, qəddi nazik Münəvvər,
Ala gözlü mehribanım, di danış.
Sən danışsan mənim könlüm şad olar,
Mürvət eylə çıxdı canım, di danış!

Bayğu gələr, məskən salar sənə yar,
Sən hurisən, sən pərisən mənə yar,
Sən çor deynən, mən can deyim yenə yar,
İnsafa gəl zərəfşanım, di danış!

Mən Mehdiyəm, gözlərimin ha yaşı,
Səgrəqiblər artıq desin ha yaşı,
Ağlamaqdan gözlərimin ha yaşı,
Çürüdübdür giribanım, di danış!

MOLLA CUMA
(1854-1920)

GƏRAYLILAR

QABAĞINDA

İsmi-Pünhan yazılıbdır,
İsmi əzəm qabağında.
Qəndi-şəkkər əzilibdir,
Ol sənin bal dodağında.

İncə belin surahlanır,
Xumar gözün gümrahlanır,
Bəyaz xallar fərəhlənir,
Gülə nisbət yanağında.

Cumanın şahı sərdarı,
Elə, günə havadarı,
Bir qədəm bas bizə sarı,
Bərəkət var ayağında.

ZÜLFÜN

Hər səhərdən sığallayıb,
Cərgə düzdün yüzə zülfün.
Gah darayıb, gah yağlayıb,
Xoş göstərdin gözə zülfün.

Zülfün kəməndin atmağa,
Gecə-gündüz oynatmağa,
Müştəriyəm, gəl satmağa,
Birin allam yüzə zülfün.

Zülfün çəkəndə şanaya,
Dönüb yaşılbaş sonaya,
Batırıban əl xınaya,
Boyadıbsan tazə zülfün.

Zülfün kimi ilan olmaz,
Şair sözü yalan olmaz,
Burda qədrin bilən olmaz,
Dur, aparaq bizə zülfün.

Zülfün gərdəninə yayıb,
Görənləri bihuş qoyub,
Molla Cuma tərif deyib,
Götürübdür sözü zülfün.

QOŞMALAR

PEŞKƏŞDİR

Bir zülfü ənbərə, qaşı peykərə,
Bir gözü xumara canım peşkəşdir.
Bir ruxi-əhmərə, yüzü qəmərə,
Bir dişi gövhərə canım peşkəşdir.

Bir ləbi şirinə, dili şəkərə,
Bir sinə mərmərə, şahı heydərə,
Bir qəddi ərərə, tazə növbərə,
Bir belə dilbərə canım peşkəşdir.

Bir ismi əzbərə, əndamı tərə,
Bir cavan bəstərə, gözəl düxtərə,
Bir əşki əxtərə, çox sitəmkarə,
Cumayam, aşkara canım peşkəşdir.

DEMİŞƏM

Həsrətin çəkdiyim, gəl, gözləyirəm,
Zülmlə hicrana qəhər demişəm.
Mən sənin vəsfini qərib ellərdə,
Hər axşam oxuyub, səhər demişəm.

Qaşların qələmdir, gözlərin büllur,
Dodağın meyindən badələr dolur,
Yanağın qönçədir, əl dəysə solur,
Üzünə, alnına qəmər demişəm.

Dişlərin incidir, dürdür, zəbərcət,
Dəhanın şirindir – bal ilə şərbət,
Ol dilin, damağın şəkərə nisbət,
Sinənin üstünə mərmər demişəm.

Yaxın dur, boynuna qolum dolayım,
Sinənin üstündə bihuş qalayım,
Ol nazik canına köynək olayım,
Sərvi tək qəddinə ər-ər demişəm.

Dolanım başına, buğda rəngli yar,
Tapmaram dünyada sənə barabar,
Cumayam, eşqinə oldum giriftar,
Hansı gün ayrılsan məhşər demişəm.

DİDARINA

İsmi Pünhan, ol gözəllik səndə var,
Şux qəzəl danışır dil didarına.
Süsən-sünbül, lalə, nərgiz bağda var,
Heç biri bənzəməz gül didarına.

Dostdan dönmək layiqmidir şanına,
Məhəbbət həşiri dursun canına,
Hər yetən əğyarı qoyma yanına,
Qorxuram dəydirə əl didarına.

Sərində sövdadır həzar Cumaya,
Yığıbsan dərd-qəmi, azar Cumaya,
Bir busə verginən bizar Cumaya,
Bu məzlum aşiqdir bil didarına.

BU YERLƏR

Mat qalmışam bu fələyin işinə,
Qumral gözlüm səkən yerdi bu yerlər.
Sərxovlanıb, dönüb tavuz quşuna,
Canıma od tökən yerdi bu yerlər.

Bahar fəsli imrağ kimi çağlayıb,
Eşq oduna cigərimi dağlayıb,
Mənsur kimi qollarımı bağlayıb,
Məni dara çəkən yerdi bu yerlər.

Molla Cuma, baxma, düşər gülə tər,
Dərdim çəkməz dəvə olsa yüz qatar.
İsmi Pünhan Şeyx Sənandan beş betər
Əlif qəddim bükən yerdi bu yerlər.

KİMDİR?

Ey ağalar, sizdən xəbər sorayım,
Dərdimə dərd qatan burada kimdir?!
Siz allah, göstərin onu görəyim,
Qəlbimi saxlayan qarada kimdir?!

İkimiz danışaq, siz qulaq asın,
Görün zəhmətimi, eşqin bəlasın.
Alıban başına yarın sövdasın
Nahaq bədnam olan arada kimdir?!

Yüz dərman tapıldı çarəmdən qeyri,
Yüz dərdlər sağaldı yaramdan qeyri,
Fərhad ilə Məcnun, Kərəmdən qeyri,
Cuma tək yetməyən murada kimdir?!

DİVANİ

KÜSMÜŞƏM

İsmi Pünhan, mən ki səndən əzəl başdan küsmüşəm,
Xumar gözdən, ay qabaqdan, qələm qaşdan küsmüşəm.
Üstdən əziz bayram ötdü, gəlib təmənnəşmədin,
İncə beldən, sərvi boydan, al qumaşdan küsmüşəm.

Gün görərmi bu dünyada mən kimi dərdə düşən,
Eşq odundan köynək geyib, içərdə bağrı bişən,
Öz yarını yad eyləyib özgələrlə danışan
Bal dəhandan, şux zəbandan, inci dişdən küsmüşəm.

Molla Cuma hicran çəkir, hal-əhvalın sormursan,
Xidmətində qulam deyir, nəçün layiq görmürsən,
Sail olub yalvarıram, bircə busə vermirsən,
Onun üçün tər buxaqla mərmər döşdən küsmüşəm.

MÜXƏMMƏS

BƏS NƏDİR?

Yar, sənin hilal qaşın kaman deyilmi, bəs nədir?
Ox kimi kirpiklərin peykan deyilmi, bəs nədir?
Lalə tək yanaqların taban deyilmi, bəs nədir?
Süzülür ol gözlərin, məstan deyilmi, bəs nədir?
Dişlərin inci, sədəf, mərcan deyilmi, bəs nədir?

Yanıram atəşinə, odun mənə çox güc eylər,
Sərimə sevda verib bu başımı bil gil eylər,
Eşqinə düşən sənin ölməsə də, tez qocalar,
Barı bir insaf edib, qoltuğuna al gecələr,
Xəstəyə bir cüt narın dərman deyilmi, bəs nədir?

Bir para axmaq adam bu dünyada mal cəm eylər,
Yarı sən tək olmasa, nə gün görər, çox qəm eylər.
Nicatı var ol kəs sənnən sabahatan dəm eylər,
Hərdənbir seyrə çıxar, köynək altdan ağ məmələr,
Kəşt üçün mərmər sinən meydan deyilmi, bəs nədir?

Maşallah, göz dəyməsin, göyçəyisən göyçəklərin,
Necə ki, artıqdı gül, yanlarında çəpəklərin,
Düzüban sərmə kənar bəzəyibsən ləçəklərin,
Acıqlı şahmar kimi, qıvrılıbdır birçəklərin
Qorxuram dişlər üçün, ilan deyilmi, bəs nədir?...

Yazığam, ey sevdigim, uzağa atma daşımı,
Ağladım leyli-nahar tökməginən göz yaşımı,
Yüz cürə mahna edib tərsə salırsan işimi,
Ya yetir muradımı, ya yıxıban kəs başımı,
Yolunda Molla Cuma qurban deyilmi, bəs nədir?

ZODLU USTA ABDULLA
(1865–1943)

GƏRAYLILAR

GƏLİRƏM MƏN

Ala gözlü, nazlı dilbər
Dedi: dur get gəlirəm mən.
Dedim: ay qız, dərdim çoxdu,
Dedi: dərman bilirəm mən.

Göldən uçurdum sonanı,
Bu yerdə qoydum binanı,
Gündə gördüyüm cananı,
Görməyəndə ölürəm mən.

Bağçalarda barım ola,
Alma, heyva, narım ola,
Bir dərd bilən yarım ola,
Ona qurban oluram mən.

Vəfasız olmaz yalanın,
Ağlı olmaz çox gülənin,
Abdullayam dərd bilənin,
Yüz il keçsə quluyam mən.

VAR DEMƏKDİ

El nəzəri üstündəsə,
Sənə dövlət, var deməkdi.
Baxma düşüb dən saqqala,
Dağ başında qar deməkdi.

Kəc baxarsa sənə zaman,
Dözməlisən ovsanmadan,
Qəfəsdəsə tülək tərlan,
Oylağında sar deməkdi.

Fikir vermə hədyan sözə,
Şəfa verər elm gözə,
Babalardan qalan bizə,
Namus, qeyrət, ar deməkdi.

Şər işlərdən gəl ol qıraq,
Həqiqət axtaran qoçaq,
Qulağınla eşit ancaq,
Ya gözünlə gör deməkdi.

Sənətkarın var hörməti,
Çəkməz kimsədən minnəti,
Kimin olsa səxavəti,
Mövlam ona yar deməkdi.

YERİ

Bir zamanlar at oynadıb,
Gəzdi bəylər bizim yeri.
El oyandı bu qəflətdən,
Heç qalmadı dözüm yeri.

Lenin kimi var köməyim,
Haqdan düzəldi diləyim,
İşıq tapıbdır eynəyim,
Yaxşı seçir gözüm yeri.

Yerdən duman çəkilibdi,
Torpaq bizə əkilibdi,
Qaçaq-quldur çəkilibdi,
Bir dolanım, gəzim yeri.

Qırdıq bəyi, tutduq xanı,
Onlardan göstər bir hanı?
Sən gəl dindir Abdullanı,
Yaxşı ötür sözüm, yeri.

NEYNİM?

Ay ağalar, ay qazılar,
Mən bu dərdə dözüm, neynim?
Düşdüm qəmin dəryasına,
Qəvvas olum üzüm, neynim?!

Dərdim olubdu ziyada,
Bir yetən yoxdur fəryada.
Arsız, qəmli bu dünyada
Heç bilmirəm gəzim, neynim?!

Abdulla düşüb azara,
Dərdi yetib səd-hazara.
Qoyan yoxdur bir məzara,
Öz əlimlə qazım, neynim?!

LAYIQDIMI?

Mənim kimi bülbül olmaq
Güllərinə layıqdımı?
Aşığı sürgün eyləmək
Ellərinə layıqdımı?

Köynəyin humayın ağı,
Həşyəsi cənnətin bağı,
Sinəmə çəkirsən dağı,
Əllərinə layıqdımı?

Ağladırsan, güldürürsən,
Eynim yaşın sildirirsən,
Abdullanı dindirirsən,
Dillərinə layıqdımı?

ARASINDA

Səhərdən sərvi boylunu
Gördüm bağlar arasında.
Tütünüm ərşə dayandı,
Yandım yağlar arasında.

Yandım yetirən olmadı,
Mətləb bitirən olmadı,
Öldüm, götürən olmadı,
Qaldım ağlar arasında.

Eşqin firqətindən çaşdım,
Qəza tutdu mən dolaşdım,
Məcnun kimi dağdan aşdım,
Gəzdim dağlar arasında.

Abdullayam, dərdim çoxdu,
Məni sirab edən yoxdu,
Xəstə düşdüm dərman yoxdu,
Neçə sağlar arasında.

DİLBƏR

Bir ərzim var qulluğuna
Ay xalları qoşa dilbər.
Xəstə canım qurban olsun
Həmi gözə, qaşa, dilbər.

Ağlamışam gülməmişəm,
Göz yaşımı silməmişəm,
Qədrini mən bilməmişəm,
Yeni düşdüm başa, dilbər.

Siyah zülfləri kəmənddi,
Yarın dodaqları qənddi,

Dərdimməndsən, dərdimənddi,
Yaşa dilbər, yaşa dilbər.

Axır gözün qanlı yaşı,
Nə qohumu, nə qardaşı,
Qürbət eldə fağır başı,
Dəydi daşdan daşa, dilbər.

Eynim sənsən, qanım sənsən,
Din ilə imanım sənsən,
Cəsədimdə canım sənsən,
Ərkim çatar başa, dilbər.

Abdullayam, çox ağladım,
Sinəm başını dağladım,
İsminə dastan bağladım,
Görün, gəlib xoşa, dilbər.

QOŞMALAR

TƏKİ

A beymürvət, cavan qəddim əyibsən,
Alıbsan canımı alası təki.
Qələm qaşın, ay qabağın, gül üzün
Açılıb dağların lalası təki.

Dal gərdənə həmayıllar taxıbsan,
Qaşa vəsmə, gözə sürmə yaxıbsan.
Müjgan oxun sinəm üstə çaxıbsan,
Alıbsan Xeybərin qalası təki...

Baxtımın qapısın bağlar qoyubsan,
Çəkib sinəm üstə dağlar qoyubsan,
Sən ki Abdullanı ağlar qoyubsan,
Çəkirəm Kərəmin nalası təki.

QAYITDI

Bir maral balası, tərlan cilvəli,
Gəldi məni gördü, baxdı, qayıtdı.
Pünhanı göstərdi gül camalını,
Tər üzünə şəbnəm yaxdı, qayıtdı.

Mən görmüşəm gözəllərin çoxunu,
Amma olmaz belə boyu-buxunu.
Müjganından çəkdi xədəng oxunu,
Yaralı sinəmə çaxdı, qayıtdı.

Gözləyərkən gözlərimə sataşdı,
Mürdə canım eşq oduna tutuşdu.
Utanıban qiya baxıb ötüşdü,
Abdullanın cismin yaxdı, qayıtdı.

OLAN VARMI?

Aşıq Ələsgərin vəfatı münasibətilə

Arifi-müəzzəm, ey nuri-eynim,
Mənim təki ömrü bad olan varmı?
Qohumdan, qardaşdan, dostu-aşnadan,
Xəyalı dolanıb yad olan varmı?

Hər kəs özü mətləbini qanmayan,
Dünya cifəsini səhl sanmayan,
Fələk əli dəyib çərxi dönməyən
Ləzzəti dahanda dad olan varmı?

Dağlar qan ağlayır düşüb borana,
Daha bundan sonra çətin yarana,
Göyçə qana batsın qaldı virana,
Daha Ələsgər tək ad olan varmı?

Mənim üçün nə ata var, nə ana,
Arif gərək bu mətləbi tez qana,
Minək qəm atına, çıxaq cahana,
Görək bu dünyada şad olan varmı?

Hac Əliş ağanı talan elədin,
Səməd bəyi gördün yalan elədin,
Bizi viran bağa bağban elədin,
Qan ağla, sızılda ha, dolan varmı?

Günbəgündən bağlayıram qəm, vərəm,
Könül sakit olub heç tapmır aram.
Nə Şirin, nə Fərhad, nə yazıq Kərəm,
Abdulla tək cismi od olan varmı?

MƏNƏM

Arif məclisində, qanan yanında,
Hər sözü dillərdə yayılan mənəm.
Eşqin atəşidi yanan canımda,
Qəza qamçısilə döyülən mənəm.

Taqət olmaz qəriblərin dizində,
Mürvət olar mərd igidin özündə,
Səksənində, doxsanında, yüzündə,
Qəflət yuxusundan ayılan mənəm.

Yatmış idim baxtım məni oyatdı,
Qəzanın qədəri kəməndin atdı,
Mahalım Göyçədi, sakinim Zoddu,
Sənətkar Abdulla deyilən mənəm.

NİŞANASI

Duman, çiskin qalxdı ərşi-səmaya,
Görünmür gözünə dağ nişanası.
Əcəl gəlib, ömür gedib fənaya,
Yoxdur bu yerlərdə ağ nişanası.

Duman, çiskin məni qara yetirdi,
Çəkdi Mənsur kimi dara yetirdi,
Müxənnət cismimə yara yetirdi.
Yoxdu bədənimin sağ nişanası.

Fələk bərham etdi, pozdu növrağı,
Dağ üstən çəkibdi sinəmə dağı,
Bülbül fəğan edər, dolanar bağı,
Görəndə gül üstə zağ nişanası.

Dastan olum, necə düşüm dillərə,
Məcnun kimi fələk saldı çöllərə,
Yandı qara bağrım döndü küllərə,
Yoxdu ürəyimdə yağ nişanası.

Abdullayam, əlim əldən üzüldü,
Seyrəqublar dörd yanıma düzüldü.
Fələk vurdu, növrağımız pozuldu,
Yoxdu gülşənimdə bağ nişanası.

EYLƏSİN

Bir kimsə yox izhar edəm dərdimi,
Deyəm durub mənə dərman eyləsin.
Rəhm qılsın bu aşiqin halına,
Şikəstə könlümü xəndan eyləsin.

Gecə-gündüz çağırıram mən tarı,
Könlüm mətləbini sən yetir barı.

Hər kimin ki, vardı vəfalı yarı,
Şirin canı ona qurban eyləsin.

Mən fəqirə çox eylədin sitəmi,
Günbəgün artırdın möhnəti, qəmi,
Xar olubdu qızılgülün həmdəmi,
Şeyda bülbül ahı-fəğan eyləsin.

Sənə qurban olum, gözəllər xubu,
Mina gərdən, sinə mərmər, qədd tubu,
Bir aşiqin ayrı düşsə məktubu,
Yaxa yırtsın dildə giryan eyləsin.

Ağ üzə düşübdü siyah xalları,
Əcəb açılıbdı qönçə gülləri,
Sənətkar der müşki-ənbər telləri,
Töksün sədri üstə əfşan eyləsin.

GÜLƏ-GÜLƏ

Uca boylu, şirin dilli bəxtəvər,
Qalırsan qaydıma qal gülə-gülə.
Gecə-gündüz mən çəkirəm ahı-zar,
Alırsan canımı al gülə-gülə.

İnciyəm gözəlin beyilqarından,
Hazar müxənnətin etibarından,
Hicran sənətindən, qəm anbarından,
Yükləyibsən mənə bol gülə-gülə.

Əyləşəydim, yar yolunda qalaydım,
Yalvaraydım, bir könlünü alaydım,
Abdullayam, bir az cavan olaydım,
Salaydım boynuna qol gülə-gülə.

ZÜLFLƏRİN

O qızıl şananı alıb dəstinə,
Nazik əllərinlə dara zülflərin.
Çin-çin eylə dal gərdənə həmayıl,
Məlhəm eylə, bağda yara zülflərin.

Gözəl, görməmişəm belə bir maya,
Qoy söz deyim, a gərdəni minaya,
Camalın bənzətdim günəşə, aya,
Saldı məni ahı-zara zülflərin.

Bu baxışın neçə canlar alacaq,
Almasa da qeyri hala salacaq,
Şahmar kimi çoxlarını çalacaq,
Nə göyçək yaraşır qara zülflərin.

Mələklər şahısan, behişt hurisi,
Elə bildim sənsən göylər pərisi,
Bədirlənmiş aydı üzün şöləsi,
Rəhm qılsın günahkara zülflərin.

Sənətkar Abdulla oldu divana,
Kafər görsə o da gələr imana.
Mən ata, sən bala, düşmə gümana,
Çəkdi məni bu bazara zülflərin.

YAVAŞ-YAVAŞ

Səhərdən bir gözəl oxladı məni,
Dağıldı üzünə tel yavaş-yavaş.
Dedim bir kərəm et, dərdimi deyim,
Qoymadı açmağa dil yavaş-yavaş.

Əllər incə, tellər incə, dil incə,
Canım çıxdı dəsdinə gül verincə,
Cəfa çəkib böylə gözəl görüncə,
Mən deyim halımı bil yavaş-yavaş.

Böylə gözəl doğmuyubdu anası,
Dağlar maralıdı, çöllər ahusu,
Budur Abdullanın səndən arzusu,
Bir əyləş yanımda, gül yavaş-yavaş.

XANIM

Dürdanəsən, xoş gəlibsən cahana,
Qaşların bənzəyir cahana, xanım.
Söylərəm vəsfini bil ki, hər yana,
Daşıb qərq etməsin ümmana, xanım.

Bəxtəvər xəlq edib səni yaradan,
Bəzəyin, düzəyin şaldan, xaradan,
Silkənib sonatək çıxsan aradan,
Elə bil gələrəm imana, xanım.

Mənim can deməyim layiqdi sana,
Büllur buxağından pay çıxar mana.
Bu qoca vaxtımda gəlləm imana,
Abdulla yolunda divana, xanım.

AĞLAMA

Nə sevda tapıbsan, divanə könlüm,
Əlbət gedənlərin gələr, ağlama,
Yaradan yar olar, bir nəzər salar,
Nabələd yolları bular, ağlama,

Nə gəzə bilmirsən, dözə bilmirsən,
Oxuya bilmirsən, yaza bilmirsən.
Tutub səni qəhri-qəza bilmirsən,
Ağlayanlar bir gün gülər ağlama.

Bu gen dünya Abdullaya dar olsa,
Zərrəcən nəzəri xirdigər olsa,
Eyni yaşı çeşmələrdən car olsa,
Bir gün göz yaşını silər ağlama.

BİLƏ

Hər yetən gözələ gözəl demərəm,
Gözəl odur yar qədrini yar bilə.
Bülbül güldən ötrü bağı dolanır,
İnsaf deyil ləzzətini xar bilə.

Şeyda bülbül yuvasından çaşanda,
Eynim yaşı mövca gəlib coşanda,
Sevgi sevgisindən ayrı düşəndə,
Sağlığı canına ahızar bilə.

Hər kəs özü çəkər xəcalətini,
Görmədim namərdin ədalətini,
Dost gərək dostunun əmanətini,
Saxlaya yanında, yadigar bilə.

Bil, Abdulla dəryalara dalıbdı,
Şikəstə könlünü zülmə salıbdı,
Aşıq qardaş, əlac sənə qalıbdı,
Dost gərək dostunu ümidvar bilə.

YOL KƏNARINDA

Səhər şikarında çıxdı qarşıma,
Bir cüt gözəl gördüm yol kənarında.
Bülbül güldən ötrü bağı dolanır
Ömrünü qoyubdu gül kənarında.

Məhbus edir göydə gəzən quşları,
Dağıdır xəyalı, alır huşları.
Ucu əbrişimli siyah saşları.
Cığa pərvazlanır tel kənarında.

Bağban olan gül becərər bağlarda,
Xəstə olan gözü qalar sağlarda,
Ovçu olan gedər gəzər dağlarda,
Abdulla dolanır el kənarında.

QARIŞAR

Mərdlərin içindən seçin namərdi,
İlqarsızdı gedib elə qarışar.
Kökündən çıxardın qara tikanı,
Hayıfdı, ətirli gülə qarışar!

Alçaq adam qarışdırar aranı,
Bayquşda adətdi sevər viranı.
Odun sayma qarağanı, turanı,
Yandırsan, köz olma, külə qarışar.

Ağac bəlli olar yaxşı barından,
İyidlər seçilər düz ilqarından,
Abdulla, qal qurma dağlar qarından,
Yazda gün əridər, selə qarışar.

YAVAŞ-YAVAŞ

Ala gözlüm, halallaşaq ayrılaq,
Yadıma düşübdü el yavaş-yavaş.
Can ayrılır, cəsəd qalır viranə,
Aç siyah zülfünü, yol yavaş-yavaş.

Götürüb dəstinə gəzdirsən ağı,
Mən olmuşam ala gözün dustağı,
Məhşər, qiyamətdi ayrılıq çağı,
Dolansın boynuma qol yavaş-yavaş.

Sərinə qoyubsan qızıldan tacı,
Düşüb Abdullanın bil ehtiyacı,
Müddətdi xəstəyəm, dahanım acı,
Süzülür ləbindən bal yavaş-yavaş.

YAD AĞI GƏZƏR

Səyyad olan sehrə çıxar səhraya,
Ya tərlan axtarar, ya dağı gəzər.
Eşqin atəşini salar canına,
Çəkər sinəsinə ya dağı gəzər.

Dildə zikr eyləyən sinaya gələr,
Ayaqdan can çıxar sinaya gələr,
Əzrayıl qeyznən sinaya gələr,
Yığılan qəssallar yad ağı gəzər.

Dağda sehr eyləyən şir indi hanı?
Dahanda ləzzəti şirindi hanı?
Sənətkar axtarır: Şirindi hanı?
Qatar ləzzətinə yad ağı gəzər.

A YAĞI ZÜLFÜN

A bimürvət, məni candan eylədin,
Göründü gözümə a yağı zülfün.
Baş dayanar, qəhri çoxdur dünyada,
Toxunsa yandırar ayağı zülfün.

Fərhad cəfa çəkdi Şirin yerində,
Ürbah dura bilməz şirin yerində,
Şirin ixtilatın şirin yerində,
Qatdı şərbətinə ay ağı zülfün.

Köçdü yaylaqlara qarabağlı yar,
Əsər gəldikləri qara bağlayar,
Dost arılsa dostu qara bağlayar,
Çəkər al üstündən ay ağı zülfün.

Abdullayam, yönüm düşdü hər yana,
Pərvanə tək eşq oduna hər yana,
Siyah zülfün san çəkibdir hər yana,
Coşub əbru kimi ay ağı zülfün.

SİN ƏSƏR

Oyaq isən çək xədəngin ayağa,
Əlikdisə gəldi-keçdi sin əsər,
Eynim yaşı leysan təki ayağa,
Can ayrılar, cəsəd gedər, sin əsər.

Ərşdən aşağıya enəndə yana,
Eşq atəşi cana enəndə yana,
Əzrayıl qeyznən enəndə yana,
Alışar cəsədin yanar sin əsər.

İgid gərək şər işlərdən səksənə,
Qədd əyilsə, deyəcəklər sək sənə,
Sənətkarın sini keçir səksənə,
Sər sərinə gətirəcək sin əsər.

YARAĞINI SƏN

Səhər şikarında, sehri-gülşənə,
Alıbsan dəstimin yarağını sən.
Şirin danışanda, şirin güləndə.
Qatırsan şərbətə yar ağını sən.

Mərdin məclisində nə danəsidi,
Mürğün dahanında nə danəsidi,
Dost dostdan sirrini nə danəsidi
Deyərsən sözünün yar ağını sən.

Həqiqi dostunu sina gedəndə,
Seyrağıb gərdəni sina gedəndə,
Sənətkar Abdulla sina gedəndə,
Ümid var verəsən yar ağını sən.

NİYAZDI

Bihudə dolandım, əfsanə gəzdim,
Canım dost yolunda leylini yazdı.
Etibar kəsilib, ilqar pozulub,
Əvvəlki məhəbbət, Leyli, niyə azdı?

Qəmər qan ağladı, neştər yeridi,
Yaram sızıldayır, neştər yeridi.
Leylinin qoluna neştər yeridi,
Məcnun qanı çöldə Leylini yazdı.

Dost olan dostunu çəkmədi dara,
Al şananı siyah zülfün di dara,
Həsrət qoymaginən didar didara,
Görən dost rahindən Leyli niyə azdı?

Həyyi çəkib daldalanma sən ara,
Həqiqi dostunam, kəsmə sən ara,
Abdullanın xəyalını sən ara,
Gəzir şəms təki Leylini yaz di!

DƏYDİ

Qafil bir ox atdın, keçdi sinəmdən,
Dərindən cismimə a yara dəydi,
Pəhləvan gəzirdi meydan içində,
Keçdi pəhləvandan ayyara dəydi.

Gecə uzun, təbi nazik yaralı,
İnsaf deyil, qurma mənə yar, alı,
Yar incisə, yar könlünü yar alı,
Bilmirəm nə dedim a yara dəydi.

Yaxşı dostun xəyalını, ay ara,
Həftə dedin, necə keçdi, ay ara,
Təbib qarşı gəlsə yetər a yara,
Təbib qarşı gəldi, a yara dəydi.

Düzdürübsən dahanına yar, inci,
Al xəncəri, bağrım başın yar, inci,
Abdulladan olmaz sana yar, İnci,
Səyrəqiblər vurdu, ay ara dəydi.

YÜZ DƏRƏDƏ

Aman gözəl, əlac eylə dərdimə,
Səndən ötrü mən düşmüşəm yüz dərdə,
Ləblərindən özgə şəfa bilmərəm,
Əgər gəlsə mən xəstəyə yüz dər də.

Xallarında can quşuna ya sərdən,
Harda görsən hazar eylə yasərdən,
Səni görcək ağlım getdi ya sərdən,
Divanə tək gözüm qaldı yüz dərdə.

Abdullaya göstərginən bağı sən,
Tax boynuma gülabatın bağı sən,
Naz ilə gir, seyr elə gəl bağı sən,
Süsən-sünbül qönçə gülü yüz dərdə.

YARALA MƏNİ

Bir ərzim var qulluğuna, rəfiqim,
Gör necə çəkibdir yar ala məni.
Od tutub cismimdə yanar atəşlər,
Seyrqublar qoymur yar ala məni.

Eyləyibsən gül rəngimi sarı sən.
Tərlan oylağına qoyma sarı sən,
Təbibimsən qollarımı sarı sən,
Demədim neştər vur yarala məni.

İyidin varıdı, üz ağı gördüm,
Qəvvas dəryalarda üz ağı gördüm,
Abdullayam, yaxın-uzağı gördüm,
Görmədim tifil tək yar ala məni.

SAYAD ƏMMƏNİ

Ovçusan gəzirsən dağ damanında,
Sən allah öldürmə sayadam məni.
Mən gəzirəm Leyli-Məcnun ünündə.
Salma nəzərindən, say adam məni.

Gəzdim, seyr eylədim adam içində,
Dəryayi-mühitəm adam içində;
Sayıl olub gəzsəm adam içində,
Seçər el içində say adam məni.

Abdullayam, qaldım yasin içində,
Yaradan saxlasın yasin içində,
"Əlif", "lam" oxudum yasin içində,
Yetişdim, öyrəndim, sayad "əmmə"ni.

HASİNİ

Cavan ömrüm getdi badi-fənaya,
Bundan belə dilim desin ha sini.
Ömür başa yetib, dil tərk olubdu,
Axtarıram ha, siratı, ha sini.

Mərd iyidlər el içində qaladı,
Eşq atəşi səngimişdi, qaladı,
İyid ölsə bu dünyada qaladı.
Müxənnətlər gözləyəcək ha sini.

Abdullayam, el içində azadam,
Bax, nə qulam, nə nökərəm, azadam,
El içində kişi çıxar az adam,
Namərd olan ha incəli, ha sını!

YAY İNDİ

Ovçusan durubsan ov bərəsində,
Qur tələni maral keçdi yayındı.
Əlif qəddin, ay qabağın, gül üzün,
Cəllad qaşın çəkilibdir yay indi.

Ərş üzündə gün dolanıb üzərmiş,
Müxənnətin dolandığı üzərmiş,
Dərdin məni incəldərmiş, üzərmiş,
Ya bu gündü, ya sabahdı, ya indi.

Abdullayam, qayıl oldum ay aza.
Katib gərək mənim dərdim a yaza.
Zimistanda ilqar verdin a yaza,
A bimürvət, gözləyirəm yay indi.

OYANAM İNDİ

Könül quşu pərvaz etdi qəfəsdən,
Çəkdi səməndini o yana mindi.
Müntəzirəm gözü yolda qalmışam,
Bağlasan gözlərim, oyanam indi.

Kafi lama çalsan çıxar bir sinə,
Min əyaqdan, müddəsindən birsinə
Gər qoysalar mənnən onu bir sinə,
Bəlkə bu qəflətdən oyanam indi.

İgid gərək eşq içində az qala,
Eşq atəşi səngimişdi, az qala,
Gür sinəyəm canım gedir az qala,
Bimürvət demir ki, oyan, əm indi.

Abdulla qürbətə düşəndə yana,
Eşq atəşi cana düşəndə yana,
Boşalıb qollarım düşəndə yana,
Əzrayıl əmr edər o yanam indi.

A YAZI BELƏ

Nəzər əyiləndə, iqbal yatanda,
Qananı qanmaza a yazı belə.
Kimin zimistanı nobahar keçi,
Məni də yandırı a yazı belə.

Öz əlində qoysan məni qara sən,
Al üstündən bağlayıbsan qara sən,
Sənsən salan bu zülmətə qara sən,
Dağıt duman, çiskin, ayazı belə.

Həqiqi dost yandan beləmi keçər,
Kəmərin toqqası beləmi keçər,
Abdullanın ömrü beləmi keçər,
Qışı dərdi möhnət, a yazı belə.

ÇOBAN ƏFQAN
(1866-1924)

GƏRAYLILAR

XOŞ GƏLMİSƏN

Bu xoş gündə qədəm basıb
Yarım, bizə xoş gəlmisən.
Yenə məni yada salıb,
Yarım, bizə xoş gəlmisən.

Sıxıbsan nazik belini,
Aç görüm cığa telini,
Danış öpüm qoy dilini,
Yarım, bizə xoş gəlmisən.

Gül əkdim ellər bağında,
Aşiqəm yar sorağında,
Ömrümün bu son çağında
Yarım, bizə xoş gəlmisən.

BELƏ OLMAZ

Ay ağalar, ay qazılar,
Belə olmaz, belə olmaz!
El malına tamarzılar,
Belə olmaz, belə olmaz!

Aləmə saldınız azar,
Can alırsız, açıq-aşkar,
Xalqı soyur qaraullar,
Belə olmaz, belə olmaz!

Kimisi cəlladtək qəsdə,
Kimisi də kəmərbəstə,
Döymə oğlu, ata üstə,
Belə olmaz, belə olmaz!

Yorğanı yox bürünməyə,
Qorxur gözə görünməyə,
Öyrənmişik sürünməyə,
Belə olmaz, belə olmaz!

İnsaflı ol, a hökmüdar,
Çox da qolda qüvvətin var,
Çoban Əfqan dözməz, ağlar.
Belə olmaz, belə olmaz!

GÖRMƏSİN

Heyif mənim zəhmətimə,
Get, səni gözüm görməsin.
Sən nadanı adam sandım,
Get səni gözüm görməsin.

Öz yarından gen qaçansan,
Əğyarlarla canhacansan,
Var-dövlətə aldananansan,
Get, səni gözüm görməsin.

Əfqan eylər sənə nifrət,
Görən bundan alsın ibrət.
Sevdiyin də varmış xəlvət,
Get, səni gözüm görməsin.

AYRILDIM

Müjdə deyin düşmənlərə,
Bu gün mən yardan ayrıldım.
Öz ömrümün incisindən,
Dövlətdən, vardan ayrıldım.

Sellər kimi coşub daşdım,
Hündür qayalardan aşdım,
Öpdüm, qucdum, halallaşdım,
Sinəsi qardan ayrıldım.

Əfqan kəsdi gümanını,
Haqq eləsin divanını,
O satdı, öz imanını,
Bietibardan ayrıldım.

NAMƏ GƏLİBDİR

Dostum yenə salam-dua göndərib,
Xublar məclisindən namə gəlibdir.
Bu dərdimin mindən biri azalmaz,
Mənə gələn deyin, kimə gəlibdir.

Yenə də qaynayır sərin bulaqlar,
Keçir xəyalımdan ötən o çağlar,
Niyə kimsəsizdir bizim bu dağlar,
Ondan ötrü könlüm qəmə gəlibdir.

Bir ağ gün görmədik dari-fənada,
Çoban Əfqan verdi ömrünü bada,
Dövran varlınındır başdan dünyada
Kasıb niyə bu aləmə gəlibdir?!

GƏLİB-GEDİR

Oyan baxtım, nə yatmısan bixəbər,
Bax belə yerlərdən yaz gəlib gedir.
Göllər üstə seyrə çıxmış sonalar,
Qatarlaşıb quba-qaz gəlib gedir.

Qarışıbdır bir-birinə qoyun, mal,
Köç yeriyir tozlu yolla dalbadal.
A bu dünya, görüm səni viran qal,
Səndən üzü gülən az gəlib gedir.

Pristav da Xan bulağı qoruyur,
Divan kəsir haqq-nahaqa yarıyır.
Çoban Əfqan bu zülmətdə qarıyır,
Kim deyir ömrümüz saz gəlib gedir.

İNCİMƏZMİ?!

Ləzzət çəkin, kef də görün, a bəylər,
Sizə qulluq edən ac inciməzmi?!
Sizin evinizdə buğda çörəyi,
Bizdə darı bişir, sac inciməzmi?!

Sizin libasınız İran kişmiri,
Bizim libasımız dəridir, dəri.
Bizim arvad quldur, sizinki pəri,
Ondan alırsınız bac, inciməzmi?!

Xoşuma gəlməyir bu qurğu, busat,
Çünki qəlbim olub çoxdan narahat,
Ellərin üzünə gəlməyir həyat,
Əfqan, insan olan heç inciməzmi?!

EY FƏLƏK

Aman olsun, aman sənin əlindən,
Eylədin baxtımı qara, ey fələk!
Neyləmişəm bu dünyada mən sənə,
Gəlmişəm doğrusu zara, ey fələk!

Əziz günlər yar olmadı bizlərə,
Evin uçsun, balan düşsün düzlərə,
Özün söylə neyləmişik sizlərə,
Çəkdin bizi hər vaxt dara, ey fələk!

Bir dəfə sal barı haqqı yadına,
Yandı Əfqan cəhənnəmin oduna,
Kimsəsi yox barı çata dadına,
Çox susadın, namus, ara, ey fələk!

DANIŞAQ

Ağasının yolun gözləyən qardaş,
İtlər yemək üçün yaldan danışaq.
Götür çörək bişir itin unundan,
Sonra getdiyimiz yoldan danışaq.

Onun nə vecinə biz qalmışıq ac,
Nökər ağasına olacaq möhtac,
Tavamız naxırdır, deşilibdi sac,
Ağamızda olan puldan danışaq.

Bacarmırıq kəsib yeyək bir qoyun,
Ağa başımıza gətirər oyun,
Çoban Əfqan nə vaxt olacaq toyun,
Sən tək ölüm gəzən quldan danışaq.

NƏDİR?

Əvvəl salam olsun, Şikəstə qardaş!
Oxu, bu kağızın çarası nədir?
Təbibimsən dəva elə dərdimə,
Aç gör ürəyimin yarası nədir?

Gecələr sübhədək asıllam dardan,
Könül əl götürməz bu ahü-zardan,
Ölləm, ayrılmaram vəfalı yardan,
Axtar, gör işlərin çarası nədir?

Bir tuti dillidir, qaməti düzgün,
Yanağı lalədir, baxışı süzgün,
Fikirləş, çarə qıl bu işə gizlin,
Əfqanın dərdinin davası nədir?

GÖRÜNMÜR

O çərxi-fələkdən şikayətim var,
Çünki onda bir ədalət görünmür.
Verib ağaların əlinə bizi,
Çəkdiyimiz ağrı, zillət görünmür.

Bu necə əyyamdır, necə zamandır?..
Ürəklər qan ağlar, Allah amandır!
İşləyən rəiyyət, keyf çəkən xandır,
Ağlayana bir inayət görünmür.

Çoban Əfqan yazır dastan, a dostlar,
Bax bu qəmdən, bax bu yasdan, a dostlar!
Haradadır şiri-aslan, a dostlar,
Onda olan zor, şücaət görünmür.

KİMİNDİR?

Səndən xəbər alım, ay Çoban Qara,
Bu var-dövlət, qızıl pullar kimindir?
Kim çəkir bu fani dünya keyfini,
Bu əziyyət çəkən qullar kimindir?

Gəlib gəlməyəli biz bu cahana,
Nökər olduq gah ağaya, gah xana,
Evdə uşağımız həsrətdir dona,
Bəs atlazlar üstə güllər kimindir?

Xoş gəlmir bizlərə bu qanlı dövran,
Alır da, satır da insanı insan.
Dözmür bu dərdlərə heç Çoban Əfqan,
Bizə nə var, bu xoş illər kimindir?

SƏNSƏN

Başına döndüyüm gülüzlü yarım,
Bizim bu dağların maralı sənsən.
Keçirdin sinəmdən yaman oxları,
Cəsədim eyləyən yaralı sənsən.

Qara tellərinin şanası sarı,
Əmərəm ləbindən versən nübarı,
Üzünü sən məndən döndərmə barı,
Onsuz da dolanan yaralı sənsən.

Bağbanam bağçada bar olan vaxtı,
Sinəmin üstündə var olan vaxtı,
Əfqanın əlində var olan vaxtı,
Deyərdin ki, səbri qərarı sənsən.

YARADAN SƏNİ

Halal olsun bu qamətə, bu boya,
Nə gözəl yaradıb yaradan səni,
Sənə bədnəzərdən dəyməsin xəta,
Qoy Allah saxlasın bəladan səni.

Bilməm günəş deyim, yoxsa ay sənə,
Bu fani dünyada yoxdu tay sənə,
Gözəlliyi xuda verib pay sənə,
Əziz tutub bəydən, paşadan səni.

Camalın oxşatdım dağlar qarına,
Gözüm düşüb ağ sinənin narına,
Gözəl olan belə baxmaz yarına,
Ovçuyam qoymaram bərədən səni.

İnsaf elə, hərdən Əfqanı güldür,
Gözünün yaşını amandı, sildir.
Qapıda qul saxla, ya da ki, öldür,
Unutmaram xeyir-duadan səni.

YANDIRIR

Bağlayıram gözəllərə dastanı,
Yar atəşi şirin canı yandırır.
Sərraf olan lələ qoyar qiyməti,
Göz görəndə din-imanı yandırır.

Qara tellərinə ətirlər vurur,
Gizlində dayanır, daldada durur.
Gözə qoruq yoxdur çıxanda görür,
Bir baxışı min cavanı yandırır.

Bazarı Yusifin, böyük bazarı,
Artırır ürəkdə dərdi, azarı.
Sinədə bəslənən Hindistan narı,
Əfqan kimi binavanı yandırır.

MƏNA NƏ?

Sən olan yerlərdə, a Püstə xanım,
Kəklik nədir, turac nədir, sona nə?
Geyib libasını çölə çıxanda,
Biz çobanlar yüz yol baxsa, məna nə?

Dodağın püstədir, saçların çin-çin,
Dilin zəhirmardır nökərlər üçün,
Nə var ki üz tutur dağ sarı köçün,
Ətir verir gül bədənin, nanə nə?

Səhər tezdən bulaq üstə enəndə,
Gözüm qalır nar yetirən sinəndə,
Saymayırsan Çoban Əfqan dinəndə,
Söz deyəndə deyirsən ki, mənə nə?

AĞLARAM

Gəlib-gəlməyəli bu cahana mən,
Biçarə Kərəmdən betər ağlaram!
Kimi şeyx olubdur, kimi məşədi,
Bizə də muzdurluq çatar ağlaram!

Çoxdur mənim kimi dərdə tutulan,
Heyvan kimi heyvanlara qatılan,
Varlılar alandı, biz də satılan
Ünüm asimana yetər ağlaram!

Bir adil hökmüdar tapıla hardan?
Bizi azad edə bu zülmkardan;
Çoban Əfqan, belə dərdi-azardan,
Qəm-qüssə içində itər, ağlaram!

DAĞLARIN

Əmimoğlu, bu naməni unutma,
Yaman artıb kef-damağı dağların.
Gün altında parıldayır çiçəklər,
Lalələrdir şöy çırağı dağların.

Ağamla etmişdim Dilcana səfər,
Mən piyada, ağam minmişdi kəhər,
O qədər axmışdı üz-gözümdən tər,
Nəm olmuşdu yol qırağı dağların.

Mən dala qalanda acıqlanırdı,
Nə tərimi görüb bir utanırdı,
Nə də bu Əfqanı heyvan sanırdı,
Dağılsın qoy belə çağı dağların.

KİMİNDİR?

İllər boyu işləyirik yalavac,
Görən həddən aşan var kiminkidir?
Zəhər olsa içib ölmək istərəm.
Bağban da soruşur, bar kiminkidir?

Kiminin əlində yoxdur əlacı,
Kimi molla olur, kimi də hacı,
Kimi üzü qara çörək möhtacı,
Sədası aləmə car kiminkidir?

Buyurub hər yeri bəylərin malı,
Qazaxda qururlar cahı-calalı,
Əfqan yaman keçir ellərin halı,
Düşüb yandığımız nar kiminkidir?

BELƏ BAX

Kazım ağa, niyə mat-mat baxırsan?
Bizimkidir daha dövran belə bax!
Yadındamı yorğanımı aldığın?
Daha bəsdir, indi də sən ələ bax!

Sürülərin axır oldu el malı,
Talamağa gücün çatmaz mahalı,
Bir az əvvəl geyinirdin al-şalı.
Şirin canın üryan qaldı, elə bax!

Altı nökər bəs etmirdi həyətə,
On ikisin saxlayırdın pəyədə,
Nə demişdin bizim yazıq Sayada?
Di tab gətir, onda olan dilə bax!

Çoban Əfqan indi olub xan Əfqan,
Bu dövrana qurban eylər can Əfqan,
Gördün düz deyibdir hər zaman Əfqan,
Çörək üçün yaba, kürək, belə bax!

SARALTDIN MƏNİ

Cığalı qoşma

Bir gül idin, bitmiş idin bağçada
Vermədin bir dənə saraltdın məni.
Mən aşığam bu bağa,
Bu bağçaya, bu bağa.
Sən bir ətirli gülsən,
Mən bağbanam bu bağa.
Alnını, üzünü, həm dodağını,
Görməyə qoymadın saraltdın məni.

Mən səni sevmişəm bağçacan, bağcan,
Sən məni sevmədin bir dənə narcan.
Mən aşığam mehriban,
Bülbül gülə mehriban,
Hər kəslə küslü olsam.
Sənə ollam mehriban,
Çəkib həsrətini qaldım yarıcan,
Ölməyə qoymadın, saraltdın məni.

Mən səni sevəli gör neçə ildi,
Qaşların çevrəsi bir dəstə güldü,
Mən aşığam bir dayan,
Sən bir yeri, bir dayan,
Çox yanmışam oduna,
Deyirsən ki, bir də yan.
Mənimlə danışan o dadlı dildi,
Ötməyə qoymadın, saraltdın məni.

Yazıram bu şeri yazın əzəli,
Tökülsün üstümə gülün xəzəli,
Mən gedirəm o yana,
Bu dünyadan o yana,
Bu dünya haram olsun,
Öz yarından doyana.
Əfqan unudarmı sən tək gözəli,
Ölməyə qoymadın, saraltdın məni.

GÖYÇƏLİ ŞAİR MƏHƏMMƏD
(1870-1937)

GƏRAYLI

SALDIN

Qulun ollam vəfalı yar,
Məni gözdən nədən saldın?
Dərdə dərman bilməz idin,
Məni gözdən nədən saldın?

Bağında gül bəyaz olmaz,
Olsa da yar rəngi solmaz,
Hərcayının andı olmaz,
Məni gözdən nədən saldın?

Ağ üzündə xaldan ötrü,
Ləbindəki baldan ötrü,
Şirin, şəkər dildən ötrü,
Məni gözdən nədən saldın?

Məhəmməd der, dərdim çoxdu,
Sinəmə vurduğun oxdu,
Səndən qeyri yarım yoxdu,
Məni gözdən nədən saldın?

QOŞMALAR

QALIM MƏN

Aran çox istidi, yaylaq sərindi,
Bilmirəm qalmayım, yoxsa qalım mən?
Könül bir gözələ aşiq olubdu,
Bilmirəm almayım, yoxsa alım mən?

Çox ziba gözəldi, gözəllər xası,
Əyninə geyibdi əlvan libası,
Görünür gözümə eşqin dəryası,
Bilmirəm dalmayım, yoxsa dalım mən?

Məhəmmədəm, ağlım başdan azalıb,
Zimistan qəhrini əldən yaz alıb,
Axmaq könlüm altmışda saz alıb,
Bilmirəm çalmayım, yoxsa çalım mən?

DƏYƏR SANA

Ay qəddi alişan, qoynu gülüşan,
Görənlər açılmış yaz deyər sana.
Cəmdi gözəlliyin nişanbənişan,
Şairlər tərifi az deyər sana.

Gəl görüm, görüm ki, kimə talıbsan?
Gözəlliyi aydan, gündən alıbsan,
Cəmi aşıqları eşqə salıbsan,
Götürüb əlinə saz, deyər sana.

Bircə söylə görüm, hansı ellisən
Mina gərdənlisən, incə bellisən,
Tovuz bəzəklisən, durna tellisən,
Məhəmməd də quba qaz deyər sana.

EYLƏYİM

Yəqin vərəmlərəm, tıqqı gətirrəm,
Açmayım bir sirri nəhan eyləyim,
Cin başımı sıxır, şeytan ayağım,
Bunları rüsvayi-cahan eyləyim.

Allanıb dünyaya xaba yatanlar,
Namusunu, qeyrətini atanlar,

Halal dövlətinə haram qatanlar.
Mən sizə nə üzrü bəhan eyləyim?

Axırda Məhəmməd bu sirri açı,
Görən gözün yumur, eşidən qaçı,
Bir şəxsin ki, əsli ola qaraçı,
Hardan ki, mən onu şahan eyləyim.

AĞLASIN

Çeşmim yaşı axdı, döndü sellərə,
Yoxdu bu dərdimi qanan ağlasın.
Sığışmır ki, dərdim deyəm dillərə,
Yoxdu bu dərdimi bilən ağlasın.

Yerbəyerdən sızıldar mənim yaram,
Bu dərdimə yoxdu mümkünüm, çaram,
Gedən yoxdu şaha kağız göndərəm,
Mənim bu dərdimə anam ağlasın.

Məhəmməd, kimin var gələ dayağa?
Qanımı boyadım əlvan boyağa,
Canım boyanıbdı başdaş-ayağa,
Kimsənəm yoxumdu tamam ağlasın.

İNSAN

Axırı fikr elə qafil dolanma,
Qəlbini şeytandan yad elə, insan!
Əməl qayır axirətə, utanma!
Bacar könül yıxma, şad elə, insan!

Bu dünya dediyin fanidir, fani,
Əvvəl Nuh gəlmişdi qalmayıb, hanı?
Puç eylədi İsgəndəri, xaqanı,
Bizə də əsəcək bad yeli, insan!

Məhəmməd dünyada hələ bihuşdu,
Binadan dediyin vətənsiz quşdu,
Vəfasız dövlətin axırı puşdu,
Yegilən, dəhanda dad elə, insan!

SƏNƏM, SƏNƏM

Sübhü-şam dərdindən yahu çəkirəm,
Deyirəm ölüncə, ay Sənəm, Sənəm!
Gözlərimdən qanlı yaşlar tökürəm,
Kirpiyi ox, qaşı yay Sənəm, Sənəm!

Bağban olsam gəl bağçaya, bar apar,
Gəzək, seyr eyləyək bağı bərabər,
Yer üzündə yoxdu sənə bərabər,
Ərşdə mələklərə tay, Sənəm, Sənəm!

Buxağın büllurdu, yanağın lala,
Vəsfin təzəliknən düşüb mahala,
Məhəmmədi döndəribsən abdala,
Eyləyibsən ömrün zay, Sənəm, Sənəm!

ŞİRVANLI AŞIQ BİLAL
(1872-1937)

GƏRAYLILAR

KƏKLİK

Vurulmuşam camalına,
Gəl dərdimi qan, a kəklik.
Gəlin kimi ayağına,
Sən qoymusan xına, kəklik.

Başın yaşıl, gözün qara,
Oxşayırsan nazlı yara,
Qaçma bizdən uzaqlara,
Qal bu yerdə, sona kəklik.

Qış sovuşub yaz gələndə,
Qız, gəlinlər gül dərəndə,
Onlara gəl qarış sən də,
Qaçma məndən yan, a kəklik.

Azad dolan bizim yerdə,
Son qoymuşuq qəmə, dərdə,
Aşıq Bilal məclislərdə
Nəğmə desin sana, kəklik.

ÖLDÜRDÜ

Məni bir qələm qaşlının
Nazı öldürdü-öldürdü.
Çiyni xurmayı saçlının
Sözü öldürdü-öldürdü.

Ağ əllərə hana yaxdı,
Zülfünü boynuma taxdı,
Naz eləyib mənə baxdı,
Gözü öldürdü-öldürdü.

Yar başına dolanmazdım,
Eşq oduna qalanmazdım,
Əğyar olsaydı yanmazdım
Özü öldürdü-öldürdü.

Dəryalarda olar ada,
Mənə gəlsin yardan qada,
Bilalı yar, bir də bada,
Düzü öldürdü-öldürdü.

VAR

Ürəyimiz çiçəklənir,
Elin əcəb cəlalı var.
İndi bizim insanların
Nə dərdi, nə məlalı var.

Nələr görür bu gün gözüm,
Çalxan, ey ilham dənizim,
Gülür könlüm, sazım, sözüm,
Nə sorğu, nə sualı var.

Yoxdu izn intizarın,
Getdi dövrü boran, qarın,
Şən ellərin, obaların,
Dastan deyən Bilalı var.

QOŞMALAR

SEVGİLİM

Gecə-gündüz həsrətini çəkməkdən
Günümü eylədim qara sevgilim,
İnsaf eləmədin, mürvət etmədin,
Çəkdirdin sən məni dara, sevgilim.

Bir dərdim var yar əlində çarası,
Dərmanımdır iki qolun arası,
Biri alma, biri heyva parası,
Həsrət qoyma şirin nara sevgilim.

Gözün cəllad, kirpiklərin kamandır,
Vüsalından ayrı düşmək yamandır,
Bir busə ver, ləblərindən amandır,
Ciyər oldu para-para sevgilim.

Mehman olub otağında yatmadım,
Ov bərədən keçdi oxu atmadım,
Bilal deyər, vüsalına çatmadım,
Qismət olma sitəmkara sevgilim.

GƏLGİNƏN

Salam göndərirəm, sənə Ələsgər,
Qədəm qoyub bu məqalə gəlginən,
Dost olmaq istəsən mənimlə əgər,
Bir axşam yeməyə şamə gəlginən.

Neçə yerdən sorağını almışam,
Gəldiyin yollara xalça salmışam,
Gözləyirəm ixtiyarda qalmışam,
Qonağa hazırdır xana gəlginən.

Ustadla istərəm bir qılım söhbət,
Sənətkar adına varımdır hörmət,
Bilal arifləro eyləyir xidmət,
Şamaxıya, bizim yana gəlginən.

NEYLƏSİN

Bəylərin zülmündə qalan bir aşıq,
Olmasın bəs günü qara, neyləsin?
Haqq sözü danışan çox aşıqları,
Çəkirlər boğazdan dara, neyləsin?

Nə haqq çatır dada, nə də ki, bəndə,
Kəndxuda qurd olub soxulur kəndə.
Acından ağlaşan kasıb görəndə,
Tuturlar atəşə, nara neyləsin?

Qəlbim haqq çağırır, dilim ədalət,
Zalıma zülm edin, məzluma hörmət,
Çox çəkib dünyada Bilal əziyyət,
Kəsilib hər yandan çara, neyləsin?

GÜNAHI

Molla dayı vəz eləyir bizimçün:
“Eyləməyin bu dünyada günahı”.
Xalqın malın soyub alır əlindən,
Özü görmür başı üstə Allahı.

Doğru deyir, özgə malı haramdır,
Özü deyir, öz-özünə inanmır.
Baş tapmıram, bu da bir cür zamandır,
Soyğunçudur ancaq yoxdur silahı.

Biri ölür, yetim qalır uşağı,
Molla dayı o dəm tutur sorağı.
Xeyratında yeyir südü, qaymağı,
Nə dərd çəkir, nə qəm çəkir, nə ahı.

Heç baxmayır gözdən axan o yaşa,
Qəlbi dönür çaylardakı boz daşa.

Başın açır tez soxulur bozbaşa,
Yeyib deyir qoy yetirsin ilahi.

Neçə həftə yeyir, yatır orada,
Azdan, çoxdan pul da gəlir arada.
Yetim yazıq qalır yasda-qarada,
Yenə doymur o zalımın tamahı.

Malın, pulun təqsim edib dağıdır,
Elə bil ki, molla deyil, yağıdır,
Adı bəlli bizim Molla Tağıdır,
Aşıq Bilal, budur sözün kütahı.

BU DAĞI

Bir naşı ovçuyam, maral gəzirəm,
Çox dolanıb, çox gəzmişəm bu dağı.
Dəli könlüm bülbül kimi hər səhər,
Gül axtarır, bir-bir gəzər budağı.

Rəngin vermiş bahar fəsli yara dan
Ay qız, səni cəllad etmiş yaradan,
Sağalmaram sən vurduğun yaradan,
Heç kim çəkməz yar yolunda bu dağı.

Məcnun könlüm uçub qonmuş budağa,
Can sirdaşım seyrə çıxmış bu dağa,
Bilal oldu sinə gərən bu dağa,
Bülbül gəzər səhər-səhər budağı.

AŞIQ PƏNAH SEYFƏLLİ
(1876-1921)

GƏRAYLILAR

GƏLƏCƏKDİ

Sənə deyim ay pristav,
Bir zamana gələcəkdi.
Gülən kəslər ağlayacaq,
Ağlayanlar güləcəkdi.

Məndən tutub çəkə-çəkə,
Dedin baxtı yatıb bəlkə,
Düz adama vurdun ləkə,
Bunu hamı biləcəkdi.

Fağır-füqəra kəndlilər,
Dönəcək nərə kəndlilər,
Bizim bu qara kəndlilər,
Bir gün qanım alacaqdı.

İşlərindən oldum halı,
İtirdin ərkanı yolu,
Bəylərdən aldın qan pulu,
Dedin Pənah öləcəkdi.

CANIM

Nə çox ah-fəğan eylərsən.
Dünyada tək olan canım!
Anlamazlar qiymət qoymaz,
Şər işdən pak olan canım!

Yaman yalqızlıq nalası,
Oldu bədbəxtlik qalası,
Çəkibsən qardaş yarası,
Saralıban solan canım!

Aciz qalalı laçında,
Ustadam sözlər vəchində,
Qüvvəli düşmən içində
Havadarsız olan canım!

Dərdim beş döyül hazardı,
Qəza deyilən güzardı,
Dustaqlıq böyük azardı,
Çıx cahanı dolan, canım!

Hər kəs Pənaha toxuna,
Tuş olur fələk oxuna,
Sığındım şahlar şahına,
Danışmanam yalan, canım!

QOŞMALAR

QOŞQAR!

Aləmi-qeybdən xalq olunubsan,
Yazıldı ərşdə yaşın, a Qoşqar!
Qoca dağ Qanlıdan, Murov, Kəpəzdən,
Murğuzdan ucadır başın, a Qoşqar!

Aşıqlar oxurlar haqq sinəsindən,
Kamil şairlərin bəshabəsindən,
Alı nərəsindən, kəshakəsindən,
Şad olub çəmənin, daşın a Qoşqar!

Bir ay şəhərlərdən yağ, düyü gəldi,
Çayının təşbehi Kür kimi seldi,
Min erkək qırıldı, yüz cöngə öldü,
Dərya kimi plov aşın, a Qoşqar!

Atlanıb düşürdü hərdən yüz atlı,
Zurnaçı, xanəndə, saz, ixtilatı,
Tufanın, boranın xotkara çatdı,
Məlum deyil, yayın, qaşın, a Qoşqar!

Saxla pənahında onu, ilahi,
Salma nəzərindən bir belə şahı.
Zara gətirdi bu Aşıq Pənahı,
Duman, çiskin, qar, yağışın, a Qoşqar!

EYLƏR

Namərd dostdan kəs aranı, kənar ol,
Salamat başını məlamət eylər,
Mərd düşmana ilticalıq eyləsən,
Bağışlar təqsirin əyanət eylər.

Ustadın nəshətindən qaçmayın,
Namərd ilə şirin şərbət içməyin
Müxənnətlə nanı süfrə açmayın,
Durmaz ilqarında, xəyanət eylər.

Dolandım dünyanı söznən, bəsinən,
Saznan, söhbətinən, eşq, həvəsinən,
Biqeyrət qohumnan, binamus dostnan,
Pənah aşna olmaz, ədavət eylər.

MÜXƏMMƏS

OYNAYIR

Xubların məclisində, gördüm bir canan oynayır.
Süzgün süzür, bağrım əzir, gözlər xuraman oynayır.
Nazı çox, qəmzəsi çox, qaşları kaman oynayır.
Zülf dəstə, gərdən üstə, növrəstə cavan oynayır.
Təşrif gətir, çeşmə götür, bax gör nə yaman oynayır.

Gördüm toyda, uca boyda, dost, dostun gözlərinə bax!
Şirin sözü, şəhla gözü, incitək dişlərinə bax.
Gündüz-gecə, xoryad qoca, yarü yoldaşlarına bax!
Dodaq qaymaq, olmaz doymaq aşkar can alan oynayır.

Tər sinəsi, gül aynası, bu zər libas can üstünə.
Yar bəzənib, var bəzənib, sədri qar fincan üstünə.
Belə insan olmaz inan, bənzəyir qılman hüsnünə.
Boy uca, gərdən süca, sərvi-irəvan oynayır.

Maşallah, yaradıb billah, qiymətdə lələ vermənəm.
Dağıstana, cəm cahana, Gürcüstan gələ vermənəm.
Şəki, Şirvana, Tehrana, yüz şəhər çölə vermənəm.
Yüz min yaza, işvə naza, həştad min dula vermənəm.
Pənah görüb, eylər tərif: hər məqam tamam oynayır.

AŞIQ HÜSEYN BOZALQANLI
(1875–1941)

GƏRAYLILAR

GEYİNDİ

Bahar oldu, çiçək açdı,
Güllər qırmızı geyindi.
Çırtıq dəydi, üz qanadı,
Xallar qırmızı geyindi.

Yarım yuxudan oyandı,
İncidi, küsdü, usandı.
Barmaq barmağa dayandı,
Əllər qırmızı geyindi.

Mayiləm mina gərdəna,
Ağ bədənə, gül əndama.
Zülfünə qoyubdur xına,
Tellər qırmızı geyindi.

Baş oynatdı, qıya baxdı,
Könlümün evini yıxdı.
Al geyindi, seyrə çıxdı,
Çöllər qırmızı geyindi.

Yanaqları güldən təzə,
Ağzı qaymaq, dili məzə,
Hüseyn, canan gəldi bizə,
Yollar qırmızı geyindi.

BAŞINA DOLANDIĞIM

Səhər-səhər çıx qarşıma,
Dur, başına dolandığım!
Oğrun gözlə, qıyqacı bax,
Gör, başına dolandığım!

Tellərin dönüb kəməndə,
Gözəllər olub şərməndə,
Qara saçı dal gərdəndə,
Hör başına dolandığım!

Hüseyndən aldın canını,
Apardın din, imanını.
Əsirgəmə müjganını,
Vur, başına dolandığım!

QOŞMALAR

BU GÜN

Yenə bayram oldu xublar evində,
Şükür yaradana, nə cəlal bu gün.
Ay qabaxda hilal qaşlar çatılıb,
Şox salıb buxağa qoşa xal bu gün.

Yollar şölələnib dönüb çırağa,
Yar qədəmin basıb bizim otağa.
Laləzar geyinib başdan-ayağa,
Bas bağrına, telli sazı, çal bu gün.

Yar ilə çörəyi bir yeməyimiz,
Küsüşüb, barışıb, gülüşməyimiz...
Hüseyn deyər, bizim görüşməyimiz,
Qoşa bayram oldu dalbadal bu gün.

YAXŞI SAT

Qoç igidi üç şey çəkər qabağa;
Biri sirdaş, biri yoldaş, yaxşı ad.
Bir doğru söz min yalandan yaxşıdır,
İnsaf deyil, mərdi sən namərdə sat.

Bədöy mənzilinə hər at yetirməz,
Nanəcibə öyüd versən götürməz,
Ölənədək nişanını itirməz,
Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat.

Hüseyn sözün nə gizləyə, nə dana,
Nə yaranar daha, doğar nə də ana.
Gövhər mətahını açma nadana,
Tök bazara, sərrafına yaxşı sat.

YAXŞIDIR

Əzəl bir adamla dostluq eyləsən,
Onu çəksən imtahana yaxşıdır.
Baxdın gördün ilqarına kəc oldu,
Ona tapsan bir bahana yaxşıdır.

Hər kimsə ki, olsa nütfədən halal,
Şirin ləhcə, xoş sədaqət düz xəyal,
Anlaxlı, həm mərifətli, pür kamal,
Kimdə olsa bu nişana yaxşıdır.

Hüseynin sözləri aşikar olar,
Qanana nəsihət yadigar olar.
Çox gülüb danışan biilqar olar,
Bütün ilqar hər insana yaxşıdır.

ÇƏKMƏSİN

Hər cəfənglər saz götürüb, söz deyib,
Aşıqlıq adını sana çəkməsin.
Çibin, milçək, zənbur kimi sızlayıb,
Qanqalın şəhdini şana çəkməsin.

Aşıqlıq elmində pürkamal gərək,
Divani, təcnisi hər misal gərək.
Kotana qoşmağa kəltə kal gərək,
Kala qabaq körpə dana çəkməsin.

Eşqin kürəsində bişib yanmayan,
Qafiyəsin qələtini qanmayan,
Bədöy bəsləyibən köhlən minməyən,
Ulağını bu meydana çəkməsin.

Ustalar kalamı bizə gələndə,
Xəstə cismim olur təzə gələndə.
Arif məclisində üzə gələndə,
Onda yaxasını yana çəkməsin.

Lənət müxənnətə, ara qatana,
İnsan gərək yalan sözdən utana.
Xəbər verin sınıq saxsı satana,
Cürdəyini çox zindana çəkməsin.

Qovğaya düşübdür bu yazıq Hüseyn,
Nə məndə can qalıb, nə də baş-beyin.
Tülkü dərələrdə aslana boyun,
Hünərini qana-qana çəkməsin.

ÜZÜN BÜRÜMƏ

Ay bimürvət, firqətindən Məcnunam,
Olmuşam divanə, üzün bürümə!
Cəlladsansa öldür, qurtarsın canım,
Ya atdır ümmana, üzün bürümə!

Mən yazığın yenə yatıbdır baxtı,
Kəm baxdı dostuna, evini yıxdı.
Bir mənəm, bir sənsən, xəlvət otaxdı,
Lənət de şeytana, üzün bürümə!

Hüseyn deyər həsrətinəm nə vaxtdan,
İnciyəm, yorğunam, gəldim uzaxdan,
Bir busə lütf elə büllur buxaxdan,
Qoy gəlim imana, üzün bürümə.

LALƏ

Xəstə cismim bir cananın eşqindən,
Yanıb atəşinə, əriyir, Lələ
Hicranın ləşkəri, qəmin sultanı,
Səf çəkib üstümə yeriyir, Lələ!

İstəyirəm qədəm qoyam elimə,
Qaşlarıynan qıfıl vurur dilimə,
Zülfün kəməndini salıb belimə,
Hüsnün sütununa sarıyır, Lələ!

Leyli kimi hərdən çıxır eyvana,
Məcnun tək Hüseyn edir divanə.
Əlinə götürüb şirmayı, şana,
Şahmar zülflərini darıyır, Lələ!

OYNAMASIN

Aşıq Ələsgərə nəzirə

İltimas eylərəm nazlı dilbərə,
Mən demirəm ona: yox, oynamasın.
Görən cavanların xəyalı çaşır,
Oynasa da, barı çox oynamasın.

Hərçəndi oynamaq ona yaraşır,
Siyah zülfü qamətinə dolaşır.
Açılır rübəndi, gözlər qamaşır,
Yayılır aləmə şox, oynamasın.

Çox keçməyib on dörd, on beş yaşından,
Tər şamama baş veribdir döşündən.
Hüseyn görüb, ağlı çıxıb başından,
Atıb sinəm üstdən ox, oynamasın.

DÜŞMÜŞƏM

Ariflər sərrafı nuri dü eynim,
Şövq əlindən şikayətə düşmüşəm.
Adı bəlli bir gözəlin eşqindən,
Yanıb cismim hərarətə düşmüşəm.

Könül mayil oldu çeşmi-xumara,
Çəkdi niqabını gülü ruxsara,
Mujganı sinəmə vurubdu yara,
Neçə yerdən cərahətə düşmüşəm.

Şirin zəbanlının, dürr dəhanlının,
Ətri bənövşəli, gül reyhanlının,
Tovuz tamaşalı, zər nişanlının,
Məcnuniyəm, vilayətə düşmüşəm.

Ərzimi söylədim xublar xasına,
Yanaqdan bir busə təmənnasına,
Əbrişim telləri müsəllasına
Səcdə qılıb ibadətə düşmüşəm.

Yara sadağadır Hüseynin canı,
Hərçənd ki, qəlbində unudub məni.
Xəstəyəm, dərdimin yoxdur dərmanı
Mərizinəm zəlalətə düşmüşəm.

OLMAZ

Açma mətahını naşı tüccara,
Qiymətini bilib xiridar olmaz.
Bədöyün qocası olsa da arıx,
Sürsən mənzil kəsər, kəmhünər olmaz.

Qışın firqətindən dağlar qaralı,
Xəstə könlüm dağ başından qar alı,

Misə qalay vursan axır qaralı,
Nə lələ bənzəyər, nə gövhər olmaz.

Hüseynəm, sinəmdə haqqın baratı,
Yaxşıların olar sözü-söhbəti,
İgidin olmasa binədən zatı,
Tanınıb heç yerdə aşikar olmaz.

TƏCNİSLƏR

YA DƏYƏ

Nə lazımdır naqabilə söz deyəm,
Xatırına ya dəyməyə, ya deyə?
Sizin olsun eyvan, otaq, alaçıq,
Bizə bəsdir ya kölgəlik, ya dəyə.

Pis övlada öyüd versə yaxşı ata,
İgid çıxıb suvar olmaz yaxşı ata,
Kamil ovçu bərəsində yaxşı ata,
Keçirəndə ya dəyməyə, ya dəyə.

Hüseyn deyər, mayil oldum Gülxara,
Geyinibdir atlas, ziba, gül, xara.
Qorxuram ki, qismət ola gül xara,
Bağban ölə, dal budağı yad əyə.

AY ATA-ATA

Cığalı təcnis

Ay bimürvət, aldın şirin canımı,
Müjganın sinəmə ay ata-ata.
Əziziyəm ay ata,
Oğlun öldür, ay ata.

Başım cəllad əlində
Sözüm keçmir həyata.
Qaşın qüreyşidi, camalın cimdi,
Nə gözəl yazılıb ayat-ayata.

Bülbül idin qondun qeyri dala sən,
Mənim kimi qəm bəhrinə dalasan.
Əziziyəm dala sən,
Dara zülfün dala sən.
Əlif olan qəddimi,
Döndərirsən dala sən.
Məcnun kimi məni saldın dala sən,
Xaraba küncündə ay yata-yata.

Yazıq Hüseyn eşq oduna yanar hey,
Qoynundakı ya turuncdur, ya nar hey
Əziziyəm yanar hey,
Dərdin canda yanar hey.
Tərlan könlüm havadan,
Sona alıb yenər hey.
Namərd olan səməndindən yenər hey,
Mərd iyidlər minər ay ata-ata.

OLA

Cığalı təcnis

Könül sevdi gözəllərin xasını,
Qasidin əlində naməlum ola.
Qarşıda naməlum,
Hicran çəkdim naməlum.
Rəqib evin yıxılsın,
Yurdun olsun naməlum.
Bir eyvan otaqda sürəm səfasın,
Ağ tər sinəsində nəm əlim ola.

Yaxşı olar gözəllərin halalı,
Qəvvas çəkər dəryalardan ha ləli.
Qarşıda halalı,
Sir ver, görsən halalı.
Gözəlin bivəfası
Axır canın hal alı.
Sən də çalış, haqdan dilə halalı,
Haramdan dövlətim, nə malım ola.

Aşıq Hüseyn, dərdin yetər bir yüzə,
Canan gəlsə canım verrəm bir üzə;
Qarşıda bir üzə,
Ördək göldə bir üzə,
Bağban, yad qoyma bağa,
Bir sındıra, bir üzə.
Nütfədən qarışan verər büruzə,
Nə fitnəsi kəsər, nə məlum ola.

AŞIQ ƏSƏD
(1874–1951)

GƏRAYLILAR

KİMDƏN ÖYRƏNDİN?

Oğrun-oğrun daldalardan
Baxmağı kimdən öyrəndin?
Qəfildən könlüm evini
Yıxmağı kimdən öyrəndin?

Gül xəcildi yanağına,
Bal bələnib dodağına.
Qızıl üzük barmağına
Taxmağı kimdən öyrəndin?

Mail oldum qələm qaşa,
Sədəf kimi inci dilə.
Əsədin canın atəşə
Yaxmağı kimdən öyrəndin?

YOL ÜSTÜNDƏ DURAN GÖZƏL

Yol üstündə duran gözəl,
Söylə görüm, haralısan?
Yaranıbsan bir qətrədən,
Hansı yerin maralısan?

Yaradıb Cabbarü Cəlil,
Bədnəzəri olsun zəlil!
Nə baxırsan məlul-məlul,
Yoxsa yardan yaralısan?!

Əsəd deyir, intizaram,
Açılmış güllərin dərəm.
Hər gün sənlə seyrə varam,
Heyif, bizdən aralısan.

GƏLİNCƏ

Dostum, mənə vədə verdin, gəlmədin,
Çox çəkərəm ahü-zarı gəlincə.
Xəstə kimi sızıldaram sübhətən,
Yata bilməm gecəyarı gəlincə.

Gözəl gərək sirr saxlaya dərində,
Ağlı, huşu, düz ilqarı sərində.
Məcnun kimi durram vədə yerində,
Gözləyərəm düz ilqarı gəlincə.

Bir namə vermişəm sübhün badına,
Yoxsa mən düşmürəm onun yadına?
Yanar cismim atəşinə, oduna,
Çəkər könlüm intizarı gəlincə.

Ruhum bağlı qalıb siyah telində,
Zənbur şan bağlayıb şirin dilində.
Əsəd deyir, gözüm qalıb yolunda,
Çıxar canım bizə sarı gəlincə.

ON İL QULLUQ ETDİM MƏN ƏLƏSGƏRƏ

On il qulluq etdim mən Ələsgərə,
Sidqimi bağladım etiqadına.
Hər nə desə, qəbul etdim sözünü,
Məni də yetirdi haqq baratına.

On il qulluğunda dayandım, dözdüm,
Dilindən nə çıxdı, sinəmə yazdım.
Qırx beş il dünyanı dolandım, gəzdim,
Bələd oldum yerin yeddi qatına.

Yaxşını götürdüm, yamandan qaçdım,
Oxudum, sinəmin dəftərin açdım.
İyirmi beş yaşında qaynadım coşdum,
Otuz yaşda mindim eşqin atına.

Eşqin səməndini hər yana çapdım,
Mərd ilə namərdi axtardım, tapdım.
Heç könül yıxmadım, çox könül yapdım,
Göz qoydum dünyanın hər büsatına.

Əsəd deyir, ustada son qoyanın,
Pünhanda laf edib, özün öyənin,
Ustad sözün öz adına deyənin,
Lənət gəlsin onun əsli-zatına!

SƏN MƏNİ

Sənə neyləmişdim mən bəxti qara,
Niyə saldın bu azara sən məni!?
Hər nə desən, əmirindən qaçmaram,
Qul adına çək bazara sən məni.

Yusif də qul oldu o Züleyxaya,
Kərəm Əsli deyə girdi kilsaya,
Onlar kimi məni saldın sevdaya,
Tüccar etdin ahü-zara sən məni.

Bağban oldum, bağda barı gözlədim,
Vaxt addadı, gecə yarı gözlədim,
Doğru sözü, etibarı gözlədim,
Bənd eylədin düz ilqara sən məni.

Gözüm qalı gözlərinin məstində,
Cəllad qaşın durub canım qəsdində.
Xəstənin dərmanı sinən üstündə,
Həsrət qoydun bir cüt nara sən məni.

Niyə qoydun yana-yana Əsədi?
Yetirmədin bir dərmana Əsədi.
Eyləyibsən bir pərvana Əsədi,
Yandırırsan, ay Sitara, sən məni.

YADIMA DÜŞDÜ

Şanlı məktubunu oxuyanda mən,
Çalmalı dağları yadıma düşdü.
Tənir torpağının almaçiçəyi,
Lilpar bulaqları yadıma düşdü.

Dalı Gödək güney, qabağı Çatar,
Fermanın dövləti dağları tutar,
Ömürlər uzadar, mətləbə yetər,
Bu gözəl çağları yadıma düşdü.

Başı Çalmalıdı, ayağı düzdür,
Toyda oynayırmı gəlinlər, qızlar?
Oxuyub çalırdım sədəfli sazlar,
Gözəl yığnaqları yadıma düşdü.

"Göyçənin qonağa çoxdu hörməti",
Təzə cavanların var məhəbbəti.
Qayğanaq, qəysəfə, əmliyin əti,
Eyvan-otaqları yadıma düşdü.

Əsəd bu fanidən köçər üqbaya,
Dəli könül yenə qalxar havaya.
Qoçdaşın düzləri, Buxarlı qaya.
Tərlan ovlaqları yadıma düşdü.

DÜRÜST OLMAMIŞ

Kamil ovçu durub ov bərəsində
Atmaz xədəngini dürüst olmamış.
Sərraf olan seçər ləli, gövhəri,
Arayıb dəstində dürr üst olmamış.

Əgər qəvvas isən, axtar adamı,
Göydən yerə neysan yağar, a damı.
Dürüst adam gəzər dürüst adamı,
Nadürüst axtarar dürüst olmamış.

Əsəd bəhri-mühit çaylar toxuna,
Qayıq üzə, ləpə gələ toxuna.
Cürbə istər gölə, şirə toxuna,
Elmi cəm eyləyib dürüst olmamış.

NƏ QARA SƏNİ

Dedim, könül, durma dağ zirvəsində,
Bir gün düçar edər nə qara səni.
Dilin çatmaz nə bir elə, obaya,
Bürüyər nə ağ gün, nə qara səni.

Yetişməz dostların heç vaxt haraya,
Deyən olmaz, görüm getdi haraya?
Gözün dikmə hər həftəyə, hər aya,
Nə Əli axtarar, nə Qara səni.

Təbib gərək, sinəsini o yara,
Açıb ürəyini, eylər o yara.
Uzaqdadı, əli çatmaz o yara,
Əsəd, heyran etdi nə qara səni?

EYLƏMƏZ

Ağlı olan namərd ilə
Əhdi-ilqar eyləməz;
Nəfsinə tabe olub,
Seyri-güzar eyləməz;
Mərifətlə səfa sürsə,
Beş gün ömrü xoş olar;
Ruzi haqdan bərqərardı,
Baxtın şikar eyləməz.

Qədd əyilib, xəyal dönsə,
Baxtın, olmaz ilhamın;
Ruhun ölər, gözün görməz,
Artar dərdü ələmin;
Şükür zikrin qəbul etməz
Xaliqi-rəbbül-aləmin;
Etiqadın düz olmasa,
Sirrin aşkar eyləməz.

Aşıq Əsəd, xəyal ilə
Gəşt elə, dünyanı gəz;
Müxənnətə sirrin vermə,
Əsli düz olanı gəz;
Zər qədrini zərgər bilər,
Mətahın alanı gəz;
Hər nadan sözün satma,
Qalsa, zərər eyləməz.

OLMASA

Ağlı olan çox danışmaz,
Dərdi hazar olmasa.
Heç kimsənə xəstə yatmaz,
Canda azar olmasa.

Axtarıram, yoxdur təbib
Dərdə dərman eyləyə;
Çox çalışmaq əfsanədi,
Haqdan nəzər olmasa.

Dərdi olan tüccar kimi
Yüklə hər yana gedər;
Söylər dərdin dərdbilməzə,
Özü əfsanə gedər;
Axırında Məcnun olub,
Bər-biyabana gedər;
Qan ağlamaz, sızıldamaz
Canda azar olmasa.

Dərdi olan yad olmasın
Ol mövlanın dərindən;
Daima əlin çəkməsin
Mərd igidlər sirrindən.
Qəlb əyilsə, bulmaz şəfa,
Duman getməz sərindən;
Şahi-Mərdan – Şirin-Yəzdan
Dilində car olmasa.

Vaqifin ol gözəllərə
Tərif büsatı deyim;
Ələsgər, Xəstə Qasımda
Var etiqadı deyim;
Şirin deyib, qaya çapdı
Yazıq Fərhadı deyim;
Kərəm oda yanmaz idi,
Çeşmi-xumar olmasa.

Aşıq Əsəd xırd eləsin
Daim öz mətahını.
Həqiqətin, mərifətin
Gözlə bəndərgahını.

Doğru, düzgün, qeyrət ilə
Saxla dost irahını;
Dost dostundan kənar olmaz
Mərdimazar olmasa.

MÜXƏMMƏSLƏR

AĞRIN ALIM

Ay qara qaş, ay yaşılbaş,
Qarşıda süz, ağrın alım;
Cilvələnib, eşqə bələn,
Telini düz, ağrın alım;
Dildə kəlam, əldə qələm
Dərdimi yaz, ağrın alım;
Firqətindən, həsrətindən
Oldum nasaz, ağrın alım;
Al hava, gətir dava,
Eyləmə naz, ağrın alım.

Boyu bəstə, oldum xəstə,
Mən yazığa sən rəhm elə.
Üzü qəmər, müşgü ənbər
Xub yaraşır siyah telə;
Altından al, bir qumaş şal
Dolayıbsan nazik belə;
Alma yanaq, qaymaqdodaq,
Göz önündən getmə hələ;
Gətirim saz, ol xoşavaz,
Ay Sərvinaz, ağrın alım.

Bir şəhla göz, bir belə qız
Görməmişəm bu dünyada.
Etmir hesab, bu nainsaf
Aşiqini salmır yada.

Salma çölə, insaf elə.
Mən xəstəyə versin bada.
Əldə gülü, şirin dili
Mən görmüşəm Minayada.
Keç başa, qıl tamaşa,
Mən çalım saz, ağrın alım.

Ay mələk, qurma kələk,
Gözlərini süz, bəri bax!
Gəl mərdana, bu gərdana
Saçlarını düz, bəri bax!
Bu gün yazım, şeir düzüm,
Olaq üzbəüz, bəri bax!
Bu səhər, qoynun bahar,
Açılıbdır yaz, bəri bax!
Daranıb, xub yaranıb
Belə şahbaz, ağrın alım.

Ay gülüm, şən bülbülüm,
Cəh-cəh vurub, etmə haşa;
Alma yanaq, büllur buxaq,
Bal bələnib dilə, dişə.
Sayıl olub, mayıl olub
Hər kəs görsə qələm qaşa.
Bu bazardan, bədnəzərdən
İllər boyu uzaq yaşa.
Əsəd deyir, vəsfin yazır
Bir belə qız, ağrın alım.

XIRDACA QIZ

Aşıq Ələsgərə nəzirə

Naz ilə gəldin otağa
Leylinişan Xırdaca qız!
Tovuz kimi cilvələnib,
Artırır şan Xırdaca qız.

Biri huri, biri pəri,
Biri də sən, Xırdaca qız!
Gözləri cəllada dönüb,
Qəmzəsi qan Xırdaca qız.

Məclisə o əmr eləyib,
Aşiqini saz eləsin;
Davud kimi nəfəs çəkib,
Bir də xoş avaz eləsin;
Bülbül kimi cəh-cəh vurub,
Zimistanı yaz eləsin.
İşvə, qəmzə canım alır,
Daha bizə az eləsin.
Mən ki sənin aşiqinəm
Eylə güman, Xırdaca qız!

Gəzmişəm, hər ölkəni,
Belə canan görməmişəm;
Boylananda durnasayaq,
Qaşı kaman görməmişəm;
El-obada, ay həzarat,
Allah, aman görməmişəm;
Mənim kimi eşq əlindən
Oda yanan görməmişəm.
Yaraların məlhəmisən,
Öldüm, aman Xırdaca qız!

Cahıl, ahıl, qarasaqqal
Görüb, sənə mail olub.
Didarından ayrı düşən
Ağlı gedib, zayıl olub.
Sən Leylisən, sən bir Məcnun
Çölə düşüb, sayıl olub;
Hər nə fərmayiş buyursan,
Hamı ona qail olub;
Əmrinə baş əyiblər.
Buyur fərman, Xırdaca qız!

Gəzmişəm, mən görməmişəm
Sənin tək qaşı qəməri;
Belin nazik, gərdən nazik,
Bağlayıb qızıl kəməri;
Tər-təzə ağ qoftanın
Üstündən geyib məxməri.
Əsəd sənə qurban deyib
Bu əziz can ilə səri.
Bir gün ola, güzar düşə,
Ola mehman, Xırdaca qız!

ŞAİR NƏBİ BORÇALI
(1877–1945)

QOŞMALAR

BİLMƏDİ

Bu gün bir cüt gözəl keçdi qarşımdan,
Biri dərdim bildi, biri bilmədi.
Ərənlik eylədim açım üzünü,
Biri deyib güldü, biri gülmədi.

Dedim: qonaq eylə, gedək bağına,
Dedi: soluna bax, bir də sağına,
Dedim: üzük verim tax barmağına,
Biri allam dedi, biri almadı.

Dedim: ay qız, bir qədəm bas bəridən,
Dedi: heç qədəmim üzmərəm yerdən.
Dedim: həmdəm olaq, yarıyaq yardan,
Biri ollam dedi, biri olmadı.

Dedim: ay qız, nədən oldun bivəfa,
Dedi: heç canına vermirsən cəfa,
Dedim: mən Nəbiyəm, sən gəl insafa,
Biri gəlləm dedi, biri gəlmədi.

GÖZƏL

Tellərin qəzəbi bənzər şahmara,
Qatlanıb zülflərin ayağı, gözəl.
Qaşların əyrisi kanı-qüdrətdən,
Kim çəkib rənginən boyağı gözəl!?

Geydiyin əyninə qumaşdı aldı,
Tamam sırğaların cavahir, ləldi,
Xudam səbəb saldı, nə gözəl oldu,
Dəydi bizim yerə ayağı gözəl!

Mən Nəbiyəm, bəyan etdim özümü
Zimistan eylədin bahar, yazımı.
Özüm dedim, mən eşitdim sözümü,
Sən oldun canıma nə yağı gözəl!”

ZÖHRƏ

Vaqeyi-aləmdə sevdiyim sənsən,
Tut gedək vətənə əlimdən, Zöhrə.
Sevgi sevgisini salmaz çöllərə,
Didərgin eyləmə elimdən, Zöhrə!

Geyinibsən yaşılını, alını,
Həmdəm olaq mən də bilim halını.
Heyran olub gördüm gül camalını,
Qaytardın ömrümü ölümdən, Zöhrə!

Eşqin atəşindən olmuşam Kərəm,
Mən çəkə bilmərəm belə qüssə-qəm.
Şair Nəbi namə yazar dəma-dəm,
Biz qurtulaq belə zülümdən, Zöhrə!

GÖZƏLİN

Gizlincə dərdinə tacir olmuşam,
Eylərəm sirrini bəyan gözəlin.
Canımı yolunda qoydum nişana,
Kirpiyi ox, qaşı kaman gözəlin.

Qasidim dərdimi ona söyləməz,
Qönçə güllərini gəlib iyləməz.
Bir tutub qolumdan mehman eyləməz,
Oldum atəşinə büryan gözəlin.

Susandım ləbinə, bil, ac arıyam,
Mən də qəm mülkünün bəxtiyarıyam.
Miskin Nəbi deyir: xiridarıyam
Həsrət bağı ismi-pünhan gözəlin.

VAR BUNUN

Mən qəribə dönüb qıya baxanda,
Heç bilmirəm nə davası var bunun.
Altun kəmər tutub incə belini,
Bəzənibdi, zər libası var bunun.

Can alandı, can almaqdı qəsdində,
Pərvaz edib qaş-qabağın üstündə.
Bəyan edib gözəlliyin dəstində,
Götürübdü əl hənası var bunun.

Mən çəkirəm o nazlının qəhrini,
Qasid yıxdı xəyalımın şəhrini.
Gəşt eyləyir o gülşənin sehrini,
Qatarında nər mayası var bunun.

Nəbiyəm, gəzirəm qürbət elində,
Al yaşıl bəzənib tirmə belində.
Layiqdir ki, can verəsən yolunda.
Əmmək üçün tər məməsi var bunun.

GÜL, ONDAN AĞLA

Başına döndüyüm xubların şahı,
Məlul etmə könlüm, gül, ondan ağla.
Yandırıb cismimi döndərmə közə,
Dərdi-əhvalımı bil, ondan ağla.

Hilal qaşın ox-kamanı quralı,
Səni görən gündən-günə saralı,
Həsrətindən cümlə əzam yaralı.
Gəl eynim yaşını sil, ondan ağla.

Səyyad şikarında cığalı tərlan,
Bir kəlmə danışsa lüğəti-İmran.
Şair Nəbi olub hüsnünə heyran,
Mən dalan sevdaya dal, ondan ağla.

YAŞ DA DAYANMAZ

Səhərin günəşi tərlan havalı,
Elə pərvaz eylər, qaşda dayanmaz.
Yandırdın cismimi, döndərdin közə,
Pünhanı ağlaram, yaş da dayanmaz.

Gözün bir cəlladdı, yoxdur amanı,
Ləbin neylər, ay qız, əxrət-imanı?!
Ağ sinəndə bəsləyirsən məməni,
Ona qul olmağa döş də dayanmaz.

Qamətin gözəldi, cismin əladı,
Kirpiyin müjganı başa bəladı.
Nəbi deyər, ərzi-halım belədi,
Ün salıb dağlara, daş da dayanmaz.

BUTASAN, GÖZƏL

Səhərdən bəklədim mən yollarını,
Bir gəlib qarşımdan ötəsən, gözəl.
Sən özün bilmirsən öz murazını,
Mən yaxşı bilirəm butasan, gözəl.

Yetmişə yetsən də mən səni allam,
Dərgah ilahiyə min duva qıllam,
Aylarınan xəstə olsam sağallam,
Sən gəlib qolumdan tutasan, gözəl.

Mən Nəbiyəm aşıqların zəriyəm,
Yanıram oduna eşq əsiriyəm.
Gəlmişəm qapına, bil müştəriyəm,
Ləbiyin balından satasan, gözəl.

ADDIM-ADDIM

Mən ilqar eylədim yara – Gülşana,
Lalələr seyrinə var, addım-addım.
Könül sakin oldu gül çöhrəsində,
Bir yetir dəstini dər, addım-addım.

Hər nə desən sözlərinə qayılam,
İşar etsən, dost bağında sayılam,
Nə müddətdi camalına mayılam,
Saxla qədəmini dur addım-addım.

Göstərdi camalın, niqabın açdı
Ağıl heyran olub, xəyalım çaşdı.
Yüz min işveyi, nazınan keçdi,
Sallandı qarşımdan yar addım-addım.

Şair Nəbi, bu kəlamın nə qəsdən,
Sən dedin sinəmin üstündə bəsdən.
Keçirdin baharı, gəldi zimistan,
Bürüyüb dağları qar addım-addım.

YAR GƏLDİ KEÇDİ

Bir saat əyləndim yol kənarında,
Sallandı qarşımdan yar gəldi, keçdi.
Haçan ki, topladım gəndi-halımı,
Gen dünya başıma dar gəldi keçdi.

Al-yaşıl geyinib, hanalı dəsti,
Havalı telləri yel vurdu əsdi.
Qabaqdan boranı səbrimi kəsdi,
Dumanlı, ciskinli, qar gəldi, keçdi.

Şair Nəbi ağlar dərdin kanıdı,
Şirincə ləblərin əmdim qanadı,
Bütüncə bədəni can dərmanıdı,
Qıymadı qoynunda nar gəldi, keçdi.

XƏYYAT MİRZƏ
(1885-1922)

QOŞMALAR

GÖZƏL QIZ

Sallana-sallana gedən gözəl qız,
Ay qız, bu güzarın bulağadırmı?
Niyə gec gəlirsən, tez qayıdırsan?
Tez gəlib, gec getmək qadağadırmı?

Mən qurbanam sən tək ayna qabağa,
Ziba zənəxdana, gülgəz yanağa.
O bəyaz bədənə, o ağ buxağa...
Şəkkərin şərbəti dodağadırmı?

Ölməyib tapaydın həyat, ay Mirzə,
Olmaz sənin kimi xəyyat, ay Mirzə,
Bərələri busan səyyad, ay Mirzə,
Canın yar yolunda sadağadırmı?

GÖZLƏR

Bir səyyad alıbdır, ətrafı abı,
Tər cığası əyri sonanı gözlər.
Bir qərib əyləşib eyvan otaqda,
Tutubdur dəstində su, nanı gözlər.

Eşqin səfasında bir nişana var,
Mərdin havasında bir nişana var,
Namərd yuvasında bir nişana var,
Görməsə yaxşıdır yamanı gözlər.

Bircə ölməyəydim, tapaydım, həyat,
Qəm bəzirganıyam, peşəmdir xəyyat,
Qoynunda bir cüt nar, vəfalı səyyad,
Mirzə tək növrəstə cavanı gözlər.

DEYƏ-DEYƏ

Aləmi-röyada bir baxça saldım,
Dolandım ətrafın bar deyə-deyə.
Hasarın çəkdirdim alovdan, oddan,
Bağban oda yandı nar deyə-deyə.

Gördüm bir çeşmədə xublar dəsini.
Yenə gülüş aşdı qumru səsini.
Ovçusuyam, gəzdim ov bərəsini,
Bu dağlarda maral var deyə-deyə.

Eşq əlindən gəldin cana, ay Mirzə,
Cismin atəşlərdə yana, ay Mirzə,
Baş əyməzdin bəyə, xana ay Mirzə,
Düşübsən çöllərə yar deyə-deyə.

YOXDUR

Aşıqlar çıxıbdı Kür kənarına,
Heyif qırağının sonası yoxdur.
Bahar fəsli yamyaşıla bürünər,
Üç ay zimistanın havası yoxdur.

Dərin-dərin dəryalarda üz, yaşa.
Davat, qələm əldə tutub yaz, yaşa.
İstər əlli yaşa, istər yüz yaşa,
Axır bu dünyanın vəfası yoxdur.

Olmuşam səhlənkar, düşmüşəm düzə.
Məcnunun Leylisi görünmür gözə.
Hicran xəstəsisən, divanə Mirzə,
Sənin bu dərdinin davası yoxdur.

GƏLMƏSİN

Yaqutdan, yəməndən, ləldən, gövhərdən
Yük tutmayan bu bazara gəlməsin!
Bir xeyir ummasın bizim diyardan,
Gəlsə də düşəcək dara, gəlməsin!

Əyər bu meydana gəlsə də hər kəs,
Üz-üzə mənimlə çəkə bilməz bəhs,
Deyişmə başlanıb ucalanda səs,
Qərq olar atəşə, nara, gəlməsin!

Ustaddan dərs alıb sürməyən səfa,
Arif məclisində çəkəcək cəfa,
Əsəd, Nəcəf, Ələsgərdən məsafa,
Qeyri aşıq bu diyara gəlməsin!

Ariflər əyləşib, el düzüləndə,
Dərya dalğalanıb, göl düzüləndə,
Sərraf seçiləndə, ləl düzüləndə,
Olacaqdır bağrı para, gəlməsin!

Alimlər əyləşib, biz yoxlananda,
Xəyyat Mirzə qorxmaz yüz yoxlananda,
Ustalar seçəndə, söz yoxlananda,
Düşəcəkdir boran, qara, gəlməsin!

KİMİN YARIDI?

Bu mina gərdənli, nazik bədənli,
Yarəb, söylə görən kimin yarıdı?
O alma yanağı büllur buxağı,
Təzə yağmış Savalanın qarıdı.

Səni görcək taqət endi dizimə,
Ay qabaqdan şölə düşdü gözümə,
Neyləmişəm, baxmayırsan üzümə?
Yazıq canım nəyin günahkarıdı?

Məni görcək üzdən atdı niqabı,
Zülfləri bənd edib on dörd kitabı,
Gözəllik hüsnünün yoxdu hesabı,
Cəmi gözəllərin kamandarıdı.

Mənim canım atəşlərə bükürsən,
Eynim yaşın uruxsarə tökürsən.
Bu dünyada nə ki zillət çəkirsən,
Bil, Xəyyat Mirzənin ahü-zarıdı.

ŞİRİN-ŞİRİN

Başına döndüyüm vəfalı dilbər,
Dolan, gəl yanıma sən şirin-şirin.
Ala gözlərinə, qələm qaşına
Can qurban elərəm mən şirin-şirin.

Ağ üzündən rübəndini götürsən,
Miskin muradımı kama yetirsən.
Ölən vaxtı başım üstdə otursan,
Verrəm əzrailə can şirin-şirin.

Səni nişan aldım, baş vurdu gülləm,
Camalın görməsən yəqin bil ölləm.
Qalasan odlara canı şam billəm,
Deyərsən, ay Mirzə, yan şirin-şirin.

VAR

Hicran düstağıyam dərdə giriftar,
Mənim bu dərdimin nə loğmanı var.
Nə ömrüm tamamdır borcdan qurtaram.
Nə cərrah əlacı, nə dərmanı var.

Sərgərdən qalmışam əlacdan naçar,
Namərd qaydasıdır arxadan qaçar.
Qəlbin sandığına olaydım açar,
Açaydım, görəydim nə gümanı var?

Dərdimi demərəm nə qəhrəmana,
Nə Sama, Rüstəm tək bir pəhləvana;
Şikayət eylərəm adil divana,
Nə mülkü, şəriki, nə məkanı var.

İNCİDİR

Sallanıban min naz ilə gedən qız,
Bu cür sallanışın yolu incidir.
Göstərirsən badi-səba yelinə,
Eylər pərakəndə teli incidir.

Nə Misirdə Yusif, Züleyxa, Kənan.
Xudam xəlq etməyib sən təki canan,
Demə aşiqlərdi eşqimə yanan.
Firqətin mahalı, eli incidir.

Boyun uzmasıdı belə xoş macal,
Münasib, mükatib dövrəndə kamal,
Bağlarda bülbülün nitqi olur lal,
Yanağın laləsi gülü incidir.

Çoxdu səndə gözəlliyin hesabı,
Bircə götür ağ üzündən niqabı,
Əyninə geyəndə zəri-zərbabı,
Qızıl kəmər incə beli incidir.

OLSUN

Pədəri-mehriban, incimə məndən,
Ölənədək işin ahızar olsun!
Yar fərağı möhkəm olsun sinəndə,
Yeyibnən, içdiyin zəhrimar olsun!

Uca dağdan əridibsən qarımı,
Baxçalarda soldurubsan barımı,
Zülmünən əlimdən aldın yarımı,
Görüm yarın özgələrə yar olsun!

Beytəklif məclisdə söz deməm, haşa!
Çünki əyləşibdi xan ilə paşa,
Yandırdın canımı, yaxdın atəşə,
Qiyamətdə sənin yerin nar olsun!

Vəfalı dostların qadasın alım,
İnsafdırmı mən yarımdan usanım?
Necə qıydın, ay bimürvət, ay zalım,
Mirzə vətənindən gen-güzar olsun?!

MƏNİ

Zahirdə dost olan batində düşmən,
Sən ha bənzədirdin çinara məni.
Kümbəzəl xizridə, darı dünyada,
Hesab eyləyərdin minara məni.

Sənubər, boynuna qılardım həvəs,
Şövqündən edərdim düşmən ilə bəs,
Qafadan üqbaya köçübdü nəfəs,
Alıb qoyan yoxdu məzara məni.

İndi mən olmuşam qırxların piri,
Seçirsən gözümdə bəd olan tiri,
Həbəş sailiyəm, Firəng əsiri,
Qulluq üçün göndər bazara məni.

Mən Mirzəyəm dosta qəmzə satardım,
Ol müşkünən ənbərinə batardım,
Sübhə kimi tər qoynunda yatardım,
Bimürvət, atıbsan kənara məni.

QIZLA GƏLİNİN BƏHSİ

Qız deyər: – bağçalar, bağlar içində
Süsənim, sünbülüm, gülüm var mənim.
Döşlərim bənzəyir taza turaca,
Əl dəyməmiş qəddi-dalım var mənim.

Gəlin deyər: – qız öyünmə özünə,
Tər bədənim, yaşıl, alım var mənim.
Geymişəm əynimə zərdən, zibadan,
Atlas qofta, tirmə, şalım var mənim.

Qız deyər: – yanağım, rəngim açılar,
Tas qurar baxtıma baxar falçılar,
Gündə-gündə gedər, gələr elçilər,
Gör, nə əcəb xoş iqbalım var mənim.

Gəlin deyər: – tellərimi əsdirrəm,
Əsdiribən qız, başını kəsdirrəm,
İncə belə mina kəmər düzdürrəm,
Mərd iyid qucmağa belim var mənim.

Qız deyər: – mən oxşamışam anama,
İnci, sədəf, dürr düzdürrəm yaxama,
Əl dəysə qoynumda sınar şamama,
Şah yanında açıq dilim var mənim.

Gəlin ağız açıb qıza söz deyər:
Havalanma, dur yerində düz, deyər,
Neçə cahıl su yolunda gözləyər,
Ağ üzümdə qoşa xalım var mənim.

Qız deyər: – əlimə alsam peymana,
Nuş edər qocalar, qalmaz cavana,
Cahılı-cuhulu qıllam divana,
Sona kimi əsən telim var mənim.

Gəlin deyər: – mənəm sinəsi tuyğun,
Qoynumda döşlərim yetişdi qovun,
Əl dəyəndə durar buğunbabuğun,
Saf ürəyim, şimşad əlim var mənim.

Qız deyər: – bənzərəm dəli ceyrana,
Açıqdı güzarım, yolum hər yana,
Bir cüt xal üzümdə olub nişana,
Buna nisbət pür kamalım var mənim.

Gəlinəm, bağlaram belə kəməri,
Mat eylərəm göydə şəmsü-qəməri,
Xəyyat Mirzə olsa mənə müştəri,
Deyərəm, nə gözəl halım var mənim.

Qız deyər: – dilimə yaraşmaz nasax,
Gör nə cür busatdır bəzənib otax,
Əyər Mirzə gəlsə bu gecə qonax,
Onda görün nə cəlalım var mənim.

ELLƏR AĞLADI

Ay həzarat, gəlin sizə söyləyim,
Mənim əhvalımı ellər ağladı.
İstədim ki, yön çevirəm bir yana.
Qubar tədbir tapdı, yollar ağladı.

Heç kimsə dayanmaz bir belə aha,
Kimim var ki, kimə gedim pənaha?
Dərdimi söylədim bir adil şaha,
Şah pərişan oldu, qullar ağladı.

Vaxt olar ki, el yaylağa köç elər,
Gülgəz boylulara xələt biçilər.
Bir bağa girdim ki, eynim açılar,
Bülbül nalə çəkdi, güllər ağladı.

Bir bağ saldım, nəzər salım barına,
Fələk məni həsrət qoydu narına.
Mirzəyəm, varanda göl kənarında,
Sonalar ürküşdü, göllər ağladı.

DOLANIR

Könlüm quşu yenə havalanıbdı
Qalxıb ərş üzündə tağı dolanır.
Bilməm hansı vəfadara uyubdu.
Əyər olsa həyat, bağı dolanır.

Qüdrətdən çəkilib ağ nazik əllər,
Rizvan şanəsiylə daranır tellər,
Yarım oylağında gəzən gözəllər,
Cümləsi canıma yağı dolanır.

Mən oldum dünyada sənətə pərgar,
Hayıf sözlərimə yoxdu xiridar,
Mənə möhkəm ilqar verən nazlı yar,
Əğyar məclisində saqi dolanır.

Bilməm dostum hansı, düşmənim hansı,
Üzümə kəm baxdı xubların xası,
Dostun məzəmməti, düşmən tənəsi,
Xəyyat Mirzə, qəm otağı dolanır.

MƏNİM

Başına döndüyüm əzizim ana,
Əvvəl amanatdı otağım mənim.
İnsaf edin, yaxşı hörmət eyləyin,
Qərib yerdən gəlsə, qonağım mənim.

Düşdüm yar eşqindən diyarbədiyar,
Sevgilimə can nisardı hər nə var.
Bu sirdən etmə onu xəbərdar,
Bilsə çəkə bilməz fərağım mənim.

Xəyyat Mirzə sənə eyləyər nazı,
Gəl edək arada razu-niyazı,
Götürrəm əlimə xətabənd sazı,
Hərdən pozğun olsa damağım mənim.

GÖZƏLLƏR

Yenə bu günləri bayram günüdü,
Bürünüb yaşıla, ala gözəllər.
Kəlağay bağlayıb hərə başına,
Tirmə örtüb qəddi-dala gözəllər.

Olmaz sizin kimi qəmzəsi qanlar,
Alma yanaqlılar, qaşı kamanlar,
Gözəl dəstənizi görən cavanlar
Yəqin düşər özgə hala, gözəllər.

Huri-mələk ola bilməz sizə tay,
İşıq alır, camalızdan ərşdə ay,
Qoyub yolunuzda Mirzə haqq-say,
Dəyməsin boynuza belə, gözəllər.

DAYANDI

Cümlənin günündə bir xoş xanədə,
Abü-atəş bir xanədə dayandı.
Hər kəs öz yerində tutmuşdu qərar,
Atəş buxar verdi, ab da oyandı.

Naxışı gözəldi, qaməti əlif,
Ab, atəş xanəsində müttəlif.
Dəhanından çıxır badi-müxalif,
Bacalardan dud asmasan dayandı.

Bir gözəl ağ geydi tər əndamınə,
Min naz ilə çıxdı qələ baminə,
Göz yaşını tökdü eşqin caminə,
Şirin şərbət o məclisdə dolandı.

Müxtəsər sözümün budu durağı,
Hinddən, Hindistandan gəlir sorağı,
Qırx iki bacası, dörddür ayağı,
Xəyyat Mirzə hər gün ona mehmandı[1].

[1] Tapmaca şəklində deyilmiş bu qoşmada şair samovarı təsvir etmişdir.

MƏNİ

Doqquz sinnə yetdim tələb eylədi,
Səf dolan quranda səna sən məni.
Bir bu qədər imtahana çəkirsən,
Qədir Allah, kəm-kəm sınasan məni.

Nə qandırım anlamaza ha lalı,
Sərrafın dəstində gördüm ha lalı,
Haramam meydanda mərdin halalı,
İstəsən bilərsən sən asan məni.

Mirzə çətin bu dünyada kəm alı,
Leylü-nahar hələ dərsin kəm alı.
Ey ariflər, yoxlar olsan kəmalı,
Mərdisən meydanda sına sən məni.

SƏRİNDİ

Səhər-səhər sar qonubdu sərdana,
Bu eyvanın sər kölgəsi sərindi,
Səyyad, sarı bağla bağa girməsin,
Səs eşidər, səda çəkər sər indi.

Səyyad seyr eləyib seydin binasın,
Usta çəkib bu sarayın binasın,
Sürahidən səngin, sindən binasın,
Malası sin, kafdı, özü sərindi.

Xəyyat Mirzə, rəngin oldu sarı, gəl,
Seyr eləmə səhralarda, sarı gəl,
Sərsəri dolanma, bizə sarı gəl,
Zər matahın dost sədrinə sər indi.

YAZI QƏM MƏNİ

Bu dünyada yetişmədim murada,
Yaradan, öldürmə yazığam məni,
Gəşt eləyib gəzər olsam taparsan,
Gələn qışı qara, yazı qəm məni.

Ərənlər yolunda sabitəm mən də,
Onunçunmu məni salıbsan bəndə,
Varmı mənim kimi vəfalı bəndə,
Tapar yuvasından yazıxan məni.

Mən Mirzəyəm dağıtdılar qalamı,
Bais budur dost yolunda qalamı,
Sağ əlinlə alar olsan qələmi,
Namələr üstünə yazıb qan məni.

BAĞLADIM

Başına döndüyüm vəfalı dilbər,
Mən sənin əhdinə vəfa bağladım,
Götürdüm əlimə eşq orağını,
Mən biçib zülfündən bafa bağladım,

Əziz təbib, baxtın olsun sənə yar,
Nəf eləsə qara bağrım sənə yar,
Əbrişimdən libas tikdim sənə yar,
Zər qofta üstündün bəfa bağladım.

Mirzə, ismin hərifində var ağa,
Ölüm günü ehtiyacım var ağa,
Bey naqisdir, yaza bilməm varağa,
Qafu-rey qəlbimdə vəfa bağladım.

MÜXƏMMƏS

GÖZƏL

Arif olan, bilin, çəkib, bu sinəmə dağı gözəl,
Bülbül kimi gəşt eləyib, dörd dolanıb bağı gözəl,
Görəni candan eləyir hüsnünün varağı, gözəl,
Xəstə ki, hələ xəstədir, öldürürsən sağı gözəl,
Xudam səni xəlq eləyib, aşıqlara yağı gözəl.

Gəzmişəm, görməmişəm bir belə tərsa balası,
Ağ üzü şölə verir, necə dağların lalası,
Xəstələrə şəfa verir ləblərinin piyalası,
Zindandan azad eləyir, mən kimi dustağı gözəl.

Yanağına, qabağına, tökülüb telləri qəşəng,
Qönçəli bir bağça kimi açılıb gülləri qəşəng,
Deyəsən qüdrət qaşıdı, ağ nazik əlləri qəşəng,
Mollalara qəsd eləyir, tullayıb yaşmağı gözəl.

Gözəl bir tər şamamasan, səbzə, bostan, tağ içində,
Yəqin bil ki, firqətində qovrulmuşam yağ içində,
Baharın gül-çiçək ayı bir bülbüllü bağ içində,
Mirzənin hər məclisində sən olasan saqi gözəl!

MİSKİN ƏLİ
(1881–?)

GƏRAYLILAR

ALMA, AMAN

Pünhan-pünhan baxan gözəl,
Ağıl başdan alma aman,
Canım oda yaxan gözəl,
Məni dərdə salma, aman.

Qurbanam qələm qaşına,
Sirrini ver sirdaşına,
Dağlanmış sinəm başına,
Müjganımı çalma aman.

Xub saxla namus, arını,
İstərəm etibarını,
Atıb vəfalı yarını,
Seyrağıbı bulma aman.

Alışıram bax tüstümə,
Gəl acıqlanma üstümə,
Yağı cəllad tək qəsdimə,
Qəzəblənib dolma aman.

Görmədim qaşın təhrini,
Dağıtma könlüm şəhrini,
Çəkib əğyarın qəhrini,
Dərin fikrə dalma aman.

Kim sevməz sən kimi yarı,
Olmayasan bir gün sayrı,
Qədirbilməz xardan ayrı
Qönçə gülüm, solma, aman.

Bircə kəlmə danış, söylə,
Kamanın bağrıma teylə,
Geyin, sallan, Miskin ilə,
Zarafatdan qalma, aman.

YAXANI DÜYMƏLƏMƏ

Gözəlliyin mən deyərəm,
Gəl yaxanı düymələmə.
Qaşlarına baş əyərəm,
Gəl yaxanı düymələmə.

Bağçanızda bitən güldür,
Saçların süsən sünbüldür,
Açıqlıq yasaq deyildir,
Gəl yaxanı düymələmə.

Tərifin vardır hər yanda,
Söylənir, dildə, dahanda,
Nə saxlayırsan pünhanda,
Gəl yaxanı düymələmə.

Araqçının yana qoyma,
Bağrımın başını oyma,
Nə lazımdır tikmə düymə,
Gəl yaxanı düymələmə.

Sənsən gözəllərin xası,
Geyinibsən tər libası,
Şair edir iltiması
Gəl yaxanı düymələmə.

“Kərəm sənə nələr demiş,
O dil-dodağını yemiş”,
Yaxa bəndi neylər gümüş,
Gəl yaxanı düymələmə.

Gözəllər bağçaya gedir,
Məşuqunun bağrın didir,
Miskin Əli xahiş edir,
Gəl yaxanı düymələmə.

MÜŞTAĞAM

Süz, yeri, qaragöz maral,
Qəddi dala mən müştağam,
Şəkərdən şirin söz maral,
Ləbi bala mən müştağam.

Eşqin sevdası başında,
Aşiqəm qoca yaşımda,
Geyinib sallan qarşımda,
Yaşıl, ala mən müştağam.

Əhdini yerinə yetir,
Mətləbini bircə bitir,
Nazik əllərinlə gətir,
Ver piyala, mən müştağam.

Gəl gözünü süzə-süzə,
Dərdimi yetirmə yüzə,
Xoş növrağa, lala üzə,
Gül cəmala mən müştağam.

Qalx havalan tərlan kimi,
Mən boylanım heyran kimi,
Dərddən qanan Loğman kimi,
O kamala mən müştağam.

Hər vaxt eylə dostunu yad,
Məlul könlümü eylə şad,
Buraxmaz ahunu səyyad,
Sən marala mən müştağam.

İlqarına eylə vəfa,
Yolunda çəkmişəm cəfa,
Həmdəm olaq, sürək səfa,
Gümrah hala mən müştağam.

Könül mail ay qabağa,
Ağlım alan gül yanağa,
Zənəxdana, ağ buxağa,
Xəddü-xala mən müştağam.

Eşqin gölünə dolanda,
Əhdinə doğru qalanda,
Miskin Əlini salanda,
Qiylü-qala mən müştağam.

BƏNÖVŞƏ

Mən sənə tərif deyərəm,
Bir neçə xana, Bənövşə.
Gözəlliyini öyərəm,
Gedər hər yana, Bənövşə.

Qaşların bənzəyir yaya,
Sənsən gözəl, ağca maya,
Gəl gedək bizim saraya,
Bax kərəmkana, Bənövşə.

Köksün dağda qara bənzər,
Turuncların nara bənzər,
Səni qucan sara bənzər,
Sığın tərlana, Bənövşə.

Can görmədim sən həvəsdə,
Deyib gülürsən ahəstə,
Dərdindən olmuşam xəstə,
Yetir dərmana, Bənövşə.

Dər gətir dəstə nərgizi,
Sanc telin üstə nərgizi,
Bağışla dosta nərgizi,
Mərdi-mərdana, Bənövşə.

Miskini salma ayağa,
Boyum boyuna sadağa,
Qəbul qılsam sən çırağa,
Ollam pərvana, Bənövşə.

QURBAN OLUM

İşvə satan vəfalı yar,
Gül növrağa qurban olum.
Aşiqinə cəfalı yar,
Ağ buxağa qurban olum.

Hərdən-hərdən baxıb gülən,
Dostunun dərdini bilən,
Gərdən üstünə tökülən
Zülfi-tağa qurban olum.

Ortaq olma dərdü-qəmə,
Başlayaq söhbətə, dəmə,
Görünür bir cüt tər məmə,
Qoynu bağa qurban olum.

Həsrət çəkənini ara,
Şana al telini dara,
Qaşları nə əcəb qara
Üzü ağa qurban olum.

Məhəbbət yağır gözündən,
Şəkər tökülür sözündən,
Gəl salma məni özündən
Sən irağa, qurban olum.

Sənsən əcəb gözəl insan,
Qoyma gedə ilqar, iman,
Şəhdi-zəban, şirin dahan,
Bal dodağa qurban olum.

Özü süsən, saçı sünbül,
Miskin verib sənə könül,
Gözəl cəmalı qızılgül,
Ağ yanağa qurban olum.

ZÜLFÜ

Naz eləyən nazlı dilbər,
Tök gərdana siyah zülfü.
Qumru tək avazlı dilbər,
Salla yana siyah zülfü.

Sinəm üstünü dağlama,
Dostunun yolun bağlama,
Cəllad tək yağı saxlama,
Şirin cana siyah zülfü.

Ünüm asimana çatır,
Müjganın sinəmə batır,
Gör nə qədər gözəl tutur,
Gümüş tana siyah zülfü.

Sən ol əhvalım soruşan,
Yanağında dənə nişan
Gətirmə, qılıb pərişan,
Dad amana siyah zülfü.

Sənin təki sona teli,
Kafər görsə dinə gəli,
Vəsf eləyir Miskin Əli,
Yana-yana siyah zülfü.

GƏLMƏDİN

Tükətdin səbrimi qalmadı taqət,
Vədə verib niyə bizə gəlmədin?
İl keçdi, ay keçdi, dar oldu ovqat,
Barı bircə söhbət-saza gəlmədin.

Həramı gözləri, dolu piyala,
Qorxuram başımı bəlaya sala,
Atəşinə yanıb eylərəm nala,
Bu sinəmdə yanan gözə gəlmədin.

Dolandım çöllərdə, gəzdim səhrada,
Gəlmədin insafa, yetmədin dada,
Sən atlısan, mən qalmışam piyada,
Hey gəzdin sarplarda, düzə gəlmədin.

Həsrət qoyma məni gülgəz yanağa,
O büllur buxağa, qaymaq dodağa,
Sallana-sallana bizim otağa,
Nə oldu bilmədim üzə gəlmədin.

Nə müddətdir mən burada qalmışam.
Süzgün gözlərinə müştaq olmuşam.
Fərağından saralmışam, solmuşam.
Bir yerdə oturub sözə gəlmədin.

İnsaf edib barışmadın biz ilə,
Bir şirin dil ilə, şirin söz ilə,
Açıq qabaq ilə, gülər üz ilə,
Qaş-gözünü süzə-süzə gəlmədin.

Miskinəm, eylərəm ay ilə fəryad,
İtirib ahumu olmuşam səyyad.
Qılmadın dostunu möhnətdən azad,
Sürmə çəkib qara gözə, gəlmədin.

SƏHRAYA

Yaz olanda sular daşar, yollanar,
Könül qalxar, göz dolanar səhraya.
Aşıq olan məşuquna boylanar,
Yarəb, haçan gələr bizim odaya.

Könül tələşdadır, göz intizarda,
Heç bir insaf, mürvət qalmadı yarda.
Axtarsam taparam bəs onu harda?
O da düşüb mənim kimi bəlaya.

Mən istərəm artıq səni bu candan,
Sanasan açılıb bülbülü-xəndan,
İntizar gözlərim əl çəkmir ondan,
Salıbdır sərimi yaman sevdaya.

O dağların başı qarlı-dumanlı,
Gözəllər içində sən adlı-sanlı
Öldürsən aşiqi olarsan qanlı,
Əlindən ahlarım çıxar səmaya.

Bir şirin dillisən, ləbləri ballı,
Sinəsi düyməli, yüz qoşa xallı,
Ümidvar olmasan Əli Zeynallı[1]
Zəhmətin arada heç getməz zaya.

DANIŞAQ SƏNLƏ

Al-əlvan geyinib duran qara göz,
Gəl-gəl, gözəl, deyib danışaq sənlə.
Oxunu sinəmə vuran qaragöz,
Gəl-gəl, gözəl, deyib danışaq sənlə.

[1] Zeynallı Miskin Əlinin familiyasıdır.

Bağda cəh-cəh vuran şeyda bülbüləm,
Əlində tutduğun süsən-sünbüləm,
Qıyma həsrətindən mən yazıq öləm,
Gəl-gəl, gözəl, deyib danışaq sənlə.

Yolunda çəkmişəm mən xeyli cəfa,
Ancaq sürməmişəm bir zövqi-səfa,
Unutma ilqarı, dur gəl insafa,
Gəl-gəl, gözəl, deyib danışaq sənlə.

Tükənibdir səbrim sel kimi daşır,
Açıb qollarını boynumdan aşır,
Camalın görəndə ağılım çaşır,
Gəl-gəl, gözəl, deyib danışaq sənlə.

O cəllad gözlərin Miskinə yağı,
Məndən əsirgəmə qaymaq dodağı,
Qızılgül mövsümü, yaz, sabahçağı,
Gəl-gəl, gözəl, deyib danışaq sənlə.

GÖRƏYDİM

Həsrətin çəkirəm sərvi boylunun
Qoynundakı bir cüt narı görəydim.
Qul olmaq şərəfdir belə gözələ,
Danlayıb döyərdi, barı görəydim.

Qaşqabağı açıq, üzünə gülə,
İşarə eyləsən, dərdini bilə,
Müştəriyəm mən də o siyah telə,
Açılaydı tez bazarı görəydim.

Ay bimürvət, nainsafsan, bivəfa,
Keçirmədik dövran, sürmədik səfa,
Aşığa eylədin cöyr ilə cəfa,
O zülm edən sitəmkarı görəydim.

Gözəllər içində tavarsan tavar,
Gözüm yolundadır, zalım baxtavar,
Həmişə keçəydi günün novbahar,
Nə zimistan, nə də qarı görəydim.

Seyraqıba görünmə sən məbada,
Əlindən gəlmişəm yaxın dildada,
Aramızı hər kəs vursa dünyada,
Cəzalanan günahkarı görəydim.

Sənինlə sürəydim bir gözəl həyat,
Ləhcəsi şirinsən, ay dili nabat,
Qəflət yuxusundan sən məni oyat,
Göz açanda mən o yarı görəydim.

Səhərdən sallanıb gəl bizə sarı,
Mürvət qıl dostunu unutma barı,
Miskinin məşuqu bir qoca qarı,
Hazır edə şam, naharı görəydim.

GÖRMÜŞƏM

Gözəl, sənin həsrətini çəkirəm,
Üzünə tökülən teli görmüşəm.
Bir busə lütf edib, eyləsən kərəm,
Zənəxdanda qoşa xalı görmüşəm.

Açıqqabaqlısan həmişə xəndan,
Dilim dolaşıbdır, incimə məndən,
Yaralıyam, bir ox dəyibdi səndən,
Aralıqda fitnə, feli görmüşəm.

İtirməz əslini yəqin qızıl gül,
Qaməti düzgünsən, ay saçı sünbül,
Saxlasan yanında mən olaram qul,
Qapınıza gedən yolu görmüşəm.

Tarı yaradıbdı xoş gündə səni,
Divanə eylərsən üzün görəni,
Oduna yandırma bu yazıq məni,
Bağçada açılan gülü görmüşəm.

Baxırsan Miskinə yenə qıyqacı,
Olmuşam üzündə xalın möhtacı,
Ovlayanda quba qazı, turacı,
Sonalar məskəni, gölü görmüşəm.

TAYLI-TAYINI

Gözəllər hüsnünə aşiq olanlar,
Üz sürtmək istərlər xaki-payına.
Məhəbbət yetirər hər zaman ona,
İstəməz qaməti gözdən yayına.

Dindirəndə şirin-şirin danışa,
Hərdən küsə, hərdən gələ barışa.
Aşna ola hər işinə alışa,
Xoşbaxtlıqdı düşə taylı-tayına,

Qaşqabağı açıq, yanaq gül ola,
Ağ üzə tökülən qara tel ola.
Bir sürahı boylu, nazik bel ola,
Surəti bənzəyə bayram ayına.

Hər kəs ki, dünyada edə arızı,
Yaradan yetirə bir belə qızı,
Bir gözəl məclisdə geyə qırmızı,
Miskin qonaq ola Papov çayına.

GÜNDÜZ

Bir bivəfa yarın pərvanəsiyəm,
Dolannam şamına gecə və gündüz.
Belə gözəllərin divanəsiyəm,
Zülfləri çinbəçin, qəddü-dalı düz.

Müjgan oxun bizə sarı atanda,
Aşığa naz edib, qəmzə satanda,
Uzun gecələri yalqız yatanda,
Yanıb hicranına qovruluruq biz.

Sızıldar bədənim ayaqdan başa,
Sən hara, mən hara, deyirdin haşa,
Yalvardım, yapışdım o qəlbi daşa,
Nə yaxşı, nə yaman, demədi bir söz.

Məşuq isən aşiqindən usanma,
Sən də mənim kimi atəşə yanma,
Üzülürəm daldalarda dayanma,
Solar bənövşələr, saralar nərgiz.

Gözəllikdə səni tərlan sanıram,
Gündüz alışıram, gecə yanıram,
Miskinəm canımdan mən usanıram,
Saatım il keçir, cananım, sənsiz.

OLMASIN

Gəl, yoldaş, çalışaq, eyləyək birlik,
Arada xəndək-qac daha olmasın.
Sən yoxsul, mən muzdur, yaradaq birlik,
Aramıza hampa gəlib dolmasın.

Kimimiz əkinçi, kimimiz maldar,
Hər kəsin əlində nə sənəti var,
Qoyaq ortalığa, olaq bərabər,
Kimsə kollektivdən kənar qalmasın.

Traktor səslənsin, yerlər sökülsün,
Yarış bağlanılsın, əmək çəkilsin,
Pambıqlar dərilsin, buğda biçilsin.
Bostanlar, bağçalar batıb solmasın.

Çalınsın sazlarda birlik havası,
Bürüsün hər yanı kolxoz ovası,
Uçsun hampaların bayquş yuvası,
Bir də məzlumları bəndə salmasın.

Əlinin dilində hər vaxt əzbəri,
Xoş gündəyəm kolxoz olandan bəri,
Yenilik çuğlayıb bizim elləri,
Mümkünmü keçmişə zərbə çalmasın.

DAĞ MARALI

Nadidə aşiqəm o mah camala,
Ağlımı aparıb bir dağ maralı.
Hayıstan gözəli bir ox atıbdır,
Sinəm ondan çalı-çarpaz yaralı.

Ünləyirəm, ünüm bir yana çatmaz,
Vəfalı yar mənə aşnalıq qatmaz.
Onu görən kəslər gecələr yatmaz,
Köksünü ötürər, solar, saralı.

Ətrafında neçə canlar dolanır,
Görənlərin canı oda qalanır,
El yığılıb, deyən bostan talanır,
Dedim bu ev yıxan görən haralı?

Yaradan yaradıb hər kəsdən əzəl,
Qoşasan hüsnünə müxəmməs, qəzəl,
Ararat tərlanı, gözəldir gözəl,
Əslini bilsəniz Karvansaralı.

Qızıl gülü dəstə-dəstə dərəydim,
Dərib öz əlimlə dosta verəydim,
Ölməyəydim, bircə yarı görəydim,
Miskin Əli ona tərəf varalı.

GÖZƏL

Deyirəm vəsfini, incimə məndən
Gözlərin bənzəyir ceyrana, gözəl.
Halını bilirəm, qorxuram səndən.
Şikayət eylərəm divana, gözəl.

Mən səni sevirəm, ay tərlan xanım,
İzn ver, oduna alışıb-yanım
İncimə sözümdən, sən mənim canım,
Dolanım başına pərvana, gözəl.

Cəmalın bənzətdim göydəki Aya,
Göründü gözümə bir ağca maya.
Zülfündən üstümə heç düşmür saya,
Dalınca gəzirəm hər yana, gözəl.

Can istəsən bu meydanda durmuşam,
Qəm oxunu mən sinəmə vurmuşam,
Çərx altında çox gözəllər görmüşəm,
Gəlməyibdir tayın cahana, gözəl.

Miskin bir kimsəyəm qəlbi şikəstə,
Heç gözəl görmədim mən sən həvəsdə,
Nə ola çıxasan mənimlə gəştə,
Tərifin eylərəm Salyana, gözəl.

DEYİŞMƏ

A ş ı q H ü s e y n:

Gözəllərdə vardır qayda,
Qoy yaxasın düymələsin.
Nələr gördüm mina boyda,
Qoy yaxasın düymələsin.

M i s k i n Ə l i:

Canında atəşi çoxdu,
Niyə yaxa düymələsin?
Ona ki, bir qoruq yoxdu,
Niyə yaxa düymələsin?

A ş ı q H ü s e y n:

Gözəllikdə misli yoxdu,
Qaş oynatdı, oğrun baxdı,
Aşığı yandırdı, yaxdı,
Qoy yaxasın düymələsin.

M i s k i n Ə l i:

Sözün ağır gəlir bizə,
Düelə çıxaram düzə,
Soyuq dəmir qara, buza,
Niyə yaxa düymələsin?

A ş ı q H ü s e y n:

Gözəlliyi həddən aşır,
Dinəndə dilim dolaşır,
Gözüm görür, ağlım çaşır,
Qoy yaxasın düymələsin.

M i s k i n Ə l i:

O nə ağıldır ki, çaşır,
Görəndə gözün qamaşır.
Bağlı gəzmək nə yaraşır,
Niyə yaxa düymələsin?

A ş ı q H ü s e y n:

Tərif edir el, obalar,
Düşər üstə çox davalar,

Əsir küləkli havalar,
Qoy yaxasın düymələsin.

M i s k i n Ə l i:

Gözəllərin sayı çoxdur,
Nar məmələr ucu oxdur.
Səndə ki, heç yruh yoxdur,
Niyə yaxa düymələsin?

A ş ı q H ü s e n:

Düyməsini düzüb yana,
Bağrımı döndərdi qana,
Qəsd eləyir şirin cana,
Qoy yaxasın düymələsin.

M i s k i n Ə l i:

Gəl danışma belə hədər,
Ürəyimdə olar kədər,
Bu gözəllik durmaz gedər,
Niyə yaxa düymələsin?

A ş ı q H ü s e y n:

Bağçalarda bitən bir gül,
Bağında oxuyur bülbül.
Ala gözlü, saçı sünbül,
Qoy yaxasın düymələsin.

M i s k i n Ə l i:

Özünü çəkibsən dağa,
Düşübsən dostdan irağa,
Gözəlliyə yox qadağa,
Niyə yaxa düymələsin?

A ş ı q H ü s e y n:

Bənövşələr boynun əyər,
Hüseyn də gözəli öyər,
Bədnəzərin gözü dəyər,
Qoy yaxasın düymələsin.

M i s k i n Ə l i:

Miskin də çəkər davalar,
Yığılar ellər, obalar,
Qoysan görə binavalar,
Niyə yaxa düymələsin?

AŞIQ MİRZƏ
(1888-1944)

GƏRAYLILAR

BAKI

Tərifini qoy söyləsin
Mənim sazım-sözüm, Bakı!
Nə gözəldir bu cəlalın,
Canım Bakı, gözüm Bakı!

Heyranam neft bulağına,
Nur saçan ağ çırağına,
Bənzər Şərqin mayağına
Çilçıraqlı bizim Bakı!

Gözəlləri dəstə-dəstə,
Gəlsə, şəfa tapar xəstə,
Qanad ver, qoy Xəzər üstə
Pərvazlanım, süzüm, Bakı!

Bu bağların bağbanı var,
Min gözəllik nişanı var,
Çıraq kimi ağ şanı var,
O bağlarda gəzim, Bakı!

Mərdəkanın qumu narın,
Bir qalxandır qayaların,
Dilə gəlsin sənin tarın,
Mənim telli sazım, Bakı!

Sən Mirzənin ürəyisən,
Eşqi, ruhu, diləyisən,
Vətənin göz bəbəyisən,
Dastanını yazım, Bakı!

GÖZƏLLƏR

Yenə bu günləri bayram günüdür,
Bürünüb yaşıla, ala gözəllər.
Kəlağay bağlayıb hərə başına,
Tirmə örtüb qəddi dala gözəllər.

Olmaz sizin kimi qəmzəsi qanlar,
Alma yanaqlılar, qaşı kamanlar,
Gözəl dəstəmizi görən cavanlar,
Yəqin düşər özgə hala, gözəllər.

Huri, mələk ola bilməz sizə tay,
İşıq alır camalızdan ərşdə ay,
Qoyub yolunuzda Mirzə haqqı-say,
Dəyməsin boyuza bəla, gözəllər.

YURDUM

Qafqazın qoynunda, Xəzər boyunda,
Uzanıb gedirsən, çiçəkli yurdum.
Min can dərmanı var Kürün suyunda,
Taxıllı, pambıqlı, çörəkli yurdum.

Muğanın, Şirvanın sərvəti sonsuz,
Gözəl Qarabağın şöhrəti sonsuz,
Bakının, Şəkinin neməti sonsuz,
Ey mənim əməlli, diləkli yurdum.

Bir yanda Savalan, bir yanda Qoşqar,
Ağ örpək kimidir başındakı qar,
Qız kimi Göygölün, Maralgölün var,
Əyni zər-zibalı, ipəkli yurdum.

AZƏRBAYCAN

Qara neftin yer altında cəmlənir,
Onun harayına yet, Azərbaycan!
O zülmətdən onu azad etgilən,
Fərhad tək dağları at, Azərbaycan!

Doğma torpağımın qara dəryası,
Yer altından gəlir fəryadla səsi,
Hərdən buruqların fantan vurması
Göyə qalxır yeddi qat, Azərbaycan!

Biz sevirik səni, qara gözəlsən,
Təyyarə qaldırar, göylər bəzərsən,
Düşmanların basıb bağrın əzərsən,
Onlardan irəli öt, Azərbaycan!

Bağban ellik, bağça ellik, bağ ellik,
Pambıq ellik, bostan ellik, tağ ellik,
Nöyüt ellik, benzin ellik, yağ ellik,
Çalış kommunizmə çat, Azərbaycan!

Şəhərlərdə ulduz kimi sayrışan,
Sənin işığındır hər yana düşən,
Mirzə deyir, gözüm olubdur rövşən,
Məni nəzərində tut, Azərbaycan!

SƏN DƏ GÜL

Azad könlüm, bəxtiyarsan dünyada,
Gözəl vaxtdır ellər gülür, sən də gül.
Bahardır, hər tərəf güldür, çiçəkdir,
Bərəkətli çöllər gülür, sən də gül.

Bax bu yerin baharına, yazına,
Nurdan şölə düşür dünya üzünə,

Qız-gəlinlər sığal verir özünə,
Daradıqca tellər gülür, sən də gül.

Ölkəm zülm içində boğulan zaman,
Oktyabr oldu dərdlərə dərman,
İndi gözəl çağdır, gözəl bir dövran,
Bənövşələr, güllər gülür, sən də gül.

Günəşdən nur yayıldıqca hər yana,
Bizə gəlir dərdi olan dərmana,
Bizimdir bu dünya, yeni zamana,
Oba gülür, ellər gülür, sən də gül.

BİZƏ

Nizami Gəncəviyə

Dindirsən, dil açar yerin torpağı,
O zamandan söylər aşikar bizə,
Xanların qəhrindən, bəylər cəbrindən,
Olubmuş bu geniş dünya dar bizə.

O böyük Nizami, o dahi ustad,
Qoydu bu dünyada ölməyən bir ad,
Nə gözəl əsərlər eyləyib icad,
Qalıbdır sözləri yadigar bizə.

"İskəndərnamə"si, "Yeddi gözəl"i
"Leyli-Məcnun" yazıb dadlı, məzəli,
Qızıldan qiymətli şeri, qəzəli,
Bəxş edib sənətin hər nə var bizə.

Bizim şairlərin ulu babası,
Nizamidir gözəl şeir ustası,
Aləmə yayılıb səsi-sədası,
Eşidənlər deyir bəxtiyar bizə.

Mirzənin sazının incə telində,
Söylər sözün bütün sovet elində,
Sən məktəblilərin əzbər dilində,
Olubsan bu gün bir müasir bizə.

AY TƏNBƏL

Xəyalın yuxuda, gözün yatmaqda,
Bir yemək-içməkdir dərdin, a tənbəl!
Çalışmaq adını eşidən kimi,
Zəhməti bir ilan gördün, a tənbəl!

Əlinə nə keçsə havadan uddun,
Sabahkı gününü yaddan unutdun,
Nə bir əmək çəkdin, nə bir iş tutdun,
Qaydına qalmadın yurdun, a tənbəl!

Səfil gəzdin, çalışmadın bir para,
Dedin, təvəkküllər eləyər çara,
Ehtiyac çoxalıb, düşəndə dara,
Yetənə boynunu burdun, a tənbəl!

Birləşdi zəhmətkeş, yoxsul, füqəra,
İstibdadı yıxıb biz qurduq şura,
Xayın, müftəxorlar atıldı nara,
Sən özün gözünlə gördün, a tənbəl!

Davasız xəstələr çatdı dərmana,
Minillik ölülər gəldilər cana,
Əlinə yaxşıca düşdü bəhana,
Sən də yaxşı kələk qurdun, a tənbəl!

Aldın, yedin, heç baxmadın dalına,
Qəsd elədin fəhlə-kəndli malına,
Tez yetərlər yalan işin halına,
Fəndini duyarlar qurdun, a tənbəl!

Birliyin sənə də dəysin əsəri,
Yalavac dolaşıb gəzmə sərsəri,
Mirzə deyər, qalma cərgədən geri,
Bəsdir indiyədək durdun, a tənbəl!

SÖYLƏYİM

Yaxşı qulaq asın, əziz yoldaşlar,
Bir qəribə hekayətdən söyləyim.
Şəmkir altda o Bitdili kəndində,
Təzə çıxan möcüzatdan söyləyim.

Anlayanlar ziyarətə getmədi,
Gedənlər də mətləbinə yetmədi,
Yalan-palan tükənmədi, bitmədi,
O qurğudan, o büsatdan söyləyim.

Bitdiliyə korlar, şillər getdilər,
O imamın türbəsinə yetdilər,
Nəzir-niyaz yığıb təqsim etdilər,
Pullar çıxdı ovsanatdan söyləyim.

Talandıq, çapıldıq, mal da qalmadı,
Nəzir verdik yağ, motal da qalmadı,
Qurban kəsdik, öküz, kal da qalmadı,
Diri gedən maldan, atdan söyləyim.

Cıvlı Hüseyn əhalini gopladı.
Təbliğatı Bitdilini qapladı,
Dillər tökdü, manat-çervon topladı,
O cibgirdən, o bədzatdan söyləyim.

Biri yol uzunu hay-haray təpdi,
Biri beş qatdandı, kol-kosdan öpdü,
Biri boş başına toz-torpaq səpdi,
Səda saldı, siyasətdən söyləyim.

Mirzə aşığıdır Azərbaycanın,
Kim deməz dastanını belə zamanın,
Kəttanın, koxanım, bəy ilə xanın
Adı batan bir həyatdan söyləyim.

YADIMA DÜŞDÜ

Yarın gərdəninə qolum salanda,
Zülfü dolaşdığı yadıma düşdü,
İstərdim ki, əl uzadım qoynuna,
Düyməsin açdığı yadıma düşdü.

Sallanıb gələndə, dərdin biləndə,
Əl-ələ çatanda, qəh-qəh güləndə,
Əylənib qalanda, pünhan olanda,
Deyib danışdığı yadıma düşdü.

Kirpiyin qaxanda, cana çaxanda,
Hamayıl taxanda, ənbər qoxanda,
Seyraqıb baxanda, öyüm yıxanda,
Kənardan keçdiyi yadıma düşdü.

Aynasın quranda, zinət vuranda,
Zülfünü hörəndə, telin buranda,
Mirzəyəm, görəndə qolum gərəndə,
Həsrət sarışdığı yadıma düşdü.

MÜXƏMMƏSLƏR

BU QIZ

Çıxıbdı yenə seyrana, nə gözəl candı bu qız,
Şöləsi düşüb cahana, ləli-bədəxşandı bu qız,
Ay kimi işıq salır, gör nə əcəb candı bu qız,
Çoxların salıb kəməndə misli sultandı bu qız,
Öpəsən gül dodağın, dərdlərə dərmandı bu qız!

Barmağında üzükləri, üzüyünün qaşı yaşıl,
Sən ala gözlü sonam, çalxan göldə başı yaşıl,
Salmısan canıma od, bu odun ataşı yaşıl,
Gözüm yaşıl köynəyində, gözlərimin yaşı yaşıl,
Qurban olum yerişinə, yaşıl gülüstandı bu qız!

Qədəm qoyur asta-asta, qədəmiylə yol sevinir,
Sağ əlində bir gül tutub, iyləyəndə gül sevinir,
Sən ey ellər bəxtəvəri, sənə baxıb el sevinir,
Gül nəfəsin dəyən kimi Muğan gülür, Mil sevinir,
Mirzə deyər, vurulduğum Azərbaycandı bu qız.

OĞUL!

Bir igidsən adın çıxıb, yayılıb hər yana, oğul!
Bu gün düşmən meydanında qoç kimi dayan, a oğul!
Sən igidlər cərgəsində həmişə sınan, a oğul!
Mərd ana doğubdur səni, sən də ol mərdana, oğul!
Qəhrəmanlıq adı səndə olsun bir nişana, oğul!

Quduz Hitler azğınlaşıb gündə min xəyala düşür,
Qəysavadan uman köpək umsunub pis hala düşür,
Dünyada qülü-qal salan özü qülü-qala düşür,
Al süngünü, sox gözünə, qoy boyansın qana, oğul!

Qafqaz doğan igidlərin dünyaya yayılıb səsi,
Hər bir dağın sinəsində var bir Koroğlu qalası,
Bu qaniçən faşistlərin tezcə alınar havası,
Çöllər ona mənzər olar, kəsilər murdar nəfəsi,
Keçinin ömrü yetəndə sataşar çobana, oğul!

Ellər yenə silahlanıb qalxıbdır ayağa bu gün,
Hər bir yanda nərə səsi düşür daşa-dağa bu gün,
Biz girmişik bu meydana düşməni boğmağa bu gün,
Kommunizm bayrağını günəşdən asmağa bu gün,
Mirzə də vətən yolunda girəcək meydana, oğul!

SƏNİ

Böyük Şota Rustaveli, doğub necə ana səni,
Zalımlar, zülmkarlar, doyurubmuş cana səni.
O gözəl ağlın, kamalın, yetirib meydana səni.
Zalımlar kələk qurub, gətirib amana səni.
Kitabını oda atıb, salıblar gümana səni.

Nizami, Xaqani kimi adın tutubdu dünyanı,
Yazıb gözəl yaşayışa dəvət edibsən insanı.
O vaxtda bazar olmayıb satasan dürr əfşanı.
Gürcü padşahı Tamara, əmr eləyib gəl al məni.
Öz yarından keçməyibsən, coşdurub bir sona səni.

Sənin əziz bayramına bu gündə ellər bəzənir,
Hər yerdən deleqat gəlir, çıxıbsan yollar bəzənir.
Moskva, Bakı, Tbilisi, geyinib allar, bəzənir.
Yeddiyüzilliyinə çox böyük zallar bəzənir.
Sovet xalqı qiymət verib, çıxarıb meydana səni.

Səkkiz əsr bundan qabaq, adın düşüb Gürcüstana.
Qiymətli əsərlərin xoş gəlmədi bəyə, xana.
Qiymət verən olmayıb, sənin kimi göhərkana.
Onunçun təbim coşub, dönüb dəryayı ümmana.
Tovuzlu Aşıq Mirzə yazıbdı dastana səni.

ŞAİR VƏLİ
(1892-1933)

GƏRAYLI

YAVAŞ GET

Nə müddətdi intizaram,
Kərəm elə yar, yavaş get,
Ay qabaqlı, qələm qaşlı,
Qəddi-qələmkar, yavaş get.

Dürr dəhanlı, şirin sözlü,
Gül camallı, qəmər üzlü,
Tuti dilli, xoş avazlı,
Ağ sinəsi qar, yavaş get.

Şair Vəli göhər kanı,
Müjganların tökər qanı,
Qıya baxdın, aldın canı,
Cana sitəmkar yavaş get.

QOŞMALAR

GƏLSİN

Hökm ilə çağırram şair Hüseyni,
Təbi tüğyan isə meydana gəlsin.
Ustadlar ustası, şairlər başı,
Mərd söylənir adı, mərdana gəlsin.

Bəzirgansa mətahını paylasın,
Qəvvas isə dəryaları boylasın,
Xiridarsa, həqiqətdən söyləsin,
Töksün dəhanından dürdana gəlsin.

Təbi şairlərin o rövşənidir,
Hüseyn də Vəlinin mehribanıdır,
Məclis zinətidir, göhərkanıdır
Həqiqət kəlamı dahana gəlsin.

GƏLMİŞƏM

Çıxdım aşıqlığa, düşdüm ellərə,
Aşıqlardan san almağa gəlmişəm,
Tovuzda eşitdim Sənəm, sədanı,
Söhbətindən kam almağa gəlmişəm.

Aşıqlıq elmində nədir pərgarın,
Götür tök bazara ləlü-gövhərin,
Əbcəd hesabından varmı xəbərin,
Şah arıyam, şan almağa gəlmişəm.

Tovuz mahalından şair Vəliyəm,
Aşıqlıq elmindən yaxşı halıyam,
Anlayanın qurbanıyam, quluyam,
Can deməyə, can almağa gəlmişəm.

OLAR

Mənəm deyib bu meydana varanın,
Təbi tüğyan elər, kirdigar olar.
Arif məclisində gövhər sərf elər,
Nəsihət dəhanda dil əzbər olar.

Dərs haqqında ehtiyac yox bir kəsə,
Çıxaram meydana, girərəm bəsə,
Sallam səni şər xətai təcnisə,
Cavabımda dünya sənə dar olar.

Mən Vəliyəm, pəncə vurram hər yana,
Kəllə boyun çəkməz heç körpə dana,
Tülkülər aslanla girməz meydana,
Tülkünün meydanı xəlvətlər olar.

MƏNİ

Şəyirdlər ustadı, şahın şonqarı,
Deyilsən cəngimdə gövhərkan mənim.
Zər, zəbərcəd, yaqud, yəmən rəngində,
Təbim tüğyan edib, taza şan mənim.

Zərbəli danışma, ay mələkmənzər,
Adətdi nur alar şəmsdən qəmər,
Firdos bazarında gəl axtarma zər
Mətaımdı ləlü bədəxşan mənim.

Bərq kimi şaqqıldasan sağıdan,
Durna keçməz şahin-şonqar yağıdan,
Qanad çalıb ərşdə sürbə dağıdan,
Vəliyəm, qaynağım qızıl qan mənim.

MƏRHƏMƏT EYLƏR

Könül müştaq olub mah camalına,
Səni şirin-şirin ixtilat eylər.
Kövsər dodağından, gül yanağından,
Bir busə lütf etsən kifayət eylər.

Yenə canım qaldı dərd ayağında,
Dilbər sevdasında, gül oylağında,
Könlümün bülbülü hüsnün bağında,
Oxuyur şövq ilə qiyamət eylər,

Yoxdur sənin kimi qaşları kaman,
Qul şair Vəlidir oduna yanan,
Mərhəmətli sultan, lütfkar canan,
Öldürməz aşığı, mərhəmət eylər.

GƏZƏRSƏN

Qılman məlahətli, mələk simalı,
Könülləri sən qıralı gəzərsən.
Bir qıya baxışın oxladı məni.
Xumar gözlü, dağ maralı gəzərsən.

Eşq içində atəş saldın cana sən,
Ahu kimi süzdün, keçdin yana sən,
Şonqar mənəm, yaşılbaşlı sona sən,
Səyyadından hey aralı gəzərsən.

Əzəldən sevmişəm mən qızılgülü,
Bir ayna qabaqlı, saçı sünbülü,
Cida salma sən bu şeyda bülbülü,
Solar gülün, həm saralı gəzərsən.

Təbib sənsən, yaralarım doğru yar,
Yar həsrəti canda ciyər doğruyar,
Axtararsan, ələ keçməz doğru yar,
Həmi yaslı, həm yaralı gəzərsən.

Qəvvas olub dəryaları keçməyə,
Sərraf olub, məna, məxrəc seçməyə,
Dostu zəhər versə, alıb içməyə,
Mən Vəlini sən çıralı gəzərsən.

GƏRƏKDİ

Aşıq olub, oba-oba gəzənin,
Danışmağa şirin dili gərəkdi.
Arif məclisində, alim yanında,
Düzgün sözü, xoş zülalı gərəkdi.

Ana-bacı deyə qıza, gəlinə,
Eyni bələnməyə küdrətə, kinə,
El içində təmiz dura, düz dinə,
Bütün məsaildən halı gərəkdi.

Qəvvas olub dəryalara dalmağa,
Dərin kəlmə deyib, cavab almağa,
Anlayan məclisə qurban olmağa,
Sədaqətdə şair Vəli gərəkdi.

YERİDİ

Şənbənin günündə, yol kənarında,
Sallandı qarşımdan sona yeridi,
Biri mehribandır, güldü, danışdı,
Biri cilvələndi yana yeridi.

Biri çox gözəldir, əhli məhəbbət,
Birinin qaməti şirin hekayət.
Sümükləri uğyun, zülfləri kəmənd,
Rubənd tutdu dürr dahana yeridi.

Biri novcavandır, dodağı ballı,
Biri şirin sözlü, kövsər zülallı,
Sürahi qamətli, ağ üzü xallı,
Bir ox vurdu, göhərkana yeridi.

Biri alışdırdı, din-imanımı,
Almas kirpikləri tökdü qanımı,
Biri qiya baxdı aldı canımı,
Nazü-qəmzələri qana yeridi.

Biri gül açıbdır təzə sənubər,
Vəlinin onlardan şikayəti var,
Gözəllər içində biridir ülkər,
Şölə salıb nur asmana yeridi.

EYLƏR

Yarın vəsfi-halı düşəndə yada,
Qəm yeyər könlümü, dad-aman eylər.
Eşq əlindən yandı dilim, dəhanım,
Atəş sinəm üstə nə yaman eylər.

Səndən ayrı düşdüm indi nazlı yar,
Qan ağlar gözlərim çəkər ahü-zar,
Verən olsa yardan mənə bir xəbər,
Elə bilərsən ki, bir ehsan eylər.

İtirmişəm tülək tərlan, maralı,
Gülgəz rəngim gündən-günə saralı,
Şair Vəli, düşdün yardan aralı,
Bülbül kimi könlüm nə fəğan eylər?!

YETİRRƏM

Mürğü ruhum, yenə göydə dolanma,
Tezlik ilə səni yara yetirrəm,
Gözün görər, könlüm alar təsəlli,
Həsrət qalan o dildara yetirrəm.

Əmən qanar dodağının qəndini,
Hər kəsdə axtarar dərdiməndini,
Dolaram boynuma yar kəməndini,
Sərv boylu, zülfü mara yetirrəm.

Buxağı büllurdur, yanağı gülxar,
Gözləri cəlladdır şəfaəti var,
Qıyğacı baxanda çox evlər yıxar,
Canlar alan sitəmkara yetirrəm.

Əyər tapa bilsən ləbi nabatı,
Can nisar eyləyən xoş iltifatı,
Əmərəm dilindən abi həyatı,
Dərmansız dərdimə çara yetirrəm.

Mən Vəliyəm, yar qəddinə heyranam,
Eşqin kürəsində naram, neyranam,
Havada çarx vuran tülək tərlanam,
Qoymam keçə, tez şikara yetirrəm.

DİLBƏR!

Sevdiciyim, səndən ayrı düşəli,
Yəqin bil, gəlmişəm amana, Dilbər!
Sən bir gülsən, həsrətini çəkməkdən
Bülbül təki gəldim fəğana, Dilbər!

Şirin ləhcəlisən, şirin sözlüsən,
Qaymaq dodaqlısan, qəmər üzlüsən,
Bəyaz gərdənlisən, ahu gözlüsən,
Qaşların bənzəyir kamana, Dilbər!

Xəstə xəyalıma oldun bənnalar,
Könlümə mələklər, ərşü səmalar.
Bizə göndərdiyin salam-dualar.
Xoşdur Vəli kimi cavana, Dilbər!

ARA MƏNİ

Arif olan bu sevdaya düşmüşəm,
Soruş əhvalımı, sən ara məni.
Bir bəyaz gərdənli, mərmər sinəli,
Salıbdır atəşə, yanara məni.

Hüsnün intizarın hər aləm çəkər,
Yanaqlar laləni dəmadəm çəkər.
Gözlərin atəşdir, şölə şam çəkər,
Pərvanə eylədin fənarə məni.

Dürdanə kəlməli, kövsər zülallı,
Şərabi-təhurdan ləbləri ballı,
Hüsnü mələksima bir xoş xəyallı,
Aşıq eləyibdir didara məni.

AYRILIB

Başına döndüyüm vəfalı dilbər,
Yanaqların sənin güldən ayrılıb.
Bülbül kimi ahü-fəğan çəkirəm,
Siyah zülfün sağı-soldan ayrılıb.

Şəhladır gözlərin, kamandır qaşın,
Yandırır cismimi süzgün baxışın,
Şəhdi-şəkər dilin, mirvari dişin,
Qaymaq dodaqların baldan ayrılıb.

Şair Vəli deyər, zülflərin dəstə,
Tovuz tamaşalı bir boyu bəstə,
Qız, gəlin yığnağı bulağın üstə,
Yaşılbaş sonadır, göldən ayrılıb.

NƏ DEDİ?

Əziz qasid, mənim dərdi-dilimi
Kərəmli sultana dedin, nə dedi?
O Leylinin Məcnunuyam dünyada,
Çəkib bir pünhana, dedin, nə dedi?

Şirin ədalıya, şirin sözlüyə,
Qaymaq dodaqlıya, qəmər üzlüyə,
Bəyaz gərdənliyə, şəhla gözlüyə,
Qaşları kamana dedin, nə dedi?

Vəli aşiq olub incə belliyə,
Gülgəz yanaqlıya, nazik əlliyə,
Kəklik sədalıya, tuti dilliyə,
Huriyü-qılmana dedin, nə dedi?

DAĞLAR

Bahar fəsli yaz ayları gələndə
Alırsan arandan cəlalı dağlar
Ağır ellər, yaylaq, sizə yayılır,
Olursunuz elli, obalı dağlar!

Yeriyir sellərin Murğuz dağından,
Gələnlər feyz alır belə çağından,
Car olur çeşmələr solu-sağından,
Abi-həyat verir zülalı dağlar!

Öksüzlü yaylağı bəslər sərxoşu,
Türfə gözəlləri ləblərin nuşu,
Əcəb xoş səfalı, büllur dağ, daşı,
Qüdrətdən hasarlı, qalalı dağlar!

Böyük Gözəldərə behiştin bağı,
Dürlü deylən abi-kövsər bulağı,
Süsən, sünbül zərnişanlar oylağı,
Güllü, bənövşəli, lalalı dağlar!

Pir dağına xudam verib xoş barat
Dərər güllərini ləbləri nabat,
Dəst tutub Vəliyə eylər iltifat,
Özünün dilbəri, halalı dağlar!

SÖYLƏR

Ey ariflər, şəyirdlərin ustadı,
Şair olan sözün əyanə söylər.
Dadlı dövran açar, gövhər sərf elər,
Şirin sözlərini bəyana söylər.

Diltərpənməz dəryasında üzməyən,
Dodaqdəyməz kürəsinə dözməyən,
Güləndə nitqindən zülal süzməyən,
Şair cərgəsində əfsanə söylər.

Aşıq Vəli deyər: dərsin almayan,
Təcnis, təxmis dəryasına dalmayan,
Məna, məxrəc, imla, inşa qanmayan,
Sözlərini dəli-divana söylər.

GÖZLƏYƏR

Bir insan ki, əsil olsa binadan,
Qəlbə dəyməz, düz xəyalı gözləyər,
Artırıb zinətin şahınşah olsa,
Bir nəzərdə cəm mahalı gözləyər.

Bir dostda olmasa ilqar, dəyanət,
Dərdə düşsən heç vaxt etməz əyanət,
Evinə, malına eylər xəyanət,
Müxənnət dost qumaş, alı gözləyər.

Qəza-qədər başa salsa qaranı,
Dövlətə dost olan etməz çaranı,
Kəsatdığa düşsən kəsər aranı,
Tikə dostu dövlət-malı gözləyər.

Əsl dostun məhəbbəti çox olu,
Özü düz, sözü düz, xəndək ox olu,
Mərd igidin gözü, könlü tox olu,
Dost yolunda qabaq-dalı gözləyər.

Demə şair Vəli düşüb gümana,
Fəhmin yetiribdi yaxşı, yamana,
Kamil olan qovlu verməz şeytana,
Dərk eləyər, pür kamalı gözləyər.

CANIM

Təzə məni eşqə salan növcavan,
Ağ üzündə gülün qurbanı canım!
Fərə kəklik kimi deyib, danışan,
Şəhdü-şəkər dilin qurbanı canım!

Düşübdür sinəmə eşqinin közü,
Sənin firqətindən, ay qonşu qızı,
Yanağın dağların lalə-nərgizi,
Üzündəki xalın qurbanı canım!

Gördü aşıq Vəli oduna yandı,
Məstana gözlərin canlar alandı,
Kirpiyin cəlladdı, telin ilandı,
Gen qabaqda telin qurbanı canım!

YOLLARA DOĞRU

Qafil könül, yatma qəflət içində,
Gözəllər sallandı yollara doğru,
Qəflətdən oyatdı dərdimənd məni,
Gözlərim süzüldü xallara doğru.

Gəlir tor cunalı qabaqda yalxı,
Yüz nazü-qəmzəylə öldürür xalxı,
Qızılgül əndamlı, lalə yanaxlı,
Qolbağılar cumur qollara doğru.

Görüb qaş-gözünü siyah sürməli,
Növrəstə gözələ deyirəm bəli.
Əslim Bozalqanlı, öz adım Vəli,
Laçın könlüm uçur dağlara doğru.

BÜKÜLMÜŞ

Bir gözəl sallanıb çıxdı qarşıma,
Gümüş kəmər incə belə bükülmüş,
Şahmar zülflərini töküb gərdənə,
Müşkü-ənbər siyah telə bükülmüş.

Yoxdu bu nişanda dünyaya gələn,
Mənəm bu dilbərin dərdindən ölən,
Məlul durma sevdiciyim, cilvələn,
Şirin söhbət, şirin dilə bükülmüş.

Qüdrət xəlq eləyib bir belə bala,
Vəli aşiq olub ağ üzdə xala,
İzin ver qol salım o qəddi-dala,
Nar məmələr nazik ələ bükülmüş.

BU GÜN

Bahar fəsli, yaz ayları gələndə,
Laləyə bənzəyər dağ, düz, çöl bu gün,
Bahar təzə, bayram təzə, yar təzə,
Zər kəmər qurşayar incə bel bu gün.

Bir pünhan otaqda döşənə yerlər,
Basasan sinəsinə yarı mükərrər.
Axa gülab kimi tökülə tərlər,
Olasan yar ilə dilbədil bu gün.

Çıxarma eynindən, Vəli, ilqarın,
Hüsnü Züleyxadır qaməti yarın.
Qəhr eləyib bir cəlladdan betərin,
Yar bəzənib can almağa bil bu gün.

MƏNİ

Hüsnü vəcahətin, bu sallanışın,
Nazənin, gətirdi amana məni.
Ləblərindir mənə səlsəbil suyu,
Qaşların gətirdi fəğana məni.

Eşqin kəməndidir qarğı saçların
Yorğun maral kimi xoş baxışların,
Apardı ağlımı, Leyli, qaşların,
Məcnun tək elədi divana məni.

Məstanə gözlərin alır canımı,
Peykan kirpiklərin tökür qanımı,
Aşıq məşuqundan heç usanımı?
Sən ki qoyub atdın kamana məni.

Şair Vəli deyər, dəhanı məzə,
Yıxdın atam evin yan gəzə-gəzə.
Ləbindən bir busə lütf elə bizə,
Əyər ki, gətirsən zəbana məni.

TƏCNİS

AY YARA

Yar yanında yaman günahkaram mən,
Kəm baxdım üzünə, oldum ağ yara.
Yarım bəzənibdir əbrü atlasa,
Naxış verir al içində ağ yara.

Fərhad dedi ləblərindir şirin yar,
Yar dəstinlə yaralarım şirin yar,
Könül sevdi mənə oldu şirin yar,
Bivəfasan ilqar versən əğyara.

Mən Vəliyəm, dərdim həddən, yar aşır.
Şahmar zülfün gərdəninə yaraşır,
Qəddinə əbrəşim, ətlas yaraşır,
Layiq deyil qara demək, ağ yara.

MÜXƏMMƏS

ŞİRİN

Zəncirli, cığalı müxəmməs

Göz gördü, könül sevdi sən tuti zəbanı, Şirin.
Gəzsələr, yoxdur tayın, Hələb, İsfahanı, Şirin.
Görmüşəm çox mahalı barabarın hanı, Şirin?
Bülbülün gül eşqində, çəkirəm fəğanı, Şirin.

Ahi fəğansan,
Qəmzəsi qansan,
Təzə cavansan
Qaşı kamansan,
İncidir dişin,
Yumrudur döşün,
Xoşdur baxışın.
Xudam sənə bəxş eləyib bu dürlü nişanı, Şirin.

Gözəlliyin nişanıdır, mayil oldum mah camala,
Huri misal, mələk mənzər, mən valehəm xəttü-xala.
Gözlərin qan piyaləsi, innabı ləblər piyala,
Yasəmən tellərini, aşırıbsan qəddi-dala.
Siyah tellisən,
Tuti dillisən,
İncə bellisən,
Ləbi ballısan.

Ləbləri gövhər,
Sərvü sənubər,
Xalları ülkər,
Ay təzə növbər.
Verginən muradımı tez tapım İmanı, Şirin.

Hər tərəfdə gileylidir, sonalar siyah telindən,
Tutilər avaz alır, o şirin imran dilindən.
Əngəbutdət can asılıb, sənin o incə belindən.
Yoldaşından gileyliyəm, bir də ki, sənin əlindən.

Yoldaşı ilqarlı gəlin,
Ağ sinəsi qarlı gəlin.
Yeni ucu düymələnib,
Əttar sədri narlı gəlin.
Bir busə lütf elə mənə,
Ay təzə nübarlı gəlin.

Ağ üzündə saç,
Tağı bir qulac,
Üz rubəndin aç,
Vəsf etsin şair Vəli bu şövkəti, şanı, Şirin.

DİVANİ

BAYRAM GÜNLƏRİ

Ay nazənin, xoş gəlibsiz qoşa bayram günləri,
Qaydadırmı vəsmə çəkmək, qaşa bayram günləri.
Təzələndi qəmli könül, ruhum pərvaz elədi,
O vaxt ki, səsin gəldi, qoşa bayram günləri.

Ey dilbərim, qədəm basıb, rövşən etdin yolları,
Al geyinib, sığal verib, çin-çin düzdün telləri.
Süsən, sünbül, tər bənövşə, tər qönçə, tər gülləri,
Bizə töhfələr gətirdin, yaşa bayram günləri.

Məşuq gəlib aşığına, doğru ilqar verməyə,
Bu bayramda, əziz gündə, zövqlü səfa sürməyə.
Zər mətahın min dil ilə, dost sədrinə sərmayə,
Vəli, təbim tüğyan edib coşa bayram günləri.

AŞIQ ŞƏMŞİR
(1893-1980)

BAYATILAR

Çağır sən gecə yarı,
Baxtından gecə yarı,
Yuxuda yarı gördüm,
Oyandım gecəyarı.

Geyinmisən, a xara,
Düşmə dərin axara,
Bülbül baxsa, qan ağlar
Gül üstündə o xara.

Durma bizim dərdə sən,
Demə olur dərd asan.
Zalım, səni dərdə düş,
Saldın məni dərdə sən.

Səməndər odum aldı,
Odumdan o dəm aldı.
Sərrafsan, Yaqut axtar,
Taparsan, o da maldı.

Dəymə, yaram tez qanar,
Anla namus, tez qan ar.
Arifə bir işarə,
Qaş-gözündən tez qanar.

Mən aşıq, adam çalar
Yarımçıq adamçalar,
Adını şahmar qoyub,
Soxulcan adam çalar.

Mən aşığam, ov sara,
Maya gedər ovsara.
Tülək tərlan vərəmlər,
Əgər çatsa ov sara.

Mən aşıq, yara salar,
Qəm cana yara salar,
Gecə deyər: – Laçınam,
Güngörməz yarasalar.

Mən aşığam, min qana,
Arif mətləb min qana,
Bircə ürək yıxarsan,
Əvəz olar min qana.

GƏRAYLILAR

DAĞLARIN

Yazda bəzənir xalı tək,
Yaşılı, alı dağların.
Quzu mələr yaylağında,
Xoş keçir halı dağların.

Var nərgizi bənövşəsi,
Ətəyində göy meşəsi,
Olur oynamaq peşəsi
Elli, obalı dağların.

Bulaq üstə gəlir nazla,
Qız sənəklə, aşıq sazla,
Bülbülü oxur avazla,
Gözəl, səfalı dağların.

Abad olur yaylaqları,
Xubanların oylaqları,
Çoxdu soyuq bulaqları,
Sərin havalı dağların.

Qayalarda kəklik səkir,
Bulud qalxır, yağış tökür,
Sinəsinə duman çökür,
Güllü, lalalı dağların.

Sarıyerə, Xaçbulağa,
Oba köçür yaylamağa,
Aranlardan bizim dağa
Gəlir mahalı dağların.

Çobanları çalır tütək,
Göy təpələr gözəl, göyçək,
Gölündə çalxanır ördək
Çayı sonalı dağların.

Keçir yazı, gəlir yayı,
Şırıltıyla axır çayı,
Səyyadına çatır payı,
Halal mayalı dağların.

Yarpağa şeh düşür səhər,
Hər qucağı behişt təhər,
Binələri olub şəhər,
Artıb cəlalı dağların.

Payız çölə düşüb qırov,
Qoşqar Kəpəz, Çilyəz, Murov...
Şəmşir gəzir köksündə ov,
Hündür qayalı dağların.

YALVARA-YALVARA

Bir nainsaf biilqara
Qaldım yalvara-yalvara...
Qapısına gecə-gündüz,
Gəldim yalvara-yalvara...

Qaşı qələm, boyu şahbaz,
Fəsli bahar, sinəsi yaz,
Mən yoncudum, o etdi naz,
Öldüm yalvara-yalvara...

Əydim əyilməz başımı,
Heç duymadı tələşımı;
Sel tək axan göz yaşımı,
Sildim yalvara-yalvara...

Şəmşirəm belə zəhmətlə,
Cana gəldim bu möhnətlə,
Bircə busə yüz minnətlə,
Aldım yalvara-yalvara.

QOŞMALAR

DAĞLARA

Heç baxmırsan Çiçəklidən bəri sən,
Gəl bax çəməngahı bizim dağlara,
Dürlü sədəf kəsim zərli şeirdən,
Rəssam olum qoy mən düzüm dağlara.

Məndə məharətə, zəfərə bir bax,
Binadan gərəkdi mayaq, təmtəraq,
Sürü otarmışam əlimdə çomaq,
Yayılmış qoyunum, quzum dağlara.

Sansız, saysız təcnis, təxnis varımdı,
Bu yollar əzəldən xubgüzarımdı,
Bir neçə kitabda yadigarımdı,
Şeirdən düşübdü izim dağlara.

Füsunkardı bu bəndeyi-kəminə,
Şükür yaradanın öz kərəminə.
Pərvanə olmuşam aran zəminə,
Uşaqkən öyrənib üzüm dağlara,

Daşqın çaylar kimi axsam da əgər,
Savalan seyrinə çıxsam da əgər,
Məğribdən məşriqə baxsam da əgər,
Həsrət qalır yenə gözüm dağlara.

Dağlara aşiqəm, həm nasibanam,
Xınalı dağlarda qalır nişanam.
Atam Dəlidağdı, İstisu anam,
Nəvə olub oğlum, qızım dağlara.

Ağır elli, buz bulaqlı yaylaqlar,
Şəmşir öpüb zirvənizi qucaqlar,
O qədər yazmışam, dolub varaqlar,
Əfsundu söhbətim, sözüm dağlara.

BİLDİ

Yadında saxla ki, köçdüyü yurdun,
Qədrini çoxları düşəndə bildi.
Koxaların zəmisində sünbülü,
Baş-ayaq yığanlar kövşəndə bildi.

Küsmə, gileylənmə ana vətəndən,
Torpaq qarğış elər, inciyər səndən.
Soruş, öyrən, eşidəndən, biləndən
Hər kəs dərdi burnu şişəndə bildi.

Suyu şərbət, süddən ağ bulaqları,
Şəlaləli axan bağ bulaqları.
Yadına düşəndə dağ bulaqları
Aranda dodağı bişəndə bildi,

Özündən mitildi müstər qadını,
Şəmşir necə çəksin onun adını.
Yandırdığı palıd, vələs odunu,
Qaratikan kolu eşəndə bildi.

GƏL

Əsgər oğlan, məktubunu oxudum,
Əsgərliyin sən borcunu bitir gəl
Təlim öyrən, bu yerlərə şad qayıt,
Qulluğunu başa çatdır, yetir gəl.

Həvəslə dur keşiyində vətənin,
Zatı poladdandı vətən güdənin.
Xatirin, hörmətin, tərifin sənin,
Qoy ucalsın, bu baratı götür gəl.

Fəhmi, fərasəti bilən, bacaran,
Tərbiyə düşünər söz qanan insan.
Cəsur tərpən, məharətlə ad qazan,
O təlimi özün ilə gətir gəl.

Dərs al komandirdən kamil, mötəbər,
Mətləbə çatarsan unutmasan gər.
Əmələn olacaq bir müşki-ənbər.
Qoxlanacaq nəfəsindən ətir gəl.

Sorursan halımı gözəldi bizim,
Ümidvar gözləyir yolunu gözüm.
Mənim igid oğlum, canım, əzizim,
Şəmşir baban muradına çatır, gəl.

BƏNÖVŞƏ

Bahar çatıb bəzəyirmi dağları,
Açılırmı sizin yerdə bənövşə.
Qımışırmı dodaqları nərgizin,
Təzə-tərmi güneylərdə bənövşə.

Aşıq Qurbanidən qalıb nişanə,
Torpaqdı bizə də, ona da ana.
Boynunu pərişan əyməsin yana,
Salmasın qəlbimi dərdə bənövşə.

Nədəndi lalanın bağrında qara,
Bu lətif çiçəyə kim vurub yara.
Qızılgül qəlbini yedirir xara,
Heyif ki, tez solur bir də bənövşə.

Ona can yetişir yaz nəfəsindən,
Oyanır yuxudan bülbül səsindən.
Cənnət çələnginin düşüb dəsindən
Tutmasın üzünə pərdə bənövşə.

Yarpağın zərifdi yaraşığın var,
Çəmənə, çiçəyə sarmaşığın var.
Qoca Şəmşir kimi bir aşığın var,
Söylər sözün düşən yerdə bənövşə.

DÖNÜB

Əzəldən cəhənnəm olan bu diyar,
İndi bir cənnəti-rizvana dönüb.
Hər evdə, eyvanda, yanır mayaklar,
Yer üzü işıqlı asmana dönüb.

Gördüm, heyran oldum qurğu-calala,
Keçən gündən nələr düşdü xəyala.
İxtiyar verilib elə, mahala,
İşgüzar insanlar aslana dönüb.

Keçib qara günlər, buzlu boranlar,
Arif mətləb duyar, alim söz anlar.
Ağ qızıl dərməkdə qızlar, oğlanlar,
Tarlada alıcı tərlana dönüb.

Kimi Aya uçur, kimi Günəşə,
İgid kosmonavtlar çıxıb gərdişə,
İldırım atını minib, bax işə,
Çapırıq, fəzalar meydana dönüb.

Sovet ellərində var şir oğlu şir,
Ərşə qanad çalır, Marsa yetişir.
Yazıb-yaratmaqda yorulmur Şəmkir,
Sözləri dillərdə dastana dönüb.

AŞİQƏM

Məhəbbətə, sədaqətə, ilqara,
Bir çörəyə, bir də duza aşiqəm.
Bir qoca yarım var, min qıza dəyər,
Nə gəlinə, nə də qıza aşiqəm.

Mərdə lazım olsa keçərəm candan,
Tərbiyə almışam arif insandan.
Zəhləm gedir hiylə, fitnə, yalandan,
Açıq qəlbə, doğru sözə aşiqəm.

Can de eləsinə o qədir bilə,
Ürəyindən kini, kədəri silə.
Hər an kömək dura obaya, elə,
Məhəbbətlə baxan gözə aşiqəm.

Halal zəhmət aldım sənət bazarı,
Yol aldım haqq olan düz yola sarı.
Nəyimə lazımdı dünyanın varı,
Əyridən qaçqınam, düzə aşiqəm.

Mərddə səxa gördüm, igiddə hünər,
Mərdlər ölkəsini firavan istər.
Mərifət düşünər sahibi-dəftər,
Alimlər, ariflər, sizə aşiqəm.

Yan qaçıram naxələfdən, xatadan,
Baratımı pak almışam butadan.
Sənətimi öyrənmişəm atadan,
Şeirdən saldığı izə aşiqəm.

Şəmşiri yetirib tale bu yaşa,
Könül həmdəmimlə gəzirəm qoşa,
Hansı bir dil el nəzəri danışa,
Əhli-dilə, nurlu üzə aşiqəm.

DƏYƏR

Tənəli çörəyin, minnətli donun,
Qiyməti çürümüş qəzilə dəyər.
Birdən yerə, əlif qəddi adamın,
Dərd çəkib bürəyi nəzilə, dəyər.

İnsan demə bikamala, bihuşa,
O, yoldaşdı viranədə bayquşa.
Nanəcibi alan olmaz quruşa,
Adam var bir ətək qızıla dəyər.

Duyar bu məzmunu arif, əhli-dil
Mərifəti, məhəbbəti yaxşı bil.
Şəmkirə hicrandı biləzzət yüz il,
Dərd çəkib ürəyi nəzilə, dəyər.

GÖZLƏRİN

Gör necə oxşardı yuxusuzlara,
Sənin bu süzülüb yaxan gözlərin.
Gah bihuş eyləsin az qaldı məni,
İldırım sürətli çaxan gözlərin.

Gələn çoxdu bu vəsfinin səsinə,
Gözəllərlə nə edirsən bəsi, nə?
Yüz aşiq öldürür bir gülləsinə,
Hərdən xumarlanıb baxan gözlərin.

Qatıbsan ləbinə şəkəri, qəndi,
Kimlər öyrətmişdi sənə bu fəndi.
Dağıtdı, taladı obanı, kəndi,
Dağıdıb evini yıxan gözlərin.

Vurub yerə sərdin gəldiyim yerdə,
Şəmşiri ağlatdın güldüyüm yerdə,
Sinəmə ox vurdun öldüyüm yerdə,
Məni nökər etdi o xan gözlərin.

ŞAİRİN

Səməd Vurğuna

Yenə nəğmə kitabını oxudum,
Heyran oldum hər işinə şairin.
Tərlan kimi qanad çalır havada,
Çatan varmı yerişinə şairin.

Sənə halal olsun bu qabil sənət,
Bu ağıl, bu kamal fəhmi-fərasət,
Arif də, alim də verəcək qiymət,
Yerişinə-duruşuna şairin.

Gəlişinə bizim ellər sevindi,
Yoluna şam tutan əllər sevindi,
Çəmənlər bəzənib güllər sevindi,
Şəmşir ilə görüşünə şairin.

DEMİŞLƏR

İbadətdi, ziyarətdi görüşmək,
Yoxsulluq, ayrılıq nəsdi demişlər.
Can sağlığı ömür üçün bahardı,
Qocalıq, xəstəlik pisdi demişlər.

Bəxtin kəsə, sözün daşa işləyə,
Hamı səndən can istəyə, can deyə.
Bundan sonra varı axtarım niyə,
Tamahsız insana bəsdi demişlər.

Dünya malı bu dünyada qalandı,
Çoxlarının taxtı-tacı talandı.
Doğruluqdan qeyri nə var yalandı,
Məhəbbət vəfalı dostdu demişlər.

Yolum düşə görəm əhli-dilləri,
Ziyarət eylərəm gözəl elləri.
Elə bil üzümə səba yelləri
Cənnəti-behiştdən əsdi demişlər.

Gəl Şəmşirin taleyinə bax indi,
Mahirimin meyli mənə yaxındı.
Səhər tezdən bir məktubun oxundu,
Ağrım-acım tamam kəsdi demişlər.

DESƏM OLMAZ

Alağa qərənfil, yovşana reyhan
Tikanlı qanqala gül desəm, olmaz,
Dəmirə saf qızıl, söyüdə sandal,
Tapılan hər daşa ləl desəm, olmaz.

Arı şirə çəkir yazda çiçəkdən,
Nə çıxar boş yerə yalan deməkdən?
Bir fayda axtarma məkəs-milçəkdən,
Şanında tapılar bal desəm, olmaz.

Namərdin varı var, ürəyi yoxdu,
Bir insan oğluna gərəyi yoxdu.
Səxası, süfrəsi, çörəyi yoxdu,
Yoxsula verəcək pul desəm, olmaz.

İgid yeri düşən yerdə yaxşıdı,
Yaxşıya yaxşılar bir də yaxşıdı,
Mərd olan xeyirdə, şərdə yaxşıdı,
Bivəfa arxaya gəl desəm olmaz[1].

Şəmşir, de sözlərin, saxlama ləngə,
Əsli aslan olan layiqdi cəngə,
Pişik tab gətirməz şirə, pələngə,
Dovşana hünərdə fil desəm, olmaz.

[1] Ümidsiz arxanı köməyə çağırmaq olmaz.

YARAŞMAZ

Namərdə yalvarmaq insafdan deyil,
Düşmənə yaltaqlıq mərdə yaraşmaz.
Öyünüb desə də min yol nakişi:
Mənəm qəhrəman da, nər də, yaraşmaz.

Hər kəs qeyrətini düşünsün əzəl,
Gül olmaz söyüddən, tökülən xəzəl,
Abır-həya, hörmət bilməyən gözəl,
Çəksə də üzünə pərdə, yaraşmaz.

Qatil də özünə deməz cəlladam,
Onun işdəyinə düşmənəm, yadam,
Xalqın əhvalına yanmayan adam
Desə də şərikəm dərdə, yaraşmaz.

Həmişə kəmhünər, sellənər, daşar,
Döyüşə girməmiş qaynayar coşar,
Yerdə iş bacarmaz, göydən danışar,
Ona gəzmək heç düz yerdə yaraşmaz.

Şəmşir məqsədinə çata yaxşıdı.
Gövhəri sərrafa sata yaxşıdı.
Yaxşı oğul, yaxşı ata yaxşıdı,
Bivecsə, xeyirdə, şərdə yaraşmaz.

DEMƏK OLMAZ

Qəza qədərlənib üz verəndə dərd
Kəməndə düşəndə qaç demək olmaz.
Nakəs kölgəsinə sığınanda mərd,
Keçir ili, ayı xoş, – demək olmaz.

İblisin dostluğu qəmdi, qəhərdi.
Qurdla aşnalıq da çox bitəhərdi,

Namərd plovunu, yemə, zəhərdi,
Ağıdı ləzzəti, aş demək olmaz.

Ayaq basma, şeytan-iblis izinə,
Lənət bicin əyrisinə, düzünə,
Hər kim baxsa satqın arvad sözünə,
Samandı kəlləsi, baş demək olmaz.

Çətindi biiman anda inana,
Nə dillə deyim ki, anlaya, qana?
Nanəcibə, biilqara, nadana,
Etibar eyləyib, iş demək olmaz.

Şəmşir deyər xayın ürək gəzilməz,
Xoryat sözü cana oxdu, dözülməz.
Tərlan yuvasından sümük üzülməz[1],
İgid tüfənginə boş demək olmaz.

GÖRMÜŞƏM

Oğul, indi ədalət var, divan var,
Mən də xeyli dövranları görmüşəm.
Dövlət qeydə qalır, gəzir, axtarır,
Azad olan insanları görmüşəm.

Başa döyüb, ellərə qan içirdən,
Obaları talan edib köçürdən,
Əlinə lom alıb evlər uçurdan,
Qaçanları, qovanları, görmüşəm.

Qaranlıq gecələr tez səhər oldu,
Zülmkarın balı qəm, zəhər oldu.
Quldurun axırı bu təhər oldu,
Xarabani, viranları görmüşəm.

[1] "Əskik olmaz" mənasındadır.

Nainsaf, kərəmsiz, mürvətsiz ağa,
Pis adamın adı düşdü uzağa,
Əyildi, büküldü, çökdü ayağa,
Xalqa kötək vuranları görmüşəm.

Qoyun üçün varmı insafı kürkün,
Qırar vətənindən salar didərgin,
Tamam yırtıcılar oldular sürgün,
Şəmşirəm, o zamanları görmüşəm.

DƏYMƏZ

İkiüzlü, yaltaq olan kişilər
İsmətini satan qadına dəyməz.
Adam var ki, səsi tutub hər yanı,
Axtarsan şöhrəti adına dəyməz.

Xainin, xəbisin çəkilməz dərdi,
Onlar ki ölümdən daha betərdi.
Yemə, namərdlərin aşı zəhərdi,
Tamı turş ayranın dadına dəyməz.

Yaxşılığı kütün götürməz başı,
Öləndə dünyadan gedəcək naşı,
Satqının yağ-balı, ləzzətli aşı
Mərd igidin yavan cadına[1] dəyməz.

Şəmkir dostluq dedi, bir də həqiqət,
Xəbisə, xainə, iblisə lənət!
Sənə bihəyanın etdiyi hörmət
Meşədə çürümüş oduna dəyməz!

[1] Qarğıdalı unundan bişirilmiş sac çörəyi.

AZ DANIŞ

Əhli-hal yanında az danış, az gül,
Bir kəlmən dəryadan olmasa dərin.
İgidlər içində ər kimi dolan,
Namus tacın olsun, olmasa da ərin.

Düz dolan, ucalsın öz başın, a yar,
Qanmırsa vur daşı öz başına, yar.
Avara dolanma özbaşına, yar,
Başsız axan sular olmaz ha dərin.

Gör nələr yaranmış bu dağda bir bax,
O dərə bir bağdır, bu dağ da bir bağ.
Şəmşirəm, salmışam bu dağda bir bağ,
Dəymişi qismətim olmasa, dərin.

DURA BİLMƏZ

Sirr açma namərdə, söz demə pisə,
Namərdin qəlbində söz dura bilməz.
Yoldaş olma alçaq olan nakəsə.
Danışır ilqardan, tez dura bilməz.

Mərd ilə ülfət qıl, zəhmətə qatlan,
Salamat baş saxla hər ehtiyatdan.
Bədəni hifz elə, pisdən, bədzatdan,
Haram doğru yolda düz dura bilməz.

Çağırma zalımı, yetişməz dada,
Şəmşir çox imtahan edib dünyada,
Karsız qohum yaman gündə arxada,
Sən çox arzulama, az dura bilməz.

YADIMA DÜŞDÜ

Səhər açılanda uca dağlara,
Gün düşəndə anam yadıma düşdü.
Qulağıma həzin bir layla səsi
Yetişəndə, anam yadıma düşdü.

Səhmimdə canlandı anamın ünü,
Duman kimi aldı yollar üstünü,
Bacı-qardaşıyla görüşən günü,
Sevinəndə anam yadıma düşdü.

Analar oğlunu sevər, qucaqlar,
Gəlir xəyalıma həmin bu çağlar,
Döyüşüb, deyişir dəcəl uşaqlar,
Dilləşəndə anam yadıma düşdü.

Gözlərim görəndə çəməni, gülü,
Anıram yaylaqda şehli sünbülü.
Yazın qaranquşu, bir də bülbülü,
Ötüşəndə anam yadıma düşdü.

Bala çağıranda meşədə əlik,
Qoca Şəmşir dinlər əlində çəlik,
Qoşulub qartala qayada kəklik,
Səsləşəndə anam yadıma düşdü.

KİMİ

Namərd sənin qulluğunda qul olar,
Öz işi düzəldib bitənə kimi.
İrişə-irişə üzünə gülər,
Əli bir tərəfə çatana kimi.

Dostunu tanımaz nadan, sərsəri,
Bu elin sözüdür nə vaxtdan bəri.
Qoy sellər aparsan nanəcibləri,
Bax, dalınca gözdən itənə kimi.

Xoryazın ox sözü qəlbimə dəydi,
Büküb qamətimi, qəddimi əydi.
Bildirçin də bir ay payızda bəydi,
Darı sünbülünə yetənə kimi.

Şəmşir, gərək mərd ocağın qalansın
Hər kəs çəkər öz dilinin bəlasın.
Qoy səni şir yesin, şir parçalasın,
Tülkü kölgəsində yatana kimi.

CEYRAN

Aman ovçu, düzdü qurma tələni,
Hayıfdı, düşməsin uzağa ceyran.
Gəl atma gülləni qana bələnsin,
Düşər balasından uzağa ceyran.

İnsan oğlu, vurma bu qələm qaşı,
Onun da yoxdurmu yarı, yoldaşı?
Axar, selə dönər gözünün yaşı,
Hər dönüb baxanda yarağa ceyran.

Bu gözəl pəriyə gətirmə zaval,
Gözəldir, əzizlə, qayğısına qal,
Bəsdi, insaf elə, az nişana al,
Susdurub gələndə bulağa ceyran.

Diksinir, səksənir, qansız insandan,
Rəhm elə, əl götür o zərif candan.
Ağlaya-ağlaya gedir Muğandan,
Vurğunu gəzməyə Qazaxa ceyran.

Şairin xatiri Şəmşirdə barat,
Turacı ellərə verib amanat.
Daha təbiətə olmaz xəyanət,
Bənzəməsin qərib qonağa ceyran.

QARA GÖZLƏRİN

Yanağın göyçəkdir güldən, lalədən,
Sənin nə gözəldi qara gözlərin.
Məni hifz eləsin, mürvətə gəlsin,
Vurmasın sinəmə yara, gözlərin.

Eşqin xəstəsiyəm, çəkirəm cəfa,
Rəhm elə, a zalım, gəl bir insafa,

Səndən ola bəlkə mənə bir şəfa,
Eləyə dərdimə çarə gözlərin.

Dağların kəkliyi, alagöz Nigar,
Şəmşir bu vəsfini yorulmaz, yazar.
Qocalmış aşığam, görmə günahkar,
Qoyma, çəkir məni dara gözlərin...

A ZALIM GÖZƏL

Niyə üzün döndü, yad oldun mənə,
Mən sənə neylədim, a zalım gözəl.
Düşkün oldum sənin dərdi-qəmindən,
Qoymadın dərdini az alım, gözəl.

Namərd kösövüsən, əl yandırırsan,
Aşıqlar ağzında dil yandırırsan,
Şahid olsun oba, el, yandırırsan,
Duracaq üzünə mahalım, gözəl.

Daş yanır, atəşə, torpaq da yanır,
Piltə külə dönür, çıraq da yanır,
Çəkirsən, sümüyə bıçaq, dayanır,
Sənə xoş gəlirmi bu halım, gözəl.

Ləlidin, bu bağda qalmadın, getdin,
Unutdun, yadına salmadın, getdin.
Məni hicr əlindən almadın, getdin,
Gəl sənin qadanı mən alım, gözəl.

Sən yazıq Şəmşirin qəsdinə durdun,
Üzdün bu canımı, dərd ilə yordun,
Günahsız məhbusa, məhkəmə qurdun,
Tükənmədi sorğu-sualın, gözəl.

ŞEYDA ƏZİZ
(1896–1957)

GƏRAYLI

PAPİROS

Daha səni çəkməyəcəm,
Ziyançısan, ay papiros,
İyirmi il bədənimi
Eyləyibsən zay, papiros.

Bir yerə qonax gedəndə,
Qoymazsan söhbət edəndə,
Xışıldayırsan sinəmdə,
Edirsən rusvay, papiros.

Tüstün acı, dişim qara,
Ağ ciyərim parça-para,
Şirin ağzım zəhirmara,
Döndərdin ah-vay, papiros.

Dumanın dolur otağa,
Korluq verirsən uşağa,
Bax sinəmdə, düyün-dağa,
Gəl ziyanın say, papiros.

Qisasın çoxdur canımda,
Zəhərin Şeyda qanımda,
Hörmətin yoxdur yanımda,
Almam səndən pay, papiros.

QOŞMALAR

CEYRAN

Səhər çağı gəştə çıxan zamanı,
Uğradı qarşıma özü Ceyranın.
Bir qiya baxanda aldı canımı,
Düşdü ciyərimə közü Ceyranın.

Əsli qarabağlı, dağlar maralı,
Ürkür ovçusundan gəzir aralı,
Həsrətindən gül irəngim saralı,
Çatam vüsalına quzu Ceyranın.

Şeyda müştaq oldu büllur buxağa,
Lalə zənəxdana, gülgəz yanağa,
Qafil cilvələnib çıxdı qabağa,
Göründü gözümə gözü Ceyranın.

GÖZƏL-GÖZƏL

Bir yuxu görmüşəm, ay Rəna xanım,
Qurban gözlərinə yoz gözəl-gözəl.
Səhərin sübhündə, ayna qabaqda,
Dara tellərini düz gözəl-gözəl.

Gördüm bir bağçada açıb qızılgül,
Qönçənin üstündə oxuyur bülbül,
Əyləşib bir yanda cüt saçı sünbül,
Eyləyir bir-birə naz gözəl-gözəl.

Aşiq-məşuq durub bağı dolandı,
İki sevgi gül ətrinə bulandı,
Şeyda Əziz eşq oduna qalandı,
Atəşi canımda üz gözəl-gözəl.

GÜLLƏR AÇILIR

Yar bəzənib yar yanına gələndə,
Qaş ilə, göz ilə halın biləndə,
Danışıb, söyləyib şirin güləndə,
Yanağında qızılgüllər açılır.

Dost-dost ilə seyrə çıxanda yazlar,
Dolanır arada söhbətlər, sazlar,
Türfə gözəllərdən gəlir avazlar,
Tuti kimi şirin dillər açılır.

Gəlir gül üstündən şeydanın səsi,
Canlanır sevdası, artır həvəsi,
Yeriyir qarşıda gözəl dəstəsi,
Bağrımın başına millər açılır.

BƏNÖVŞƏ

Görən aşiq olur sürməli gözə,
Qüdrət qələm çalıb qaşa, Bənövşə,
Hərdən fürsət düşüb üzün görəndə,
Az qalır xəyalım çaşa, Bənövşə.

Şəkərdən şirindi dili, dodağı,
Öpməlidi üzü, bəyaz buxağı,
Növrəstə zamanı, tər-tərə çağı,
Çatıbdı on altı yaşa Bənövşə.

Gəncə kalağaylı, yaşıllı-allı,
Loğman dərrakəli, Yusif camallı,
Gülgəz zənəxdanlı, yanağı xallı,
Öyməli gözəlsən yaşa, Bənövşə.

Nə gözəl boy-buxun, nə qəddü-qamət,
Gözün cana yağı, qaşın qiyamət,
Keçmə aşiqindən, eylə mürüvvət,
Dönməsin ürəyin daşa, Bənövşə.

Hərdən mənə sarı süzgün baxanda,
Çəkib kirpiyini cana çaxanda,
Sona kimi süzüb qarşı çıxanda,
Çəkdirir Əzizə haşa, Bənövşə.

GÖRDÜM

Dolandı hər yanı yenə xəyalım,
Keçən yaxşı-yaxşı halları gördüm,
Topaşan, Arxaşan bir neçə dağdan,
Keçib getdiyimiz yolları gördüm.

Nə gözəldi Göyçə, dərya qırağı,
O ördəkdən, qazdan aldım sorağı,
Çıxdı qabağıma neçə bulağı,
Şux tərlanlar, qəddü-dalları gördüm.

Çıxıb seyr elədim Çiçəkli dağı,
Əcəb səfalıdı gözəl oylağı,
Üstü şirin dilli, xublar yığnağı,
Şeydayam, ağ üzdə xalları gördüm.

ELLƏR OYANIR

Zərbəçi çağırır sübhün çağında,
Ayılıb yerindən ellər oyanır,
Dağılır çöllərə, təsərrüfata,
Əllərdə toxalar, bellər oynayır.

İşdə birincisən, səni yüz yaşa,
Çağırıb manqanı giriş yarışa,
Var olsun qolların, çıxıbsan başa,
Çaxnaşır əndamda bellər oynayır.

Bürüyür düzləri kolxozçu səsi,
Hünərlə çalışır qızlar dəstəsi,
Düşür iş üstündə ötüşmək bəhsi,
Aralıqda şirin dillər oynayır.

Bir yanda kolxozun həkimi Həcər,
Koprativ satışa eyləyir hünər,
Ötən radio verir hər yandan xəbər,
Havadan səs alıb tellər oynayır.

Kolxozçu Şeydayam, pambığa aşiq,
Budur bizim elə bəzək, yaraşıq,
İndi sevir səni gözəl yar, aşıq,
Açılıb pambıqlar, güllər oynayır.

TƏNBƏL

Sovet zamanında yatmaq yaramaz
Əlləşir ölkəmiz, yatma, a tənbəl.
İşləyək bir yerdə, qazancı bölək,
Öz malına ziyan qatma, a tənbəl.

Düşün həyatını, mərfətin olsun,
Qoy elin yanında hörmətin olsun,
Xəcalət olarsan, qeyrətin olsun,
Çalıb kolxoz malın satma, a tənbəl.

Qırmızı gün doğdu hər yan boyandı,
Sovet düşmənləri atəşə yandı,
Sənlə yatan çox tənbəllər oyandı,
Oyan, bu qəflətə batma, a tənbəl.

Bəhanə eləyib dolanma vel-vel,
Zərbəsi çalışır indi oba-el,
Axırda axıdar səni bu gur sel,
Çəmkirib qaşını çatma, a tənbəl.

İşlə bağ-bağçada, çalış alada,
Dolanma sərgərdan gəzib arada,
Sən də gün al, işçi kimi tarlada,
Başını kölgəyə atma, a tənbəl.

AŞIQ HÜSEYN MAYIL

GƏRAYLILAR

BAX BƏRİ

Yüz naz ilə gedən dilbər,
Qayıt bir bəri bax, bəri.
Məni Məcnun edən dilbər,
Qayıt bir bəri bax, bəri.

Yolunda çəkmişəm cəfa,
Həmdəm olaq sürək səfa,
Mürvət eylə gəl insafa,
Qayıt bir bəri bax, bəri.

Gözümdən getmə bir yana.
Mayılam sən tək canana,
İltimas eylərəm sana,
Qayıt bir bəri bax, bəri.

Rübəndini atdın üzə,
Həsrət qoydun ala gözə,
Nə gedirsən süzə-süzə,
Qayıt bir bəri bax, bəri.

Gözəllikdə tayın yoxdu
Müjganın peykanlı oxdu,
Naz-qəmzən Hüseynə çoxdu,
Qayıt bir bəri bax, bəri.

AMANDI

Qatar-qatar durna keçir.
Tellərindən üz, amandı.
Al yaraşır tər əndama,
Tək bir, tək bir düz, amandı.

Xallarındı dürrü gövhər,
İnnabı ləblərin şəkər,
Qaşın cəllad, qanım tökər,
Bir rəhm eylə qız, amandı.

Səyyad oldum, torum qurdum,
Tərlan bərəsində durdum,
Qənirsiz bir gözəl gördüm,
Qələm tutmur, yaz, amandı.

Mən Hüseynəm, sevdim Leyla,
Ayırmasın qadir mövla,
Xalı hindu, gözü şəhla,
Dəyməsin bəd göz amandı,

QAŞI QARA

Qurbanam göyçək gözünə,
Getmə qayıt, qaşı qara,
Baxma seyraqıb sözünə,
Getmə qayıt, qaşı qara.

İnsaf elə, atma məni,
Dəyişməm dünyaya səni.
Tapmam sən tək gül bədəni,
Getmə qayıt, qaşı qara.

Əlif qəddim qılma kaman,
Halımı eyləmə yaman,
Dostdan küsmə, getmə dayan,
Getmə qayıt, qaşı qara.

Sənsən bağçaların barı,
Alması, heyvası, narı,
Söz qandırıb çuğul qarı,
Getmə qayıt, qaşı qara.

Yolunda çəkmişəm cəfa,
Sən ki, deyildin bivəfa,
Mürvət eylə, gəl insafa,
Getmə qayıt, qaşı qara.

Dönməsin ürəyin daşa,
Dostuna çəkdirmə haşa,
Bənzəyirsən yaşılbaşa.
Getmə qayıt, qaşı qara.

Məyər dost dediyin danar,
El eşitsə, bizi qınar,
Hüseyn Mayıl oda yanar,
Getmə qayıt, qaşı qara.

ZÖHRƏ

Çəkirəm əlindən haşa,
Gəlmir bir imana, Zöhrə.
Bənzər çatılsa baş-başa,
Qaşların kamana, Zöhrə.

Nə əcəb sevimli cansan,
Başıma qadasan, qansan,
Ya mələksən, ya insansan,
Düşmüşəm gümana, Zöhrə.

Yaşa, gözəl yarım yaşa.
Bənzəyirsən yaşılbaşa.
Yetirsən, ölmərəm haşa,
Dəstimi damana, Zöhrə.

Dosta dost ol gözəl gülgəz,
Seyraqıbın bağrını əz,
Sən yaxşısan, yaxşıyla gəz,
Qoşulma yamana, Zöhrə.

Hərdən baxıb yanı-yanı,
Alırsan cəsəddən canı
Mürvət elə Hüseyn canı,
Gətirmə amana, Zöhrə.

GÖZLƏRİ

Qıya baxıb canım alır,
Gözəlin ala gözləri.
Bilirəm ki, gətirəcək.
Başıma bəla gözləri.

O cəllad gözləri yağı,
Canım cananın dustağı,
Şəhd-şəkər dil, dodağı,
Şirin piyala gözləri.

Yada düşdü qarlı dağlar,
Sinəmdə dərd hicran çağlar,
Hüseyn baxıb, yanar, ağlar,
Nəzərdən sala gözləri.

CANAN GƏLDİ

Qədəm qoyub güllü bağa,
Canan gəldi, canan gəldi.
Olum boynuna sadağa,
Canan gəldi, canan gəldi.

Rübəndini tutub üzə,
Hərdən qaş oynadır bizə.
Gözlərini süzə-süzə,
Canan gəldi, canan gəldi.

Gələndə gün doğdu bağa,
Lalə sancdı al buxağa.
Bəzənib başdan-ayağa,
Canan gəldi, canan gəldi.

Canım qurban sərvinaza
Süzüb gələn quba qaza,
Bülbüllər çıxıb pişvaza,
Canan gəldi, canan gəldi.

Aləm heyran qələm qaşa,
Cilvələnən yaşılbaşa.
Hüseyn, sevdayı vur başa,
Canan gəldi, canan gəldi.

GÜLLÜNÜN

Çıxdı, yayıldı aləmə,
Günəş camalı Güllünün,
Yanağında dənə-dənə,
Görünür xalı Güllünün.

Qaşları bənzəyir yaya,
Bir salmır üstümə saya,
Bəxtəvərdir ağca maya,
Xoş olsun halı Güllünün.

Can alan gözləri ala,
Məni saldı qalma qala,
Xub yaraşır qəddi-dala
Yaşılı, alı Güllünün.

Buxağı ətri bənövşə,
Mayıl oldum yumru döşə,
Dostunu saldı təşvişə,
O kəc xəyalı Güllünün.

Yox bir belə gözəl insan,
Çoxdanam mən ona heyran,
Olubdu xəstəyə dərman,
Ləbinin balı Güllünün.

Gülər üzlü mələkzada,
Qismət olmaya bir yada,
Mahalda, eldə, obada,
Var qeylü-qalı Güllünün.

Bağında açılıb güllər,
Ötüşür şeyda bülbüllər,
Hüseyn Mayıl tökür dillər,
Əcəb camalı Güllünün.

TELLƏRİN

Darayıban səhər çağı,
Salmısan yana tellərin.
Öldürübən mən yazığı,
Qəsd elər cana tellərin.

Ağlım aldın gülə-gülə,
Mayıl oldum şirin dilə,
Axır məni salar çölə,
Elər divana tellərin.

Olmaz sən tək qaşı hilal,
Yaraşıq, qəmzə, xətti-xal,
Doğan ana verib sığal,
İstəməz şana tellərin.

İncə beli, boyu bala,
Salma məni qalmaqala,
Üzün gül, yanağın lala,
Bənzər reyhana tellərin.

Qara gözlü sərxoş ceyran,
Keçər sənsiz halım yaman,
Hüseyn Mayıl sənə qurban,
Saxla nişana tellərin.

BİZƏ GƏLDİ

Gözəllər gözəli, hüsni-sənubər,
Al yaşıl geyinib yar bizə gəldi,
Nə gözəl çəkilib qəddi-qaməti,
Xubluğu mahala car, bizə gəldi.

Görmədim bir belə yaxşı kamallı,
Züleyxa fəhimli, Yusif camallı,
Ağzı şəhdi-şəkər, dodağı ballı,
Qoynunda bəsləyib nar, bizə gəldi.

Yarın firqətindən gəldim amana,
Pünhana baxanda qəsd eylər cana,
Bənzəyir mələyə, huri-qılmana,
Hüseynə hörməti var, bizə gəldi.

GƏLMİŞƏM

Axşam, sabah həsrətini çəkməkdən,
Səbirsiz, aramsız, cana gəlmişəm,
Leyli yarın gül üzünü görəndən,
Məcnun təki mən divanə gəlmişəm.

İşarə eyləsən ariflər qanar,
Seyraqıbı eylə özündən kənar,
Camalın şöləsi misalı fənar,
Pərvanə tək yana-yana gəlmişəm.

Qaşların əzəldən qara çəkilib,
Həsrətindən mənə yara çəkilib,
Zülflərindən Hüseyn dara çəkilib,
Ciyərim dönübdür qana, gəlmişəm.

ODUNA YANDIM

Gəl sənə söyləyim vəfalı dostum,
Cəllad baxışının oduna yandım,
Qumru avazlının, şirin sözlünün,
Bir qələm qaşlının oduna yandım.

Gözüm gözlərinə birdən sataşdı,
Üzümə şövq saldı, gözüm qamaşdı,
Ağ buxaqda siyah xallar oynaşdı,
O qumral saçlının oduna yandım.

Gahdan qaqqıldayır, gahdan oxuyur,
Nazik əldə ipək corab toxuyur,
Tər buxağı ətir-ənbər qoxuyur,
Əlvan naxışlının oduna yandım.

Peykan kirpiklinin, ala gözlünün,
Göhər kəlməlinin, şirin sözlünün
Ayna qabaqlının, lalə üzlünün
Şirin gülüşlünün oduna yandım.

Hüseyn həsrətidi ləbi ballının,
Bir mah camallının, siyah xallının,
Sona sığallının, min xəyallının,
Münasib yaşlının oduna yandım.

SƏNİN

Çox cəfa çəkmişəm, ay tuti dilli,
Çox canım qoymuşam yolunda sənin.
Çox gözəl görmüşəm işvəli-nazlı,
Çox gəlib gəzmişəm elində sənin.

Çox hörmət elədim, qədir bilmədin,
Çox danışıb şirin-şirin gülmədin.
Çox getdim mən sizə, sən heç gəlmədin.
Çox bülbül oxuyar gülündə sənin.

Çox canan yolunda çəkmişəm cəfa.
Çox ilqar keçirdim oldum bivəfa,
Çox minnət eylərəm, gəlsin insafa,
Çox var ixtiyarın əlində sənin.

Çox axtardım səni bimürvət yağı,
Çox sinəmə çəkdin düyünlü dağı.
Çox istərəm sən tək dodaq qaymağı,
Çox şirin göftarın dilində sənin.

Çox satdın Hüseynə şirin nəzakət,
Çox sənin kuyuni etdim ziyarət,
Çox səni görürəm incə, lətafət,
Çox şana dolanır telində sənin.

QAŞLARI QARA

Çeşmənin başında sabahdan səni,
Gördüm, mayıl oldum, qaşları qara,
Qəfildən gözünə gözüm sataşdı,
Coşdum eşqə doldum, qaşları qara.

Gərdənə tökübsən daranmış teli,
Bağçada açılır bülbülün dili.
Aradım, axtardım mahalı, eli,
Sən tərlanı tapdım, qaşları qara.

Gözəl, sən olasan dərdimi qanan,
Hüseyni Mayıldır oduna yanan,
Bir mərhəmət eylə cilvəli canan,
Həsrətindən soldum, qaşları qara.

GETDİ

Bilmirəm nə dedim yar küsdü məndən,
Coşqun çaylar kimi axdı da, getdi.
Oynatdı qaşını, süzdü gözünü,
Mənə oğrun-oğrun baxdı da, getdi.

Şikarım uçurdum, tuta bilmədim.
Ceyrana oxumu ata bilmədim.
Yüyürdüm, yüyürdüm, çata bilmədim,
Atamın evini yıxdı da, getdi.

Dostuna demədi o sirr sözünü,
Hüseyndən kənara tutdu üzünü,
Satdı qəmzəsini, süzdü gözünü,
Müjganın sinəmə çaxdı da, getdi.

GEDİRSƏN

Hicranın çağıdır, ayrılıq günü,
Məni qoyub yana-yana gedirsən.
Aşığın dağları bürüyüb ünü,
Niyə qıyıb şirin cana gedirsən?

O süzgün baxışın düşəndə yada,
Artacaq dərdi-qəm həddən ziyada,
Qismət olsa bir də görsəm məbada,
Vəfadar demərəm sana, gedirsən.

Cilvəli tərlanım, düşürsən yola,
Qulac qollarını boynuma dola,
İnsafmı gülşənin sarala, sola?
Hüseyn dözməz qəm-hicrana gedirsən.

GÖRƏYDİM

Dost kuyinə bir də güzar olaydı,
Keçən keçdi, gələn çağı görəydim.
Yar əldə tutaydı şirin badəni,
İçəydim badəni sağı görəydim.

Bahar olub gül mövsümü gələndə,
Cəh-cəh vurub şeyda bülbül güləndə,
Fürsət düşüb yarı bağda görəndə,
Gəzəydim hər tərəf bağı görəydim.

Gülgəz cəmallıdır, xoş xəyallıdır,
Şəkər dahanlıdır, ləbi ballıdır,
Simin zənəxdanı qoşa xallıdır,
Hüseynəm, qaşında tağı görəydim.

NƏ GÖZƏL

Bir çeşmə başında, yol kənarında,
Düzülüb hər yana ellər, nə gözəl.
Can alan dilbərin vəsfini deyim,
Gərdana tökülüb tellər, nə gözəl.

Xəstələr dərdinə qız dərman elər,
Baxışı hamını pərişan elər,
Almas kirpikləri yenə qan elər,
Qaşında, gözündə fellər, nə gözəl.

Aşığı görəndə eləməz həya.
Sevdalı kəsləri yetirməz baya,
Sinəsi mərmərə, çöhrəsi aya,
Bənzəyir deməyə, dillər, nə gözəl.

Baxanda bürüyür ay qabağını,
Görməyə həsrətəm gül yanağını,
Əməsən dilini, bal dodağını,
Üzündə həbəşi xallar, nə gözəl.

Mina boy yaraşır qəddi-dalına,
Baxasan doyunca gül camalına,
Heyrandı hər zaman xətti-xalına
Hüseyn tək yanında qullar, nə gözəl.

QALIB

Getdim, gördüm nazlı yarın yurdunda,
Tərlan uçub oylağında sar qalıb.
Xəzəl tutub bağçasını, bağını,
Bülbül köçüb, gül üstündə xar qalıb.

Bir kəsim yox mətləbimi bitirə,
Ərzi-halım əziz yara yetirə,
İstəkli dilbərdən xəbər gətirə,
Bu dünya başıma tarimar qalıb.

Hüseyn neyləmişdi gül üzlü yara?
Məni qoyub getdi hansı diyara?
Yenə uzaq düşdü cananla ara,
Mənim üçün neçə ahu-zar qalıb.

YOLUNDAN

Bir gözəl durubdur bulaq başında,
Gedən yolçuları eylər yolundan,
Açılıb rübəndi, görünür üzü,
Doymaq olmur onun xətti-xalından.

Zər kəmər qurşayıb o qəddi-dala,
Yaqut dodaqları şirin piyala,
Buxağı bənövşə, yanağı lala,
Qönçə həya eylər gül cəmalından.

Səhərdən açılıb köysünün bağı,
Yetkin şamamanın görünür tağı,
Gözəllik tərifi tutub oymağı,
Yatmayır obalar qeyli-qalından.

Çoxdandır olmuşam hüsnün möhtacı,
Dərmansız dərdimin sənsən əlacı,
Süzüb gözlərini baxdı qıyqacı,
Dost agah olmadı dostun halından.

Sallanıb qarşımda yeridi yana,
Baxmadı Hüseyntək əziz qurbana,
Gəlmədi bimürvət dinə, imana,
Bir busə vermədi ləbi-balından.

GÖRÜNÜR

Yenə yaxın oldu cananla ara,
Yar gəzən çəmənlər, çöllər görünür,
Darayıb zülfünü, töküb gərdana,
Şirmayı şanada tellər görünür.

Bərq verir buxağı, ayna qabağı,
Gülür gülgəz üzü, lalə yanağı,
Gəzir səhər-səhər qönçəli bağı,
Ötüşən bülbüllər, güllər görünür.

Sözlərim xoş gəldi, göy yaşılbaşa,
Qıyıb çəkdirmədi dostuna haşa,
Yaxıbdır vəsməni o qələm qaşa,
Cadu gözlərindən fellər görünür.

Bağçası gülşəndi gəlib bahar, yaz,
Könlünü könlümə yar eyləyir saz,
Sallanıb qarşımda satır işvə, naz,
Bağrımın başında millər görünür.

Eşqimin pərisi, işvəli canan,
Hüseynin dərdinə gəl eylə dərman,
Aynabənd otaqda saxlasan mehman,
Boynuma dolanan əllər görünür.

NEYLƏYİM?

Bir gözəl sallanıb çıxdı qarşıma,
Ağlımı başımdan aldı, neyləyim?
Atdı rubəndini gül cəmalından,
Məni bəlalara saldı neyləyim?

Süzüldü gözləri, çatıldı qaşı,
Dilbərin eşqində mən oldum naşı,
Həddi kamalında on beşdi yaşı,
Dil şəkərdi, dodaq baldı, neyləyim?

Boyu sərvi, yanaqları qırmızı,
Geyinmiş əyninə alı, qırmızı,
Ötürübdür başına şalı qırmızı.
Zənəxdanda qoşa xaldı, neyləyim?

Gözəllər içində əcəb baş gözəl,
Haramı baxışlı qələmqaş gözəl,
Cavanlar bağrına döyür daş gözəl,
El içində qeylü-qaldı, neyləyim?

Haramı gözləri Hüseynə yağı,
Çoxdandı olmuşam Hüsnün dustağı,
Sinəmə çəkibsən düyünlü dağı,
Sevdan bu başımda qaldı, neyləyim?

GƏLİBDİR

Arif olan, gəlin sizə söyləyim,
Bizim elə bir tək canan gəlibdir.
Bərabəri yoxdur eldə, obada,
Alıb gözəllikdə nişan gəlibdir.

Görməmişəm belə bir qaşı hilal,
Götürüb ləbinə şəhdi, şirin bal,
Gözəllikdə Yusif, Züleyxa misal,
Baxar deyər, şahi-xuban gəlibdir.

Bəzəyib məclisi gələndən bəri,
Qüdrət tək yaradıb mələk mənzəri.
Hüsündə məleykə, camalda pəri,
Çox canlar içində bir can gəlibdir.

Yaradan yaradıb bir belə mahı,
Gözəllər sultanı, hurilər şahı,
Bağışlar hər kəsin olsa günahı,
Dərdlərin dərmanı loğman gəlibdir.

Hüseyn şükr eyləyər, qadiri-sübhan,
Dünyaya gəlməyib bir belə insan.
Yığılıb mələklər, açılıb rizvan,
Behiştdən bəzəkli qilman gəlibdir.

TƏNBƏL

İndi hər tərəfdə bağlanır yarış,
Obada vellənib durma, a tənbəl!
Şəltəyə bürünmə, sayrıyam demə,
Göz bağlayıb, hiylə qurma, a tənbəl!

Öyrənibsən xalqa hədyan deməyə,
Çıxıb mərəkədə özün öyməyə,
Dadanıbsan eldən hazır yeməyə,
Zəli tək kolxozu sorma, a tənbəl!

Durub zərbəçiyə boylanırsan yan,
Toxanı görəndə çəkirsən aman,
Kolxozun işinə yandırmasan can,
Gəlməz Xorasandan xurma, a tənbəl!

Gününü boş yerə vurursan başa,
Baxmırsan qonşuya, qohum-qardaşa,
Bu gedişlə sən çatmazsan yoldaşa,
Yabanı boş yerə yorma, a tənbəl!

Almasın başını fikirli duman,
Gəlməsin könlünə bir daha güman,
Hər yoldaş işləyib gün alan zaman,
Sən durub boynunu burma, a tənbəl!

ELLƏR İÇİNDƏ

Bir gözəl görmüşəm yox bərabəri,
Şəni-şövkəti var ellər içində.
Dindirəndə şirin-şirin danışır,
Noğul, qənd əzilib dillər içində.

Səhərdən çıxmışdım tərlan ovuna,
Gördüm, aşiq oldum gözəl boyuna,
Hərdən sığal verir zülfü-muyuna
Şana dolandırır tellər içində.

Sevimli bir candır adı Nobatı,
Vardır gül əndamı, boyu, büsatı,
Eyvanda əyləşən gözəl xəyyatı
Bəzər güllü dəsmal əllər içində.

Hüsnü mat eləyir mahi-ənvari,
Görməmişəm belə sədri-mərməri,
Bir saçı leylanı sevəndən bəri,
Bağrım qana dönüb millər içində,

Canan qarşı gəldi sevdalı çağda,
Hüseynin sinəsi düyündə dağda,
Çiçəkli bağçada, bülbüllü bağda,
Bir gülü sevmişəm güllər içində.

NƏ GÖZƏL-GÖZƏL

Çıxıb səhərçağı bir pəri gəştə,
Dolanır o bağı nə gözəl-gözəl.
Geyinib, bəzənib bir sona kimi,
Qırmızısı, ağı nə gözəl-gözəl.

Ötür tuti kimi şirin dilləri,
Satır aşığına fitnə, felləri,
Töküb gərdəninə qara telləri,
Zülflərinin tağı nə gözəl-gözəl.

Mən sənin əlindən çəkirəm haşa,
Çoxdandır mayılam o qələm qaşa.
Yenicə çatıbsan on altı yaşa,
Yarın türfə çağı nə gözəl-gözəl.

Əcəb dərməlidir bağçası, barı,
Şirindir alması, şirindir narı.
Sinədən baş verib təzə növbarı,
Gözəlin növrağı nə gözəl-gözəl.

Hüseyn tərifini söylə həmişə,
Qaməti sürahi, əndamı şişə.
Buxağından qoxur ətri-bənövşə,
Yarın gül yanağı nə gözəl-gözəl.

SARI QIZ

Nə müddətdir atəşinə yanıram,
Sən də mənim kimi yan, ay sarı qız.
Könlümün sirrini pünhan deyirəm,
Arifsən sözümdən qan, ay sarı qız.

Aşıq oldum sən tək qaşı kamana,
Səni gördüm gəldim dinə-imana.
Uyma seyrağıba, uyma yamana.
Nəsihət bil sözüm, sən ay, sarı qız.

Zülfünü tökübsən gərdənə, dəstə,
Eşqinə düşəni eylərsən xəstə,
Bir cüt nar bəslərsən ağ sinən üstə,
Axtarırsan şövkət, şan, ay sarı qız.

Aparır ağlımı qıya baxmağın,
Müjganın sinəmə hərdən çaxmağın.
Olmasaydı sənin evlər yıxmağın,
Can deyərdim sənə, can, ay sarı qız.

Pünhan sirrin hər yetənə bildirmə,
Saqın, seyrağıbı bizə güldürmə,
İnsaf eylə, sən Hüseyni öldürmə,
Eyləmə bağrımı qan, ay sarı qız.

BƏXTƏVƏR

Cəllad kimi nə durubsan qarşımda,
Əcəlsiz canımı alan bəxtəvər.
Hərdən daldalardan qıyqacı baxıb,
Sərimi sevdaya salan bəxtəvər.

Ovçusundan ürkən dağlar maralı,
Həsrətin çəkməkdən rəngim saralı,
Nədəndir gəzirsən məndən aralı,
Hərdən min xəyala dalan bəxtəvər.

Bağrımın başını sən də üzürsən,
Ala gözlərini əcəb süzürsən.
Cumub dərinlərə necə üzürsən,
Sonalı göllərə dalan, bəxtəvər.

Sirrini söyləmə yada, namərdə,
Bəzənib sallanma hər düşən yerdə,
Uğradıbsan məni dərmansız dərdə,
Salıbsan könlümə talan, bəxtəvər.

Hüseyn neyləmişdi bimürvət yağı?
Çəkibsən sinəmə sağalmaz dağı,
Keçdi o verdiyin vədənin çağı,
Oldu doğru sözün yalan, bəxtəvər.

GÖRƏNDƏ

Eşqə düşüb havalandım yenə mən,
Gülşən içrə o cananı görəndə.
Alışdım odlara pərvanə kimi,
Günəş üzlü, şirin canı görəndə.

Süzgün baxışları aldı canımı,
Kirpiyi ox təki tökdü qanımı,
Apardı, qoymadı din-imanımı,
Ağır xonlu Süleymanı görəndə.

Bülbül olub bir qonmadım gülünə,
Mina gərdəninə, incə belinə.
Mayıl oldum ay qabaqda telinə,
Xublar içrə o qılmanı görəndə.

GƏLİN

Qəfildən göstərdi gül camalını,
Aşiqini eşqə saldı bu gəlin,
Kirpiyindən bir ox vurdu sinəmə,
Əcəlsiz canımı aldı bu gəlin.

Qaşları cəllad tək susadı cana,
Çevrilib baxmadı gələn qurbana,
Sona tək silkinib yeridi yana,
Məhəbbət gölünə daldı bu gəlin.

Yandım atəşinə etmədi mürvət,
Həmişə dostundan dolandı xəlvət,
Boyunu görməyə çəkirəm həsrət,
Əyləndi, hayanda qaldı bu gəlin?

Buna qurban olsun yüz ulus, oymaq,
Dili xam şəkərdir, dodağı qaymaq,
Busə almaq ilə olmayır doymaq,
Dahana dad verən baldı bu gəlin.

Hüseyn bu gözəlin olub möhtacı,
Onsuz heç dərdimin olmaz əlacı,
Ala gözlərindən baxdı qıyqacı,
Müjganın sinəmə çaldı bu gəlin.

GÜLBƏSTİ

Pərişan halımda gördüm camalın,
Mayılam sən kimi yara Gülbəsti.
Şahmar zülflərini tökmə hər yana,
Şana al, bir yana dara, Gülbəsti.

Eşitdim, öyrəndim gözəl ellisən,
Tuti avazlısan, şirin dillisən,
Bülbül sədalısan, gül misallısan,
Baş əymə gülşəndə xara, Gülbəsti.

Hüsnün münəvvərdir, günəş camallı,
Qoynun behişt bağı, cənnət misallı,
Mən səni sevmişəm, loğman kamallı,
Elə sən dərdimə çara, Gülbəsti.

Hərdən geyin, sallan elin içində,
Zər kəmər görünür belin içində,
Bülbülü bəslərsən gülün içində,
Müştağam qoynunda nara, Gülbəsti.

Şivəli gəzirsən bərabərin yox,
Eylərsən dostuna nazü-qəmzə çox,
Dəyibdir müjgandan sinəmə bir ox,
Keçdi cana, yana-yana, Gülbəsti.

Al yaşıl geyibsən, başında cuna,
Yaxıbsan dəstinə nə gözəl xına.
Mən sənin ucundan oldum divana,
Eyləmə günümü qara, Gülbəsti.

Üzündür afitab, qaşındır hilal,
Görmədim sən kimi bir gözəl kamal,
Dahanın məzəli, dodağın zülal,
Çəkdirmə Hüseyni dara, Gülbəsti.

MEHMAN GƏLİBDİR

Eşitsin, şad olsun ellər, obalar,
Bu gün canan bizə mehman gəlibdir.
Gecə-gündüz həsrətini çəkərdim,
Bu gün canan bizə mehman gəlibdir.

Tərifi söylənir dildə, dahanda,
Belə nazü-qəmzə olmaz insanda,
Axtarırdım o gözəli cahanda,
Bu gün canan bizə mehman gəlibdir.

Hər süzgün baxanda alır canımı,
Yolunda qoymuşam xanimanımı,
Saxlayır üzündə xoş nişanımı,
Bu gün canan bizə mehman gəlibdir.

Kirpiklərin oxdur, qaşların yağı,
Görmədim sən təki dodaq qaymağı,
Bizim ellər əziz saxlar qonağı.
Bu gün canan bizə mehman gəlibdir.

Geyinib əyninə zər-ziba əlvan,
Gəzərdim Məcnun tək bərri-biyaban,
Bir qiya baxanda canımı alan,
Bu gün canan bizə mehman gəlibdir.

Boyu yaraşıqlı, heç olmaz tayı,
Gözəllikdə onun verilib payı,
Əzəlindən mənə var haqqı-sayı,
Bu gün canan bizə mehman gəlibdir.

Sabahdan götürüb dəstinə şana,
Siyah tellərini tökübdür yana,
Hüseynəm, oduna ollam pərvana,
Bu gün canan bizə mehman gəlibdir.

MÜXƏMMƏSLƏR

XIRDACA QIZ

Dindirəndə xoş danışır, şirin dilli, xırdaca qız.
Qaş oynadır, canlar alır, fitnə, felli, xırdaca qız.
Əsdirir cığalları durna telli xırdaca qız.
Götürüb güllü dəsmal şümşad əlli, xırdaca qız.
Sallanır sona kimi incə belli, xırdaca qız.

Çoxdandır müştaq idim, ayna qabağın görməyə.
Gül üzün, tər buxağın, gülgəz yanağın görməyə.
Yaşılın, atlasın, abın, qırmızın, ağın görməyə.
Cavanlar həsrət çəkir, türüncün, tağın görməyə.
Çoxların dərdə salan qeyli-qallı, xırdaca qız.

Yalan deyil, vədə verdin, sonra da döndün sözündən.
Çox baxıram heç doymuram sənin o ala gözündən.
Mərhəmət qıl bir busə ver, aşığına at üzündən.
Yolunda can üzən dostu gəl sən eləmə özündən.
Mürvət elə ağrın alım, gül camallı, xırdaca qız.

Nə durubsan bu qarşımda bir qəmzəli tərlan kimi?
Qəzəblənib qan elərsən Misirdəki soltan kimi.
Dar qurub asdırma məni, huri pəri, qılman kimi.
Gəl səninlə qucaqlaşaq, hər ikimiz bir can kimi.
Dərdim çoxdur əlac elə, xətti-xallı, xırdaca qız.

Götürüb şirmayı şana, amandır dara tellərin.
Tökülsün dəstə-dəstə gərdənə qara tellərin.
Qılmazmı xəstələrin dərdinə çara tellərin.
Qoyma ki, qismət olsun uğursuz xara, tellərin.
Sızıldatma zənburunu, ləbi ballı, xırdaca qız.

Hərdənbir süzgün baxıb, ürəyimi qan eləmə,
Xəyalını dolaşdırıb, meylin məndən yan eləmə
Yaşınıb, camal gizlədib, halım pərişan eləmə,
Xədəngin kamana çəkib, bağrımı şan-şan eləmə.
Görən sənə yaxşı deməz, qəddi-dallı, xırdaca qız.

Bağlayıb gümüş kəmər, o incə bellərə, gözəl.
Müştağam çoxdan bəri mən şirin dillərə, gözəl.
Dalmışam sənin eşqindən, mayılam göllərə, gözəl.
Yarını məcnun eləyib, salarsan çöllərə, gözəl.
Leyli kimi evlər yıxan, min xəyallı, xırdaca qız.

YARAŞIR

Qaşı qəmər, gümüş kəmər, qurşayıb belə yaraşır,
Üzündə xal, dodağı bal, xam şəkər dilə yaraşır.
Bir bəri bax, bəyaz buxaq, darçına, hilə yaraşır.
Dərin kamal, güllü dəsmal, al, gözəl ələ yaraşır
Ay qabağa, gül yanağa, yanağı gülə yaraşır.

Gözlər ala, başa bəla, çəkilib qara qaşları.
Oğrun baxdı, evim yıxdı, etmədi çara qaşları.
Zülmü çox, insafı yox, aparır dara qaşları.
Huşi getdi, Məcnun etdi, saldı diyara qaşları.
Ağıl zail, qıldı sayil düşməyə çölə yaraşır.

Qaş oynatdı, işvə satdı, mayıl oldum gül camala,
Bimürvət, verib zinət, tər əndama, xətti xala,
İlqar verdi, qəsdə girdi, sonra düşdü gəc xəyala.
Sevdim yaman, çəkdim aman, əcəb düşdüm qeyli-qala.
Hərzə sözü, cadu gözü, fitnəyə, felə yaraşır.

Kaman qurub, oğrun durub, mənə işvə-naz eləyir.
Corab toxur, cəh-cəh oxur, qumru tək avaz eləyir.
Dərdin bilir, şirin gülür, pozğun könlüm saz eləyir.
Yanağı gül, sağı sünbül, zimistanı yaz eləyir.
Sevdim əzəl, əcəb gözəl, mahala, elə yaraşır.

Qurban ona örtüb cuna, görəsən haralıdır bu?
Yol açıb, ovçudan qaçıb, dağların maralıdır bu.
Yana baxır, kirpik qalxır, qaşları qaralıdır bu.
Dostun atıb, yasa batıb, Hüseyn tək yaralıdır bu.
Ömrün üzür, əcəb süzür, sonadır gölə yaraşır.

XINDI MƏMMƏD
(1896-1968)

GƏRAYLILAR

BƏNÖVŞƏ

Gözəllikdə yoxdur tayın,
Yanaqları al bənövşə,
Cilvələnib qalx ayağa,
Qol boynuma sal, bənövşə.

Siyah zülfün dəstə-dəstə,
Firqətindən mənəm xəstə.
Çox görmüşəm yanaq üstə,
Qoşa-qoşa xal, bənövşə.

Xındı Məmməd fərağında,
Məcnun kimi sorağında...
Şəhdi-şəkər dodağında,
Nolar versən bal, bənövşə.

MƏCNUN

Nə yatmısan biyabanda,
Oyan, bəxti qara Məcnun.
Çağır haqdan imdad istə,
Bu dərdinə çara Məcnun.

Gəzmə vəhşilər halında,
Yatma Leyli xəyalında.
Bir vəfasız yar yolunda,
Ağ ciyəri qara Məcnun.

Eşq əlindən oldun xəstə,
Dərdin-dərdinə peyvəstə.
Gözləyirsən bulaq üstə,
Ey yazıq biçarə Məcnun.

Bivəfaya çəkmə zəhmət,
Bu fələkdə yoxdu mürvət.
Səni gördü Xındı Məmməd,
Düşdü ahu-zara, Məcnun.

QOŞMALAR

ÇƏKMƏSİN

Hər yetən kəndinə "şairəm" – deyib,
Əfsanə şeyləri sözə çəkməsin.
Ağzına gələni deyib-danışıb,
Sonra pərişanlıq üzə çəkməsin.

Qəvvas olub dəryalara dalmayan,
Ustadan dərsini kamil almayan,
Divani, təcnisi dürüst çalmayan,
Götürüb təzənə saza çəkməsin.

Xındı Məmməd, haqq əməyin itirməz,
Hər gəda nəsihət, öyüd götürməz.
Köhlən mənzilinə hər at yetirməz,
Heç kim alaşasın düzə çəkməsin.

ÇƏKƏR

Əsildən, nəsildən mərd olan, özün
Mərdlər sırasında mərdana çəkər.
Laf edib daldada özün öyənlər,
Meydanda yaxasın tez yana çəkər.

Əhli-insan yalan sözdən utanar,
Əhli-ürfan həqiqətə inanar.
Əhli-nadan nə anlayar, nə qanar,
Atalar məsəlin qanana çəkər.

Arifəm, sərrafam mən də bu dəmdə,
Dürdən, gövhərdən vardı sinəmdə.
Xındı Məmməd həqiqətdən deyəndə,
Götürüb sazımı təzana çəkər.

OLMASA

Uzaq yerə səfər, güzar çətindi,
Sadiq olan yola yoldaş olmasa.
Hər yetənə, hər nadana sirr vermə,
Sirr saxlayan sirrə sirdaş olmasa.

Vəfasız dünya da heç kimə qalmaz,
Tülkü aslan olub, meydan alammaz.
Dost-dostdan inciyib qəlbi bulanmaz,
Aralıqda yaltaq, naqqaş olmasa.

Xındı Məmməd sözün tamam söyləyər,
Mərd oğula canın qurban eyləyər,
Yalnız igid pələng olsa neyləyər,
Arxasında qohum-qardaş olmasa.

GÖZƏLDİR

Gözəllik diyarı bu Gürcüstanın,
Bar verən bağçada barı gözəldir.
Borçalı elində mərd oğulların,
Namusu, qeyrəti, arı gözəldir.

Mən ki müştağıyam şirin sözlərin,
Ceyran baxışların, durna gözlərin.
Tiflis şəhərində, gürcü qızların,
Bəyaz sinəsində narı gözəldir.

Bəlli şəyirdiyəm mən Ağacanın,
Ətirli barıyam qoca bağbanın.

Bizim cavanların, mehribanların,
Etibarı, düz ilqarı gözəldir.

Aşıqlıq peşəmdir etmişəm sənət,
Hər yetən gədaya etmərəm minnət.
Aşnadan yar olmaz, ay Xındı Məmməd,
Hər kəsin özünün yarı gözəldir.

VAR

Ey bimürvət, niyə məndən küsmüsən,
Dosta can verməyə cəsarətim var.
Mən nə dedim, dəydi sənin qəlbinə,
Əzəldən ki, sənlə zarafatım var.

Həsrət qoyma camalına gözümü,
Eşq əlindən itirmişəm özümü.
Ürəyimdə pünhan olan sözümü
İzn versən deyim, bəyanatım var.

Mən Xındı Məmmədəm, Məcnun sanında,
Alışdım eşqindən qəm fərağında.
Yəqindir ki, dostlarımın yanında
Doğru etibarım, sədaqətim var.

AŞIQ VƏLİ MİSKİNLİ
(1900–1968)

GƏRAYLILAR

BİZİMDİ

Gülər üzüm, şirin sözüm,
Mehriban ellər bizimdi.
Əldə sazım, deyim, yazım,
Çəmənli çöllər bizimdi.

Şux gözəllər boyu şüşə,
Dərər–dərər düzər döşə,
Süsən–sünbül, tər bənövşə,
Ətirli güllər bizimdi.

Könül sevən gözəl çağlar,
Səfalı, meyvəli bağlar,
Başı ala qarlı dağlar,
Sonalı göllər bizimdi.

Dərk eləyən pürkamalı,
Bəsləyən dövləti, malı,
Tikən, quran hər cəlalı
Bəzəyən əllər bizimdi.

Qarşılayan xoş baharı,
Hasil edən hər nübarı,
Könül açan gülüzarı
Səfalı yerlər bizimdi.

Aşıqların eşq həvəsi,
Aləmə xoş gələn səsi,
Tükənməz söz xəzinəsi
Dürr tökən dillər bizimdi.

Vəli, sözün de ellərə,
Yayılsın dildən dillərə.
Xoş gələcək nəsillərə,
Xeyir əməllər bizimdi.

BALA CEYRAN

Bu çöllərin zinətidi,
Körpə quzu, bala ceyran,
Nə olar ki, bir dayana
Dildən ərzim ala, ceyran.

Getmə çöllərin sonası,
Uçar könlümün xanası,
Dodaqları gül qonçası,
Yanaqları lala, ceyran.

Qaçma aşığın səsindən,
Oxu, eşqi həvəsindən,
Yayın ovçu gülləsindən,
Hüsnünü daldala, ceyran.

Yay sürünü göy çəməndə,
İntizarın qaldı məndə,
Baş alıb hara gedəndə,
Bax qabağa-dala, ceyran.

Vəliyəm, görüm yüz ilə,
Sürün durna tək düzülə,
Heç insaf deyil üzülə,
Qatarından qala, ceyran.

OLARMI?

Hər alçaqda yay zamanı
Hər tələdə qar olarmı?
Hər budaqda gül qönçəsi
Hər ağacda bar olarmı?

Eldən nifrət alanlar da,
Öz hörmətin salanlar da,
Qəlbi xain olanlar da,
İslahü-rəftar olarmı?

And içib, ara qatanda,
Baş kəsib qana batanda,
Dostu nəfsinə satanda
Namus, qeyrət, ar olarmı?

Şən ölkənin bucağında,
Ədalətin qucağında,
İncəsənət ocağında
Maskalanmış mar olarmı?

Vəli söylər nəğməsində,
Mərifətli kəlməsində,
İnsanların cərgəsində
Azğın-satqınlar olarmı?

MƏN

Nazlı dilbər, gül adını
Şirin-şirin anıram mən.
Eşqinə pərvanə olub,
Atəşinə yanıram mən.

Sevirəm ala gözünü,
Canımdan artıq özünü,
Gizlədirəm sirr sözünü,
Seyrağıbdan danıram mən.

Vəli deyər, bu dünyada
Ləkə vurma təmiz ada,
Məhəbbətə, xoş murada,
İlqara inanıram mən.

AĞLAMA

Mən gedirəm qürbət elə,
Ayrılıqda yar ağlama.
Yaman gündən qismətimiz
Bəlkə bizim var ağlama.

Güvən eşqin bulağına,
Əyilmə hicran dağına.
Məhəbbətin oylağına
Yağsa boran, qar ağlama.

Düşmən gülüb at çaparsa,
Vəlini əsir aparsa,
Yerə qığılcım qoparsa,
Göydə buludlar ağlama.

QOŞMALAR

GƏNCƏNİN

Hörməti, şöhrəti, şövkəti-şanı,
Artır günbəgündən varı Gəncənin.
Çoxdu bərəkəti, neməti, nanı,
Hər məhsulu xeyri, karı Gəncənin.

Yaşıl bağlarında açılır güllər,
Fərəhlə oxuyur şeyda bülbüllər,
Şadlığa, şənliyə yerişir ellər,
Sazı, balabanı, tarı Gəncənin.

Ala gözlər xumarlanır, süzülür,
Şəhərə baxdıqca üzünə gülür.
Əlvan otaqları cərgə düzülür,
Alması, heyvası, narı Gəncənin.

Elmə, insanlığa yazım dastanı,
Dünyanı mat qoyur gül-gülüstanı.
Pambığı, buğdası, bağı, bostanı,
Çiçəklənir çəmənzarı Gəncənin.

Fabrika, zavodlar, böyük binalar,
Uca dağlar kimi əyilməz vüqar,
Diqqəti cəlb edir nə qədər ki var,
Qoy baxım boyuna barı Gəncənin.

Əziz partiyamız qeydinə qalır,
O səbəbdən günbəgündən ucalır.
Lenin çıraqları gur işıq salır,
Zər bəzənir ruzigarı Gəncənin.

Soruş Mingəçevir, Muğanı məndən,
Bakıya, Tiflisə işıq çəkəndən,
Gəzdin Hayıstanı, gəl Daşkəsəndən,
Çıraqbandır bu dağları Gəncənin.

Zəhmət çəkən, tikən, qurandı bunlar,
Əkər, səpər, çəkər gətirər sular.
Bəzəyər, yetirər mötəbər olar,
Yaşıllanar hər diyarı Gəncənin.

Hər tərəfi bağçalıdır, bağlıdır,
Xoş keçir dövranı gözəl çağlıdır,
Qəhrəman İsrafil[1] doğma oğludur,
Unudulmaz yadigarı Gəncənin.

Miskin Vəli çox söz deyir, saz çalır,
Şairin əsəri tarixdə qalır,
Ad qazanıb yer üzündə ucalır,
Nizami tək sənətkarı Gəncənin.

[1] Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov.

YAXŞI OLAR

Qış keçirdik ruzigarı yaz kimi,
Boz ayda başladı qar yaxşı olar,
Havalar xoş keçər, çiçəklər açar,
Bağlarda bol meyvə, bar yaxşı olar.

Yay zamanı isti düşər cahana,
Sərin su gərəkdi axsın hər yana,
Arana, pambığa, bağa, bostana,
Qoy dağlar çənləsin tar yaxşı olar.

Vəli deyər, əkək, səpək, bitirək,
Becərməni layiqincə yetirək,
Toplanışda bol məhsullar götürək,
Ellərdə çox olsa var yaxşı olar.

SAXLAMAZ

Nəslində naxələf, əslində qələt,
Namusu, qeyrəti arı saxlamaz.
Özünü itirən sözünü bilməz,
Əyri fikir düz ilqarı saxlamaz.

Həmişə can verən şərə, böhtana,
Cəhd edər dünyanı qoysun virana,
Allanan nəfsinə, yağlı yalana,
İtgin düşər ixtiyarı saxlamaz.

Meydanda, cövlanda bir ər oğlu ər,
Zatında olarsa göstərər hünər,
Hər daş qızıl olmaz, hər torpaq cövhər,
Hər təpə başında qarı saxlamaz.

Əlli öyrənməyən, yüzü qanmayan,
Düşünməz əyrini-düzü qanmayan,
Nəsihət saymayan, sözü qanmayan,
Boş beyinlər yadigarı saxlamaz.

Miskinli Vəliyəm, min nəsyət desən,
Böyük ziyan verər xırda kəsəyən,
Sürünü batırar qurddan törəyən,
Eli satar etibarı saxlamaz.

SƏBİRSİZ

Səbri olan qatarından üzülməz,
Qarışmaz cərgəyə, sana səbirsiz,
Səbirli düşünər, havayı gülməz,
Tez başlayar şər-böhtana səbirsiz.

Səbirli ustaddan dərsini alar,
Səbirsiz tay-tuşdan geridə qalar,
Səbri olan günbəgündən ucalar,
Batar, çıxmaz heç bir yana səbirsiz.

Səbirli bəsləyər bağçanı, bağı,
Səbirsiz düşünməz axşam sabahı,
Səbirli gözləyər dalı-qabağı,
Düçar olar çox ziyana səbirsiz.

Səbirli xətadan birtəhər keçər,
Səbirsiz tələsik zəhəri içər,
Səbirli yüz ölçər, bir dəfə biçər,
Haqsız düşər bir zindana səbirsiz.

Səbirli ucalar, qalxar göylərə,
Səbirsiz xətalar gətirər sərə,
Miskinli Vəliyəm, yazdım dəftərə,
İnsan olmaz hər divana səbirsiz.

OLACAQMI?

Yar deyib canını üzən ay canım,
Yar gəlib canana can olacaqmı?
Yoxdu bu dərdlərə dözən ay canım,
Yanırsan oduna yan, olacaqmı?

Dolandım eşqinə can üzə-üzə,
Məhəbbət yoluna gül düzə-düzə,
Yar gəlsə üz-üzə, baxsa göz-gözə,
Könüllər gül açan an olacaqmı?

Bəslədim bağını, dərdim bəhrini,
Doldurdum qədəhin, içdim zəhrini,
Yandım hər oduna, çəkdim qəhrini,
Yar üzümə baxsa, qan olacaqmı?

Eşqində məhəbbət, sevgidə əsər,
Olmasa od tutar, yanar sərasər.
Sərimdə pürkamal, baxtımda kəsər,
Dilimdə sevimli san olacaqmı?

Miskinli Vəliyəm, aciz-arada,
Əyildim fəryada bir xoş murada,
Bu qoca dünyada çox yandım oda,
Alovdan qəbrimə don olacaqmı?

UTANMAZ

Bimürvətin fürsət versən əlinə,
Hədsiz tökər, nahaq qanı utanmaz.
Doğru sözü heç gətirməz dilinə,
O danışar çox yalanı utanmaz.

Ağlı kəmlər xeyri-şəri yoxlamaz,
Zalım olan həqiqəti haxlamaz,
Yaxşılıq bilməyən hörmət saxlamaz,
Çığnayar süfrəni, nanı, utanmaz.

Mərd düşmənə qulluq eylə ilinən,
Namərd dostu qəddar düşmən bilinən,
Azğın, satqın, fitnə, fəsad-felinən
Xalqa verər çox ziyanı utanmaz.

Halım bilsən nə məlulam, nə şadam
Mərdə mehribanam, namərdə yadam,
Mərifət bilməyən qeyrətsiz adam,
Satar dostu, mehribanı utanmaz.

Miskinli Vəliyəm, gəzdim dünyanı,
Gördüm düz, əyrini, yaxşı-yamanı,
Namərd dostun sənə verməz amanı.
Haqsız yazar şər böhtanı utanmaz.

MƏNİ!

Mən sənə neylədim, a qanlı fələk,
Qərq etdin sulara, sellərə məni!
Saman kimi əzib atdın göylərə,
Sovurdun amansız yellərə məni!

Cavanlıq həyatı qurduğum yerdə,
Gələcəyə zinət vurduğum yerdə,
Saldın bəlalara durduğum yerdə,
Verdin pis qələmə, dillərə məni!

Miskinli Vəlini yandırdın oda,
Qul etdin zalıma, yağıya, yada,
İşıqlı aləmdə, bu gen dünyada,
Ağlatdın aylarla, illərlə məni!

YADIMA DÜŞDÜ

Qürbət eldə xəstə canım can üstə,
Vətənin torpağı yadıma düşdü.
Quş kimi qəfəsdə bu son nəfəsdə,
Dostların sorağı yadıma düşdü.

Qəlbimə od saldı qəriblik sözü,
Alovlu cəsədi, qan, yaşdı gözü,
Həyatın mənası cavanlıq özü,
Bəxtimin varağı yadıma düşdü.

Zalım hər odlara yandırdı məni,
Vaxtsız xəzan oldu, ömür çəməni,
Yar sevdim, yad oldum, tək bir gecənin
Olmadım qonağı, yadıma düşdü.

Yarımın naləsi ucaldı göyə,
O qaldı başına hey döyə-döyə,
Ayrılıq arada olmasın deyə,
Yanıb ağlamağı yadıma düşdü.

Həsrət gözlə baxdı yar mənə sarı,
Soruşub dərdini bilmədim barı.
Ayrılıq ataşı, qəm-hicran narı,
Canımda qalmağı yadıma düşdü.

Kül oldu eşqimin ruhi-aləmi,
Heç kimsə çəkməsin mən çəkən qəmi,
Bizə zülm eləyən fələk, qələmi
Tərsinə çalmağı yadıma düşdü.

Görün nələr çəkdi bəlalı başım,
Çaylara qatışdı qanlı göz yaşım.
Qoca atam, anam, bacım, qardaşım,
Baxıb qovrulmağı yadıma düşdü.

Miskinli Vəliyəm, ayrılmam qəmnən,
Hicran ürəyimdən, qan yaş didəmnən,
Yaralı canımın zülmü sitəmnən
Eldən ayrılmağı yadıma düşdü.

PƏH-PƏH

Dünya zirvəsinə, dağlar başına,
Dolanır qartalı, maralı pəh-pəh.
Zinət verir torpağına, daşına,
Durub bir-birindən aralı pəh-pəh.

Aşıq kimdi, əldə sazdı kamana
Kamal olan tez yetirər kamana.
Usta ovçu ovu qurar kamana,
Gətirir mizana maralı pəh-pəh.

Miskinli Vəliyəm, ala gözlərin,
Kim açar könlümün ala gözlərin.
Can alan afətin ala gözlərin,
Gözəlin köksündən maralı pəh-pəh.

OĞULA NƏSİHƏT

Kamil sənətkar ol, mehriban oğul,
Arada çox gəzmə aciz-avara.
Gecəni gündüzə qataraq çalış,
Bir namus, qeyrətə, bir etibara.

Dərs al, oxu, öyrən, təmiz ad qazan,
Yaxşı qabaqcıl ol, oxuyan, yazan.
Ölər, itər, batar yolundan azan,
Dilindən od olan tez yanar nara.

Sakit ol məclisdə, havayı gülmə,
Nəfsinə allanma, lovğalıq bilmə.
Qatarından qalma, eldən üzülmə,
Sayqıdan sayıq ol, tez düşmə dara.

Qəlbin çox düz olsun pis yola getmə
Qarşına gələndən salamsız ötmə,
Əmək sev, ərinmə, tənbəllik etmə,
Həyatın şən olsun, güvənmə vara.

Miskinli Vəlini salma nəzərdən,
Öyrən bu sözləri yada sal hərdən,
İnsana mərifət üstündü zərdən,
Dosta yalan satma, düz ol ilqara.

AĞLARAM

Səmadan zülm ilə endirib məni
Fələk kəməndinə saldı, ağlaram!
Dərdim tuğyan edir, yoxdur dərmanı,
Gül irəngim tez saraldı, ağlaram!

Yenə yada düşdü keçən çağlarım,
Bayğular məskəni oldu dağlarım,
Büllur otaqlarım, güllü tağlarım,
Yağıya, yadlara qaldı, ağlaram!

Ləqəbim Eymirli, Vəlidir adım,
Vaxtım döndü xeyri-şərə sanadım,
Alıcı laçınam, sındı qanadım,
Yapalaq aşkarım aldı, ağlaram!

AŞIQ BƏHMƏN GÖYÇƏLİ
(1901-1980)

QOŞMALAR

GÖZLƏRİN

Qəfil bir ox atdı bağrım başına,
Süzülüb baxanda ala gözlərin.
Baxcağın canımı üzüb apardı,
Olubdu başıma bəla gözlərin.

Pünhan, yanqılıcı dönub baxanda,
Yüz min nəzakətnən kirpik qaxanda,
Müjganların sinəm üstə çaxanda,
Az qaldı canımı ala gözlərin.

Bəhmənəm, olmuşam mən sana mayil,
Gözlərin ağlımı eylədi zayil,
Hər nə ki buyursan olaram qayil,
Saldı məni min xəyala gözlərin.

A DAĞLAR

Mahalım, vətənim, elim obamsan,
Çəmənli mənzilim, yurdum, a dağlar!
Həkimim, loğmanım, dərman-davamsan,
Xəstə idim şəfa buldum, a dağlar!

Ellər gəlib yurddan-yurda köçəndə,
Dərə, təpə, daşqın çaylar keçəndə,
Sərin bulağından əylib içəndə,
Qalmadı ürəkdə dərdim, a dağlar!

Kəpəzi, Murovu, Qıçyığı gəzdim,
Qoşqarı, Murğuzu, Buçuğu gəzdim,
Dolandım yüksəyi, alçağı gəzdim,
Bəhmənəm, hər yanı gördüm, a dağlar!

YADIMA DÜŞDÜ

Gəldi bahar yenə açıldı yazı,
Bizim elin dağı yadıma düşdü,
Şığıyır göllərdə sonası, qazı,
Səfalı yaylağı yadıma düşdü.

Açıbdımı görən dağlar çiçəyi,
Göyçəkdi hər elin gözəl, göyçəyi,
Sözümün doğrusu, budur gerçəyi,
Kərmənin qalağı yadıma düşdü.

Axan dərələrdən bu çaylar, sular,
Xəstənin dərdinə dərmandı bular,
Mələşir düzündə qoyun-quzular,
Pendiri-qaymağı yadıma düşdü.

Bir yan Dik pilləkən, bir yanı Qonur,
Başında Çalmalı, yanında Şonur,
Yay günü içəndə dişləri donur,
O Qumlu bulağı yadıma düşdü.

Dəstə-dəstə seyrə çıxıb gözəllər,
Dərib bənövşəni dəstə düzəllər.
Çeşmələr başında türfə gözəllər
Gəlin, qız yığnağı yadıma düşdü.

Bəhmən görsə gülər, üzü ayna yar,
Yaşılbaş sonalar göldə oynayar.
Ağ samavar qapılarda qaynayar,
Aynabənd otağı yadıma düşdü.

SANA QURBAN!

Qəfil məni eşqə salan bəxtəvər,
O qulac qolunu gər, sana qurban!
Mən xəstəyəm, sən təbibsən dərdim var,
Dərmanı ləbindən ver, sana qurban!

Gəl gedək bağçada qolboyun gəzək,
İzn ver bağından bircə gül üzək,
Ağ nazik əlinnən dəstələ düzək,
Güldən, bənövşədən dər, sana qurban!

Dünya üzündə sən aysan, ülkərsən,
Nabatsan, noğulsan, şirin şəkərsən,
Bir ağ can mayasan, gərdən çəkərsən,
Dalınca boylanan nər sana qurban!

Başında ipəkdən şalın yaraşır,
O mina qəddinə alın yaraşır,
Ağ büllur buxağa xalın yaraşır,
Ətrafını alıb tər sana qurban!

Bəhmənin qəlbinə sən dəymə, sınar,
Mən ölsəm dərdindən, el səni qınar.
Boyun qoysam yola, gəl, etmə kənar,
Qəbul eylə verim sər sana qurban!

KEÇİB GEDƏR

Dünya bir misaldı, körpüyə nisbət,
Padişah, gədalar, xan keçib gedər.
Yaxşılara rəhmət, pislərə lənət,
Fənadan üqvaya san keçib gedər.

Qohum-qardaş getdi, dövlətim getdi,
Urvatım, hörmətim, izzətim getdi,
İşrətim, şöhrətim söhbətim getdi,
İndi ürəyimdən qan keçib gedər.

Əzəldən özgəsin mən də qınadım,
Gen günümdə öz-özümə oynadım,
Dar günümdə dostlarımı sınadım,
Yad olub yanımdan yan keçib gedər.

İnsan oğluna heç yoxdu etibar,
Dar günündə olar tez səndən kənar,
Yada bel bağlama, demə dostum var,
Saxlamaz yadında nan, keçib gedər.

Bəhmənin sözləri nəsihət, ardı,
İnsanın qiyməti dövlətdi, vardı,
Yoxsulun başına gen dünya dardı,
Dərdü-qəm əlindən can keçib gedər.

VƏDƏSİNDƏ

Şəmşirin "Vədəsinə" rədifli şerinə cavab

Baxtım üz döndərib, yoxsa yatıbdı,
Mənim bu işimin dar vədəsində,
Fələk şərbətimə acı qatıbdı,
İşrətli çağımın car vədəsində.

Bir zaman gəzdirdim əlimdə sağı,
Cəm idi başımın ağır yığnağı,
Gülşənli bağımın çiçəkli çağı,
Kəsdilər, tökdülər bar vədəsində.

Dünya məni deyib özünü öymə,
Özgə qapısını, məsəldi, döymə,
Yaxşılıq etməsən, qəlbə də dəymə,
Sana da eyləyər kar vədəsində.

Yadına düşdümü dost idik əzəl,
Mən idim bir cavan, sən idin gözəl,
Xəzan dəydi, bağdan töküldü xəzəl,
Sən mənə olmadın yar vədəsində.

Bəhmən, sən dünyada dolanma hədər,
Gəlibdi başına hər qəza-qədər,
Zimistanda bərf yağsa da nə qədər,
Əriyib tez gedər qar vədəsində.

VÜCUDNAMƏ

Min doqquz yüz birinci tarixdə mən
Təvəllüd elədim, gəldim cahana.
Beş yaşında qaldım atadan yetim,
Dar oldu başıma keçən zamana.

Altıda, yeddidə göz yaşım tökdüm,
Səkkizdə, doqquzda ahı-zar çəkdim,
On-on bir yaşında bu iki əhdim,
Çox nifrət elədim o zimistana.

On ikidə, on üçdə bildim xeyir-şər,
On dörddə, on beşdə mən oldum nökər,
On altı sinnimdə deyim müxtəsər,
Çox zülüm olubdu mən novcavana.

Üç xırda qardaşım bir qoca anam,
Az qaldım odlara alışıb yanam,
İstədim ki, şirin candan usanam,
Üfüqdən bir günəş doğdu asmana.

On yeddi tarixdə günəş yayıldı,
Zəhmətkeşlər yoxsulluqdan ayıldı,
Fəhlə, kəndli hamı qardaş sayıldı,
Çarı yıxıb qərq etdilər ümmana.

Qabaqda qəhrəman, böyük partiya,
İstinad eylədi yoxsul, ortaya,
Hücum etdi mülkədara, varlıya,
Ölkəmizdən qovdu çöl-biyabana.

On səkkizdə hər təşkilat quruldu,
On doqquzda qan soranlar qırıldı.
İyirmidə qatı qanlar duruldu,
İyirmi birdə gəldik şirin zəbana.

Düz qoyuldu bu qanunun əsası,
Lenin oldu zəhmətkeşlər atası,
Dağıldı kökündün zülmün qalası,
Lenin adı əzbər oldu dəhana.

Lenin verdi məzlumlara bir nicat,
İyirmi iki, iyirmi üçdə xoş həyat,
Bütün ölkələrə eylədi isbat,
Sovet hökuməti mərdi-mərdana.

Günbəgün yüksəldi ilbəilində,
Məktəb açdı hər millətin dilində,
Hamı bir hüquqda sovet elində.
Xalqımız qardaşdı xoş mehribana.

İyirmi yeddidə olundu elan,
İyirmi səkkizdə beşillik plan,
Yaşasın ölkənin qaydına qalan,
Cavab verdi hər tərəfdə düşmana.

Tarix yetişəndə iyirmi doqquza,
O zamandan daxil olduq kolxoza,
Xalqımız çıxıbdı bu gözəl yaza,
Ölkəmiz bənzəyir bir gülüstana.

Sovetlər elidi gözəl büsatlı,
Yüksək sənayeli gözəl həyatlı,
Qadınlar, kişilər olub savadlı,
Elmi kamalımız çatıb loğmana.

Alındı köhnədən qalan qisaslar,
Xainlər dərdləndi, şadlandı dostlar,
Qəhrəmandı Qızıl Ordu, matroslar,
Düşmənin ürəyin döndərdi qana.

Otuz altı, otuz yeddi ildə cəm,
Sinifsiz cəmiyyət qurmuşuq möhkəm,
Bu qırxıncı ildə yoxdu dərdi qəm,
Biz çatmışıq indi əhdi-peymana.

Xalqın şairləri, həm də aşığı,
Məclislər bəzəyi, el yaraşığı,
Biz bilirik bu dünyanın işığı,
Partiyadı şölə salıb hər yana.

Azad sənətimdə, azad elimdə,
Mən gəzirəm bu təriflər dilimdə,
Öz hüququm, ixtiyarım əlimdə,
Ağ ürəyim, ağ günüm var nişana.

Şən həyatdan alıb kamı kolxozçu,
Staxanovçuluq namı kolxozçu,
Varlı olub indi hamı kolxozçu,
Yaşasın deyirik dövran qurana.

Rəhbərimiz – partiyamız yaşasın,
Zəhmətkeşin sorur halın yaşasın,
Çalın sazı, siz əl çalın yaşasın,
Azad hüquq verib şair Bəhmana.

TƏCNİSLƏR

A YARA MƏNİ

Dərdü qəm əlindən cana gəlmişəm,
Sən də incidirsən, a yara, məni.
İşrətli çağında istəkli dosta,
Dar gündə ha dedim ay ara məni.

Bu qəm küdrət mənə çoxdan yaradı,
Ha gəlmir guşimə çoxdan yar adı,
Cəsəd şan-şan oldu çoxdan yaradı,
Bir təbib gərəkdi a yara məni.

Bəhmənə eyləmə sən də naz arı,
Həmişə olubdu səndə nazarı
Namərdə nə yalvar, sən də nə zarı,
Qoymadı yetirəm o yara məni.

BU DAĞLAR

Üç ay yaydan keçib payız olanda,
Zimistanda düşür qara bu dağlar,
Bu bahar çağında nazlı cananın,
Dərdindən geyinib qara bu dağlar.

Sən zəlil eləmə, yaradan məni,
Müxənnətdi dedim yaradan məni,
Öldürəcək bu dərd, yaradan məni,
Görən deyir baxtı qara bu dağlar.

Ovçusan maralı gördün sinədə,
Əcəl gələr çəkər səni sinə də,
Çarlı-çarpaz səndə gördüm sinədə,
Çəkilib Bəhmənə qara bu dağlar.

NÖVRƏS İMAN
(1903–1939)

QOŞMALAR

DAĞLAR!

Zimistan dolanıb bahar çatanda,
Al, yaşıl geyinib bar olan dağlar!
Şaqayıq, nərgizli, gül bənövşəli,
Süsəni, sünbülü var olan dağlar!

Xoş fəslin bahardır, ağır el gəlir,
Açılıb qönçədən lalə, gül gəlir.
Könül qəmgin olma, əhli-dil gəlir,
Sinəsində aşna, yar olan dağlar!

Bəzənirsən dağlar, nə gözəl, göyçək,
Cağırır bir-birin qərənfil, çiçək
Sərində seyr edir topqara birçək,
Bəzənib qumaşa car olan dağlar!

Baharda eylədin əhdinə vəfa,
İman da sinəndə sürdü zövq, səfa,
Zimistan gələndə çəkirsən cəfa,
Üç ay qışı başı qar olan dağlar!

OLMAZ

Hamı xalq olunub bir qətrə sudan,
Hər yetən gədaya xan demək olmaz,
Yatıb, qəflətdədi, qalxmaz yuxudan,
Nalayiq insana can demək olmaz.

Xoş keçinsə ömür, başın tacıdı,
Taleh kəc gətirir, vaxt qıyqacıdı,

Bir tənə söz zəhrimardan acıdı,
Bilməyən nadana qan demək olmaz.

Düz çıxar həmişə mərdin ilqarı,
Müxənnətin olmaz heç etibarı.
Yığar qaynağına şahmardan ağı,
Çəkməsə nizama şan demək olmaz.

Əyri olan bilməz yolu, ərkanı,
Saxlayar könlündə şəri, böhtanı,
Bədəsil tanımaz yaxşı-yamanı,
Namərd süfrəsinə nan demək olmaz.

İman yad ellərdə candan usandı,
Hərcayı sözlərdən hərdəm utandı,
Hər gündə cəsədim bir qətrə yandı.
Ləhzadə alışıb yan demək olmaz.

GÖZƏLDİR

Bir dilbəri bəsləyirdi anası,
Vəsfi düşüb bu cahana gözəldir,
Canana tay olmaz, könül sonası,
Bəzək verib cism-cana, gözəldir.

Savalan qarıdır yarın sinəsi,
Gövhərdir kamalı, ləldir kəlməsi,
Danışır, insana xoş gəlir səsi,
Şəkər əzib dil, dahana, gözəldir.

Gözdən qoymaq olmaz belə sirdaşı.
Nə gözəl çəkilib qaradır qaşı,
Tərlan tamaşalı xubların başı,
Dəyişmərəm ol qılmana, gözəldir.

Mahalda, obada heç tayı yoxdur,
Qəmzələri neştər, kirpiyi oxdur,
Bu dünya üzündə bil, gözəl çoxdur,
Doğruluqda bu bir daha gözəldir.

Xəstələr dərdinə gözəldir şəfa,
Bir kərə gəlmədi mürvət, insafa,
Hər zaman çəkərəm yolunda cəfa,
Cövrü-sitəm bu İmana gözəldir.

ON YEDDİ

Bir ağacda üç budaq var, beş gilə,
Cəm elədim oldu tağı on yeddi.
On yeddi bəndi var, on yeddi camı.
Hərdəm nuş eləyir sağı on yeddi.

On yeddisi elər qumru avazı.
On yeddisi əldə tutubdu sazı,
On yeddisi əlan nəqş elər yazı,
Yazanın işrəti çağı on yeddi.

On yeddisi durub dəsbədəs bütün,
On yeddisi allam istəsəm satın.
On yeddisi ləngər, otuz dörd sütun,
Otuz dörd sütunun tağı on yeddi.

Növəs İman on yeddiyə qul olmuş,
On yeddisi mənlə dilbədil olmuş,
On yeddi dərvişə bir mənzil olmuş,
On yeddi şölə çırağı on yeddi.

GÖZƏL QIZ!

Ağ libasın, tər əndamın, gül üzün,
Xub yaraşır bir-bir üstə, gözəl qız!
Xoş yerişin, xoş gülüşün düz sözün
Ayaq saxla, get ahəstə, gözəl qız!

Əylən bircə, qəmli könlüm şad elə,
Şirin aşna olub verək əl-ələ,
Həsrətin çəkməkdən döndüm bülbülə,
Dəstinə gül götür dəstə, gözəl qız!

Könül ərəb atdır haçan yorular,
Bağrımın başına millər vurular,
Eşq oduna yanar, yanar qovrular,
Növrəs İman kimi xəstə, gözəl qız!

SƏNİ

Dedim könül, nanəcibdən kənar gəz,
Bulunmaz odlara, atacaq səni.
Nanəcibə bel bağlama dünyada,
Düşmən bazarında satacaq səni.

Nanəcib, yaltaqla sən çıxma yola,
Başına gətirər bulunmaz bəla.
Quyruğun kəsməklə qurd olmaz tula,
Nəsildən xaindi tutacaq səni.

Növrəs İman, olmaginən diləfkar,
Qarğa laçın olmaz, yüz etsə şikar.
Müxənnət adama etmə etibar,
Axır dar günündə atacaq səni.

İNDİ

İki dörd fəsildə tifli püstanəm
Altıda yox atam, nə danam[1] indi.
On ikidə yetişmiş bağ-bostanam.
On üçdə yox barım, nə danam[2] indi.

Şam idim əvvəldən, yaraşıq[3] idim
Leyli, Məcnun kimi yar aşiq idim.
Məclislər zinəti, yaraşıq idim,
Vəfasız yanında nadanam[4] idim.

İman eşqin nə az verib, nəzalar[5],
Can dərdə gələndə titrər əzalar,
Dost yad olsa məhəbbətlər azalar.
Qalmaz sel yerində nə danam[6] indi.

SƏNƏM AL

Ay taza şahbazım, ey sərvinazım,
Qulluğuna var ərzim, Sənəm al,
Yolunda sədəqə candır niyazım,
Layıq deyil qurban kəsəm sənə mal.

Götürmüşəm çox sağalmaz yara mən,
Qəm çəkirmi ləblərindən yar əmən,
Layıq olsam qulluğunda yara mən,
Geydirərəm al üstündən sənəm, al.

[1] Nə də anam
[2] Dənə, ədəd
[3] Yara işıq
[4] Nə danım, nə bilim
[5] Nə az alar
[6] Damcı

Növrəs İman, günün oldu nə qara,
Bad əsdi, zimistan oldu nə qara.
Çərxi-gərdiş genə çaldı nə qara,
Ay gün kəmənd atdı qurdu Sənəm al.

GEDƏM

Qafil bir ox atdın, tökdü qanımı,
Qoymadı gəzməyə sağalam gedəm.
Sənin fikrin xəstə saldı canımı,
Ümid var, ellərə sağalam gedəm.

Gətirdin rəngimə sarı, gözəl sən,
Rəhm elə yaramı sarı, gözəl sən.
Mərhəmət eyliyə sarı gözəlsən,
Həsrətəm ölməmiş sağalam gedəm.

İgidlər meydanı, dağı şirindi,
Çəkdirən Fərhada dağı Şirindi,
İman deyər ləbin dağı şirindi,
Hey gözləyir xəstə sağalam gedəm.

TEYMUR BİSAVAD
(1890-?)

GƏRAYLILAR

DAĞLAR

Budu gəldi bahar fəsli,
Qafil yada düşən dağlar.
Üç ay tamam toy-bayramlı,
Doqquz ay pərişan dağlar.

Yar yaylıyar səndə illər,
Sərvi-qamət, incə bellər,
Bulaq üstə xub gözəllər,
Bəsləməkdi peşən, dağlar.

Bisavadın ahı-zarı,
İtirmişəm o dildarı,
Sən də axtar Leyli yarı,
Ver bizə bir nişan dağlar.

ARASINDAN

Ala gözlüm, bir busə ver,
Qaşlarının arasından.
Yaram üstə yara vurdun,
Leyli-Məcnun yarasından.

Bağban bəxti bara yoxdu,
Məntək bəxti qara yoxdu,
Belə dərdə çara yoxdu,
Təbiblərin çarasından.

Bisavadam, sinə dağam,
Nə ölmüşəm, nə də sağam.
Cəmalına çox müştağam,
Köhnə dostluq barasından.

GƏZİR

Oylağında itkin düşən dilbərim,
Ağlaya-ağlaya bu dağı gəzir.
Yandırıb cismimi hicran oduna,
Çəkibdi sinəmə bu dağı gəzir.

Təbistan bəzənib heyva, narınan.
Qışda dağlar işrət bağlar qarınan.
Şeyda bülbül gülü görüb xarınan,
Ahü-nala çəkib bu dağı gəzir.

Əzəldən taleyim yazıldı qara,
Təbiblər dərdimə tapmadı çara,
Bivəfa yar sirrin verib əğyara,
Bisavad içməyə budağı gəzir.

MƏN DƏ

Növrəs İmana

Hər kəsə dost dedim düşmən göründü,
Düşdüm nə qovğaya, nə qalə mən də.
Qəlbimin binasın vurdu, uçurdu,
Nə bürcü qalmadı, nə qalə məndə.

Can qurban eylərəm yaxşı canlara,
Mərifət əhlinə, söz qananlara.
Könül mehribandı, mehribanlara,
Baxmam səyyad gəli nə qalə mən də.

Bisavadam, sədaqətim var sana,
Ayaq yorğun, könül deyir var sana.
Yaxşı dosta yaxşılığım var sana,
Yamanlıq eləsəm nə qalə mən də.

GÖY GÖL

Müştağam adına, aşiqəm sana,
Əhdim var görməyə üzünü, Göygöl.
Şəninə yazmışam neçə kəlmə söz,
Hər yerdə oxuram sözünü, Göygöl.

Düşərsən yadıma sən leylü-nahar,
Könül yad eyləyib çəkər ahü-zar.
Qışın təbistandı, yazın növbahar,
Sayaram behiştdə yazını, Göygöl.

Bürünüb ətrafın şami-şəcərdən.
Boyanıb səcərin gövhəri zərdən,
Şair-şüəranı salma nəzərdən,
Qoy çalsın qonçada sazını, Göygöl.

Cahi-calalını görən şad olar,
Qırqovul məkanlı oylaqların var,
Cığalı sonalar cumub çalxanar.
Kim çəkər dünyada nazını, Göygöl?

Sən ki xəlq olubsun əzəl binadan,
Zəlalət çəkərmi suyundan dadan?
Şair Bisavad da getsə dünyadan,
Kim çəkər dünyada nazını, Göygöl?

VAR

Bir tələbə şeş oxudu, beş yazdı,
Nə qələmin gördüm, nə dəftəri var.
Mənası lətifdir müəyyən olmaz,
Könlü qüssəlidir, diləzbəri var.

Bir haramı gördüm üstümü kəsdi,
Canı yox, qanı yox, quru qəfəsdi,
Nə qolu var, nə qılçası, nə dəsti,
Bir bədəndi, ayağında səri var.

Hüsnü qəzəbkardı düşmüş qəmərdən,
Nə qanmaz, anlamaz xeyirdən, şərdən,
Ülfəti fanidir düşər nəzərdən,
Ab içində yanan səməndəri var.

Müntəzirdir qanadını açmağa,
Nalə çəkər hər səhər toqqaşmağa.
Pərvazlanır asimana uçmağa,
Nə cəfası, nə də bali-pəri var.

Alimsənsə elm dildə nədandı,
Dahanında nə danışdı nə dandı,
Bisavadla bəhs eyləyən nadandı,
Bunu bilən şəxsin zor hünəri var.

A DOSTUM

Cəmalın həsrətin çəkməkdən billah,
Alışdım, tutuşdum, yandım, a dostum.
Yadıma düşəndə şirin sözlərin,
Kərəm təki alovlandım, a dostum,

Nə dəliyəm, nə sərsəri divana,
Bir təbib istərəm dərdimi qana,
Giriftaram keçən əhdi-peymana,
Unudulmaz elə sandım, a dostum.

Leyli-Məcnun kimi baxtı kəm mənəm,
Səməndərəm hey yanıram, sönmənəm,
Sən deyirdin yüz il keçsə dönmənəm.
Mübtəlayam mən inandım, a dostum.

Yar olub əğyarla yatdığın günü,
Bu dərdli Məcnunu atdığın günü,
Seyrağıba məni satdığın günü,
Bisavadam özüm qandım, a dostum.

AŞIQ NƏCƏF ƏLİMƏRDANLI
(1899-1946)

GƏRAYLILAR

OLMAZMI?

Gözləri can alan gözəl,
Gözəldə ilqar olmazmı?
Sənin dərdin bağrım əzər,
İşim ahü-zar olmazmı?

Əylən görüm, mələkzadə,
Ver əlindən mənə badə,
Məni qoyub getsən yadə,
Gülə həmdəm xar olmazmı?

Olmaz sənin kimi pəri,
Mənəm gözünə müştəri.
Nəcəf deyər, müxtəsəri,
Səndən mənə yar olmazmı?

OYANMAZ

Qaşı cəllad, gözü yağı
Yatıb oyanmaz, oyanmaz.
Qəm hicranı yenə mənə,
Satıb oyanmaz, oyanmaz.

Alım yarın qadasından,
Bəlkə içəm badasından.
Şirin söhbət vədəsindən,
Ötüb oyanmaz, oyanmaz.

Şirmayı düzüb sazına,
Bülbül gəlir avazına,
Yusif kimi murazına,
Çatıb oyanmaz, oyanmaz.

Götürüb hicran daşını,
Qovğaya saldım başımı,
Nazlı yar, qəflət quşunu
Tutub oyanmaz, oyanmaz.

Nəcəf kəsməz həvəsini,
Tərlan gəzər yuvasını,
Ağ üzündən cunasını.
Atıb oyanmaz, oyanmaz.

AYRILDI

Günəş vurdu, xal-xal oldu,
Dağlar qarından ayrıldı,
Dünyada mənəm deyənlər,
Gözəl yarından ayrıldı.

Dağa külüngünü çəkdi,
Dağıtdı qayalar tökdü,
Dost bağında güllər əkdi,
Fərhad Şirindən ayrıldı.

Məcnun gördü ağasını,
İçdi eşqin badasını.
Çəkdi Leyli cəfasını,
O, intizardan ayrıldı.

Gəl Nəcəfin din-imanı,
Sənə qurban şirin canı,
Uçurdu tülək tərlanı,
Öz dilbərindən ayrıldı.

CEYRAN

Bəzənib keçmə qarşımdan,
Kirpikləri qara Ceyran.
Ox atma qələm qaşından,
Vurma mənə yara, Ceyran.

Sən ki, bağda qızılgülsən,
Xoş ixtilat, əhli-dilsən,
Oxuyan şeyda bülbülsən,
Niyə uydun xara, Ceyran.

Təklif etdim, gəlmir dinə,
Sığındım pirlər pirinə,
Nəcəfin pozğun dərdinə,
Özün eylə çara, Ceyran.

YAR GƏLMİR

Dost bağında güllər açdı,
Qönçə xar oldu, yar gəlmir.
Gəldi neçə fəsil keçdi,
Dağlar qar oldu, yar gəlmir.

Mindim bədöy, yordum köhlən,
Sonam, sən sürbədən təklən,
Sinəmdən yol salıb qəflən,
Toz, qubar oldu, yar gəlmir.

Pirlər piri yetiş dada,
Dəstindən içmişəm bada,
Nəcəf yardan düşüb cida,
Günü zar oldu, yar gəlmir.

QOŞMALAR

ZÜLFÜN

Gözəl, səndə bir nişana görmüşəm,
Qüdrətdən götürüb qaranı zülfün.
Mən özüm ki eşqin divanəsiyəm,
İmandan çıxarır görəni zülfün.

Gördüm camalını, gəldim həvəsə,
Ucundan abdalam əlimdə əsa.
İncilə İsadır, Tövrətə Musa,
Əzbərdən öyrənib Quranı zülfün.

Nə durmusan sən Nəcəfin qəsdinə,
Bihuş olsa kim yapışar dəstinə.
Hərdən-hərdən mən fəqirin üstünə,
Havadan yağdırır boranı zülfün.

QADASIN ALDIĞIM

Kənar gəzmə, yar, otağa qədəm bas.
Asta-asta gəl qadasın aldığım.
İnsaf eylə, məhəbbəti unutma,
Kəsmə bizdən yol, qadasın aldığım.

Saqi ol məclisdə gəl payla şərbət,
Nazı-qəmzə satma, zalım, bimürvət.
Bircə saat mənlə eyləyib söhbət.
Xumar gözlə gül, qadasın aldığım.

Axtarıb Nəcəfi eyləsən soraq,
Ələ düşməz azad dövran, bu növraq.
Sönməz nurdan gələn belə bir çıraq,
Tarix boyu bil, qadasın aldığım.

DURNALAR

Nahaq qan tökülür, yerə enməyin,
Görünür gəlirsiz, təzə, durnalar
Otunu otlayıb, suyun içməyin,
Görünməyin burda gözə, durnalar!

Sizə bir yer deyim misalı Bağdad,
Nə dağlar yaradıb sahibi qüdrət.
Bir kimsə sizlərə etməz xəyanət.
Karvan çəkin o Qafqaza, durnalar!

Qurulub bu yerdə səyyadın toru,
Düzəlməz, ordumuz çalınca suru,
Bakıda alışır həqiqət nuru,
Mətləb verir hər muraza, durnalar!

O doğma yurdlara bir qanad çalın,
Dediyim yerlərdən mətləbi alın.
Nəcəfin naməsi Tovuza salın,
Can qurban eylərəm sizə, durnalar!

DEYİRLƏR

Arif olan bir gülşənin bağbanı,
Həsrət qalıb baxça-bara deyirlər.
Bülbül yad olubdu qızılgülünən,
Qismət olub qönçə xara deyirlər.

Usta çəkib bu tədbirli planı,
Tora salıb ovsun almaz ilanı.
Ceyranın yerinə dovşan alanı,
Bağlanıbdı bəxti qara deyirlər.

Nəcəf deyər yaxşı olsa yamanlar,
Abı çəkər, ehsan tökər dualar.
Bir gözəl ucundan neçə cavanlar,
Bənd salıbdı namus-ara deyirlər.

GƏLHAGƏLİDİ

Ağır ellər yayda yola düzüldü,
Bivəfa dağların gəlhagəlidi.
Karvan getdi, əlim yardan üzüldü.
Ömür peymanımın dolhadoludu.

Yaraşır söz demək yaşılbaşlara,
Sürməni düz çəkən hilal qaşlara.
Xəyal çaşıb, rübənd salmır döşlərə,
Deyən ağ məmənin dolhadoludu.

Nəcəf, hər qayğıya yandırma canı,
Həqiqət dərk eylə, həddini tanı.
Sevgi sevgisindən alar nişanı,
Əbruşun tellərin çalhaçalıdı.

EYLƏ

Boylana-boylana gedən maralım,
Qayıt səyyadına bir nəzər eylə.
Nə müddətdi intizarın çəkirəm,
Bu məlul könlümü murquzar eylə.

Mailəm hüsnünə, müştağam boya,
Səni görcək sərim düşdü sevdaya.
Aşığam, bu elə gəlmişəm toya,
Buyur məclisimə, xoş güzar eylə.

Mən oxuyum, sən qulaq as sözümə,
Eşqili çağıma, xoş avazıma.
Şövq sal məclisimə, oyna sazıma,
Sübhəcən məclisi laləzar eylə.

Divanə eylədin neçə cavanı,
Gözəllər sərrafı Nəcəfi tanı.
Ox atdın, sinəmin töküldü qanı,
Nahaq qan tökməkdən bir həzar eylə.

YANAĞINDADI

Zilləti didarım, divanə canım,
Bir ala gözlünün sorağındadı.
Əziz bəslədiyim dinim, imanım,
O çeşmi-məstanın bulağındadı.

Can demə nadana, de əhli-dilə,
Bulbülsən aşiq ol bağçada gülə.
İndi səyyad olub tor atır gələ,
Gördüm bir dəryanın qırağındadı.

Nəcəf dosta dərər tər bənövşəni,
Eldə xoşlamazlar çox danışanı,
Ayın maşallası, günün nişanı,
Sevdiyim dilbərin yanağındadı.

TƏZƏ-TƏZƏ

Həkim, bu dərdimin dərmanını yaz,
Qızılgülə qonub xar təzə-təzə.
Bir bimürvət məni aşiq eyləyib,
Qəm, hicran qəlbimdə var təzə-təzə.

Şam ki şölə çəkər sübhün çağına,
Pərvanə dolanar solu-sağına.
Cəmalın şövq saldı könlüm bağına,
Elə bildim yağıb qar təzə-təzə.

Zülfün zənbur kimi eyləyib karvan,
Nəcəf deyər sənsən hüriyi-qılman.
Həkimə dərmandı, xəstəyə məlhəm,
Baş verib qoynunda nar təzə-təzə.

GÖRÜNÜR

Demədimmi ay bimürvət, incimə?
Dostlar arasında yollar görünür.
Mirvari dişlərin, qaymaq dodağın.
Dahanında şirin ballar görünür.

Sevginin sevgiyə olar həvəsi,
Bülbül ötər bağda, sevməz qəfəsi,
Quba qaz sürbəsi, yaşılbaş dəsi,
Sonalar seyr edən göllər görünür.

Min naz, qəmzə ilə keçdin qarşımdan,
Onda qalxdı Kərəm eşqi başımdan,
İki şeşpər baş veribdi döşündən,
Bağrımın başına millər görünür.

Ovçu kamandarı olmaz hər nadan,
Sardan tərlan olmaz, söyüddən badam.
Qarşımda hərlənmə ay nazik bədən,
Zənəxdanda qoşa xallar görünür.

Nəcəfəm, dərdini istərəm biləm,
Bir pünhan otaqda danışam, güləm,
Bağında oxuyan şeyda bülbüləm,
Yanağında qızılgüllər görünür.

ÜZDƏN-ÜZDƏN

Seyraqıblar görsə salar kəməndə,
Salam ver, keçgilən ay üzdən-üzdən.
Desən zülfün zəmi, orağı səndə,
Dilbərim biçgilən ay üzdən-üzdən.

Halal oğul haram etməz mayanı,
Süfrə açar dost yolunda dayanı,
Sidqü-sədaqətdən dostdan deyəni,
Görən tək seçgilən ay üzdən-üzdən.

Sənə bir ərzim var mələklər tayı,
Ləblərin şərabı Səlsəbil[1] çayı,
Nəcəfdən bürümə haqq verən payı,
Niqabın açgilən ay üzdən-üzdən.

GÖZƏLLƏR

Qəlbim dönüb ixtiyardan, cavandan,
Gətiribdir məni cana gözəllər.
Bacü-xərac alır külli mahaldan
Baş əymir sultana, xana gözəllər.

[1] Səlsəbil – əfsanəvi çay.

Əziz gündür seyrə çıxıb gözəllər.
Bənövşə dərərlər, nərgiz üzərlər,
Buxaqlar altına güllər düzərlər,
Qənd əzərlər dil-dahana gözəllər.

Aşiq bərat alar haqqın özündən,
Qaynayar, dəm çəkər eşqin gözündən,
İnciməyin siz Nəcəfin sözündən,
Yetişməyib hələ kana, gözəllər.

ÇƏKMƏYƏ

Bimürvət, biinsaf, ay zalım qazı,
Durubsan qəlbimə yara çəkməyə.
Könlümə dəyməsin, dost, qadan alım,
Versən tellərindən tara çəkməyə.

Piyadayam, mənzilimə çatmaram,
Dərd əlindən gecə-gündüz yatmaram,
Hökm edib istərlər mən ha getmərəm,
Gözəllər aparır dara çəkməyə.

Nəcəf deyər, sonam, sallan, dur yeri,
Gördüm cəmalını, oldum sərsəri.
Ərşdən qılman gəlir, behiştdən pəri,
Qələmlə qaşına qara çəkməyə.

TƏCNİS

AY GÖZƏL, GÖZƏL

Yer var ki, yol düşüb karvan işləməz,
Dost dərməz güllərin, ay gözəl, gözəl!
Meylim səndən qeyri yarı xoşlamaz,
Sevmişəm xalların ay gözəl, gözəl!

Seyrağıbın əli yardan boş qala,
Divansız ev görməmişəm boş qala,
İnsafdımı sən uçasan, boş qala,
Sonalı göllərin, ay gözəl, gözəl.

Nəcəf deyər, gözüm ay rovşan olsun,
Gün doğsun aləmə ay rovşan olsun.
Sən bizə gələndə ay rovşan olsun,
O sadə yolların ay gözəl, gözəl!

DİVANİ

ÜSTƏDİR

Görürsənmi o dağları, getməz duman üstədir,
Ovçu gəzər şikarını, oxu kaman üstədir.
Namərdə yalvarınca, düş mərdin ayağına,
Can deyib xoş danışmaq şirin zəban üstədir!

Bir bülbülün qafil taza gülü düşdü yadına,
Sığındı, bel bağladı qabil nəccar ustadına,
Şahım gördü, pozğun baxır şahin öz qanadına,
Dedi: quşum kərəm eylə dərya ümman üstədir!

Gəl biçarə yazıq Nəcəf, fəhm et alim həyatına,
Mərəkədə düşürərlər, minmə, özgə atına,
Ustadına kəc baxanın lənət gəlsin zatına,
Müxtəsəri bu sözlərim yaxşı, yaman üstədir!

AĞRIN ALIM

Bax bəri, asta yeri, adı Gilə, ağrın alım!
Şəhla gözün, qəmər üzün bənzər gülə, ağrın alım!
Gümüş əzdir, düymə düzdür, incə belə, ağrın alım!
Ay sona, qəddi mina, qopsan gölə, ağrın alım!
Səhər təzə, gəlsin bizə, gülə-gülə, ağrın alım!

Gözəl məkan, üç pilləkən, dilbərin xanəsidi bu.
Ağca maya, bənzər aya, gözəllərin xasıdı bu.
Süzüb gəlir, bağrım dəlir, suların sonasıdır bu.
Öndə kitab, eylər hesab, aşıqlar ustasıdı bu.
Məndən küsmə, qulaq asma, qilü-qala, ağrın alım!

Nitq oxuyur, şal toxuyur, əlində peşəsinə bax.
Vaxt ötürüb, ləkə tutub, könlümün şişəsinə bax.
Yar gəlsin, dərən olsun, bağın bənövşəsinə bax.
Kim əmə, turunc məmə, sədr üstə qoşasına bax.
Ay göyçək, bir sığal çək, siyah telə, ağrın alım!

Yox çaram, çoxdur yaram, salasan dərmana məni.
Dili şəkər, ollam nökər, yetirsən karvana məni.
Eyləmə səs, əlinlə kəs, hüsnünə qurban məni.
Yetir kama, yanan şama sal, qəddi-dala, ağrın alım!

Qız özün, yox əvəzin gəlibsən cahana gözəl.
Bimürvət, şirin şərbət, tökübsən dahana gözəl.
Mən gələndə sizin kəndə, eylərsən bəhanə, gözəl.
Səni deyib, Nəcəf sevib, tök tellərin yana gözəl.
Gedək qoşa, gəl həmişə, bizim elə, ağrın alım!

GÖZƏL

Səni görən kimsənə tez gələr imana, gözəl.
Qamətin, boy-büsatın, bənzəyir qılmana, gözəl.
Neçə canlar, novcavanlar, salıbsan gümana, gözəl.
Ey mələk, qəsdin bilək, xoş gəlibsən sana gözəl.
Qalaram, qul olaram, sən qaşı kamana, gözəl.

Bu gələn qah-qah gülən, telləri xınalıdımı?
Xub təzə, çəkib üzə, ağ kətan cunalıdımı?
Şirin dilli, incə belli, yaxası düyməlidimi?
Bu həvəsli, kəklik səsli, qızıldan tanalıdımı?
Şimşad boyun, yoxdu tayın, tək gəldin cahana gözəl.

Bu baxışlı, qələm qaşlı bənzər göllər sonasına.
Əyləşib, xoş yaraşıb, nə əcaib binasına.
Çəkib zəhmət, yüzi rəhmət, bu tərlanın anasına.
Bu yerdə, salıb dərdə aləm gəlib havasına.
Yox çara bədnəzərə, ox dəysin yamana, gözəl.

Deməm yalan, ağlı olan, yaxşı sevsin yarı taza.
Ay pərim, qoy bir görüm, dost qoynunda narı taza.
Baş-başa, dərək qoşa, bağçamızdan barı taza.
Mən sayıl, oldum mayıl, istəmirəm varı taza.
Ay nazım, qurban gözüm, sən kimi ceyrana, gözəl.

Səni alan, yarın olan, düzdürə eyvan otağı,
Əziz tuta, qiyamata, pozulmaya bu növrağı.
Bu lala, düzüb dala, yeddidir zülfünün tağı.
Sərcəş gəzir, Nəcəf yazır, çarhovuzu, gülşən bağı.
Gör təzə, yenib bizə, bu gün, bu zamana gözəl.

AŞIQ ƏMRAH GÜLMƏMMƏDOV
(1914-1987

GƏRAYLILAR

BU DAĞLARDA

Səyyad olan şikar gəzər,
Bu dağlarda, bu dağlarda.
Şair olan şeir yazar,
Bu dağlarda, bu dağlarda.

Yazda yaylağa köçəsən,
Yurdun xasından seçəsən.
Sərin sulardan içəsən.
Bu dağlarda, bu dağlarda.

Aşıq Əmrah, sözün məzə,
Yarınla əyləş diz-dizə.
Başlayasan saza-sözə,
Bu dağlarda, bu dağlarda.

DAĞLAR

Arzulayıb gəldim sənə,
Nə töhvən var bizə, dağlar.
Heyif gəldim yar-yoldaşsız,
Dərdim oldu təzə, dağlar.

Şair, aşıq qonaq qalıb,
Şeir deyib, saz da çalıb.
Duman-çənnən ilham alıb,
Başlayıblar sözə, dağlar.

Yazda-yayda var yığnağın,
Bu aylar kəsilməz qonağın.
Qara xatın, Quzqulağın,
Dahanda məzə, dağlar.

Qayaların qatar-qatar,
Başın buludlara çatar.
Ümid var ki, ömrü artar,
Əmrah səndə gəzə, dağlar.

GƏTİRİR

Yekdən yekə cavab vermək,
Hər ustada zor gətirir.
Çox axtardım laçın tutam,
Baxdım mənə sar gətirir.

Meydan günü qızmış nərəm,
Öz işimdə pürhünərəm.
Çətin sözümdən dönərəm.
Sözdən dönmək ar gətirir.

Gəl biçarə aşıq Əmrah,
Axtar ki, tapasan həmrah.
Bir mövlaya gətir pənah,
Dərgahından var gətirir.

QOŞMALAR

GÖRƏNDƏ

Könül aşiqindən min ilham alır,
Yol kənarı gözəl yarı görəndə.
Rəhmsiz, əcəlsiz alır canımı.
Ala gözlü şux dildarı görəndə.

Gəlsə göz önünə o mehribanım,
İtər əqli-huşum, gedər imanım.
Dərd qanan gözələ qurbandı canım,
Düz peymanı, düz ilqarı görəndə.

Yar yarın həsrətin hər zaman çəkər,
Dərdlinin dərdini dərd qanan çəkər,
Əmrah canın verər, nə aman çəkər,
Yaxşı dostu, havadarı görəndə.

BİLMƏZSƏN

Aşıqlıq deyilən böyük sənətdir,
Qıfılbənd deyillər yoza bilməzsən.
Məclisdə əyləşir neçə xiridar,
Üçcə kəlmə sözü düzə bilməzsən.

Ta ustad olmamış çıxma obaya,
Naşısan çox düçar olma qovğaya.
Kamil ustad səni atar dəryaya,
Qəvvaz olub orda üzə bilməzsən.

Gəl Əmraha qulluq eylə, dərsin al,
"Cəfa çəkən səfa sürər" var misal,
Yaxşı öyrən, yaxşı oxu, yaxşı çal,
Saz götürüb əldə gəzə bilməzsən.

KƏSİLDİ

Ömrün bağçasında bir bağ bəslədim,
Gül açanda onun tağı kəsildi.
Düşmən iblis oldu, dost qiybətpərəst,
Biçarə canıma yağı kəsildi.

Mərd olanlar heç danışmaz pünhanı,
Özünə ar bilər həcvi-həyanı,
Məclislər başında dostlarım hanı,
Şən ömrümün bu növrağı kəsildi.

Əmrah aşıq olub obalar gəzdi,
Neçə yağıların bağrını əzdi.
Dostun həsrətinə illərlə dözdü,
Qapımızdan dost ayağı kəsildi.

GƏL GÖRÜM

Yoldaşımsan, əlli ildi, telli sazım, gəl görüm,
Məclis qurduq, dövran sürdük, çəkdin nazım, gəl görüm,
Günüm keçir, vədə yetir, səndən aralanıram,
El içində bu dərdlərə necə dözüm, gəl görüm,

Cavan vaxtı bir an olsa səni əldən qoymadım,
Zil bəminlə sinəm üstə avazından doymadım.
Ariflərə can deyərdim, anlamazı saymadım,
Səndə gəzdi barmaqlarım düzüm-düzüm, gəl görüm.

Çoxlar sənə qiymət verdi, səndən aldı ilhamı,
Şirin sözün, xoş avazım oldu ağızlar tamı.
Tanıtdın aşıq Əmraha qohum, dostu, el hamı,
Ömrü boyu sənə baxdı iki gözüm, gəl görüm.

OLMASA

Bəni-insan tanınarmı dillərdə car olmasa?!
Dost dostuna inam etməz, düz etibar olmasa.
Ömrü şad-xürrəm keçirən, dövranını xoş sürən,
Qocalığı yaxın qoymaz, bir ahü-zar olmasa.

Bir uğura çıxar olsan, haqqı dildə car elə,
Doğru yolu soruşsalar, ədəblə doğru söylə.
İnşallah ki, çətin işin düzələr, qalmaz belə,
Məclisinə çağrılmamış mərdiməzar olmasa.

Aşıq Əmrah, fikir edib nə qəmə bat, nə dərdə,
Bacaranda şirin dolan, nə irəli, nə gerdə.
Mal-dövlət əl kiridir, canı qurban ver mərdə,
Hər təpədən dağ olarmı, başında qar olmasa?

BU SAZDI

Abad məclis arasında dövran quran bu sazdı,
Arif kəslər qiymət verən, başda duran bu sazdı,
Anlamaza söz verməyən, qanana nökər olan,
Yaxşı gündə dost elinə gündə varan bu sazdı.

Nadanlara qalsa əgər bu sənət sənət deyil,
Avazını dadmayanın heç yeri cənnət deyil.
Abadlığı çox sevəndi, həm də müxənnət deyil,
Öz elminə sadiq olan, uzaq görən bu sazdı.

İmran dilli telli sazım cəm edib on bir simi,
Harda ondan söhbət düşsə dostum çəkər bəsimi.
Əlli ildir sinəm üstə şən edən məclisimi,
Aşıq Əmrahın əlində xallar vuran bu sazdı.

MƏNDƏDİ

Sadiq olduğum sənətə əhdi-vəfa məndədi,
Telli saza mehman ol gəl, zövqi-səfa məndədi.
Qananlara canım qurban, nadanlarla işim yox,
Sərraf olsa söz sataram, hər söz baha məndədi.

İdrakım var, kamalım var, dost qardaşı seçərəm,
Namərdlərə boyun əyməm, mərdnən zəhər içərəm.
Yolunda sərim niyazdı, bu canımdan keçərəm,
Yaranandan cəfakeşəm, hər cür cəfa məndədi.

Aşıq Əmrah, qürrələnmə, bu dünyadan köçmək var,
Zalım əzrayıl əlindən əcəl camı içmək var.
Tükdən nazik ol isratın körpüsündən keçmək var,
Bax, bunları dərk eliyən kəskin zəka məndədi.

AŞIQ HÜSEYN CAVAN
(1916-1981)

BAYATILAR

Aşığam, elçi məni,
Gözəldir elçi məni.
Öz sevdiyim bir qıza
Göndərin elçi məni.

Burdan dörd bacı keçdi,
Baxdı qıyqacı keçdi.
Ömrüm bəhərsiz oldu,
Günlərim acı keçdi.

Torpaqda ac olmaya,
İnsandan bac almaya.
Elə dünya yarana,
İnsanlar qocalmaya.

Şana saçda olaydım,
Sürmə qaşda olaydım.
Sinnim geri dönəydi,
On beş yaşda olaydım.

Mən aşiqəm, ay xumar,
Gecə sərxoş, ay xumar.
Sevgilim cavab verməz,
A yatır xumar-xumar.

Aşıq, nə gözəl yazdı,
Mirzələr gözəl yazdı,
Qumru kimi danışan
Sinəndə telli sazdı.

Aşıq Gərməduzludu
Sözü şirin duzludu.
Məclisi göylər kimi
Ülkərli, ulduzludu.

Mən aşiqəm, dərindi,
Gülü bağdan dər indi,
Bələdçi kor taleyim,
Düşdüm, quyu dərindi.

Xəbər verin Gülxara,
Geyinməsin gül-xara.
Aşiqi nakam getdi,
Qismət oldu gül xara.

Aşıq, adın şirindi,
Fərhad dostu Şirindi.
Dostdan dosta gələn pay
Beçə, baldan şirindi.

GƏRAYLILAR

YAR NECOLDU?

Bulaq, səndən xəbər alım,
Söylə görüm, yar necoldu?
Günəş üzlü, ay camallı,
Qəddi qələmkar necoldu?

İtirmişəm bir maralım,
Kəsilib səbri-qərarım.
Səndən bir söz xəbər alım,
Söylə biilqar necoldu?

Aramızda sən ol, həkəm,
Atasız, qardaşsız, təkəm.
İtkin gedən o baxtıkəm,
Ağ sinəsi qar, necoldu?

Eşidin, Aşıq Cavanam,
Nə atam var, nə də anam...
Vətəndən odur nişanam,
Bilməm o yar necoldu?

VAR OLSUN ELLƏRİN SƏNİN

Tökülübdür ağ buxağa
Xurmayı tellərin sənin.
Yaraşır qaymaq dodağa,
Şirindir dillərin sənin.

Düşməsin elləri dərdə,
Qəm qalmasın könüllərdə,
Gəzir dilsiz pərdələrdə,
Sənətkar əllərin sənin.

Hüseyn oxur zildə, bəmdə,
Qalmasın könüllər qəmdə,
El sözləri var sinəmdə,
Var olsun ellərin sənin.

AĞRIN ALIM!

Ay qabaqlı, hilal qaşlı,
Qumral gözlü, ağrın alım!
Ceyran kimi şux baxışlı,
İşvə-nazlı, ağrın alım!

Gözəl keçən illər kimi,
Rəngi solmaz güllər kimi,
Oxuyan bülbüllər kimi,
Xoş avazlı, ağrın alım!

Ey şərəfli, namuslu qız,
Ürəyi pak, qəlbi təmiz,
Min çiçəyin birini üz,
Solmaz yazlı, ağrın alım!

Nə vara, şöhrətə alçal,
Sevgilinlə qoşa qocal!
Öz yarına min nəğmə çal,
Telli sazlı, ağrın alım!

Cavan Hüseyn edir dilək.
Sizsiz həyat nəyə gərək.
Səni görən təmiz ürək,
Coşub yazdı, ağrın alım!

EYLƏR

Cığalı gəraylı

Məhəbbət sarayı uçsa,
Qəlb alışar, dil vay eylər.
Könül pərvazlanıb uçsa,
Gəzər yarını,
Vəfadarını,
Öz dildarını,
Tapammasa, dil vay eylər.

Aşıq yarını görməsə.
Siyah saçların hörməsə,
Açılan gülün dərməsə,
Gül tökülər,
Əğyar gülər,
Bel bükülər,
Cığa ağlar, tel vay eylər.

Ovçu itirsə maralı,
Kəsilər səbri-qərarı.
Dağdan-daşdan xəbər alı,
Ürəyi yanar,
Yarını anar,
Dərdli qanar,
Çəmən sızlar, çöl vay eylər.

Məhəbbətin tamı balsa,
Aşığın ağrını alsa,
Yar yarına həsrət qalsa,

Saz da ağlar,
Söz də ağlar,
Göz də ağlar,
Gözdən axan sel vay eylər.

Hicran yaşı dərin gəlsə,
Məhəbbəti iki bölsə.
Cavan Hüseyn nakam ölsə,
Çaylar çağlar,
Dost soraqlar,
Yarı ağlar,
Heyif, deyib el vay eylər.

DE, DAĞLARIN BU ÇAĞINDAN

Aşıq, götür telli sazı,
De, dağların bu çağından.
Eşidilsin xoş avazın
Xaçbulağın yaylağından.

Bax, qartallı qayalara.
Bəzəkdir ulu dağlara,
Göz vururlar buludlara
Yurdumun hər bucağından.

Təbiətin budur halı,
Güneylərə sərib xalı,
Boz təpələr örtüb şalı,
Doymaq olmur növrağından.

Kəmərqaya, Eynallıdüz,
Durubdur sənlə üzbəüz,
Sızıldaşan zənburu süz,
Bal süzülür “caynağından”.

Yaxlıçuxur, Gilli bulaq...
Kəpəzə çıx, Göygölə bax,
Gəzmək ilə olmaz doymaq,
Azərbaycan torpağından.

Sarıyaldan gəl Qoşqara,
Hörmət eylər sənətkara.
Gözlə, düşmə boran-qara,
Çıx dağların sınağından.

Cavan Hüseyn, avazın xoş,
Zildən oxu, ürəkdən coş.
Şeir də yaz, nəğmə də qoş,
Dürr süzülsün dodağından.

DAĞLAR

Nə gözəlsən, səfalısan,
Solmasın gülzarın, dağlar!
Yaxşı dost tək vəfalısan,
Pozulmaz ilqarın, dağlar!

Yaz olanda qarın ərir,
Köksün gülzara döndərir.
Xəstələrə şəfa verir,
Sərin buzun, qarın, dağlar!

Şəlaləli qoca Tərtər,
Xaçın çayı, dəli Qarqar,
Cəbinindən[1] axan tərlər,
Coşdurur çayların, dağlar!

Qoşqar, Kəpəz, Murtuz, Murov...
Qaşlarından getmir qrov,
Dəli dağdan qalxanda ov,
İzlər ovçuların, dağlar!

Öyrənmişəm Ələsgərdən,
Yazıram sinədəftərdən,
Cavan Hüseyn hərdən-hərdən,
Yazır öz əşarın, dağlar!

[1] Alnından

MƏHƏBBƏT

Bülbülün qəlbindən silinib getməz,
Gülşən məhəbbəti, gül məhəbbəti.
Aşığın heç zaman düşməz dilindən,
Vətən məhəbbəti, el məhəbbəti!

Vurğunuyam sakit axan suların,
Azad diləklərin, saf duyğuların,
Dostlar qəlbindəki eşqin, ilqarın,
Getməz ürəyindən bil, məhəbbəti!

Mən özüm Fərhadam, vətənim Şirin,
Qoynumda bəslədim mən şirin-şirin.
Qənddən də şirindir, baldan da şirin,
Ana məhəbbəti, dil məhəbbəti!

Könül ağlasa da, yada baş əyməz,
Yad verən atlası, xaranı geyməz,
Məhəbbət aşiqi heç zaman deməz,
Hüseyn, ürəyindən sil məhəbbəti!

OĞUL

Gəl atanın sözlərinə qulaq as,
Yetir əsrlərə sən diqqət, oğul,
Unutma ki, biz qonağıq dünyada,
Ömrümüzdən gedir hər saat, oğul.

Qiymətli vaxtların getməsin boşa,
Kamil sənətkar ol, həmişə yaşa,
Namusla ömrünü verginən başa,
El sənə bəsləsin məhəbbət, oğul.

Sən ya bir alim ol, ya bir sənətkar,
Öyün sənətinlə eylə iftixar.
Yazıb-yaratdığın qalsın yadigar,
Yaşadar insanı, iş, sənət oğul.

Xalqın sevsin səni öz oğlu kimi,
Öz ürəyi kimi, öz ağlı kimi,
İgid Babək kimi, Koroğlu kimi,
Olsun ürəyində mətanət, oğul.

Dağılmasın fikrin, çaşmasın huşun,
Bir işi başlasan əzəldən düşün,
Məzəmmət etməsin səni tay-tuşun,
Olsa dost yanında xəcalat, oğul.

Aşıq Hüseyn deyər, gələcək sabah,
Sabahın nəbzini tut, ol bir cərrah,
Bilməzə yol göstər, olginən həmrah,
Saxla bu sözümü əmanət, oğul.

DÜNYADA

Çırpınma ürəyim, döyünmə qəlbim,
Kiçilmə düşmənə, əyilmə yada!
Odlar ölkəsinin ucalıb başı,
Deyilir şöhrəti bütün dünyada.

Ah çəkmə, qəm yemə, çox baxma yola,
Ağlama, sızlama, eyləmə nala.
Çox çəkməz yetərsən yenə vüsala,
Dərdin artıb olmaz həddən ziyada.

Parçalanma ürək, yaralanma sən,
Təzə bütövləndin, parçalanma sən,
Vəfalı dostundan aralanma sən,
Dolan arxasınca, dolan piyada!

Çətindir ölümdən yaman ayrılıq,
Eylədi qəddimi kaman ayrılıq,
Sıxsa da Hüseyni zaman, ayrılıq,
Dostundan əl çəkməz, dönməz nəbada!

VAR

Aydınlıqdan qaçan, kölgədə itən,
Qaranlıqdan kolda yatanlar da var.
Məqsədsiz yaşayıb, əyri yol tutan,
Ümmana daş-torpaq atanlar da var.

Düz getməyən həqiqətin yoluyla
İşləməyən öz yurdunda eliylə.
Vicdanını, namusunu əliylə
Özü tək nadana satanlar da var.

Bilmir ismətini, bilmir arını,
Salır ayaq altda öz vüqarını,
Verib özgələrə ixtiyarını,
Özgə ətəyindən tutanlar da var.

Lal xoruz tək vədəsində banlamır
Pis işində öz-özünü danlamır,
İndiyədək anlamayıb anlamır,
Boş danışıb, ara qatanlar da var.

Ətirli gülləri üzmək istəyən
Üzüb yaxasına düzmək istəyən,
Qəvvaslıq bilməyən, üzmək istəyən,
Hüseyn, ümmanlarda batanlar da var.

YAR ÜZMƏ, ÜZMƏ

Qoşa yarpaq

Oldum dilşikəstə, ey boyu bəstə,
Əlim ətəyində, yar, üzmə, üzmə.
Nədir sinən üstə, ləbləri püstə,
Mürvət et canımı, yar üzmə, üzmə.

Dərmansız bimaram, yar, intizaram,
Könül tutmur aram, səndədir çaram.
Mən də günahkaram, nə qədər varam,
Qoy baxsın gözlərin, yar üzmə, üzmə.

Mənalar mənası, gözəllər xası,
Min dərdin dəvası, könül bənnası,
Hüseyndir, qadası, var təmənnası,
Eşqin dəryasında, yar üzmə, üzmə.

ÇİÇƏKDƏN DƏ GÖZƏLSƏN

Yarın sinəsində bir dəstə çiçək,
Yarı nərgiz, yarı qönçə, yarı gül.
Çiçəkdən də, nərgizdən də yar göyçək,
Xoş halına kimin vardı yarı gül.

Qızılgül cananın al yanağıdır,
Nazik yarpaqları qəmi dağıdır.
Ağ gül gözlərinin tər buxağıdır,
Gülər üzlər heç olmasın sarı, gül.

Güldü yaraşığı bağça-bağların,
Xaldı yaraşığı ağ buxaqların,
Yardı yaraşığı gen otaqların,
Cavan Hüseyn çəkir intizarı, gül.

GÖZƏL

Mənim qəlbim cığaradan nazikdir
Mürvət et, sinəmi dağlama, gözəl!
Həsrətindən könlüm əzik-əzikdir,
Duz səpib yaramı bağlama, gözəl!

Əzəldən vurğunam lalə üzlərə,
Süzgün baxışlara, şəhla gözlərə,
Qoy sənin başağrın gəlsin bizlərə,
Ah çəkib, yaş töküb ağlama, gözəl!

Sən Cavan Hüseyn de, mən də can deyim,
Olmuşam hüsnünə bir heyran deyim.
Sənin gözlərinə mən qurban deyim,
Kəs sinəm üstündə, saxlama gözəl!

ÇƏTİNDİR

Dinləyin ürəyim, əziz dostlarım,
Qəlbim inlər, dil yarası çətindir,
Qılınc kəssə, güllə dəysə sağalar,
Heç sağalmaz dil yarası, çətindir.

Qanlar axır ürəyimdən yarasız,
Tez yetirin əhvalımı yara siz,
Dərdli sinəm cərrah kimi yarasız,
Görərsiz ki, sol yarası, çətindir.

Namərdlərdən mərdə yara yetişsə.
Tərlanın şikarı sara yetişsə,
Ətirli qönçələr xara yetişsə,
Bülbül üçün gül yarası çətindir.

Kələ-kötür yollarını düzəldim,
Vətən üçün ağ gül gəzib izlədim,

Kimsəyə demədim, dərdim gizlədim,
Sinəm üstə mil yarası çətindir.

Cavan Hüseyn yetsə yar şirin yara,
Lütf eylər ləbindən yar şirin yara,
Qövr edir qəlbimdə yar şirin yara,
Dözə bilməm, il yarası çətindir.

GÜLƏRMİŞ

Taleyi xoş insan gəlsə dünyaya,
Onun gətirdiyi dövran gülərmiş.
Loğman gəlsə bir xəstənin yanına,
Xəstə sağalarmış, loğman gülərmiş.

Hər kimin dünyada taleyi gülsə,
Sinəsindən ləlü-gövhər süzülsə.
Azad günlərinin qədrini bilsə,
Dövran sevinərmiş, zaman gülərmiş.

Sən heç vaxt dünyada gülmə bir kəsə,
Namərdlər istəyər basdığın kəsə.
Zəmanə bəd gəlib mərdlər büdrəsə,
Namərdlər əl çalıb yaman gülərmiş.

Qafil olma, könül, xoş günlər ara!
Eşqini verginən doğma diyara,
Bir ox düzgün gedib dəysə şikara,
Səyyad sevinərmiş, kaman gülərmiş.

Hüseyn, sən dağların zirvəsindən aş,
Döyüş meydanına hünərlə yanaş,
Kömək eləməsə qardaşa qardaş,
Kənardan əl çalıb düşman gülərmiş.

ƏMANƏTİ

Ey müqəddəs vətən, ey ana torpaq,
Ürəyim sənindir, al əmanəti,
Bir cüt körpəm qalır səndə yadigar,
Tapşırıram sənə, bil əmanəti.

Kimdir mənim kimi kənar elindən,
Ayrı düşən günün sanar elindən.
Bülbül ayrı düşər qönçə gülündən
O bağ əmanəti gül əmanəti.

Əhdim budur: yar çırağı sönməsin,
Özgə bülbül dal budağa qonmasın,
Yara tapşır – hər sözə inanmasın,
Dodaq əmanəti, dil əmanəti.

O da getsin öz dostunu arasın,
Tez sağaltsın ürəyin yarasın,
Saçlarını sığallasın, darasın,
Ay qabaqda cığa tel əmanəti.

Çəkərəm uzaqda mən intizarı,
Ölüncə unutmam o düz ilqarı,
Hüseynin dostuna var etibarı,
Yetirəcək sənə al əmanəti.

ŞİRİNDİR

Sirri bilinməyən zülmət gecənin
Röyası da, səhəri də şirindir.
Yar yolunda şirin candan keçənin
Sevinci də, qəhəri də şirindir.

Şəkərdən alınıb məhəbbət tamı,
Baldan süzülübdür vüsalın camı.
Kəsib yolum, töksə qanım haramı,
Al qanımın cövhəri də şirindir.

Cavan Hüseyn pozmaz əhdin-peymanın,
İtirməz şöhrətin, itirməz şanın.
Acının, şirinin dadıbdır tamın,
Dostun mənə zəhəri də şirindir.

QUMRAL GÖZLƏRİNİN QURBANI OLUM

Mahir ovçu kimi məni izləyən,
Qumral gözlərinin qurbanı olum.
Saxta baxışlardan məni gözləyən.
İşvə-nazlarının qurbanı olum.

Varmı sənin kimi solmayan çiçək,
Əbrişim cığalı, qanavuz birçək?
Doğra məni, tikə-tikə şişə çək,
Bişir, gözlərinin qurbanı olum.

Cavan Hüseyn doymaz saf məhəbbətdən,
Gəl qurtar aşiqi qəmdən, möhnətdən.
Beçənin balından, nabatdan, qənddən
Şirin sözlərinin qurbanı olum.

BƏXTƏVƏR

Çəkilib, qüdrətdən qaşların, gözəl,
Kimin olacaqsan yarı, bəxtəvər?
Tökülüb gərdənə ipək saçların
Kim hörübdü o saçları, bəxtəvər?

Təzəcə qönçədən çıxıb yanağın,
Şox salıb gərdənə büllur buxağın.
Nə şirindi dilin, qaymaq dodağın,
Şan çəkibdi yəqin arı, bəxtəvər!

Sənin mərmər sinən kağızdan ağdı,
Baxışın qəlbimdə düyündü, dağdı,
Qoynun bir bahardı, meyvəli bağdı,
Becəribsən şirin barı, bəxtəvər!

Aydırmı camalın, gündürmü üzün?
Sənsənmi işığı gecə-gündüzün?
Oynatma qaşların, süzdürmə gözün,
Tənə vurma bizə barı, bəxtəvər!

Təbiətdən nə gözəl pay alıbsan,
Odur el içində sən ucalıbsan.
Gün kimi dünyaya işıq salıbsan,
Nurun tutub hər diyarı, bəxtəvər!

Gözəldir dünyada düz ilqar, vəfa,
Yar yarın yolunda çox çəkər cəfa,
Yetişib vüsala, sürərlər səfa,
Möhkəm olsa düz ilqarı, bəxtəvər!

Yanağından axan gilabdı, tərdi?
Buxağın gül kimi nə təzə-tərdi,
Səni sevən kəsin olarmı dərdi,
Hüseyn sevir səntək yarı, bəxtəvər.

BAXDI TƏRSİNƏ

Gözəllər gözəli, mələklər xası
Qəzəblə üzümə baxdı tərsinə.
Deyəsən, aşıqdan var təmənnası,
Müjganın sinəmə çaxdı tərsinə.

Yandırdı cismimi eşqin fərağı,
Şam kimi əridi qəlbimin yağı.
Sevinc yaşlarilə çeşmim bulağı
Piyalətək dolub axdı tərsinə.

Kimsə eşitmədi qəlbim harayın,
Zimistan eylədi könlümün yayın.
O bimürvət məhəbbətin sarayın
Əğyarlar əlilə yıxdı tərsinə.

Olmadı aşığın bircə pənahı,
Göylərə ucaldı fəryadı, ahı.
Eşqin leylasına gözəllər şahı,
Min əzab verməyə çıxdı tərsinə.

Cavan Hüseynin açılmadı səhəri,
Boğdu ilhamını sevinc qəhəri,
Ləblərindən lütf eylədi zəhəri,
Vüsalın camına sıxdı tərsinə.

NAKAM ÖLMƏRƏM

Döyüşlərdə bərkimişəm, bişmişəm,
Qorxu nədir, ölüm nədir, bilmərəm.
Anamın südünə mən and içmişəm,
Vətən adın ürəyimdən silmərəm.

Azadlıq uğrunda qanım tökülsə.
Məzarımın üstdən yollar çəkilsə,
Saçlarım ağarsa, belim bükülsə,
Düşmənə baş əyib səcdə qılmaram.

Şirin arzularım yerin almasa,
Vətənim zillətdən azad olmasa,
Xalqım sevinməsə, elim gülməsə,
Ürəkdən şad olub mən də gülmərəm.

Şəfəq olub ürəklərə tökülləm,
Çinar olub yollar üstdə əkilləm,
Budaq olub yarpaqlara bükülləm,
Şöhrət cübbəsinə mən bükülmərəm.

Çıxıb Savalana yurduma baxsam.
Təbrizin köksünə ulduzlar taxsam,
Zəfər nəğməsini zildən oxusam,
Mən Cavan Hüseynəm, nakam ölmərəm.

OLMASA

Məcnun dözərdimi hicran qəhrinə
Ürəyində bir murazı olmasa?
Fərhad çapardımı Bisütun dağı,
Şirin kimi sərvinazı olmasa?

Həqiqi aşıqlar yolundan çaşmaz,
Gen gündə görünüb, dar gündə qaçmaz,
Lalələr qızarmaz, qönçələr açmaz,
Təzə ilin gözəl yazı olmasa.

Bülbül cəh-cəh vurar gül arasında,
Şanə fərəhlənər tel arasında.
Aşıq sevilərmi el arasında
Şirin ləhcə, xoş avazı olmasa?

Aşıq ayrılarmı öz sənətindən,
Elin söhbətindən, elin mədhindən?
Xalqın qüdrətindən, el adətindən
Kim danışar, xalqı razı olmasa?

Qanadsız şahinlər dağlar aşarmı?
İnsan da vətənsiz, elsiz yaşarmı?
Cavan Hüseyn məclislərdə coşarmı,
Sinəsində telli sazı olmasa?

BİLMƏMİŞƏM

Əğyarları, alçaqları, yadları
Heç vədə özümə yar bilməmişəm.
Sultanlara olmamışam sadağa.
Ağlamaq, sızlamaq, zar bilməmişəm.

Düşmüşəm tufana, qara, borana,
Əyilməyib başım qarı düşmana,
Demişəm sözümü mərdi-mərdana,
Nə qorxu, nə ölüm, dar bilməmişəm.

Sinəmdən tökmüşəm zəbərtac, inci,
Olmamışam namərdlərə yavıncı.
Vətən eşqi olub könlüm sevinci,
Bundan böyük arzu-var bilməmişəm.

El dərdini ürəyimdə çəkmişəm,
Alnımdan tər, gözümdən nur tökmüşəm,
Xəzan görməz barlı bağlar əkmişəm,
Zəhməti özümə ar bilməmişəm.

Hüseynəm, şöhrətli, büsatlı, adlı,
Qəlbim hərarətli, ürəyim odlu.
İntiqamdan şirin, vüsaldan dadlı,
Həyat bağlarında bar bilməmişəm.

AŞIQLARIN ATASIDIR ƏLƏSGƏR

Nə qədər dünya var, bəşəriyyət var,
Günəş kimi qalasıdır Ələsgər.
Aşıq var, sevgi var, saf məhəbbət var,
Məhəbbətin badəsidir Ələsgər.

Söz məhəki, sərrafların ustadı,
Qızıl səhifədə həkk olub adı.
Könüllər sevinci, ağızlar dadı,
Anaların laylasıdır Ələsgər.

Sözüylə qəlbləri edib çıraqdan,
Eşqin bimarına olubdur loğman.
Kiçik sinəsində böyük bir ümman,
Bəhrlərin dalğasıdır Ələsgər.

Səməndimi hər tərəfə çapmışam
Gövhərin mədənin bunda tapmışam.
Söz mülkündə bürcü-qala yapmışam,
Sözlərimin qalasıdır Ələsgər.

Tükənməz xəznəli, Hatəm səxalı,
Kəlməsi yaqutdan, dürdən bahalı,
Bu Cavan Hüseynin cahi-calalı.
Gözlərinin şöləsidir Ələsgər.

SÖZ QİYMƏTLİDİR

Yaqutdan, almasdan, dürdən, gövhərdən,
Anlayan yanında söz qiymətlidir.
Müxənnətin tirməsindən, şalından,
Mərdlərin geydiyi bez qiymətlidir.

Yalançılar dediyindən utansa,
Həqiqi sözlərin mənasın qansa,
Eşq oduna aşiq sərasər yansa,
Məhəbbət əhlinə göz qiymətlidir.

Cavan Hüseyn sevər atı, tüfəngi,
Döyüş meydanında eyləyər cəngi.
Məhəg zəri tanır, gözsə məhəgi,
Sərraflar yanında göz qiymətlidir.

İNANMA

İnsan üçün həyat baldan şirindi,
Kim desə bu baldan doydum, inanma!
Gənclik özü hər vüsaldan şirindi,
Kim desə vüsaldan doydum, inanma!

Cavanlıq gözəldi, qədrini bilsən,
Gözəllər dəstində bir qızılgülsən,
Vəfalı yar ilə danışıb gülsən,
Kim desə bu haldan doydum, inanma!

Hüseyn, eşqin səməndinə ol süvar,
Məhəbbət əhlinin öz arzusu var.
Gözəllərin xasından da xası var,
Kim desə gözəldən doydum, inanma!

HÜNƏR QALASI

Əməyi, zəhməti sevməyən insan
Həmişə yadlara yavıncı olur.
Loğman da dərdinə tapmayır dərman
Həmdəmsiz otaqda zarıncı olur.

Hər insan qəlbində min arzu yatır,
Zəhmət sayəsində murada çatır.
Kimlər ki tərini torpağa qatır,
Əməyin bəhrəsi, sevinci olur.

Vətənin sevməyən vaxtsız qocalır,
Könül rübabında "vay" nəfsə çalır
Xalqın sevən, xalq əlilə ucalır.
Qolunda qüdrətli el gücü olur.

Güzgüdən insana sənət dünyası,
O ayna göstərir ləkəni, pası.
Sökülmür, dağılmır hünər qalası,
Hər təmiz ürəkdə bir bürcü olur.

Cavan Hüseyn, sözü ürəkdə bişir,
Çiy söz yaşamayır, qiymətdən düşür.
Sənin də beynindən gövhər yetişir,
Dodağından düşən söz inci olur.

ARASINDA

Mənasız sözləri qəbul etmərəm.
Cavahir göndərsən ləl arasında.
Naşı xəyyat min don tiksə geymərəm
Göndərsə də tirmə, şal arasında.

Mərd igidlər əldən verməz fürsətin,
El içində nişan verər qüdrətin.
Götürmərəm müxənnətin minnətin,
Qərq olsam dəryada lil arasında.

Sar görünməz şahinlərin gözünə,
Mərd inanmaz namərdlərin sözünə.
Alışmaram çuğul, kəzzab gözünə,
Mən özüm bir gözəl gül arasında.

Bir də qəm görməsin o qəmli sinə,
Gəlsinlər dostlarım şən məclisinə,
Bir şair ki, eşqin səməndin minə,
Deyin o qalarmı çöl arasında?

Cavan Hüseyn kimdən küssün, incisin?
Tanır dostlarının yaxşısın, pisin,
Seçir sərraf kimi sözün incisin,
Çünki o nəhəngdir el arasında.

TƏCNİSLƏR

MİN AYA BİLLƏM

Bu nə gözəl gündür, nə xoş saatdır,
Bugünkü günümü min aya billəm.
Mənim dərsim verən kamil ustaddır,
Öyrədib, əzbərdən min aya billəm.

Yar qəddinə geyinibdir acarı,
Elə bil ki, sızıldayır ac arı,
Arzularım dilim eylər açarı,
Soruşsalar dərdim min aya billəm.

Müxənnətlər oldu məndən qırağa,
Mərdə qoyma, sındır boynun, qır, ağa!
Cavan Hüseyn yar da atmaz qırağa,
Yazılıb yazısı min aya billəm.

ÇAL, A ÇAL

Aşıq, götür doqquz telli sazını,
Ya divani, ya da təcnis çal, a çal!
Düşmən üçün seç qılıncın sazını,
Əsirgəmə, kəlləsindən çal, a çal!

Yaxşı aşpaz tanır yaxşı düyünü,
Qəmli aşiq qəlbin neçin döyünü?
Möhkəm bağla, açılmasın düyünü,
Bir ilmək yox, üçün möhkəm çal, a çal!

Nə vaxtacan fələk mənə ax çalar?
Faydasızdır zər-qızıllar, axçalar.
Cavan Hüseyn, qara xəttin ağ çalar,
Deyərlər ki, qoca aşıq, çal a çal!

ÜZƏ BİLMƏZ

Cığalı təcnis

Həqiqətin elmi dəryadan dərin,
Naşı qəvvas orda bil, üzə bilməz!
Mən aşiqəm, üz barı,
Canan, gəldi üz barı,
Azad bağda gül açıb,
Nazlı dilbər, üz barı!
Kamil bağban açıb bağların dərin,
Namərdlər bağlardan gül üzə bilməz!

Mərifət lazımdır ata-anadan,
Gərək ki, dərk etsin hər ağlı nadan,
Aşiq deyər nə danə,
Sirrin vermə nadanə!
Axtardım nə gül tapdım,
Viran bağda nə danə.

Könül tapıb həmdəmini nə danə,
Ölüncən ayrılmaz, əl üzə bilməz.

Cavanam, bu yerdə gözəldir halım,
Dərs verib mənə də dərin bir alim.
Mən aşiqəm, alimdir,
Zaman mənə alimdir.
Gözüm gördü, şad oldum,
Azad ana elimdir.
Gül-çiçəklə bəzənibdir mahalım,
Xəzan poza bilməz, yel üzə bilməz!

AŞIQ HÜSEYN SARACLI
(1925-1987)

GƏRAYLILAR

YAVAŞ GET

Gör nə vaxtdır gözləyirəm,
Ağrın alım yar, yavaş get!
Gəl aşığı gözü yolda,
Qoyma intizar, yavaş get!

Ovçu gəzər ovun ovlar,
Tülək tərlanını qovlar.
Həsrətindən gileyim var,
Etmə məni xar, yavaş get!

Saraclını saldın dərdə,
Qəlbi dindi pərdə-pərdə,
Çox demişəm, deyim bir də
Sənə sözüm var, yavaş get!

GÜLBƏNİZ

Gözəllikdə yoxdu tayın,
Yanaqların al Gülbəniz.
Danış mənlə şirin-şirin,
Sal boynuma qol, Gülbəniz!

Səni görcək oldum xəstə,
Siyah zülfün dəstə-dəstə.
Bənd olubdu qaşın üstə,
Xub yaraşır xal, Gülbəniz!

Hüseyn həsrətini çəkər,
Didələrdən qan-yaş tökər.
Ağzın, dilin qəndü-şəkər,
Dodaqların bal, Gülbəniz!

QOCALIĞIM

İstəyirəm sağı tutum,
Sola çəkir qocalığım.
İnsan ömrü bir qaladı,
Daşın sökür qocalığım!

Gözəllər uzaqdan baxır,
Qəlbimi yandırıb-yaxır,
Başımda ildırım çaxır,
Leysan tökür qocalığım!

Hüseyn də gəncləşəydi kaş,
Taqət qalmır artdıqca yaş,
Görürəm ki, yavaş-yavaş,
Qəddim bükür qocalığım!

DƏDƏ ŞƏMŞİR

Aşıq Şəmşir xəstə olan vaxt, ölümündən bir il əvvəl H.Saraclı aşığın görüşünə gedir. Şeir görüş zamanı yazılmışdır.

Havalandı dəli könül,
Kəlbəcərdə, Dədə Şəmşir!
Qocalırsan, necə dözüm,
Belə dərdə, Dədə Şəmşir!

Qalmağa vaxtımız azdı,
Xudam özü belə yazdı.
Ümidimiz telli sazdı,
Bu yerlərdə, Dədə Şəmşir!

Sazdı, sözdü ömrün-günün,
Sənətin imanın, dinin.
Qoy ucalsın səsin, ünün,
Pərdə-pərdə, Dədə Şəmşir!

Söz sinəndə coşa görüm,
Öz sazınla qoşa görüm,
Səni yüz il yaşa görüm,
Mərdsən mərdə, Dədə Şəmşir!

Hüseyn desin həzin-həzin,
Taqətdən düşməsin dizin.
Qayalarda qalsın izin,
Sözün sərdə, Dədə Şəmşir!

QOŞMALAR

BAX-BAX

Gəzdim təbiəti mən qarış-qarış,
Dağların qoynunda qayaya bax-bax.
Cənnət Qaraqoyun behiştə bənzər,
Hayıf ki, bürküdü, bu yaya bax-bax.

Bu yerlər çəkməyib sinəmə dağı,
Coşdurub aşığı ağır yığnağı.
Burda bir dəyənin oldum qonağı,
Hörmətə, mərifətə, həyaya bax-bax.

Yalçın qayaları üzbəüz olar,
Müdrik qocaların yaşı yüz olar.
Saraclı hər zaman əhdi düz olar,
Dağların maralı Mayaya bax-bax.

GƏRƏK

Bu qoca dünyanın əşrəfi insan,
Mənəm-mənəm deyib etməsin gərək.
Onun mənliyinə el qiymət verər,
Qiymətsiz yaşayıb getməsin gərək.

Aşığın avazı gəlsin uzaqdan,
Keçsin imtahandan, çıxsın sınaqdan.
Desin həqiqətdən, ərz etsin haqdan,
Nahaqdan dəlalət etməsin gərək.

Hüseyn Saraclının altmışdı yaşı,
Sənət meydanında ağarıb başı.
Telli saz döşündə olub, sirdaşı.
Bunsuz onun ömrü bitməsin gərək.

EYLƏYƏR

Yaxşı oğul ariflərdən dərs alar.
Elmini artırıb dərin eyləyər.
Mərifəti gözəl, sözü xoş olar,
Söhbəti həmişə şirin eyləyər.

Bağban odur ağac əkə, sala bağ,
Bu dünyada yaratdığı qalacaq.
Həyatda açdığı əsl təmtəraq,
Üzünü ağ alın tərin eyləyər.

Saraclı sözünü duyanlar qanar,
Nakəs olan şərarətlə yalanar.
Vaxt gələr gen durar, qıraq dolanar,
Sənlə aranı sərin eyləyər.

SAYIR

Bozaran səhralar, saralan çöllər,
Bilmirəm, özünü bağ niyə sayır?
Sənətini kamil bilməyən aşıq
"Ölübdü", özünü sağ niyə sayır?

Ustadlıq almayan olmaz pəsəndə,
Yaxşı deyil, sözü nagah kəsəndə.
Zibil ki, sovrulur külək əsəndə,
Görəsən özünü dağ niyə sayır?

Saraclı, düz yolu əyri çəkənlər,
Yaxşılıq yerinə pislik əkənlər,
Ağzından hərcayı, hədyan tökənlər,
El yanında üzün ağ niyə sayır?

DÜNYADA

Ürək dostu tək-tək olar tapasan,
Yaxşı dostu seçən hanı dünyada?
Yaxşı dostun ürəyimdə yeri var,
Bekar dostun çoxdu sanı dünyada!

Öz-özünə alışana yan demə,
Ara, axtar xan olmaza xan demə.
Hər yetəni əziz tutub, can demə,
Yaxşı dostu yaxşı tanı dünyada!

Yemək dostu bil ki, nanı itirər,
Şöhrət dostu başa qaxınc gətirər.
Ürək dostu mətləbini bitirər,
Dar günündə tökər qanı dünyada!

Mən Hüseynəm, saza meyil salmışam,
Öz dərsimi ustadımdan almışam.
Dost yolunda canı fəda olmuşam,
Gəzməmişəm şöhrət-şanı dünyada!

AŞIQ MİKAYIL AZAFLI
(1925–1991)

GƏRAYLILAR

QURBAN OLUM

Harda varsa insanlığın,
Kamalına qurban olum.
Ahil qanan cavanlığın,
Xəyalına qurban olum.

Harda varsa etibarın,
Təmiz eşqin, namus, arın.
Vəfası düz olan yarın,
Halalına qurban olum.

Harda varsa qananların,
Aşiqiyəm o canların.
Vətən üçün yananların,
Məlalına qurban olum.

Harda varsa haqqa hörmət,
Odur mürvət, odur qiymət.
Azaflıyam, səmimiyyət,
Amalına qurban olum.

OLMAYA

Aman dostlar, bu dünyada
İnsan ömrü az olmaya.
Nə ayrılıq, nə də zindan.
Tərsə dönən yaz olmaya.

Məncə, xoşdur duymamazlıq,
Qəm-hicrana uymamazlıq,
İgidlərdə saymamazlıq,
Gözəllərdə naz olmaya.

Ola dostun sədaqəti,
Azaflıya məhəbbəti,
İstəmirəm o cənnəti,
Orda söhbət, saz olmaya.

GƏRƏK

Hər aşiqə aşiq demə,
Aşiq yana, yana gərək.
Hər alimə alim demə,
Alim qana, qana gərək.

Hər gözəldə ağıl olmaz,
Hər söz şirin nağıl olmaz.
Hər doğulan oğul olmaz,
Doğan ana, ana gərək.

Hər kəs yeyə öz bəhrini,
Azaflı da söz nəhrini.
Hər kim çəkir el qəhrini,
Qəlbi şana-şana gərək.

QOŞMALAR

DEYİRLƏR

Deyərəm əslimi nişanbənişan,
Ellər məclisində çalan deyirlər,
Aşığam, şairəm, həm də bəstəkar.
Elmi ariflərdən alan deyirlər.

Riza-riza olsam, deməm yalanı
Taleyim qəlbimə salıb talanı,
Gövhər mədəniyəm, olsa alanı,
Şerin sərvətindən kalan deyirlər.

Əslim Azərbaycan, zərli həmayıl,
Mahalım Tovuzdu, dağlara mayıl.
Kəndim Azaflıdır, adım Mikayıl,
Təxəllüs Azaflı olan deyirlər.

QARDAŞ

Atabir, anabir, mehriban ola,
Olmaya başının töhməti qardaş.
Hər insan oğluna arxadı, dağdı,
Satmasa vicdanı, qeyrəti, qardaş.

İstəyib can desə könüldən gələr,
Əcəl yastığında əzəldən gələr,
Övlad beldən gələr, yar eldən gələr,
Qardaşın dayağı, taqəti qardaş.

Dostluq aləmində çətindir demək,
Gah itər, gah gələr çəkdiyin əmək.
Dar gündə ümiddir, gen gündə kömək,
Hər qolun qanadı, qüvvəti qardaş.

Atadır həyatın zər ehtiyacı.
Anadır ən əziz mehriban bacı,
Gözlərin işığı, başların tacı,
Xeyrinin, şərinin zinəti qardaş.

Azaflıyam, haqqı unutmaram mən,
Alsa da başımı boran, tufan, çən,
Dostuna dost deyər, düşmənə düşmən
Ömrünün, gününün qüdrəti qardaş.

ANA

Yaranmış varlığın mehri ülfəti,
Ali təbiəti anadır, ana.
Bəşərin dünyası, canı, qüdrəti,
Eşqi, məhəbbəti anadır, ana.

Anasız yaranmaz aləmdə insan,
Anasız yaranmaz dahi, qəhrəman.
Anasız yaranmaz əsr, vaxt, zaman,
Həyatın zinəti anadır, ana.

Anadır, Azaflı, qəlbində atəş,
Ülviyyət, ünsiyyət, mətanət, məhvəş.
Anadır gözəllik, su, torpaq, günəş,
Hökmün zərurəti anadır, ana.

ATA

Ata olmasaydı, aləm olmazdı,
Xaliqin qüdrəti atadır, ata.
Günəş kainata şölə salmazdı,
Nuri-səxavəti atadır, ata.

O elə arxadı, hər dağdan uca,
Əvəz olunmazdı min taxtı-taca.
Övlad üçün özün çaxar qılınca.
Mətin dəyanəti atadır, ata.

Ey Azaflı, mənaların mənası,
Ürəyində min baharın havası.
Yerin, göyün, ərşin, gürşün əsası,
Ər kişi xilqəti atadır, ata.

NƏ SEVGİ

Yanar eşqin bir vüsaldı dərmanı,
Can cananı istəməsə, nə sevgi?
Həsrətindən çəkib ahı, amanı,
Ürəyində səsləməsə, nə sevgi?

İki qəlbə məhəbbəti yazanda,
Bəla çəksin onu pozub, azanda.
Düz əhdinə, düz peymana, düz anda,
Hüsnü-rəğbət bəsləməsə, nə sevgi?

Azaflıya sevgi həyat, sevgi dad,
Sevənləri çətin gördüm qəlbi şad,
Sevgi bəla, sevgi ölüm, sevgi bad,
“Başı qurban kəs” deməsə nə sevgi?

ZÖVQ ALA BİLMƏZ

Şirindi hər kəsə öz istədiyi,
Qanmayan qanandan zövq ala bilməz.
Şirindi doğruya düz istədiyi.
Vəfasız peymandan zövq ala bilməz.

Şirindi aşiqə öz məhəbbəti,
Şirindi şairə sözün qüdrəti.
Şirindi ovçuya ovun ləzzəti.
Şikar ox kamandan zövq ala bilməz.

Şirindi Azaflı, adil hökmdar,
Şirindi insanlıq, namus, qeyrət, ar.
Bir haqqın başında yüz min bəla var.
Hər dahi zamandan zövq ala bilməz.

ŞİRİNDİ

Keçən günlər keçən gündən keçibdir.
Təzə günlər təzə-təzə şirindi.
Cavanlığın etibarı yoxuymuş,
Qocalıqda deynən məzə şirindi.

Dost yolunda canın ola cəfalı,
Keçirəsən həyatını səfalı.
Ürəyin sağ, yarın ola vəfalı,
Gözlər baxa halal gözə, şirindi.

Azaflıyam, deyim neçə dağ-daşa,
Tufanlarda ömrü vurdum baş-başa,
İstər gözəl, istər yaxşı, pis yaşa,
Vətənində hər kəs gəzə şirindi.

YARALAR

Heç bilmirəm kimə deyim dərdimi,
Nə yamandı ürək yeyən yaralar.
Xəncəri hicrandan, həsrətdən deyib.
Sağalmaz qəddimi əyən yaralar.

Könül, Tanrı verdi sənə qəm, qəhər,
Nə mollanı çağır, nə qulu-qəmbər.
İstər imam gələ, istər peyğəmbər,
Heç sağalmaz fələk deyən yaralar.

Azaflı, min oxun bir şikar vurmaz,
Yatıbdı qəflətdə taleyin durmaz,
Dilin yarasını dərman qurtarmaz.
Bir də məhəbbətdən dəyən yaralar.

ÇƏKƏR

Sevgi-sevgisindən düşsə uzağa,
Olsa bahar ayı zimistan çəkər.
Könül şahın kimi çıxar hər dağa,
Saatda yüz dəfə ah, fəğan çəkər.

Aşiqi məşuqdan ayırsa fələk,
Yanar ocaqlara ağrıyar ürək.
Gözündə qalarsa etdiyi dilək,
Qəzanın əlindən əl, aman çəkər.

Dağdan ayrılmaya dağlar maralı,
Şikarın əlindən ovçu yaralı.
Hər kəs istəyindən düşsə aralı,
Cəhənnəm odunu hər zaman çəkər.

Versən Azaflıya inci-ləlləri,
Yarsız lazım deyil behişt gülləri.
İki sevgi əgər gəzsə çölləri,
Elə bil cənnəti gülüstan çəkər.

AMANDIR

Cavanlığın, məhəbbətin eşqinə.
Ağarmayın, a saçlarım; amandır.
Düz ilqarın, sədaqətin eşqinə,
Ağarmayın, a saçlarım, amandır.

Haqq aşığı yaranıbdır qəm çəkə,
Ürəyimə saldım qara, xal, ləkə.
And verirəm saf vicdana, məsləkə,
Ağarmayın, a saçlarım, amandır.

Elə bildim dağ başını qar alıb,
Ayaz vurub, çiçəkləri saralıb.
Görən deyir aşıq daha qocalıb,
Ağarmayın, a saçlarım, amandır.

Baş titrəyər, əl uçunar, zar ağlar,
Ney inildər, saz sızıldar, tar ağlar,
Həsrət-həsrət baxar-baxar, yar ağlar,
Ağarmayın, a saçlarım, amandır.

Azaflıyam, ağ saqqalım bir yana.
Gənclik getdi oldum dəli-divana.
Deyəcəklər dözəmmədi hicrana,
Ağarmayın, a saçlarım, amandır.

ƏLƏSGƏR

Sən ey sənətimin sönməz günəşi,
Baharı, ilhamı, cahan Ələsgər.
Xalqına bağlıdı şerinin başı,
Unutmadı bəşər, zaman Ələsgər.

Dövrü tufanlardan qopduqca bəla,
Gah düşüb girdaba, gah qalmaqala.
O, min il qabağa, o min il dala,
Oldu aşıqlara sultan Ələsgər.

Qafqaz dağlarında məskən eyləyib,
Ellər məclisində dövran eyləyib.
Canı gözəllərə qurban eyləyib,
Qoşub igidlərə dastan Ələsgər.

Dünyanın bəzəyi, sözü, nəğməsi,
Hər insan zövqünün nur təranəsi.
Elimin qüdrəti, elimin səsi,
Çəkib qitələrə karvan Ələsgər.

Göylərə çıxıram, orda görürəm,
Yerlərə enirəm, burda görürəm.
Azaflıyam, onu harda görürəm.
Qəlbimdə açıbdır meydan Ələsgər.

QANA DÖNMƏSİN

Murazım, diləyim budur, ay ellər,
Dünyanın ürəyi qana dönməsin,
Zəmidə sümbüllər, bağçada güllər,
Bəşərin çörəyi qana dönməsin.

Qana bulanmasın yerin murazı.
Hər əsrin, hər ilin nur səpən yazı,
Şairin şeri, aşığın sazı,
Arzusu, diləyi qana dönməsin.

Qana bulanmasın sülhün gülüşü,
Görməyək dəhşətli matəm görüşü,
Atanın saqqalı, ananın döşü.
Yaxası, köynəyi qana dönməsin.

Qana bulanmasın insan sərvəti,
Həyatın varlığı, sözün qüdrəti,
Milyon cavanların saf məhəbbəti,
Toyluğu, gərdəyi qana dönməsin.

Azaflı, bir olsun cəmiyyət əli,
Dağılsın, talansın fitnə əməli,
Heç kimin vətəni, heç kimin eli,
Ömrü-gələcəyi qana dönməsin.

GÖZLƏRİM

Səbrim tükənibdir səbr eləməkdən.
Yoruldu baxmaqdan yola gözlərim,
Bir səni arayır, bir də gəncliyi,
Boylandıqca sağa, sola gözlərim.

Əzəldən olmusan əhdə ilqarsız,
Məhəbbəti şaxta, eşqi baharsız,
Biz belə deyildik, ay etibarsız,
Necə qıydın qanla dola gözlərim!

Könlümü vermədim başqa birinə,
Dünya sərvətinə, simü-zərinə,
Əgər mən olsaydım sənin yerinə,
İstəsən deyərdim: "ala, gözlərim!"

Nə ulduz deyilsən, nə də Ay, Günəş,
Nədənsə görəndə eyləyirəm qəşş!..
Dodağımda alov, qəlbimdə atəş,
Çəkib dərd-qəm, min bir bəla gözlərim!

Azaflı əhdini başa yetirdi,
Hicran gəncliyimi aldı itirdi,
Şöləsi qaraldı, sarı gətirdi,
Sənə həsrət qala-qala gözlərim!

ELSİZ OLMASIN

Təbiət yaradan bəşər oğluyam,
Həyatım, dövranım elsiz olmasın.
Ellər aşiqiyəm, elə bağlıyam
Nə canım, nə qanım, elsiz olmasın.

Dünya neyləyərdi el olmasaydı,
Tarix nə deyərdi el olmasaydı,
Aşıq nə söylərdi el olmasaydı,
Nə şerim, dastanım elsiz olmasın.

Eldir səadətim, eldir qüdrətim,
Eldir məhəbbətim, eldir hörmətim,
Eldir mərhəmətim, şanım, şöhrətim,
Cahanım, zamanım elsiz olmasın.

Elsiz hakim olmaz, nə də hökmdar,
Elə xain çıxan olar tarimar,
Elsiz şair olmaz, nə də sənətkar.
Nə canım, cananım, elsiz olmasın.

Olsam da dünyanın cahi-calalı,
Olsam da aləmin gövhər, zülalı,
Olsam da dağların qoca qartalı,
Nə zirvəm, asmanım elsiz olmasın.

Azaflı Mikayıl, Azaflı kəndim,
Elim Azərbaycan, hər bərəm, bəndim,
Mən eldən oxudum, eldən öyrəndim,
Bu günüm, bir anım elsiz olmasın.

AŞIQ ƏHMƏD
(1921)

TELLƏRİ

Ay qız sənə kim öyrədib,
Düzməyi yana telləri?
Qoyma, badi-səba əsib,
İncidə şanə telləri.

Dolan, sərvi boylum, dolan
Sənsən məni eşqə salan,
Verməz eşqə sadiq olan,
Misri-Kənanə telləri.

Güzar eylə bizim kəndə,
Olma yanımda şərməndə,
Sal boynuma, qalsın məndə,
Səndən nişana telləri.

Əhməd eşqin həvəsində,
Yarın hüsnü Kəbəsində,
Saxlayar öz öhdəsində.
Axır zəmanə telləri.

ALA GÖZLƏRİN!

Dəxi məndə can qoymadı,
Qız, sənin ala gözlərin!
Cəsədimdə qan qoymadı,
Qız, sənin ala gözlərin!

Qaşlar üç axşamlıq aydı,
Hüsnün aydan gələn paydı,
Buludsuz günəşlə taydı,
Qız, sənin ala gözlərin!

Ayın qucağında yatır,
Ulduzlara şivə satır,
Ox kimi bağrıma batır,
Qız, sənin ala gözlərin!

Canım qurban yaradana,
Bəsdir, qılıncı qoy qına,
Əhmədi gətirdi cana,
Qız, sənin ala gözlərin!

MƏNDƏN SORUŞDU

Kəlbəcərə – Turşsu üstə gedəndə,
Güllər də Vurğunu məndən soruşdu.
Yığıldı başıma dostlar, tanışlar
Ellər də Vurğunu məndən soruşdu.

Sanki dağ dilləndi, dindi yamaclar,
Bağda qırqovullar, düzdə turaclar,
Kür üstə gələndə hündür ağaclar,
Çöllər də Vurğunu məndən soruşdu.

Yaz gəldi, əridi, suya döndü qar,
Gül açdı şaftalı, alma, heyva nar...
Sonası çağrışan ayna bulaqlar,
Göllər də Vurğunu məndən soruşdu.

Neçə toya getdim, səsim oldu car,
Dedilər hardadır böyük sənətkar?
Dolandı qarşımda həftələr, aylar,
İllər də Vurğunu məndən soruşdu.

Duydum nəfsini dağda, aranda,
Ellər ondan deyir məclis quranda,
Əhməd ağ simlərə mizrab vuranda,
Tellər də Vurğunu məndən soruşdu.

KEÇDİ

Bahar əyyamıdır, günəş seyrində
Bəlkə də yar məni görmədi keçdi.
Uçsun xanımanın, ev yıxan yağı,
Yar bizə bir salam vermədi, keçdi.

Çinədim, ünnədim, ünüm çatmadı,
Dönüb geri xoş ixtilat qatmadı,
Eşqin bağçasına əl uzatmadı,
Nədənsə bir gül də dərmədi, keçdi.

Ölüm qurtarmadıq yarın əlindən,
Dil bilməyən zülümkarın əlindən,
Seyrəqabın, sitəmkarın əlindən,
Əhməd uzun ömür sürmədi, keçdi.

YARAŞSIN

C.Cabbarlının 60 illiyinə ithaf edirəm

Cabbarlı sənətdə dünyadır, dostlar,
Mən nə deyim o dünyaya yaraşsın?
O bir aydır, mənsə kiçik bir ulduz,
Neyləyim ki, ulduz aya yaraşsın?

O bir həyatdır ki, tükənməz sonu,
Günəşdir, dəryalar söndürməz onu,
Elə sözüm hanı, ilhamım hanı,
İnci kimi o dəryaya yaransın?

Əhməd, o günəşdir, demə ki, təkdir,
Xalqımız Cəfərlər yetirəcəkdir,
Sən kimsən, bu yerdə Vurğun gərəkdir,
Həmtay sözü o həmtaya yaraşsın.

AŞIQ ŞAKİR
(1922–1979)

QOŞMALAR

BİZİMDİR

Qızıl xəritəyə hər gün nəqş olan,
Hər yeni yaranan şəhər bizimdir.
Dağların qəlbini yarıb yol açan,
Qoçaqlıq bizimdir, hünər bizimdir.

On beş mərd qardaşın məhəbbətindən,
Qurur kommunizmi anamız vətən.
Movzoleydə yanan o tək günəşdən,
Gözləri nur alan ellər bizimdir.

Xalqımız fəxr edir düz ilqarıyla.
Dağlar tək tərpənməz mərd vüqarıyla,
Böyük kommunizmin işıqlarıyla
Açılan hər parlaq səhər bizimdir.

Doğma partiyanın iradəsilə,
Sülhə təməl qoymuş xalqın səsilə,
Onun həyat verən saf nəfəsilə
Yaranan hər yeni zəfər bizimdir.

Aşıq Şakir deyir yeni günlərdən,
Yeni çiçəklərdən, yeni güllərdən,
Kommunizmi quran bizim ellərdən
Xəbər verən azad dillər bizimdir.

SƏN DƏ GÜL

Bahar gülür, günəş gülür, el gülür,
Nazlı dilbər, dövran gülür, sən də gül.
Çəmən gülür, çiçək gülür, çöl gülür,
Lalə, nərgiz, reyhan gülür, sən də gül.

Ötür azadlığın xoş təranəsi,
Hər budaq üstündə bir quşun səsi,
Baxdıqca insanın gəlir həvəsi,
Cüyür, maral, ceyran gülür, sən də gül.

Gülşəndə şövq ilə ötür bülbüllər,
Çəməndə gül dərir törfə gözəllər,
Toy-bayram keçirir obalar, ellər,
Qoca gülür, cavan gülür, sən də gül.

Yenə könül ilham alır Göygöldən,
Gözəl Qarabağdan, Muğandan, Mildən.
Görürsənmi nə xoş gəlir il-ildən,
Qazax, Şəki, Şirvan gülür, sən də gül.

Şakirin qəlbində gülür arzular,
Ölməz bu günləri görən sənətkar.
Qəlbimizdə xoş günlərin eşqi var,
Məhsul verir, hər yan gülür, sən də gül.

AŞIQ PƏNAH
(1926–1979)

GƏRAYLILAR

KÜRÜM

Aparanda neçə kəndi,
Dalğaların seli, Kürüm,
Ellər sənə bir ad verdi:
Dəli Kürüm, dəli Kürüm!

Dağıtmırsan daha bəndi,
Uçurmursan daha kəndi.
Cilovlayıb səni indi
Qadir insan əli, Kürüm!

Hər gün sənin sularında
Cana gəlir zəmi, tarla.
Axıb saysız kanallarla
Suvarırsan çölü, Kürüm!

Sularında üzəndə mən,
Sahilində gəzəndə mən,
Az öpmədi tellərimdən
Ləpələrin yeli, Kürüm!

Sahilləri çiçək açır,
Seyrangahı ürək açır.
Günəş kimi şölə saçır.
Güldürür bu eli Kürüm!

Həyatdan zövq alıb qoşa,
Yurdumuza nəğmə qoşa
Aşıq Pənah gəlib coşa
Çala incə teli, Kürüm!

SEVİNƏR

Bahar nəğməsi

Sən gələndə gözəl bahar,
Dağ bəzənər, çöl sevinər.
Açar çiçək, coşar ürək,
Bülbül ötər, gül sevinər.

Günəş öpər Qarabağı,
Çələng qoyar Qoşqar dağı.
Şərbət paylar Şah bulağı,
Muğan, Şirvan, Mil sevinər.

Ömür təzə, sevgi təzə,
Göygöl qucaq açar bizə.
Nəğmə deyib eşqimizə
Sazımdakı tel sevinər.

Yenə məclis qurar meşə,
Boyun bükər tər bənövşə.
Pənah sazı basıb döşə
Cəh-cəh vurar, el sevinər.

DOLANA-DOLANA

Bala ceyran, nə gəzirsən
Dağı dolana-dolana.
Nə çəkirsən ürəyimə
Dağı dolana-dolana.

Ala gözlü nazlı dilbər,
Mehmanım ol səhər-səhər.
Bağçamızdan şamama dər,
Tağı dolana-dolana.

Qulluğunda hazır durum,
Saz götürüm, məclis qurum.
Bülbül kimi cəh-cəh vurum.
Bağı dolana-dolana.

Aşıq Pənah sevdi səni,
İnan, sevməz özgəsini,
Versin eşqin badəsini
Saqi dolana-dolana.

İNCİYƏR

Naşı bağban, girmə bağa,
Yarpaq düşər, gül inciyər.
Gəl toxunma göy budağa,
Vurma ona əl, inciyər.

Yaz axşamı, səhəri sən,
Ala gözlü dilbəri sən
Şirin sözlə dindirməsən,
Dodaq küsər, dil inciyər.

Kim zəhmətdən uzaq olsa,
Məhəbbətdən uzaq olsa,
Hər günü boş yola salsa,
Ay sevinməz, il inciyər.

Bu saf inci sözləri mən,
Toplamışam min könüldən.
Pənah ayrı düşsə eldən,
Sazındakı tel inciyər.

GƏZƏ-GƏZƏ

Bir gözələ aşiq oldum,
Səhər çölü gəzə-gəzə.
Düşdüm eşqin dəryasına
Ayna gölü gəzə-gəzə.

Üfüqlər al geyəndə bax,
Seyrə çıxdı o gülyanaq.
Saçlarına çəkdi daraq
Səba yeli gəzə-gəzə.

Ala gözlər yan süzüldü,
Baxdım ona can üzüldü,
Qəlbim coşdu, sazım güldü,
Mizrab teli gəzə-gəzə.

Aşiqiyəm bu diyarın,
Vurğunuyam gözəl yarın.
Oxuyur şən mahnıların,
Pənah eli gəzə-gəzə.

TELLİ SAZIM!

Yenə güllü bahar gəlir,
Bizim elə, telli sazım!
Onu təzə nəgmən ilə
Tərif elə, telli sazım!

Göylər olub otağımız,
Aydan gəlir sorağımız.
Qoy təbimiz, ilhamımız
Dönsün selə, telli sazım!

Evlər tikək qatar-qatar,
Hər otağa girsin bahar.

Mahnı desin şən balalar
Gülə-gülə, telli sazım!

Səadətdir həmdəmimiz.
Heç olmasın dərd-qəmimiz,
Ehtiyacı, kədəri biz
Verək yelə, telli sazım!

Vaqif deyən nazlı sona,
Qonaq gəlsin Abşerona,
İstərəm ki, uçub qona
Təzə gölə[1], telli sazım!

Aşıq Pənah, bu yurda bax,
Aç sinəni varaq-varaq.
Ömür daha şad olacaq
İndən belə, telli sazım!

UŞAQLAR

İstərəm asudə gəzib-dolansın
Havada, quruda, suda uşaqlar;
Çiçəkli torpaqdan qanadlanaraq
Günəşin əlindən tuta uşaqlar!

Dünyanın üzündən çəkilsin kədər,
Sevinsin böyüklər, gülsün körpələr.
Şirin yuxusundan qalxıb hər səhər
Sübhün nəfəsini uda uşaqlar!

Qızılgül açılsın yanaqlarında,
Təbəssüm oynasın dodaqlarında.
Yeni müharibə ocaqlarında
Amandır, düşməsin oda uşaqlar!

[1] "Təzə gölə" – Ceyranbatan gölünə işarədir.

Hər kəs öz yurdunda, doğma elində
Boğsun caniləri qəzəb selində.
Cəllad tapdağında, cəllad əlində
Hayıfdır, getməsin bada uşaqlar!

Təzə meyvəsidir onlar bəşərin,
Ağalar, sözümə bir cavab verin:
İnsafdır, üstündə gəzməmiş yerin,
Torpağın altında yata uşaqlar?!

Pənahın nəğməsi düşsün hər yana,
Desin bir ağızdan onu hər ana:
Azadlıq günəşi doğma cahana,
Bütün arzusuna çata uşaqlar!

1963

MEHDİ!

Sovet İttifaqı Qəhrəmanı Mehdi
Hüseynzadəyə ithaf edirəm.

Hünərin dillərə düşəndən bəri
Oldun məclislərin söhbəti, Mehdi!
Sənin lə ucaldı uzaq diyarda
Doğma yurdumuzun şöhrəti, Mehdi!

Sənə ana oldu bizim Novxanı,
Adın qarış-qarış gəzdi cahanı.
Əlində töküldü düşmənin qanı, –
Baş tutmadı qara niyyəti, Mehdi!

Ürəyində Bakı – odlar torpağı,
Qoymadın əlindən yerə yarağı.
Sənin lə üz-üzə gələndə yağı
Qorxudan yarpaq tək titrədi, Mehdi!

Dostum, uşaqlığın keçdi bu yerdə,
Üzdün qağayı tək mavi Xəzərdə.
Yolun bu tərəfə düşmədi bir də,
Amma ayaq izin itmədi, Mehdi!

Vaxtsız ölümünə ağladı dağ-daş,
Gülən gözümüzdə gilələndi yaş.
Özün aramızdan getsən də, qardaş,
Səsin qulaqlardan getmədi, Mehdi!

Yox, igid aslanı bir güllə yıxmaz,
Adın qəlbimizdən ömürlük çıxmaz.
Tərifin min cildlik kitaba sığmaz,
Hey yazdım, dastanın bitmədi, Mehdi!

Eşqinlə qartal tək qanadlanmışam,
Neçə çay keçmişəm, dağ adlamışam.
Heyiflər olsun ki, səni hər axşam
Pənah məclislərdə görmədi, Mehdi!

ƏBƏDİDİR SƏNƏTİN

Cəfər Cabbarlıya

Könül kitabını hər açanda mən,
Gözümdə canlanır surətin sənin!
Ürəyim açılır xoş sözlərindən,
Duzludur, şirindir söhbətin sənin!

Sən dedin səhnəmiz qoy boş qalmasın,
Şir kimi meydana çıxdı Almazın.
Gurladı Elxanın, güldü Solmazın,
Sevindi Firuzən, Məmmədin sənin!

Sevil çadrasını atdı başından,
Aydın haqsızlığa elədi üsyan.

Hay verdi Baxşıya Eyvaz Əsriyan,
Çarı lərzə saldı qüdrətin sənin!

Gülüşün güldükcə Balaş ağladı,
Saranın naləsi ürək dağladı.
Gəzdi diyar-diyar Oqtayın adı,
Yayıldı aləmə şöhrətin sənin!

Sənin söz bağçanda çoxaldı güllər,
Nə sayım: Dilarə, Sitarə, Gülər...
Yaşasın əlilə güldükcə çöllər,
Bar verdi, gül açdı zəhmətin sənin!

Sən yenə dirisən, sən yenə sağsan,
Pənahın sazında oxuyacaqsan.
Demə ki, ölmüsən, demə ki, yoxsan,
Ustad, əbədidir sənətin sənin!

MƏNDƏN XƏBƏR AL

Günəşi, səhəri, gülü-çiçəyi,
Ətirli baharı məndən xəbər al.
Qönçənin qədrini nə bilir bülbül,
Çəməni, gülzarı məndən xəbər al.

Ürək sözlərimi eşitsin hamı:
Sirdaşa, yoldaşa verrəm canımı.
Verrəm sevincimi, həyəcanımı,
Dosta etibarı məndən xəbər al.

Darda sınamışam mən dəyanəti,
Sədaqət sanmaram hər "sədaqəti".
Qərəzsiz tərifi, saf məhəbbəti,
Vəfalı dildarı məndən xəbər al.

İnsanın qəlbini sıxarmı insan?
Özgənin evini yıxarmı insan?
Əhdinə yalançı çıxarmı insan?
Peymanı, ilqarı məndən xəbər al.

Bir gün durmamışam bu teldən ayrı,
Könlüm dilə gəlməz bu dildən ayrı.
Pənah yaşayarmı bu eldən ayrı?!
Xalqa vəfadarı məndən xəbər al!..

YAXŞIDIR

Aşıq, bağrına bas telli sazını,
Nəğməylə dindirsən bizi, yaxşıdır.
Danış şirin-şirin, öt şirin-şirin.
Desinlər söhbəti, sözü yaxşıdır.

Tərif et bu yerin ulduzlarını,
Ana yurdumuzun öz qızlarını.
Unutma maralın buynuzlarını,
Ceyranın can alan gözü yaxşıdır.

Dolaş oba-oba sərin yaylağı,
Ağıza dad versin inəyin yağı.
Qoyun dələməsi, camış qatığı,
Ondan da qaymağın üzü yaxşıdır.

Dünyanı əliylə dəyişir insan,
Xalqlar dövran sürür azad, mehriban
Əbədi bahara qovuşur cahan,
Qalmır səfalətin izi, yaxşıdır.

Pənah, ilhamını bu eldən götür,
Bəmdə çox dayanma, sən zildən götür.
Şirin cəh-cəhləri bülbüldən götür,
Bülbülün avazı, səsi yaxşıdır!

SƏNİN

Sevgilim, qarşından gəlib keçəndə,
Şirincə duyğular oyanır məndə.
Deyirəm: bu azad, doğma vətəndə
El sevən aşığın olaydım sənin.

Baharın fəslində açılan gülsən,
Bu şirin könlümdə ən incə telsən.
Sən uca boylusan, sən incəbelsən,
Qolumu boynuna salaydım sənin.

Üz-üzə gələndə sənlə hər an,
Görürəm gözündə gülür bu dövran.
Deyirəm o gözəl al yanağından
Bir cüt şirin busə alaydım sənin.

Oxşayır saçını səhər küləyi,
Sənsən bu Pənahın eşqi, diləyi,
Ayırmaq olarmı candan ürəyi?!
Ömürlük qəlbinə dolaydım sənin.

AŞIQ KAMANDAR
(1929–2000)

GƏRAYLILAR

SƏNİ

Mən istərəm, a Tərlanım,
Gündə yüz yol görəm səni.
Sol gözümnən sağ gözümə,
Müjdə alıb verəm səni.

Dağ inildər mələlına,
Göy guruldar cəlalına.
Dəyişməz dünya malına,
Kərəm, əhli, kərəm səni.

A dağların bəyaz qarı,
Dolanıram, Məcnunvarı...,
Çox incitmə, Kamandarı,
Tutar dərdü-vərəm səni.

QALDI

Güneylərin bənövşəsi,
Lalası dağlarda qaldı.
İgidlərin əndişəsi,
Qalası dağlarda qaldı.

Maral gəzdi xanasını,
Yana əydi şanasını,
Ovçu vurdu anasını,
Balası dağlarda qaldı.

Məcnun neçə il ağladı,
Bülbül əsdi, gül ağladı
Kərəm yandı kül ağladı,
Nalası dağlarda qaldı.

Kamandara nədir sorğun,
Ömür keçir oğrun-oğrun.
Çadır qurdu şair Vurğun
Talası dağlarda qaldı.

KEÇİBDİ

Ağ örpəkli çəmən dağlar,
Sinənnən nələr keçibdi.
Sən həmənsən, həmən, dağlar,
Fəsillər, illər keçibdi.

Elə arxa, dayaq duran,
Sinə gərib, meydan quran.
At oynadan, qılınc vuran.
İgidlər, ərlər keçibdi.

Qızıl Vəngdən aşıq Alı,
Çox elmidən olub halı.
Vətəni Göyçə mahalı,
Ustad Ələsgər keçibdi.

Borçalıdan şair Nəbi,
Dəryalar qədərdi təbi.
Unudulmaz elin dəbi,
Sadıqtək, nərlər keçibdi.

Kamandaram zər-nişanlı,
Mən səni tutmaram qanlı.
Aşıq Şəmşir Ağdabanlı,
Bir sinədəftər keçibdi.

MƏNİM

Ömrüm sazla, sözlə keçdi,
Güldü yazım, qışım mənim.
Bilmədim necə yetişdi,
Çatdı əlli yaşım mənim.

Mərfətlə gəzib dolandım,
Gah duruldum, gah bulandım.
Söz mülkündə cilalandım,
Almazdandı daşım mənim.

Kamandaram ləl seçərəm,
Mərd üçün cannan keçərəm.
Yaxşılara don biçərəm,
Sözdü al qumaşım mənim.

GƏTİRƏR

Kimin bəxti gülsə üzə.
Qismətində zər gətirər.
Adam var ki, bircə sözə,
Xəcalətdən tər gətirər.

Söz deyərsən o qayaya,
Sözün qayıdar bu taya.
Qeyrətsiz oğul ataya,
Şər üstündən şər gətirər.

Dindir aşıq Kamandarı,
Vədə keçir, ömür yarı,
Haray salar çöl quşları,
Bülbül xoş xəbər gətirər.

QOŞMALAR

YAMANLIĞA UYMADIM

Mən ellər aşığı elin oğluyam,
Ellərsiz günümü bir gün saymadım.
“Xeyir-şər qardaşdı, – deyib atalar,
Getdim, heç birinə fərq də qoymadım.

Qanana can dedim, qəlbim şad oldu,
Qanmaza dərs dedim, əmək bad oldu,
İstər qohum oldu, istər yad oldu,
Ayırmadım, yamanlığa uymadım.

Könüllər mülkünün sultanı oldum,
Buludtək boşaldım, dəryatək doldum.
Dosta sirdaş oldum, saraldım-soldum,
Pünhanı sirrini aşkar yaymadım.

Dünya cifəsindən doymayan gördüm,
Gündə yüz havaya oynayan gördüm.
Varınan, dövlətnən qaynayan gördüm,
Mən öz sənətimlə coşdum, qaynadım.

Kamandaram, çaldım telli sazımı.
Məclislər dinlədi xoş avazımı,
Ellər dedim, ellər çəkdi nazımı,
Vətənimə məhəbbətdən doymadım.

AY LƏLƏ

Güvəndiyin dağlar sehirlənibdi,
Ağ geyinib göy yaylaqlar, ay lələ.
Göylərdən yerlərə nur ələnibdi,
Hər fəslin öz donu var, ay lələ.

Dünya özü binasından hikmətdi.
Hər hikmətin təməl daşı qeyrətdi.
Namərdin ünvanı elə namərddi,
Mərd kişinin ünvanı var, ay lələ.

Yar yaranıb canda yara çəkməyə,
Düz ilqara, etibara çəkməyə.
Kamandarı yenə dara çəkməyə.
Məhəbbətin fərmanı var, ay lələ.

AĞLAMAZMI?!

Naşı səyyad bərələrə enəndə,
Çəmən ağlamazmı, çöl ağlamazmı?!
Zamana dəyişib, il bəd gələndə,
Bahar ağlamazmı, sel ağlamazmı?!

Al yaşıl geyməsə silsilə dağlar,
Göllər viran qalar, sonalar ağlar.
Əyər bar verməsə bağçalar-bağlar,
Bülbül ağlamazmı, gül ağlamazmı?!

Atalardı, göz ondadı, söz onda,
İnsan bədnam olar yolun azanda.
Hakim bir taleyə böhtan yazanda,
Qələm ağlamazmı, əl ağlamazmı?!

Torpağındı becərən də, biçən də,
Biləcəksən qəm şərbətin içəndə,
Yaxşılar dünyadan vaxtsız köçəndə,
Mahal ağlamazmı, el ağlamazmı?!

Kamandaram, çox aradım fərqini,
Az görmədim bu dünyanın mərdini,
Söylədikcə tarixlərin dərdini,
Kaman ağlamazmı, tel ağlamazmı?!

SƏMTİ-SƏMTİNƏ

Qüdrətdən yaranmış o ulu dağlar.
Necə də boylanır səmti-səmtinə.
Yalçın qayaları orduya bənzər,
Səf-səf sıralanır səmti-səmtinə.

Bir üzü sel-yağış, bir üzü quru,
Yerdə çiçək açır Günəşin nuru.
Karvan buludların leysanı duru,
Gül-çiçək nurlanır səmti-səmtinə.

Təşnələr loğmanı qaynar bulaqlar.
Ötən yolçuları yolundan saxlar.
Neçə don geyinir gündə ruzigar,
Fəsillər dolanır səmti-səmtinə.

Bir anın içində dəyişir aləm,
Zirvədən dərəyə enir duman, çən.
Laçın qayalardan, qartal zirvədən,
Baxıb xumarlanır səmti-səmtinə.

Birdən gülümsəyir günəşli gündüz,
Dumandan, çiskindən qalmayır bir iz,
Açılır göylərin üzü tərtəmiz.
Buludlar sallanır səmti-səmtinə.

Yamyaşıl meşəli, cənnət guşəli,
Laləli, nərgizli, tər bənövşəli,
Dağlarda çaylar var çox əndişəli,
Aramla yollanır səmti-səmtinə.

Əzəldən heyranam qurğu qurana,
Baharda leysana, qışda borana,
Kamandar, nəzər sal dağa, arana,
Təbiət daranır səmti-səmtinə.

AZƏRBAYCAN

Sənə can demişəm, Azərbaycanım!
Dinim-imanımsan dinlər içində.
Harda dara düşsəm qaynayar qanım,
Ünüm sənə çatar ünlər içində.

Sənət meydanında qurulub xanam,
Bir sazım-sözümdü, barım-barxanam.
Mən sənə bağlıyam, mehriban anam,
Milyonlar içində, minlər içində.

Aşıq Kamandarı hərdən yad elə,
Ən gözəl günlərin öndədir hələ.
Bakımla Təbrizim versin əl-ələ,
Min yaşa xoş aylar, günlər içində.

GÖRDÜM

Çarxın gərdişinə qıldım tamaşa,
Çoxları gəlmişdi amana gördüm,
Kimi sarılıbdı zərə, daş-qaşa.
Kimi ümid bağlar gümana, gördüm.

Kiminin həvəsi dövlət-vardadı,
Kiminin qisməti düşüb dardadı.
Dünyanın sədası bəxtiyardadı,
Bəxtikəm Məcnunu divanə gördüm.

Kamandaram, hər mahalda var adım,
Elə gərək oldum, elə yaradım.
Dolandım dünyanı, gəzdim, aradım,
Yurduma xoş gəlib zamana gördüm.

SƏNƏTİM

Ulu bir sənətə könül bağladım,
Neçə könüllərin bənnasıyam mən.
Sazımla-sözümlə, hekayətimlə,
Haqqın, ədalətin aynasıyam mən.

Ustadlar adını zikr eləyirəm,
Dediyim hər sözü fikr eləyirəm.
Bugünkü dövrana şükr eləyirəm,
Nə şeyx, nə babı, nə asıyam mən.

Namərdin köksünü çarpaz dağlaram,
Namusa, qeyrətə könül bağlaram.
Elin şad günündə coşub-çağlaram,
Elin kədərinə yanasıyam mən.

Kamandaram, zəri-dürdən seçərəm,
El yolunda candan-başdan keçərəm.
Gəlmişəm, dünyaya, bir gün köçərəm,
Hər gün son günümü anasıyam mən.

DÜNYA

Döşünə döyənin, mənəm deyənin,
Nəyi var əlindən alıbdı dünya.
Güldürəni güldürübdü başacan,
Ağladanı ağlar salıbdı dünya.

Çoxları feyz alıb bəd əməlinnən,
Məst olub bəxtinin gəlhagəlinnən,
Tutub yaxasınnan, əyib belinnən,
Onu da ilantək çalıbdı dünya.

İyidlər olubdu tərlan havalı,
Cavabsız qalıbdı sorğu-sualı.
Fatehlər əzəndə əhli-əyalı,
Dərdindən saralıb-solubdu dünya.

Günəş göy üzündə necə dövr edir?
İnsan ulduzları niyə seyr edir?
Görəsən, məqsədi, mətləbi nədir?
Elə hey boşalıb, dolubdu dünya?!

Qana boyanmasa altun yəhəri,
Yüz çalış, əylənməz ömrün kəhəri.
İgid oğullara verib zəhəri,
Analar saçını yolubdu dünya!

De, Mənsur, Nəsimi nec oldu, hanı?!
"Tanrıyam" – deyənin töküldü qanı.
Torpağa döndərib, neçə min canı,
Amansız, zülmkar olubdu dünya.

Qoy hələ susmasın sazın, Kamandar,
Dərdlərə dərmandı sözün, Kamandar,
Desinlər: köçsən də özün, Kamandar,
Qalıbdı sənətin, qalıbdı dünya.

AŞIQ İMRAN
(1928-2000)

GƏRAYLILAR

DALINCA

Qismətdirsə özü gələr,
Çox dolanma var dalınca.
Şübhəlidən uzaq dayan,
Getməz namus-ar dalınca.

Arzu-dilək min ev tikər,
Halal bağban halal əkər.
Qədirbilməz əzab çəkər.
Yanma günahkar dalınca.

İmran dostdan dala qalmaz,
Dil yarası heç sağalmaz.
Daş qəlbə etibar olmaz,
Düşmə biilqar dalınca.

BİRİ QANAR, BİRİ QANMAZ

Yaranmışın qaydasıdı,
Biri qanar, biri qanmaz,
Gizli-gizli eşq oduna,
Biri yanar, biri yanmaz.

Gözlə adı, düşsən hara,
Mərd of deməz çəksən dara.
Könül vermə biilqara,
Arif qanar, nadan qanmaz.

Dost olmaya belə saxta,
Ad gəzməyə varda-yoxda,
Ölüm olsa bərk ayaqda,
Namərd qaçar, mərd usanmaz.

İmran qurub büsatını,
Tanıyın əsli-zatını,
Yeri gəlsə, öz adını
Gəda danar, kişi danmaz.

ƏLAMƏTDİR

Əllərindən badə almaq,
İnan, mənə ziyarətdir.
Yar yarından ayrı düşsə,
Dünya ona qiyamətdir.

Bir günün dəyməzmi aya,
Xəstə görsə tapar saya.
Şux qamətə, göyçək boya,
Kim baxarsa ziyarətdir.

İnciməynən, gözəl nigar,
İmran qalıbdı intizar.
Xoş yaradıb pərvərdigar,
Sən olan yer bir cənnətdir.

GƏLƏ

Səhər tezdən oyananda,
Yarın gəzə-gəzə gələ,
Xoş danışa, xoş da gülə,
Dodağında məzə gələ.

Yetəsən arzu-diləyə,
Şeh ələyə, nur çiləyə,
Ağ buxağa, zər biləyə
Hər arzular təzə gələ.

Yüz yaşasa olar cavan,
Yar yarını sevə hər an,
İmran, yoxa çıxa hicran,
Canan işvə-naza gələ.

SORUŞ

Mənim əhvalımı bilmək istəsən,
Qumru bulaqların gözündən soruş.
Xınalı kəkliyin nəğmələrindən,
Ceyranın, cüyürün izindən soruş.

Köhlən sür dalımca arana, dağa,
Üstünə gah yağış, gah şəfəq yağa.
Baş vur ağ çadırlı yaşıl yaylağa,
Çoban ocağının gözündən soruş.

Bu gözəl yurdumu gəz yavaş-yavaş,
Mənim sirdaşımdır hər qaya, hər daş.
Yerimi gec tapsan eyləmə tələş,
Yolun yoxuşundan, düzündən soruş.

Bu odlar yurdunda azad bir quşam,
İstərəm yurduma min dastan qoşam.
Qartal yuvasında qonaq qalmışam,
Xəbər al, dağların özündən soruş.

Əgər unutmasan əhdi-peymanı,
Düşüb sorağıma dolan hər yanı.
Ellər məclisində gəl gör İmranı,
Aşığın halını sazından soruş.

DAĞLAR

Dirilik suyudur buz bulaqların,
Yetişib hər yana sorağın, dağlar.
Qayalar bağrından yollar açılıb,
Yanır düzüm-düzüm çırağın, dağlar.

Çiçəyə qərq olub torpağın, daşın,
Gəncləşir taleyin, gəncləşir yaşın.
Ağ papaq qoymusan, ağarır başın,
Amma oda yanır ayağın, dağlar.

Leysan yağıb kəsir, sular durulur,
Çeşmələr başında büsat qurulur.
Hüsnünü bir görən min yol vurulur,
Loğmandı, təbibdi, qucağın, dağlar.

Bir bax Dəlidağın gəlin çağına,
Anam İstisuyun çilçırağına.
Sən sütun olsan da göyün tağına,
İnsandır sənin də dayağın, dağlar.

Güllərə şeh düzən bahar dumanı,
Yaşıl meşələrin ipək yorğanı.
Çağır məclisinə aşıq İmranı,
Nəğməsiz getməsin qonağın, dağlar.

OLMASIN

Amandır, sevgilim, bağışla məni,
Qoy bizim eşqimiz güman olmasın.
İnciyib küssək də öz qəlbimizdə,
Arada kəmfürsət, yaman olmasın.

Bisütun dağının Fərhadı mənəm,
Nəbilər, Babəklər övladı mənəm.
Poladın əyilməz sal qatı mənəm.
Qoy təki qəddimiz kaman olmasın.

Ellər məclisində çox sınanmışam,
Dostların yolunda oda yanmışam.
İmranam, meydanda tək dayanmışam,
Niyyətim şadlıqdı, fəğan olmasın.

DƏLƏDUZ

Neçə sifətin var, neçə üzün var,
Rütbə qazanırsan, üz vura-vura.
Dosta xain gözün kor olsun görüm,
Nə qədər ev yıxdın göz vura-vura.

Bilirəm mənə də kəmənd atırsan,
Köhlənə sataşma, axsaq qatırsan.
Gizlində aşıma zəhər qatırsan,
Üzdə sağlığıma yüz vura-vura.

Mərdlər meydanında aşıq İmran var,
Səndə nə qeyrət var, nə də ki qan var,
Yükləyib belinə nə ki saman var,
Sürələr yanına biz vura-vura.

GƏLDİM

Gəzdim səni bu dağların başında
Büründüm çiskinə, dumana, gəldim.
Vüsal çeşməsindən içmək istədim,
Hicranın əlindən amana gəldim.

Məni oda yaxdı ipək tellərin,
İşvəli-qəmzəli şirin dillərin.
Yadıma düşəndə şümşad əllərin,
Sənə loğman deyib dərmana gəldim.

Eşqin göylərindən xəyalım enməz,
Bir ümid bəslədim, işığı sönməz.
İmran Kərəm kimi yolundan dönməz,
Əslinin eşqiylə tüğyana gəldim.

BİR MURAZ OLDU

Dolanmadım ellərində əfsanə,
Sənətimi duymayanlar az oldu.
Dil açdı sinəmdə ana laylası,
Laylamı car edən telli saz oldu.

Eyləmərəm taleyimdən şikayət,
Ömrüm şirin hekayətdi, hekayət.
Arzularım çiçək açdı nəhayət,
Ömrüm-günüm bahar oldu, yaz oldu.

Bir şeyda bülbüləm, vətəndi anam,
Gözəl keçir ayım, günüm, zamanım.
Şirin-şirin ötən aşıq İmranam,
Bu günlər ömrümdə bir muraz oldu.

YARANIB

Gözlərin ülkərdən, saçın zülmətdən
Baxışın, gülüşün nazdan yaranıb.
Avazın çeşmədən, sözün şəkərdən,
Qəlbinin telləri sazdan yaranıb.

Boyun təbiətin yaraşığıdır,
Xəyalın qəddinin sarmaşığıdır,
O şux təbəssümün ay işığıdır,
Yanağın, dodağın gözdən yaranıb.

Eşqin dəryasında bir gövhərmisən,
Məhəbbət mülkündə bəxtəvərmisən,
Ürəklər oxşayan söz istərmisən,
İmranın ürəyi sözdən yaranıb.

BAĞLIYAM

Vətən nəfəsilə nəfəs alıram,
Sazımla, sözümlə elə bağlıyam.
Arzum bu ellərə şadlıqdı mənim,
Qüssələr dağıdan telə bağlıyam.

Şadlıq dünyasında mayalanmışam,
Azadlıq eşqilə sayalanmışam.
Yaxşılıq oduyla daim yanmışam,
Nə fitnəyə, nə də felə bağlıyam.

Səfa üçün hər cəfaya dözmüşəm,
Xoş niyyətlə hər mahalı gəzmişəm.
Həqiqətə şeir, dastan yazmışam,
İmranam bülbültək gülə bağlıyam.

GÖZƏL

Bəzənib-düzənib çıx seyrangaha,
Sənsən yaraşığı yaylığın, gözəl.
Açılıb yolları, bitib gülləri,
Gözləri yoldadır, bulağın gözəl.

İndi novbaharın gəlhagəlidir,
Tülək tərlan kimi könlüm dəlidir.
O yerə baş qoyub can verməlidir,
Hansı daşa dəysə ayağın, gözəl.

Cilvələnib dağdan-dağa aşarsan,
İmran kimi hər gülə söz qoşarsan,
Telli sazın tilsiminə düşərsən,
Yayılar ellərə sorağın, gözəl.

ƏZİZİM

Könül aynasını daşda sınama,
Nazikcə şüşələr sınar, əzizim,
Dara düşməmisən, bilmirsən hələ,
Dost dostu nə sayaq sınar, əzizim.

İlqar düz olarsa, hicran yüz olsun,
Arada dağ olsun, ya dəniz olsun.
Qəlbin eşq odunda yanıb köz olsun,
Sevənlər əlbət ki, yanar, əzizim.

Şöhrətə uyma ki, endirər səni.
Pis dost külək kimi söndürər səni.
İmran telli sazla dindirər səni,
Düşməz yaxşı dostdan kənar, əzizim.

AŞIQ ƏKBƏR
(1933–1991)

GƏRAYLILAR

OLMASIN

Dilə gəlsin xoş arzular,
Bağçalar barsız olmasın.
Meşələrim bənövşəsiz,
Zirvələr qarsız olmasın.

Dolaylardan bir də keçək,
Gözəllərə lalə seçək,
Qoy vaxtsız solmasın çiçək.
Qızlar ilqarsız olmasın.

Müjdə versin bahar yeli,
Sənəmlər bürüsün eli.
Koroğlunun Çənlibeli
Telli, Nigarsız olmasın.

Aşıq Əkbər, sel kimi coş,
Arzunu saf arzuya qoş,
Ana quşun yuvası boş,
Yurdu bahasız olmasın.

SƏN DƏ, MƏN DƏ

Dostum, yaxşı dolanırıq
Bu dövranda sən də, mən də.
Al şəfəqə boylanırıq,
Bu dövranda sən də, mən də.

Bir əyilməz uca dağıq,
Qəlbi təmiz, üzü ağıq.
Qəmdən, uzaq, kefi çağıq,
Bu dövranda sən də, mən də.

Gör necə də bəxtiyarıq,
Hər şənlikdə biz də varıq,
El-obaya minnətdarıq,
Bu dövranda sən də, mən də.

Əkbərəm, güllü bağ kimi,
Cüt göyərdik yarpaq kimi,
Bəhrə verdik torpaq kimi,
Bu dövranda sən də, mən də.

AĞRIN ALIM

Ustad şairimiz O.Sarıvəlliyə

Sərin-sərin bulaqlardan
İçdim yenə, ağrın alım.
Çiçəklərin arasından,
Keçdim yenə, ağrın alım.

Nəğmə dedim bir nigara,
Düzdə gülə, dağda qara.
Çobanlarla yaylaqlara,
Köçdüm yenə, ağrım alım.

Güldü qızlar gözlərindən,
Nur süzüldü üzlərindən.
Əkbərəm, el sözlərindən
Seçdim yenə, ağrın alım.

DAĞLAR

Qərinələr uzaqlaşıb,
Dolubsunuz yaşa, dağlar!
Veribsiz arxa-arxaya,
Dayanıbsız qoşa, dağlar!

Gecə zirvələr aylıdır,
Sellər haraylı-haylıdır
Çöllərin güllü xalıdır,
Çayların tamaşa, dağlar.

Quzeylərdə yatar qarın,
Əkbərə də var ilqarın,
Yağış yağır, narın-narın,
Yaşa dağlar, yaşa dağlar!

DAĞ İÇİNDƏ

Bahar fəsli qoca bağban,
Cəfa çəkər bağ içində.
Dərdsiz, qəmsiz, arsız adam.
Böyrək bəslər yağ içində.

Gözüm qalıb oylaqlarda,
Sərçeşməli bulaqlarda.
Yayda çoban yaylaqlarda,
Sürü saxlar dağ içində.

Əkbər, günlər aya çatar,
Aralığı payız qatar.
Qışda dağlar qarda yatar,
Bürüncəyi ağ içində.

QOŞMALAR

AŞIQ

Saz götürüb mənəm deyib məclisdə,
Başını yuxarı qaldırma, aşıq.
Özündən güclüyə rast gələndə sən.
Əlindən sazını aldırma, aşıq.

Çoxları sənətə təzə başlayıb,
Toyda gülüşməyə məzə başlayıb.
Kamil ustadlarla sözə başlayıb,
Qanad-quyruğunu yoldurma, aşıq.

Alanda üzünə oxu, kamanı,
İldırım tez vursun görüm yamanı.
Məclisdə sifariş olan zamanı,
Elin qarşısında lal durma, aşıq.

Əkbər ad qazanıb eldə-obada,
Mən görmüşəm ölüm olur davada.
Yayın bürküsündə isti havada,
Özünü şahmara çaldırma, aşıq.

GÖRDÜM

Dolandı zimistan, gəldi növbahar,
Bülbüllər ötüşdü de yazdı gördüm.
Yenə çöllər geydi toy libasını,
Dağların ətəyi bəyazdı gördüm.

Dünyanın bəzəyi bahardır, bahar,
Günəşdən əridi qışda yağan qar.
Səndə nə qaydadır, ay dəli Qoşqar,
Həmişə başını ayazda gördüm.

Əkbər də sözünü deyər yerində,
Gözüm qalmış bir pərinin sərində.
Yarı gəzdim, yar eşqilə dərindən.
Ondakı məhəbbət dayazdı gördüm.

GƏZDİ DƏ GƏLDİ

Fəzalar qoynunu gəzən qəhrəman,
Ulduzlu dəryanı üzdü də gəldi.
Səadət yolunda çırpınan ürək,
Bütün çətinliyə dözdü də gəldi.

Bizim texnikanın qüdrətinə bax.
Fəth etdi fəzanı hamıdan qabaq.
Yenə çiçəkləndi günəşli sabah,
İgidlər göyləri gəzdi də gəldi.

“Soyuz-2” gəmisi tərlan quş kimi,
“Soyuz-4” gəmiyə oldu səmimi.
Əkbərin sazında ötən hər simi,
Ayın sinəsinə düzdü də gəldi.

GÖZƏL QIZ!

Nə vaxtdır görmürəm gül camalını,
Olmaya dəyişib halın, gözəl qız?
Camalın günəşdir, qaşların hilal,
Nöqtədir çəməndə xalın, gözəl qız!

Qıvrım saçlarına gül düzə-düzə,
Nazik əllərinlə hüsnünü bəzə,
İstərəm həmişə qalsın tər-təzə.
Bəyaz yanağında alın, gözəl qız!

Əkbərə doğmadır hər el, hər oymaq,
Görmədim sənin tək dodağı qaymaq,
Söylə, söhbətindən olarmı doymaq,
Şirindir ləbində balın, gözəl qız!

OLDU

Yollara dikildi gözlərim yenə,
Yar gələn o yollar gəlinməz oldu.
Düşüb həsrətinə alışdım, yandım,
Könlümün qübarı silinməz oldu.

Gəzdi səhərçağı şehli çəməndə,
Saldı bir baxışla məni kəməndə,
Gəldi yaz dumanı, əridi çəndə,
Axtardım, məkanı, bilinməz oldu.

Aradım, axtardım, gəzdim dünyanı,
O güllü çəməndə gördüyüm hanı?
Əkbər ilk vüsalın oldu qurbanı,
Dərdi ürəyində bölünməz oldu.

GƏZMİŞƏM

Cavan çağlarımdan təmiz havalı,
Yaylaqları bala-bala gəzmişəm.
Etibarlı dostun, əziz qardaşın,
Evlərində qala-qala gəzmişəm.

Gəlin şənliyinə bizim ellərin,
Doyun nəğməsindən şirin dillərin,
Təzə parlaqlanan şux gözəllərin,
Toylarını çala-çala gəzmişəm.

Əkbərəm, yadımdan çıxammaz, hava,
Sazımla elləri gəzdiyim qoşa.
Ceyranbatan, Göygöl, Hacıkənd, Şuşa,
Bu yerləri tala-tala gəzmişəm.

KÜRÜN

O tayı, bu tayı yaşıl meşədir,
Gözəldir, göyçəkdir camalı Kürün.
Axır hər tərəfə işıq selləri,
Sığmır dastanlara cəlalı Kürün.

Göz dəyməsin, yaşılbaşdır sonası,
Əskik olmur kəkliyinin xınası.
Uzaq düşüb, aralanıb anası,
Mələyir körpəcə maralı Kürün.

Sözü safdır bu Əkbərin sözü tək,
Coşub yenə telli sazı özü tək.
Ləpələri həlimləşib quzu tək,
Keçmişi qadalı, balalı Kürün.

İNSAN

Əgər olmasaydı qurmaq həvəsi,
Əzəldən cahana gəlməzdi insan.
Zülmət gecələrin, çətin günlərin,
Ox təki bağrını dəlməzdi insan.

Uca zirvələrdə qar olmasaydı,
Aşıqlar qəlbində yar olmasaydı,
Haça bulaqlarda nar olmasaydı,
Gözəllik sözünü bilməzdi insan.

Əkbər səadətdən ilhamlar alar,
Yorulmaz həyatda, zəfərlər çalar.
Qalxar el gözündə, qəhrəman olar.
İgidsə, əbədi ölməzdi insan.

ÇOBAN DAĞINDA

Kim güzar eyləsə Ceyran çölünə,
Onun töhfəsi var Çoban dağında,
Qoyunlar mələşir, atlar kişnəyir,
İgidlər bəhsi var Çoban dağında.

Yanları yarpızdır durna göllərin,
Harayı gözəldir qıjov sellərin.
Bizim mahalların, bizim ellərin,
Sürülər dəsi var Çoban dağında.

Çobanlar gülüşür ocaq başında,
Özgədir nəfəsi burda qışın da.
Gəlin, qonaq olun Şirək daşında
Əkbərin səsi var Çoban dağında.

AŞIQ İSGƏNDƏR AĞBABALI
(1925–1992)

BAYATILAR

Tay-tuşdan dalda qaldım,
Sazımı qəmlə çaldım.
Nə dağlardan bir doydum,
Nə əməlli kam aldım.

Dağlar mənə gül göndər,
Dağ havası, yel göndər.
Sənsiz dəli kimidir
Nələr çəkir İsgəndər.

Ellərim köçdü mənim,
Axırım puçdu mənim.
Qapımı bağlı qoydu,
Çırağım keçdi mənim.

Obalarım boş qaldı,
Gözlərimdə yaş qaldı.
Daşı töküm başıma,
Bir daş, bir də baş qaldı.

Güzar edim haraya,
Kimsə çatmaz haraya.
Dərbədərəm, yerim yox
Qara tutdum qaraya.

Haralıyam haralı,
Sazım, özüm yaralı.
Tale belə gətirib
Sözü düzüm yaralı.

Eləmi yetim olar,
Yurdsuzlar yetim olar.
Ölməmişdən, ilahi,
Dağlara yetim, olar?!

Qəfildən tutdu qəza,
Tanrıdan gəldi cəza.
Səpələndik çöllərə,
Yurdu verib güdaza.

Mənim tək ağlayan yox,
Sinəsin dağlayan yox.
Dərd çalıbdı ilan tək
Yaramı bağlayan yox.

Tapammıram bir dəyə,
Yurduma yaddı yiyə?
Fələk salıd didərgin
Başıma döyə-döyə.

Dağ ola, orman olar,
Dərdimə dərman olar.
El dağıldı, yurd qaldı –
Bir belə fərman olar?!

Yeri, a aşıq, yeri,
Elə yar, aşıq, yeri.
Vətənin qürbətdədir.
Yoxdu bir işıq yeri.

İsgəndərin sazı var,
Baharı var, yazı var.
Vətən dərdi öldürür,
Həsrətin ayazı var.

Qəfil tutuldu bərə,
Çəkdi məni qəm girə.
Oldum qaçqın, didərgin
Yolum düşdü Şəmkirə.

İtdi meylim, həvəsim,
Çiynimdə qəm heybəsi.
Nə Ağbaba yağı var,
Nə Şörəyel meyvəsi.

Bülbül qəfəsə düşdü,
Dərd qanan kəsə düşdü.
Elə bildim dağdayam,
Qulağım səsə düşdü.

Nələr qaldı,
Yurdda gör nələr qaldı.
Bir anasız quzudur
Ürəyim mələr qaldı.

Bu dadı
Tale məni budadı.
Didərginlik nə imiş –
Axır gördüm bu dağı.

Qurud hanı
Göy çeçil, qurud hanı?
Allah görüm yox etsin
Qanımı qurudanı.

GƏRAYLILAR

SÖYÜN

Təcnis-gəraylı

Bu dünyada tayı yoxdu,
Birdi, bir Saraşdı Söyün.
Deyir mənə kiçik qardaş,
“Dərddən çıxıbdı kösöyün”.

Meydan həmişə şirindi,
Meydanda odu şir indi.
Nə doğmadı, nə şirindi,
Düz demirəm, mənə söyün.

Ustadı, görməsin bəla,
Görüşürəm bala-bala.
Barmağım batıbdı bala,
Ay İsgəndər şənlən, söyün.

AĞLAYAR

Mürvəti gəraylı

Yarı yardan ayırsalar
Qədd əyilər,
Əğyar gülər.
Pisikər ər,
Göz ağlayar.
Eşq ataşı hey yandırar,
Saz götürər,
Köks ötürər.
Dərd gətirər,
Söz ağlayar.
Vəfasız olar gözəlin
Unutmaz yarın əzəli.
Əlini əldən üzəli
Kədər olar,
Tez-tez dolar.
Qəmli olar,
Yüz ağlayar.
İsgəndər də dəmə həsrət,
Məni yıxdı, demə, həsrət.
Ət-qanımı əmər həsrət
Canmı qaldı,
Qanmı qaldı.
Sanmı qaldı,
Saz ağlayar.

BAŞINA DOLANDIĞIM

Mürvəti gəraylı

El şairi İmanıya

Nə deyim, nə danışım.
Ay başına dolandığım,
Baxt deyilən olub məndə
Zay, başına dolandığım.
Köməyim yox, arxam yoxdu,
Vay, başına dolandığım.
Nə istərsən, buyur istə,
Pay, başına dolandığım.
Mənim yüküm qəmdi sana
Say, başına dolandığım.
Meydan açıbsan salıbsan
Hay başına dolandığım.
İsgəndəri döy, haqqın var,
Yay, başına dolandığım.

QASIM

Xəstə oldun qürbət eldə,
Gözün yolda qalan Qasım.
Anan yoxdur sinə didə,
Elsiz-günsüz ölən Qasım.

Bacın ağlar, əli çatmaz,
Atan yoxdur, dada yetməz,
Cənazəndən qardaş tutmaz,
Bir gül olub solan Qasım.

Aşıq İsgəndərəm özüm,
Rəhmət olsun sənə sözüm.
Yoxluğuna necə dözüm,
Məni məndən alan Qasım.

A QAYNANA

Evdə zibildən yer yoxdu
Görsün gözün, a qaynana.
Nə yatıbsan bir bizə gəl,
Ölsün qızın, a qaynana.

Bir qonaq ki gəlsə evə,
Ara dəyər, olar dava,
Batıb hisə xurcun, gəvə
Baxsan özün, a qaynana.

Hirsə gəlib durar özü,
Sağa-sola dönər gözü
Niyə doğdun belə qızı,
Sınsın dizin, a qaynana.

İsgəndərəm, qocalmışam,
Dərd-ələmdən güc almışam.
Arvad deyə gic almışam
Necə dözüm, a qaynana.

DAĞLAR

İndən belə kimə qaldı,
Açılan güllərin dağlar.
Xarabaya can verərmi,
O axan sellərin dağlar.

Kim verər alam izini,
Keçəm təpəni, düzünü.
Görə bilmirəm üzünü,
Əsirmi yellərin, dağlar.

Seyrəkləndik qəm-kədərdən,
Sənə baxdıq gerdən-gerdən.
Bir soraq al İsgəndərdən,
Dağıldı ellərin dağlar.

GÖRƏMMƏDİM

Yandı bağrım dərd əlində
Şərəf, səni görəmmədim.
Qəhərləndim dönə-dönə
Şərəf[1], səni görəmmədim.

Adını eşitdim, bildim
Sözünə sevindim, güldüm.
Yolların üstünə gəldim,
Şərəf, səni görəmmədim.

Saza-saza yanan sənsən,
Dərd anlayan qanan sənsən.
Gül üstünə qonan sənsən,
Şərəf, səni görəmmədim.

İsgəndər dərdinə yiyə,
Talem belə gəldi niyə.
Qaldım "qardaş" deyə-deyə,
Şərəf, səni görəmmədim.

BU GƏLƏN XƏVÇİ, BU GƏLƏN

Salıb cınqırı qoluna,
Alıbdı yolu əlinə,
Doğru gələrmi dilinə,
Bu gələn xəvçi, bu gələn.

Bənzəri yoxdu laçına,
İnək vurubdu qıçına,
Peyin bulaşıb saçına,
Bu gələn xəvçi, bu gələn.

[1] Şərəf – Aşıq Şərəf Taşlıova

Döşündə bağlar neçə cür,
Tapır hərədə bir puçur[1],
Yerimir, elə bir uçur
Bu gələn xəvçi, bu gələn.

Mantara, parçı yanında,
Arvaddı, kişi donunda?
Sarsaqlıq çoxdu canında
Bu gələn xəvçi, bu gələn.

Arvadının ağzı əyri,
Görəndə yarılır bağrı,
Canına düşübdü ağrı,
Bu gələn xəvçi, bu gələn.

Ay dırdabel, teşibaldır
İsgəndəri tanı, aldır.
Aşıq səni dilə saldı:
Bu gələn xəvçi, bu gələn.

EYLƏDİ

Bizim arvad coşdu yenə
Çənəsini saz elədi.
Tənə vurdu tənə üstdən
Məni yoluq qaz elədi.

Bəmdən düşdü, zilə qalxdı,
Gürz götürdü, qılınc taxdı.
Gileylə yandırdı-yaxdı,
Bir yaxşı avaz elədi.

Ha dedim enə bir pəsə,
Nərə çəkdi bir nəfəsə,
Qonşular yığıldı səsə,
Guya mənə az elədi.

[1] Puçur – səhv

Gözüm yumdu, ağız açdı,
Quzğun oldu göyə uçdu.
Ayaq altından yer qaçdı,
Özün nataraz elədi.

Qanmadı sözümü bircə,
Boydan qorxaq, arıq, xırça,
Cin kimidir – bircə parça
İsgəndərə naz elədi.

ARVAD

Ev qurarmı, iş görərmi,
Dağı-daşı gəzən arvad.
Ər qulluq deyəndə hürküb
Buzov kimi təzən arvad.

Qeybət edər çənəsi saz,
Üzündə bir abır olmaz.
Yadına Allahı salmaz,
Yalanları düzən arvad.

Nə qandırar, nə də qanar,
İsgəndəri qanmaz sanar.
Düz sözdən od tutub yanar
Haqdan əlin üzən arvad.

YA RƏSUL, SƏNDƏN MƏDƏD

Mən ürfan adamıyam,
Aşıq kimi aldım nam.
Sözlə şənlənir xanam,
Ya Rəsul, səndən mədəd.

Göylərə üz tutmuşam,
Şadlıq daşın atmışam,
Qəmdən ocaq çatmışam,
Ya Rəsul, səndən mədəd.

Yurdum çıxıbdı əldən,
Ağbaba adı dildə,
Pərişan dərdli el də,
Ya Rəsul, səndən mədəd.

Xoşum var "Ürfani"yə,
Dalınca "Ruhani"yə,
Ömür gedir faniyə,
Ya Rəsul, səndən mədəd.

Sənətkaram yetkinəm,
İsgəndərəm qaçqınam,
Yar-yoldaşdan seçkinəm,
Ya Rəsul, səndən mədəd.

GƏLDİ

Nalə çəkər, qan ağlaram
Yanvar ayı qara gəldi.
Mənim ahu-fəryadımdan,
Dağlar-daşlar zara gəldi.

Şəhid oldu neçə oğul:
Qadın, kişi, cavan-cahıl,
Düşmən qarı, düşmən paxıl,
Bakıya azara gəldi.

Küçələrə qan çiləndi,
Sonra qərənfil ələndi.
Yağı baxdı məzələndi,
Can alan bazara gəldi.

Cənazələr götürüldü,
Tez haqqına yetirildi,
Bu il necə betər ildi,
Bəd gözə, nazara gəldi?

Günlər keçir nə simətli,
Ay İsgəndər halım qəmli,
Kədərli, yaslı, matəmli,
Dərd bizə güzara gəldi:
Yanvar ayı qara gəldi.

QOŞMALAR

GÖRDÜM

On-on beş yaşında saz aldım ələ,
Dolandım hər yanı, dünyanı gördüm.
Ellər qarşıladı şən, gülə-gülə,
Yatanda yuxumda mövlanı gördüm.

41-ci ildə millət pozuldu,
Çoxları dağıldı, çoxları öldü.
Məni el saxladı, köməkdar oldu,
Hər yerə yol saldım, hər dini gördüm.

44-cü ildə qarışdı başım,
Elə bil qaralar geymişdi yaşım,
Məndən üz döndərdi qohum-qardaşım,
Baxdım qara gəldi, qalanı gördüm.

14 evə baxdım, kömək eylədim,
Şirin sözlə hər bir yanı boyladım,
Qürbət eldə bir əlaqə bağladım,
Məkkə, Mədinəni, Minanı gördüm.

Ellər hörmət qoydu, ucaldım, fələk,
Bir neçə aşıqdan bac aldım, fələk,
İsgəndərəm indi qocaldım, fələk.
Əzrayıl cəngində divanı gördüm.

BU YERLƏR

Qardaşım Elbəyi, eşit sözümü
Bizi dərdə salan yerdir bu yerlər.
Boran çoxdur, qar tutubdu gözümü,
Şirin canım alan yerdir bu yerlər.

Bir yandan qar gəlir, bir yandan duman,
Titrəyir dizlərim, halım çox yaman,
Bizim sağlığımız gümandı, güman
Gözüm gerdə qalan yerdir bu yerlər.

Nə yol var, nə iz var, göz-gözü görmür,
Nə etsin İsgəndər ayazı görmür?
Tufan şiddətlənib, heç ara vermir,
Qurd düdüyün çalan yerdir bu yerlər.

ZÖHRƏ

Sən bir çiçək idin təzə açılmış,
Bəs niyə soldurdun gülləsi, Zöhrə.
Çox cəfa çəkmişdin qalmadın yaza.
İndi də lal etdin dilləri, Zöhrə.

Kimlər sordu sənin müşkül halını?
Öz-özünə layiq bildin ölümü,
Kimlərə tapşırdın o dörd balanı?
Tifillər gözləyir yolları, Zöhrə.

Aşıq İsgəndərəm düşmüşəm naşı,
Mənim də tökülür gözümün yaşı
Yandırdın qonşunu, qohum-qardaşı,
Bürüdün matəmə elləri, Zöhrə.

BİRƏR-BİRƏR

Yaşlandım, ay ellər, keçdi dövranım,
Düşür gözlərimdən yaş birər-birər,
“Aydı, gündü gəlib keçər ömürdən”,
Atılır tarixdən daş birər-birər.

Hər gecə, hər gündüz pozulur halım,
Elə bir qarşımda dayanıb ölüm.
Boşalıb qollarım, titrəyir əlim
Baxıram pozulub huş birər-birər.

İsgəndərəm, eldə sənətkar odum,
Eşqim cuşə gəldi, qaynadım doldum.
Dolandım el-oba, indi qocaldım
Ağardı bığ-saqqal, qaş birər-birər.

ARASINDADIR

O cavan oğlum ki, çıxdı əlimdən,
Görən hansı dağın arasındadır.
Gözlərim hər zaman axtarır onu,
Deyirəm cavanlar sırasındadır.

Necoldu o yazıq, necoldu getdi,
Yəqin cavanlıqda puç oldu getdi.
Qürbətlik boynunda suç oldu getdi,
Yeri ürəyimin parasındadır.

Adı Xurşud, özü aşıq balası,
Silinməz ürəkdən qəmli qarası,
Ey yazıq İsgəndər, yanan çırası
İndi də torpağın arasındadır.

“QURDOĞLU”

Bir qədim havadır, qalıb nə vaxtdan,
Səma qurdu kimi ölməz “Qurdoğlu”
Torpaq həvəslidi, çox yurdcanlıdır,
Yad yerdə əylənməz, qalmaz “Qurdoğlu”.

Hopub ürəklərə, hopub nur kimi,
Möcüzə sayağı sehr, sirr kimi.
Hava-havacatdan birdi pir kimi,
Hər aşıq bacarıb çalmaz “Qurdoğlu”.

Məclisə, şənliyə qoyanda ayaq,
Aşıq Şenlik, Nəsib pək usta sayaq.
Onlar baş aşıqdı, İsgəndər ayaq,
Hər səsi, avazı almaz “Qurdoğlu”.

OLAR

Qurban bayramında ağ erkək gərək
Gözü-dizi qara ola, xoş olar.
Qazan asmalıdı ev qadınları,
Tüstüsü tütməyən çox naxoş olar.

Kasıblar yığılar alar bir dana,
Paylarını bölər qoyar bir yana,
Qurbanlıq tikəsi faydalı cana,
Adamlar söhbətə-sözə tuş olar.

İsmayıl qurbanı qalıbdı çoxdan,
İsgəndər, əzəli gəlibdi haqdan.
Şənlikdi indilər aranda, dağda,
Könül havalanar, uçan quş olar.

ÇİRKİN

Burnun dimdik kimi, ağzın əyridi,
Sular sonasısan, ay qara çirkin.
Saçın at yalıdı, gözlərin domba,
Layiqsən əlbət ki, ağyara çirkin.

Evdə hökmün keçir, asan-kəsən sən,
Qapılar dolanan, yel tək əsən sən.
Mənə tənə vuran, dodaq büzən sən,
Bulaqbaşı hara, sən hara, çirkin.

Adım İsgəndərdi, sözə qulaq as.
Kirli paltarını götür suya bas.
İstər lateyir de, istər küyə bas,
Çəkdim sözlə səni mən dara, çirkin.

GÖRƏNDƏ

Tərifləmə, əzizləmə, ay arvad,
Qucağımı şeylə dolu görəndə.
Boş danışıb baş-beynimi aparma,
Lal ol, dinmə sağı-solu görəndə.

Məhəbbətin pul gələndə çox olur,
İki-üç gün gözün-könlün tək olur,
Həftə gəlir şirin dilin ox olur,
Ağlın çaşır düzgün yolu görəndə.

Arvad olan qapı gəzər, küllənər?
Külək əsər, ətəklərin yellənər.
Cöngə kimi gözün çıxar kəllənə
Yuvalaxla çoxlu pulu görəndə.

Dəliliyə ara verib söz eşit,
Haqqı tanı, həqiqəti düz eşit.
Ondan-bundan qeybətimi yüz eşit,
Tərpətməynən qıçı-qolu, görəndə.

Ağbabanın yenə gəldi baharı,
Gedibdimi söylə qəlbin qübarı?
Padişahsan bizim evdə, gül barı,
İsgəndər tək qara qulu görəndə.

MƏNİM

Canım sənə qurban Saraclı Söyün,
Aşıqlar içində qardaşım mənim.
Çoxu mən görürəm üzdə "dost" deyir,
Etibarlı dostum, sirdaşım mənim.

Borçalıdan enib gəl Ağbabaya,
Çal-çağır yayılsın elə-obaya.
Bu uca dağlara, təmiz havaya
Qılaq bir tamaşa, yoldaşım mənim.

Özünü usta san, sirli aşıq san,
İsgəndər bilir ki, dədə aşıqsan,
Qaranlıq qəlblərə nursan, işıqsan,
Bir elin oğluyuq, yurddaşım mənim.

GƏLMƏDİ

Qaçqınlıq təpəmdən döydü mənim də,
Heç kəs mənim kimi dizə gəlmədi.
Dedim car eləyim elə dərdimi,
Dərdim artdı – artdı sözə gəlmədi.

Sazım dilə gəldi, dindi qəm üstə,
Endim ucalardan, endim qəm üstə.
Dağlardan Şəmkirə döndüm qəm üstə,
Şadlıq yoxa çıxdı, üzə gəlmədi.

Ölsəm nə mən vardım, nə həsrət vardı,
Ölüm çoxlarını tapdı apardı,
Elimdən-obamdan çəkdi qopardı,
Bu Aşıq İsgəndər gözə gəlmədi?!

AĞBABA

Yağar yağışların, qalxar dumanın,
Tökülər çaylara selin, Ağbaba.
Necə vaxtsız soldu çayır-çəmənin,
De kimlərə qaldı çölün, Ağbaba.

Yusifin məskanı bəllidir səndə,
Bülbüllər ötərdi şehli çəməndə,
Dərdin dağa döndü qaldı sinəmdə,
Necoldu açılan gülün, Ağbaba.

Aşıq İsgəndər də səndə ucaldı,
Eşqi maraq verdi, sazını çaldı.
Axırda vətənsiz – didərgin qaldı
Kimlərdən soruşum halın, Ağbaba.

VƏTƏNİM

Bir də gəlib səni görə bilmərik
Ey ana torpağım, gözəl vətənim.
Bu keçən dövranı sürə bilmərik
Ey ana torpağım, gözəl vətənim.

Çox dolandım torpağında, daşında
Gözüm qaldı soyuq bulaq başında
Ötdü ömrüm-gününm altmış yaşında
Ey ana torpağım, gözəl vətənim.

Dayanır ürəyim, kor olur gözüm...
Ağlımdan çıxarmı baharın-yazın.
İsgəndər sənsizdir, mən necə dözüm
Ey ana torpağım, gözəl vətənim!

QANADI

Əldən çıxdı yurdum, elim dağıldı,
Yaralarım göz-göz oldu, qanadı.
Qoca qartal bir də uça bilərmi,
Bir güllədən qəfil sınsa qanadı.

Kömək elə, çat dadıma, ay ağa,
Ya da bükdür tez kəfənə, ya ağa.
Ağ verməyin mənim kimi ya ağa,
Kəsik olar qaçqının bir qanadı.

Ay İsgəndər son gününə bez ara,
Ölüm yeydi sən tək qəmdən bezara.
Əcəlini, yaşamaqdan bez, ara
İtirmisən qan hörməti, qan adı.

YAŞA BAX

Zülüm ilə ayırdılar yuvamdan,
Gözlərimdən axıb gedən yaşa bax.
Dəli könül, bundan sonra vətənsiz,
Son gününə, axırına yaşa bax.

Arı olan çiçəklərdən bal alı,
Əzəl gündən başım olub balalı.
Köç üstündə ata-ana balalı
Korğun-korğun yanan quru-yaşa bax.

Lap poladdan olsa ərdə qədd əyər[1],
El möhnəti, yurd həsrəti qədd əyər.
Fələk səni qələm kimi qəddəyər,
Ay İsgəndər keçib gedir yaşa bax.

[1] Əyər – əgər

MİNDİLƏR

Tayım-tuşum vədəsində, yerində,
Ölüm adlı bir karvana mindilər.
Aralandım Ağbabadan, elimdən,
Yazıq canım qəfil ölüm min dilər.

Gözüm dalda o dağdadı, daşdadı,
Fələk məni daşa tutuf daşdadı,
Ötən günlər ürəyimdə daşladı,
Lal olubdu ha tutalar min dilə.

Belə vaxtda çataçaqmı dada nan,
Yadlaşarmı doğmalığa dadanan.
İsgəndər tək vətənindən dad anan,
Dünyasını dəyişənlər mindilər.

KİMİ

Adı kimi, özü heştad,
Özün bilir kələ kimi.
Bir arvadın əlindəcə,
Qalıb yazıq kölə kimi.
Hoppanıb ağaca çıxar,
İmkan olsa dələ kimi.
Düşübdü arvad felinə –
Arvad feli qələ kimi.

Dəlidi, bir "pıqq" eləsən,
Qəflətən dəyişər halı,
Nazikboğaz, quğ kimidi...
Allahın bir lalı-malı,
Qanmazdı, ona görə də,
Kəsmək bilməz qeyri-qalı.
Nadanlıqda tayı yoxdu,
Qulaqları pələ kimi.

Özü çox uzaq kənddəndi,
Adını çəkmirəm onun.
Dədə kimi, yaşlı kimi,
Qulağın bükmürəm onun,
İsgəndərəm palanının
İçini sökmürəm onun,
Deyirəm ki, olsun adam
Xasiyyəti pilə kimi.

YANDIRIR

Ey, ilahi, dərdə düşdüm,
Oğul dərdi yandırır,
Namərdin vurduğu yara,
Bir comərdi yandırır;

Gül əndamı, sağlam canı,
Yerə verdi... yandırır;
Xurşud dünyada bir idi,
Odu mərdi yandırır.

Bənək-bənək yara oldu,
Yandı ciyər, neyləyim;
Ərzi halım başa düşər,
Qanan duyar, neyləyim;
Yaslı könlüm "Qəribiyə",
Əlbət uyar, neyləyim;
Qırdı tər qönçə gülünü,
Fələk dərdi, yandırır.

Oğul getdi, ay İsgəndər,
Neçə sənə qocaldım;
Dərd şahıyam taxt üstündə,
Qəmdən başa tac aldım;
Kədər ilə zənginləşdim,
Hicran ilə hac oldum;
Öləsi deyildi balam,
Ayrı ərdi, yandırır...

GƏLİN

Səni gördüm ağlım itdi,
Ay başı dingəli gəlin.
İnsaf elə üzümə bax,
Ay yanı yengəli gəlin.
Bax, ölərəm həsrətindən,
Yollarım döngəli, gəlin.
Varlı-hallı bir evdəsən,
Gəl qabağa qulluq elə,
Çıxartma əngəli, gəlin.

Ala gözün can alandı,
Sinən dağların qarıdı,
Ayrı cürə sallanırsan,
Gülüşün dünya varıdı,
Görənlər baş əyir sənə,
Deyirlər kimin yarıdı.
Zülfün elə qıvrılıbdı,
Sanki çöllərin marıdı,
Bir surfa sal, gətir bəri,
Qaşığı, çəngəli gəlin.

Ağ biləyi bir çırmala,
Xəmiri yay, sonra da kəs.
Qazanı as, suyu qaynat,
Baxanlar eləsin həvəs,
İsgəndər tərifin dedi,
Bizlərə qulluğa tələs.
Sənsiz saray da heç nədi,
Ağ otaq da quru qəfəs.
Gətir xəngəli, gəlin.

BALA

Aşıqlıq, mərifət kamal,
Ölçülmür bədənlə, bala
Sənə başqa söz deyərdim,
Bərk dostuq dədənlə, bala.
Saz çalıb söz deyə bilməz,
Heyvərə gödənlə, bala.
Odur bir az ehtiyat et,
Fəxr etmə mədənlə, bala.
Dediyimə bir qulaq as,
Sözlərimi dənlə, bala.

Qızsam ac qurda dönərəm,
Mələyərsən quzu kimi.
Qabağımda mal olarsan,
Qızararsan pazı kimi,
Bir sorğu-sual eylərəm,
Haqqı kəsən qazı kimi,
Xataya salma özünü,
Elin ağlıazı kimi.
Azıb yollarda qalarsan,
İşin yoxdu çənlə, bala.

İsgəndərəm, sinəm mədən,
Xas sözləri seçən mənəm.
El-obadan, dağdan ötrü,
Şirin candan keçən mənəm.
Aşıqlığın badəsini,
Haqdan alıb içən mənəm,
Tanı özünü, bir tanı.
Eldən-elə keçən mənəm.
Bu da ki, bir maşqulatdı,
Etdim burda sənlə, bala.

DEYİR

İki ildə urus olub,
Nənəyə babuşka deyir.
Halaldı bizim cavana,
Kündələrə kuşka deyir.
Unudubdu “qaz” sözünü,
Qazlara induşka deyir.
“Köynək” çıxıbdı yadından,
Ona da rubaşka deyir.
Parç istəmir su içəndə,
Fincana da çaşka deyir.

İçir araqdan məst olur,
Zarıldayır piyan kimi,
İki butulka içəndə,
Olur bir az doyan kimi.
Sıpıxır, girir daldaya
Kəm-kəsirin duyan kimi,
Elə bil qəfil ayılır,
Mürgüləyən, uyan kimi,
Pulu görcək yaman seçir,
Dəstəsinə paçka deyir.

İsgəndərəm görməmişəm,
Belə “ağıllı” cavanı.
Tayı yoxdu, tapammaram,
Olsa, urusun İvanı...
Sən demə, çox yayılıbmış,
Bu balanın adı-sanı.
Ata-anası sevinsin,
Yaxşı bilir uruscanı,
Kimə Vitya, kimə Vaska,
Kimiyə də Yaşka deyir.

I VƏ II CİLDLƏRDƏ İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

1. El aşıqları (toplayanı V.Xuluflu), Bakı, Azərbaycanı öyrənən cəmiyyət, 1927).
2. Salman Mümtaz. Azərbaycan ədəbiyyatı. El şairləri, I və II cildlər, Bakı, Azərnəşr, 1927–1928.
3. Əli Abbas Müznib. Aşıq Pəri və müasirləri, Bakı, Azərnəşr, 1928.
4. Azərbaycan el ədəbiyyatı (toplayanı H.Əlizadə), I hissə, Bakı, Azərnəşr, 1929.
5. Azərbaycan aşıqları (toplayanı H.Əlizadə), II cild, Bakı, Azərnəşr, 1930.
6. El şairləri (toplayanı S.Mümtaz), I və II hissələr, Bakı, Azərnəşr, 1935.
7. Aşıqlar (toplayanı H.Əlizadə), I cild, Bakı, Azərnəşr, 1935.
8. Aşıqlar (toplayanı H.Əlizadə), II cild, Bakı, Azərnəşr, 1936.
9. Aşıqlar (toplayanı H.Əlizadə), ikinci çapı, I və II hissələr, Bakı, Azərnəşr, 1937–1938.
10. Aşıq qoşmaları (toplayanı H.Əlizadə), Bakı, Azərnəşr, 1938.
11. Aşıqlar (tərtib edəni S.Axundov), Bakı, Birləşmiş nəşriyyat, 1957.
12. Telli saz ustadları (tərtib edəni Ə.Axundov), Bakı, Azərnəşr, 1964.
13. Aşıq Valeh. Alçaqlı ucalı dağlar (toplayıb tərtib edənlər F.Mehdi, X.Mirzəyev), Bakı, Gənclik, 1970.
14. Qurbani (tərtib edəni A.Dadaşzadə), Bakı, Gənclik, 1972.
15. Abbas Tufarqanlı (tərtib edəni A.Dadaşzadə), Bakı, Gənclik, 1973.
16. Xəstə Qasım (toplayanı və tərtib edəni S.Paşayev), Bakı, Gənclik, 1975.
17. Aşıq Alı (tərtib edəni H.Hüseynzadə), Bakı, Azərnəşr, 1975.
18. Mücrim Kərim Vardani. Sünbülüstan (tərtib edəni Ə.Cəfərzadə), Bakı, Gənclik, 1978.
19. Aşıq Qurban Ağdabanlı. Möhnət (tərtib edənlər Q.Şəmşiroğlu, M.Aslan), Bakı, Gənclik, 1972.
20. Abdulla Padarlı (toplayanı Ə.Cəfərzadə), Bakı, Gənclik, 1979.

21. Usta Abdulla. Şeirlər (tərtib edəni R.Mehdiyev), Bakı, Gənclik, 1976.
22. Aşıq Hüseyn Bozalqanlı. Şeirlər (tərtib edəni Ş.Rza), Bakı, Gənclik, 1973.
23. Xəyyat Mirzə (toplayanı və tərtib edəni R.Rüstəmzadə), Bakı, Gənclik, 1973.
24. Aşıq Şəmşir. Dağ havası, Bakı, Gənclik, 1978.
25. Əlimərdanlı Aşıq Nəcəf. Şeirlər (toplayanı və tərtib edəni R.Rüstəmzadə), Bakı, Gənclik, 1979.
26. Aşıq Hüseyn Cavan. Bahar kimi, Bakı, Yazıçı, 1979.
27. Aşıq Pənah. Saz və söz, Bakı, Azərnəşr, 1963.
28. Aşıq İmran Həsənov. Vurğunuyam sənətimin, Bakı, Yazıçı, 1981.
29. Aşıq Əkbər Cəfərov. Saz danışanda, Bakı, Yazıçı, 1982.
30. Azərbaycan aşıqları və el şairləri. İki cilddə, I və II cildlər (tərtib edəni Ə.Axundov, ön sözün müəllifi İ.Abbasov), Bakı, Elm, 1983-1984.
31. Bəhmən Göyçəli. Küsmə məndən (toplayanı və tərtib edəni Q.Bəhmənoğlu), Bakı, Elm, 1994.
32. Sazlı-sözlü Göyçə. Bakı, Azərnəşr, 1999.
33. Molla Cuma. Şeirlər (toplayanı və tərtib edəni P.Əfəndiyev), Bakı, Azərnəşr, 1966.
34. Aşıq Bilal. İlk baharım, gəl görüm (toplayanı və tərtib edəni M.Mürsəlov), Bakı, Yazıçı, 1982.
35. Əmir Əli və Ehraqlı Rəcəb. Şeirlər (toplayanı M.Yarəhmədov), Bakı, Gənclik, 1980.
36. Aşıq Bəsti. Lalə (toplayanı və tərtib edəni S.Paşayev), Bakı, Gənclik, 1969.
37. Sarı Aşıq. Seçmə bayatılar (tərtib edəni H.Kürdoğlu), Bakı, Sabah, 1993.
38. Miskin Abdal (toplayanı və tərtib edəni H.İsmayılov), Bakı, Səda, 2001.
39. Lələ. Yaranmışam daşdan mən (tərtib edəni və ön sözün müəllifi İ.Abbaslı), Bakı, Gənclik, 1995.
40. Öləsgər ocağı. Şeirlər (toplayanı və tərtib edəni İ.Öləsgər), Bakı, Yazıçı, 1991.
41. Aşıq Əsəd. Seçilmiş əsərləri (toplayıb tərtib edənlər B.Abdullayev, R.Xəlilov), Bakı, Elm, 1979.

42. Aşıq Ələsgər. İki kitabda, I və II kitablar (toplayanı İ.Ələsgərov, tərtib edənləri Ə.Axundov, M.H.Təhmasib), Bakı, Elm, 1972.
43. Sazım, sözüm (tərtib edəni M.Şükür), Bakı, Yazıçı, 1978.
44. Göyçəli Aşıq Nəcəf (toplayıb tərtib edəni İ.Ələsgər), Bakı, Səda, 2000.
45. Aşıq İsgəndər Ağbabalı. Ayırdılar Ağbabadan (toplayanı və tərtib edəni T.Səmimi), Bakı, Ozan, 1998.
46. H.İsmayılov. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları, Bakı, Elm, 2002.

MÜNDƏRİCAT

AŞIQ ƏLƏSGƏR

Gəraylılar

Xoş gəldin 4
Yeridi 4
Gözəl 5
Maral 6
Ceyran 7

Qoşmalar

Eyləmişəm 7
Qoymadı 8
Yaraşır 8
Yaxşıdı 9
Əvəzdi 9
Zülflərin 10
Yavaş get 10
Varıymış 11
Dəyməmiş 11
Yaman at 12
Yetmədi 12
Dağlar 13
Düşərsən 14
Düşmüşəm 14
Gərəkdi 15
Görmədim 16
Hayıfsan 16
Sarıköynək 17
İtibdi 18
Mənim 18
Olacaqdı 19

Təcnislər

Ay sinə, sinə 20
A yara məndən 20
A yəməndədi 21
Sayılam məni 21
Sini-sin 22
Ha bular, bular 22
Ha lala çıxar 23
A yüzə tək-tək 23
Biri "sin" 24
Bu dala bax, bax! 24
De bir üz, bir üz 25
Nəs ağı belə 25
Ayağa qarqar 26
Ay ana, ana! 26
Ay üzə, üzə 27
Yara yetirər 27
Narın üz 28
Həmayil eylə 29

Divanilər

Yüküm 29
Gözlə sən 30
Verir 30
Yetər 31
Dünyada 32

Müxəmməslər

Baxın 32
Gözələ 34
Gəlin 34

AŞIQ MUSA

Gəraylılar

Bir gün 36
Kəklik 36
Telli sazın 37

Qoşmalar

Gülə-gülə 37
Köynəkcək 38
İndi 38
Dilbər 39
Biri yaz 39

Var 40
Dilim 40
Olmaz 41
Ağ ola 41

Təcnislər
Ağlar 42
Mənnən 43
Ay üzə-üzə 43
Əyər-əyər 44

Müxəmməslər
Ay fələk 44
Samavar 45
Maral! 46
Pəri! 47

BAĞBAN MƏHƏMMƏD
Qoşmalar
Oynasın 48
Nədi 48
Gözəl 49
Sədəf 50
Necoldu 51

DOLLU MUSTAFA
Gəraylılar
Sənəm səni 52
Ağrın alım 52
Gəlin 53
Qadan alım 54
Qaldırın 55

Qoşmalar
Qayıt indi 56
Yazılı 56
Qız olar 57

Qıfılbənd sual-cavab
Hey! 58

Müxəmməs
Qazı 60

AŞIQ RƏCƏB
Gəraylılar
Bülbül 62
Yaxşı 62

Qoşmalar
Müştaq olmuşam 63
Belə 63
Ayrılsın 64
Olur 64
Sevgilim 65
Mən 65

AŞIQ QURBAN
Gəraylılar
Dolana-dolana 66
Arasında 66
Könlüm 67

Qoşmalar
İndən belə 67
Alıbdı 68
Yoxdu, yox 68
Çətindi 69
Görməsin 69
Bir-bir 70
İtirdim 70
Qayıtdı 71
Bal qaymağınan 71
Ürəyim 72
Gözəl 72
Bilməm 73
Nədəndir 74
Bəs ağlamazmı? 74
Yaxşıdı 75
Vaxtı 75
Olmaz 76
Mən 76

Gözlər 77
Qoşa-qoşa 77
Var 78

Təcnis
Məni 78

Divani
Gedər 79

AŞIQ MEHDİ

Gəraylı
Sənsiz 80

Qoşmalar
Ola 80
Ağlaram 81
Gedirsən 81
Di danış 82

MOLLA CUMA

Gəraylılar
Qabağında 83
Zülfün 83

Qoşmalar
Peşkəşdir 84
Demişəm 84
Didarına 85
Bu yerlər 86
Kimdir? 86

Divani
Küsmüşəm 87

Müxəmməs
Bəs nədir? 87

ZODLU USTA ABDULLA

Gəraylılar
Gəlirəm mən 89
Var deməkdi 89
Yeri 90
Neynim? 91
Layıqdımı? 91
Arasında 92
Dilbər 92

Qoşmalar
Təki 93
Qayıtdı 94
Olan varmı? 94
Mənəm 95
Nişanası 96
Eyləsin 96
Gülə-gülə 97
Zülflərin 98
Yavaş-yavaş 98
Xanım 99
Ağlama 99
Bilə 100
Yol kənarında 100
Qarışar 101
Yavaş-yavaş 101

Təcnislər
Yad ağı gəzər 102
A yağı zülfün 102
Sin əsər 103
Yarağını sən 103
Niyazdı 104
Dəydi 104
Yüz dərədə 105
Yarala məni 105
Sayad əmməni 106
Hasini 106
Yay indi 107
Oyanam indi 107
A yazı belə 108

ÇOBAN ƏFQAN

Gəraylılar
Xoş gəlmisən 109

Belə olmaz 109
Görməsin 110
Ayrıldım 110
Namə gəlibdir 111
Gəlib-gedir 111
İnciməzmi?! 112
Ey fələk 112
Danışaq 113
Nədir? 113
Görünmür 114
Kimindir? 114
Sənsən 115
Yaradan səni 115
Yandırır 116
Məna nə? 116
Ağlaram 117
Dağların 117
Kimindir? 118
Belə bax 118
Saraltdın məni 119

GÖYÇƏLİ ŞAİR MƏHƏMMƏD
Gəraylı
Saldın 120

Qoşmalar
Qalım mən 120
Dəyər sana 121
Eyləyim 121
Ağlasın 122
İnsan 122
Sənəm, sənəm 123

ŞİRVANLI AŞIQ BİLAL
Gəraylılar
Kəklik 124
Öldürdü 124
Var 125

Qoşmalar
Sevgilim 125
Gəlginən 126
Neyləsin 127
Günahı 127
Bu dağı 128

AŞIQ PƏNAH SEYFƏLİ
Gəraylılar
Gələcəkdi 129
Canım 129

Qoşmalar
Qoşqar! 130
Eylər 131

Müxəmməs
Oynayır 131

AŞIQ HÜSEYN BOZALQANLI
Gəraylılar
Geyindi 133
Başına dolandığım 133

Qoşmalar
Bu gün 134
Yaxşı sat 134
Yaxşıdır 135
Çəkməsin 135
Üzün bürümə 136
Lalə 137
Oynamasın 137
Düşmüşəm 138
Olmaz 138

Təcnislər
Ya dəyə 139
Ay ata-ata 139
Ola 140

AŞIQ ƏSƏD
Gəraylılar
Kimdən öyrəndin? 142
Yol üstündə duran gözəl 142

Qoşmalar
Gəlincə 143
"On il qulluq etdim..." 143
Sən məni 144
Yadıma düşdü 145

Təcnislər
Dürüst olmamış 146
Nə qara səni 146

Divanilər
Eyləməz 147
Olmasa 147
Ağrın alım 149
Xırdaca qız 150

ŞAİR NƏBİ BORÇALI

Qoşmalar
Bilmədi 153
Gözəl 153
Zöhrə 154
Gözəlin 154
Var bunun 155
Gül, ondan ağla 155
Yaş da dayanmaz 156
Butasan, gözəl 156
Addım-addım 157
Yar gəldi keçdi 157

XƏYYAT MİRZƏ

Qoşmalar
Gözəl qız 158
Gözlər 158
Deyə-deyə 159
Yoxdur 159
Gəlməsin 160
Kimin yarıdı? 160
Şirin-şirin 161
Var 161
İncidir 162
Olsun 162
Məni 163
Qızla gəlinin bəhsi 163
Ellər ağladı 165
Dolanır 165
Mənim 166
Gözəllər 166
Dayandı 167

Təcnislər
Məni 168
Sərindi 168
Yazı qəm məni 169
Bağladım 169

Müxəmməs
Gözəl 170

MİSKİN ƏLİ

Gəraylılar
Alma, aman 171
Yaxanı düymələmə 172
Müştağam 173
Bənövşə 174
Qurban olum 175
Zülfü 176

Qoşmalar
Gəlmədin 177
Səhraya 178
Danışaq sənlə 178
Görəydim 179
Görmüşəm 180
Taylı-tayını 181
Gündüz 181
Olmasın 182
Dağ maralı 183
Gözəl 184

Deyişmə 184

AŞIQ MİRZƏ

Gəraylılar

Bakı 188

Qoşmalar

Gözəllər 189
Yurdum 189
Azərbaycan 190
Sən də gül 190
Bizə 191
Ay tənbəl 192
Söyləyim 193
Yadıma düşdü 194

Müxəmməslər

Bu qız 194
Oğul! 195
Səni 196

SARI VƏLİ

Gəraylı

Yavaş get 197

Qoşmalar

Gəlsin 197
Gəlmişəm 198
Olar 198
Məni 199
Mərhəmət eylər 199
Gəzərsən 200
Gərəkdi 200
Yeridi 201
Eylər 201
Yetirrəm 202
Dilbər! 203
Ara məni 203
Ayrılıb 204
Nə dedi? 204
Dağlar 205
Söylər 205
Gözləyər 206
Canım 206
Yollara doğru 207
Bükülmüş 207
Bu gün 208
Məni 208

Təcnis

Ay yara 209

Müxəmməs

Şirin 209

Divani

Bayram günləri 211

AŞIQ ŞƏMŞİR

Bayatılar 212

Gəraylılar

Dağların 213
Yalvara-yalvara 214

Qoşmalar

Dağlara 215
Bildi 216
Gəl 216
Bənövşə 217
Dönüb 218
Aşiqəm 219
Dəyər 220
Gözlərin 220
Şairin 221
Demişlər 221
Desəm olmaz 222
Yaraşmaz 223
Demək olmaz 223
Görmüşəm 224
Dəyməz 225
Az danış 226

Dura bilməz 226
Yadıma düşdü 226
Kimi 227
Ceyran 228
Qara gözlərin 228
A zalım gözəl 229

ŞEYDA ƏZİZ

Gəraylılar

Papiros 230

Qoşmalar

Ceyran 231
Gözəl-gözəl 231
Güllər açılır 232
Bənövşə 232
Gördüm 233
Ellər oyanır 233
Tənbəl 234

AŞIQ HÜSEYN MAYIL

Gəraylılar

Bax bəri 235
Amandı 235
Qaşı qara 236
Zöhrə 237
Gözləri 238
Canan gəldi 238
Güllünün 239
Tellərin 240

Qoşmalar

Bizə gəldi 241
Gəlmişəm 241
Oduna yandım 242
Sənin 242
Qaşları qara 243
Getdi 243
Gedirsən 244
Görəydim 244
Nə gözəl 245
Qalıb 245
Yolundan 246
Görünür 247
Neyləyim? 247
Gəlibdir 248
Tənbəl 249
Ellər içində 249
Nə gözəl-gözəl 250
Sarı qız 251
Bəxtəvər 252
Görəndə 252
Gəlin 253
Gülbəsti 253
Mehman gəlibdir 254

Müxəmməslər

Xırdaca qız 255
Yaraşır 257

XINDI MƏMMƏD

Gəraylılar

Bənövşə 258
Məcnun 258

Qoşmalar

Çəkməsin 259
Çəkər 259
Olmasa 260
Gözəldir 260
Var 261

AŞIQ MİSKİNLİ

Gəraylılar

Bizimdi 262
Bala ceyran 263
Olarmı? 263
Mən 264
Ağlama 265

Qoşmalar
Gəncənin 265
Yaxşı olar 267
Saxlamaz 267
Səbirsiz 268
Olacaqmı? 268
Utanmaz 269
Məni! 270
Yadıma düşdü 270
Pəh-pəh 21
Oğula nəsihət 272
Ağlaram 273

AŞIQ BƏHMƏN GÖYÇƏLİ
Qoşmalar
Gözlərin 274
A dağlar 274
Yadıma düşdü 275
Sana qurban 275
Keçib gedər 276
Vədəsində 277
Vücudnamə 278

Təcnislər
A yara məni 280
Bu dağlar 281

NOVRƏS İMAN
Qoşmalar
Dağlar! 282
Olmaz 282
Gözəldir 283
On yeddi 284
Gözəl qız! 284
Səni 285

Təcnislər
İndi 285
Sənəm al 286
Gedəm 286

TEYMUR BİSAVAD
Gəraylılar
Dağlar 288
Arasından 288
Qoşmalar
Gəzir 289
Mən də 289
Göy göl 290
Var 290
A dostum 291

AŞIQ NƏCƏF ƏLİMƏRDANLI
Gəraylılar
Olmazmı? 292
Oyanmaz 292
Ayrıldı 293
Ceyran 293
Yar gəlmir 294

Qoşmalar
Zülfün 294
Qadasın aldığım 295
Durnalar 295
Deyirlər 296
Gəlhagəlidi 296
Eylə 297
Yanağındadı 297
Təzə-təzə 298
Görünür 298
Üzdən-üzdən 299
Gözəllər 299
Çəkməyə 300

Təcnis
Ay gözəl, gözəl 300

Divani
Üstədir 301

Müxəmməslər
Ağrın alım 302
Gözəl 303

AŞIQ ƏMRAH GÜLMƏMMƏDOV
Gəraylılar
Bu dağlarda 304
Dağlar 304
Gətirir 305

Qoşmalar
Görəndə 305
Bilməzsən 305
Kəsildi 306

Divanilər
Gəl görüm 307
Olmasa 307
Bu sazdı 308
Məndədi 308

AŞIQ HÜSEYN CAVAN
Bayatılar 309

Gəraylılar
Yar necoldu? 310
Var olsun ellərin sənin 311
Ağrın alım 311
Eylər 312
De, dağların bu çağından 313
Dağlar 314

Qoşmalar
Məhəbbət 315
Oğul 315
Dünyada 316
Var 317
Yar üzmə, üzmə 318
Çiçəkdən də gözəlsən 318
Gözəl 319
Çətindir 319
Gülərmiş 320
Əmanəti 321
Şirindir 321
"Qumral gözlərinin..." 322
Bəxtəvər 322
Baxdı tərsinə 323
Nakam ölmərəm 324
Olmasa 325
Bilməmişəm 325
Aşıqların atasıdır Ələsgər 326
Söz qiymətlidir 327
İnanma 327
Hünər qalası 328
Arasında 328

Təcnislər
Min aya billəm 329
Çal, a çal 330
Üzə bilməz 330

AŞIQ HÜSEYN SARACLI
Gəraylılar
Yavaş get 332
Gülbəniz 332
Qocalığım 333
Dədə Şəmşir 333

Qoşmalar
Bax-bax 334
Gərək 334
Eyləyər 335
Sayır 335
Dünyada 336

AŞIQ MİKAYIL AZAFLI
Gəraylılar
Qurban olum 337
Olmaya 337
Gərək 338

Qoşmalar
Deyirlər 338
Qardaş 339

Ana 339
Ata 340
Nə sevgi 340
Zövq ala bilməz 341
Şirindi 341
Yaralar 342
Çəkər 342
Amandır 343
Ələsgər 343
Qana dönməsin 344
Gözlərim 345
Elsiz olmasın 346

AŞIQ ƏHMƏD

Gəraylılar

Telləri 347
Ala gözlərin! 347
Məndən soruşdu 348
Keçdi 349
Yaraşsın 349

AŞIQ ŞAKİR

Qoşmalar

Bizimdir 350
Sən də gül 351

AŞIQ PƏNAH

Gəraylılar

Kürüm 352
Sevinər 353
Dolana-dolana 353
İnciyər 354
Gəzə-gəzə 355
Telli sazım! 355
Uşaqlar 356
Mehdi! 357
Əbədidir sənətin 358
Məndən xəbər al 359
Yaxşıdır 360
Sənin 361

AŞIQ KAMANDAR ƏFƏNDİYEV

Gəraylılar

Səni 362
Qaldı 362
Keçibdi 363
Mənim 363
Gətirər 364

Qoşmalar

Yamanlığa uymadım 364
Ay lələ 365
Ağlamazmı?! 366
Səmti-səmtinə 366
Azərbaycan 367
Gördüm 368
Sənətim 368
Dünya 369

AŞIQ İMRAN

Gəraylılar

Dalınca 370
Biri qanar, biri qanmaz 370
Əlamətdir 371
Gələ 371

Qoşmalar

Soruş 372
Dağlar 372
Olmasın 373
Dələduz 374
Gəldim 374
Bir muraz oldu 375
Yaranıb 375
Bağlıyam 376
Gözəl 376
Əzizim 377

AŞIQ ƏKBƏR

Gəraylılar

Olmasın 378
Sən də, mən də 378

Ağrın alım 379
Dağlar 379
Dağ içində 380

Qoşmalar
Aşıq 380
Gördüm 381
Gəzdi də gəldi 381
Gözəl qız! 382
Oldu 382
Gəzmişəm 383
Kürün 383
İnsan 384
Çoban dağında 384

AŞIQ İSGƏNDƏR AĞBABALI
Bayatılar 385

Gəraylılar
Söyün 387
Ağlayar 388
Başına dolandığım 389
Qasım 389
A qaynana 390
Dağlar 390
Görəmmədim 391
Bu gələn xəvçi, bu gələn 391
Eylədi 392
Arvad 393
Ya rəsul, səndən mədəd 393
Gəldi 394

Qoşmalar
Gördüm 395
Bu yerlər 396
Zöhrə 396
Birər-birər 397
Arasındadır 397
Qurdoğlu 398
Olar 398
Çirkin 399
Görəndə 399
Mənim 400
Gəlmədi 400
Ağbaba 401
Vətənim 401

Təcnislər
Qanadı 402
Yaşa bax 402
Mindilər 403
Kimi 403
Yandırır 404

Müxəmməslər
Gəlin 405
Bala 406
Deyir 407

I və II cildlərdə istifadə
olunmuş mənbələr 408

AZƏRBAYCAN
AŞIQ ŞERİNDƏN
SEÇMƏLƏR

İKİ CİLDDƏ

II CİLD

“ŞƏRQ-QƏRB”

BAKI-2005

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəşad Həmidov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 12.07.2004. Çapa imzalanmışdır 02.02.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 18.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.